Türk ellərindən-12

ƏLİ ŞAMİL

QARAÇAY-MALKARLAR:

yol qeydləri, məqalələr

Bakı-2026

Redaktoru: Vəfa SALEH

Şamil Əli (Şamilov Əli Hüseyn oğlu).
Qaraçay-malkarlar: yol qeydləri, məqalələr
Bakı: "İmza" nəşrlər evi, 2026, 300 s.

Kitaba müəllifin Həsən bəy Zərdabinin xanımı Hənifənin vətəni Quzey Qafqaza gedərkən görüşdüyü insanlardan, onlarla söhbətlərindən və orada yaşayan türksoylu xalqların folklorundan, ədəbiyyatından, müstəmləkəçilərə qarşı mübarizəsindən, eləcə də yazıçı və şairlərindən, ictimai-siyasi xadimlərindən bəhs edən məqalələri daxil edilmişdir.

İSBN 978-9952-37-838-2

© Əli Şamil, 2026

İÇİNDƏKİLƏR

Quzey Qafqaz sovetlərin çöküşündən sonra…...…4
Qaraçay-malkar (balkar) türkləri ədəbiyyatının inkişaf yolu……..……...110
Qafqazın o tərəfində və bu tərəfində: – Axmat Sozayev.....217
Türk dünyasının məşhurları.....244
Appa Janibekov.....245
İslam Kırımşamxalov.....253
İsmail Semenov.....261
Kasbot Koçkarov.....270
Kazım Meçiyev.....278
Kerim Otarov.....286
Umar Aliylani.....294

QUZEY QAFQAZ SOVETLƏRİN ÇÖKÜŞÜNDƏN SONRA[1]

Sovetlər Birliyində geniş sanatoriya və kurort şəbəkəsi yaradılmışdı. Oraya istirahət və müalicəyə getmək istəyənlərə göndərişlər[2] verilirdi. Bu göndərişlərin də pulunun 85 faizinin (bəzən də 100 faizinin) yerli həmkarlar təşkilatları ödəyirdi. Təbliğat da öz işini görürdü. Adamlar kurort və sanatoriyalara, istirahət mərkəzlərinə getməyə həvəslənirdilər. Sanatoriyalar əsasən xəstələrin fizoterapiya müalicəsi üçün yaradılmışdı. Oraya getmək istəyənlər mütləq xəstəliyi haqqında sənəd aparmalı idi. Xəstə olmayanlar da həkimdən saxta bir sənəd alırdı. Bu sənədin saxtamı, doğrumu olduğuna nə sanatoriyalarda çalışanlar ciddi yanaşırdılar, nə də onu verən poliklinikaların həkimləri. Buna görə də hər hansı bir təşkilatda çalışan adam ildə bir dəfə, iki ildən bir göndəriş alıb sanatoriya və kurortlara gedə bilirdi.

---

[1] Kitaba ön söz əvəzi kimi verilmiş bu yazı 2022-ci ildə "Köhlən" nəşriyyatında çap olunmuş "Yol dəftərimdən: Quzey Qafqaz, Ukrayna, Moldova və Güney Koreya" kitabındakı məqalənin ixtisar olunmuş variantıdır.

[2] Sanatoriyaya "putyovka" –yəni göndəriş

Hər il sanatoriyaya gedənlər sırasında xanımım və mən də vardım. Müalicə bir bəhanə idi. İmkandan istifadə edib qədim türk yurdlarını gəzir, oradakı aydınlarla görüşürdük.

Göndərişsiz səfərə çıxanda həm çoxlu problemlərlə üzləşirdik, həm də baha başa gəlirdi. Moskva, Leninqrad[3] kimi böyük şəhərlərdən tutmuş ən kiçik rayon mərkəzində, böyük qəsəbələrdə belə hotel vardı. Lakin orada yer tapıb qalmaq mənim kimiləri üçün çətin idi. Hotel boş olsa belə qeydiyyatçı "yer yoxdur" deyirdi. Elə ki pasportun arasına 10, 25 manat qoyub verirdin, onda "yer tapılırdı". Qanundankənar pul verməyi özümə sığışdırmırdım. Buna görə də hotellərdə yer tapmağım çətin olurdu.

Hotelin dolu olmasının, boş qalmasının işçilərin maaşına təsiri yox idi. Onlar da dolanışıqlarını yaxşılaşdırmaq üçün nə yolla olur-olsun qonaqlardan pul qoparmağa çalışırdılar.

Sanatoriyaya, kurorta göndəriş alanda isə bilirdin ki, pis-yaxşı qalacağın yer də, yemək-içməyin də öncədən hazırlanıb.

[3] Peterburq

Krımdakı, Quzey Qafqazdakı sanatoriyalarda olarkən yerli radio-televiziyaya, qəzet və jurnal redaksiyalarına, nəşriyyatlara gedirdik. Oradan malkar (balkar), qaraçay, noqay, qumuq dillərində kitablar, qəzet-jurnallar gətirir, peşə yoldaşlarımıza, dostlarımıza verir, oxuyub müzakirə edirdik.

Rəsmi statistikada yunan (qrek) yazılanlar, özlərinə urumlu deyirdilər. Sadə urumlular ilə söhbətimiz şirin keçirdi. Həvəslə bayatılar, dastanlardan parçalar, nağıllar, ata sözləri və s. söyləyirdilər. Səslərini yazmağa maqnitafonum, diktafonum olmadığından danışıqları qələmlə kağıza yazmağa çalışırdım.

Türkcə dil açan, məktəbə gedənə kimi əsasən türk dilində danışan, kilsədə keşişin söylədiyini anlamayan bu topluma mənim doğulduğum bölgədə – Göyçədə yaşayan türklər də, ermənilər də urumlular deyirdilər. Gürcülər isə onları berzen adlandırırdı. Səhv etmirəmsə, bu da yeni gələn deməkdir. Xeyirdə-şərdə, ailədə, küçədə-bacada bir-birilə türkcə danışan, yəni ünsiyyət dilləri türkcə olan bu xalqda belə bir fikir formalaşdırılıb ki, onlar tarixin hansı dönəmindəsə yunan dilində danışırlarmış. Osmanlılar Bizansı yendikdən sonra şərt qoyublar

ki, ya dininizi dəyişin, ya da dilinizi. Urumlular da inanclarına sadiq olduqlarından dillərini dəyişiblər.

Urumluların oxumuşları ilə ünsiyyət qurmağımız heç də asan olmurdu. Onların antitürk söhbətlərinə faktlarla cavab verməyə çalışanda qəbul etmək istəmirdilər. "Osmanlı dövlətində yaşayan yunanların hamısı dilini dəyişmədiyi halda siz necə oldu dilinizi dəyişdiniz?" sualını verəndə ciddi və məntiqli cavab vermək əvəzinə əsəbiləşir, 19-20-ci yüzillərdə Rusiyada nəşr edilmiş kitablara istinad edir, məni inandırmağa çalışırdılar. Sultanlarının urumluların dilini dəyişdirməsi haqqında rəsmi bir sənəd, qaynaq da göstərə bilmirdilər.

Osmanlı dövləti İslamı qəbul edənləri ciziyə vergisindən azad etdiyini, dilini dəyişib dinini qoruyanlara isə heç bir güzəşt edilmədiyini dönə-dönə söyləyirdim. "Onda vergidən azad olmaq xatirinə gərək urumlular dinlərini dəyişəydilər, nədən dillərini dəyişiblər?" sualına cavab vermək əvəzinə əsəbiləşirdilər.

Açıq-aşkar görürdüm ki, urumlular da qaqauzlar, çuvaşlar, kreşni tatarlar və başqa toplumlar kimi xristian inanclı türklərdir. Lakin Rusiyanın və Avropa dövlətlərinin apardıqları

uzunmüddətli təbliğat onlarda türklərə qarşı nifrət formalaşdırıb.

Məzuniyyətdən geri döndükdən sonra görüşlərim haqqında dostlarımla, iş yoldaşlarımla fikir mübadiləsi edirdik. Səfər təəssüratlarımı yazanda isə redaksiyalar onu verməkdən imtina edirdi. Belədə, mən də fərqli bir yol seçdim. İşlədiyim "Sovet Naxçıvanı" ("Şərq qapısı") qəzeti ilə SSRİ-dəki muxtar respublikaların qəzetləri arasında səhifə mübadiləsi etməyə başladım. Mən Naxçıvan haqqında məqalələr hazırlayaraq muxtar respublikaların qəzetlərinə göndərirdim, onların da əməkdaşlarından xahiş edirdim, bölgələri, millətləri haqqında məqalələr hazırlayıb bizim redaksiyaya göndərsinlər.

Planlı sosialist idarəetməsi adı altında hər şey mərkəzləşdirilmişdi. Yəni Azərbaycanın hansısa bir kəndində məktəb, mədəniyyət evi tikiləcəyini də, körpü salınacağını da, hətta əkinçinin neçə hektar soğan əkəcəyini də Moskva planlaşdırırdı. Qəzet və jurnalların kənardan almalı olduğu informasiyalar da SİTA (Sovet İttifaqının Teleqraf Agentliyi) və XMA (Xəbərlər Məlumat Agentliyi) deyilən təşkilatlardan göndərilirdi. Yerli mətbuat da onların yazılarına səhifələrində yer ayırmağa borclu idi. Əslində bu yerdəkilərin

də işinə çox yarayırdı. Çünki həmin yazılara senzor nəzarəti lazım gəlmirdi.

Respublikalarda, muxtar respubliklarda, vilayətlərdə, eləcə də rayonlarda çap olunan qəzet-jurnallarının redaktorlarının seyfində bir kitab bərk-bərk qorunub saxlanırdı. Pereçen (senzur qaydaları) adlandırılan bu kitabı yalnız redaktor, redaktor olmayanda onu əvəz edən oxuya bilirdi, yəni redaksiyanın başqa əməkdaşlarına göstərilmirdi. Bununla yanaşı respublikaların, muxtar respublikların, vilayətlərin nəşrlərinə nəzarət edən senzorlar da vardı.

Mənim muxtar resbublikalar və vilayətlərlə birbaşa əlaqə qurmağım isə həm redaktoru maraqlandırır, həm də narahatlıq yaradırdı. Düşünürdü ki, həmin materiallarda birdən senzor nəzarətindən yayınmalar olar. Bu da onun üçün "başağrısı" yaradar.

Quzey Qafqazda yaşayan xalqlarla yanaşı, yakutlar (saka), tatarlar, başqırdlar, altaylar və başqa xalqlar haqqında onların öz jurnalistlərindən informasiya almağımız mərkəzdənqaçmanın ilk qığılcımları idi. Qəribəsi bu idi ki, oxucular da rəsmi agentliklərin göndərdiyindən çox birbaşa alınmış yazıları oxumağa həvəsli idilər.

Yadımda qalan odur ki, Naxçıvan haqqında hazırlayıb Başqırdıstanda və Yakutiyada çap etdirdiyim yazılarla bağlı "Sovet Naxçıvanı" ("Şərq qapısı") qəzetinə 500-dən çox məktub gəlmişdi. Qəzet və jurnala gələn məktubların çoxluğu həmin mətbuatın nüfuzunun yüksəkliyi kimi dəyərləndirilirdi. Naxçıvan kimi ucqar bir bölgədə nəşr edilən qəzetə Rusiyadan bu qədər məktub gəlməsi redaktoru sevindirirdi.

M.S.Qorbaçovun başladığı "perestroyka", "qlasnost" birbaşa əlaqələri genişləndirməyə imkan açsa da, bundan səmərəli istifadə edə bilmədim. Moskvanın Azərbaycan üçün hazırladığı "Dağlıq Qarabağ" problemi oxucuların istəyi ilə jurnalistlərin də diqqətini bu mövzuya yönəltdi. Beləcə, SSRİ-də yaşayan türk xalqları haqqında yazılar vermək, onlarla əlaqələri genişləndirmək arxa plana keçdi. Sərhədlərin açılması da İran, Türkiyə mövzusunu aktuallaşdırdı. Dağıstanda, Quzey Qafqazın başqa bölgələrində yaşayan türk xalqlarının nəşrlərini almaq, onların ictimai-siyasi xadimləri ilə görüşmək də çətinləşdi. Necə deyərlər, proseslər başqa istiqamətə yön aldı. Mən isə zamanın sürəti ilə ayaqlaşa bilmədim.

SSRİ-də yaşayan türk xalqlarının oxumuşları ilə əlaqəni yeni istiqamətdə davam etdirməyə başladım. Onlarla daha çox elmi toplantılarda görüşdüm. Alimlərini Azərbaycanda, Türkiyədə və Avropa ölkələrində keçirilən toplantılara dəvət etdim. Bu işlər də istədiyim kimi getmədi. Onların əksəriyyəti rusdilli olduqlarından türk dilində və Avropa dillərində məruzələr hazırlamağa çətinlik çəkirdilər.

Bütün bu problemlərə baxmayaraq, onlarla müntəzəm əlaqə saxlamağa çalışırdım. Əlaqələrim yaradıcılığıma da təsirsiz ötüşmürdü. "Tanıdığım adamlar", "Uyğur, Qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı" kitablarında, Türkiyə radiosu üçün hazırladığım "Türk dünyasının məşhurları" seriyasından verilişlərdə, eləcə də Azərbaycanda, Qazaxıstanda, Türkiyədə iştirak etdiyim elmi konfranslarda qumuqlardan, qaracaylardan, malkarlardan (balkarlar), noqaylardan geniş söz açırdım.

Ömrümün qürub çağında o yerləri bir daha görmək, oxumuşları ilə görüşmək, söhbətləşmək, mənzərəli yerlərini gəzmək üçün Nalçikdəki sanatoriyalardan birinə getməyi planlaşdırdım. Nalçikdəki tanışlara fikrimi bildirdim. Onlar

bizim üçün “Mayak” sanatoriyasında yer ayırtdırdılar. Biz yolboyu Mahaçqalada, Vladiqafqazda bir neçə gün qalıb, tanışlarla görüşmək məqsədilə sanatoriyada bizə ayrılmış vaxtdan bir neçə gün əvvəl yola düşdük.

Gürcüstan, Azərbaycan və Rusiya gömrük məntəqələrinin fərqi

Rusiyaya gedən qatarların vaqonlarının, avtobusların köhnəliyi və göstərilən xidmətin səviyyəsinin aşağı olması bizi vadar etdi ki, heç olmasa, Mahaçqalayadək taksi ilə gedək. 2017-ci il iyulun 28-də Bakıdan yola çıxdıq. Azərbaycanla Rusiya arasında 4 keçid məntəqəsi açılsa da, yenə tələbatı ödəmir. Adamlar keçid məntəqələrində saatlarla gözləməli olur. Sıxlıq vaxt itkisi yaratmaqla yanaşı keçid məntəqəsində işləyən gömrük işçilərinin gəlir mənbəyinə çevrilib. Onların bilərək növbənin pozulmasına şərait yaratmaları qanıqaraçılıq, əsəbilik yaradır.

Bizi aparan taksi sürücüsü təcrübəli idi. Sərhədə yaxınlaşanda telefonla kimdənsə keçid məntəqələrindəki vəziyyəti öyrəndi. Maşın və adam seyrək olan məntəqədən keçmək ona da sərfəli idi. Çünki axşam Mahaçqalada yatıb

dincəlməli, səhər tezdən müştəri tapıb yenidən Bakıya qayıtmalıydı. Bəzən müştəri tapanda onlar yorğunluqlarını unudub elə həmin gün də Bakıya qayıdırlar.



Əli Şamil Nalçikdəki Sanatoriya şəhərciyindəki süni gölün sahilində

Seyrəklik olan keçid məntəqəsi bizə də sərfəli idi. Oraya gələndə növbədə 4-5 minik maşını vardı. Növbəmiz çatanda Azərbaycan gömrük işçilərinin qoyduqları qaydaya əsasən taksidən endik. Yol çantalarımızı sürüyüb manitor olan otağa getməli olduq. Azərbaycanın quru sərhəd keçidlərinin hamısında belədir. Gürcüstan tərəfin keçidində isə maşından enməyə,

çantalarını sürüyə-sürüyə manitor otağına aparmağa ehtiyac qalmır. Sərhədçilər və gömrük işçiləri bütün əməliyyatları maşında oturduğun yerdə gülərüzlə həyata keçirirlər.

Şükür ki, Azərbaycan gömrüyündə yüklərimizi töküb-töküşdürməyə ehtiyac duymadılar. Manitorda baxmaqla kifayətləndilər. Sərhəd nəzarət-buraxılış məntəqəsində də pasportlarımıza sakitcə möhür vurdular. Daha heç bir çək-çevir, vaxt uzatma, təmənna olmadı. Yenidən çantaları sürüyə-sürüyə aparıb taksinin baqajına yüklədik.

50-60 metr o tərəfdəki Rusiyanın gömrük-keçid məntəqəsində taksidən enməyi, yüklərimizi də özümüzlə yoxlama otağına aparmağı əmr etdilər. Qocalar da, şikəstlər də min bir zülümlə çantalarını dartıb yoxlama otağına apardılar. Manitorun yanında yaşlı bir gömrük məmuru oturmuşdu. Yükümüzü manitora qoymaq istəyəndə o əsəbi və amiranə tərzdə yol çantalarımızı qarşısına qoymağı və ağzını açmağı tələb etdi. Sonra da ayaqlarının arasına aldığı yol çantalarımızın içərisindəkiləri töküb-töküşdürməyə başladı. O, nəyəsə nəzarət edəndən, yoxlayandan çox, paltarları, ayaq-qabıları qurdalamaqdan ləzzət alana oxşayırdı.

Xeyli qurdalandıqdan, səliqə ilə yığılmış paltarları qarışdırdıqdan sonra çantalarımızı götürməyə icazə verdi. Çantalarımızı səliqə-səhmana salmağa azı yarım saat vaxt itirdik.

Qarşısında manitor ola-ola gömrük məmurunun çantaları əl ilə yoxlaması mənə təəccüblü gəldi. Bu, vaxt itkisinə səbəb olur, boş yerə növbələr yaradır. Narazılığımı gömrük məmuruna bildirdikdə əsəbiliklə: "Biz belə tələb edirik, bizi öyrətməyəmi gəlibsiniz?" cavabını aldıq.

Səfərə çıxarkən xanımım paltarlarımı səliqə ilə çantaya yığır. Səfər müddətində isə çirkli paltarları necə gəldi çantaya atıb evə gətirirəm. Geri qayıdacağımızı gözümün qarşısına gətirirəm. Demək, bu gömrük məmuru mənim çirkli alt paltarlarımı da beləcə, özündənrazı halda əlləşdirəcək.

Hər dəfə quru yolla xarici ölkələrə gedib-gələndə Azərbaycan gömrükçülərinin və sərhədçilərinin yoxlama metodu qanımı qaraldır. Düşünürəm ki, nədən böyük xərclər hesabına onları xarici ölkələrə təcrübə mübadiləsinə göndərirlər. Elə beş-on metr o tərəfdəki Gürcüstana göndərsələr, olmazmı? Gürcüstanın sərhəd keçid məntəqələrində adam özünü mədəni

və inkişaf etmiş bir ölkədə hiss edir. Bir sözlə, Gürcüstanla bizim aramızdakı fərq nə qədərdisə, Azərbaycanla Rusiya gömrük yoxlamaları arasında da fərq o qədərdir desəm, yəqin ki, yanılmaram. Ölkənin giriş qapısındaca Azərbaycanın Rusiyadan nə qədər öndə olduğu görünür[4].

Mahaçqaladan Vladiqafqaza yolçuluq

Rusiyanın Güney-Quzey avtomagistralı Dağıstandan keçir. Biz də bu yolla Xasavyurda doğru irəliləyirik. Dünyanı titrədən hərbi gücə malik, kosmosu fəth etmiş bir ölkənin avtomagistralının bərbadlığı bu ölkədə insanın rahatlığının həmişə sonuncu planda olduğunu göstərir. 70-80 kilometr yolu 3 saata gedə bildik.

Avtobus Xasavyurda çatanda yola düşməyimiz haqqında heç bir bilgi almadan yarım saata yaxın gözlədik. Bura bir keçid məntəqəsidir. Quzey Qafqazın bir çox bölgələrindən Rusiyaya gedən avtobuslar buradan keçir. Dağıstana getmək istəyənlər də Rusiyaya gedən avtobuslardan burada enib başqa marşurutlara

[4] Buradan Dağıstanla bağlı yazdıqlarımı ixtisar etdim

minirlər. Normal gözləmə salonu, yeməkxanası, çayxanası olmayan avtodayanacaqda bir saat gözləmək adamın səbrini daraldır.

Çeçenistan sərhəddinə yaxınlaşanda zirehli geyimdə olan hərbçilər avtobusa minib sənədləri yoxladılar. Bəzi adamların çantalarını da baqajdan endirib çək-çevir etdikdən sonra getmələrinə icazə verdilər. Açıq-aydın hiss olunurdu ki, bu yoxlamalar pul qoparmaq üçün bir vasitədir.

Çecenistanda isə vəziyyət tamam başqa idi. Yolu kəsmiş fiziki cəhətdən sayseçmə, zirehli geyimdə, əlində avtomat olan hərbçilər bütün maşınları saxlayır, sənədləri və yükləri yoxlayır, xüsusən, gənc və orta yaşlı kişiləri dəmir vaqonda yerləşən keçid məntəqəsinə yollayırdılar. Yolun kənarındakı qum torbalarından düzəldilmiş səngərlərdə isə pulemyotun arxasında sayıq dayanmış əsgərlər növbə çəkirlər. Yol kənarında bir neçə vaqon ev vardı.

Rusiya Quzey Qafqazda yollarda keçid məntəqələri yaradıb, onları müdafiə qurğuları ilə təmin edib, oradakı hərbçiləri döyüşə hazır vəziyyətə gətirib. Bununla bölgədə sabitlik, dinclik yaratdığını düşünür. Keçid məntəqələrinə yaxınlaşanda sürücülərin sərt tormoz verməsi nəticəsində asfaltda sürtülən təkərlərin səsi, eləcə

də keçid məntəqələrindən çıxan sürücülərin maşınlarını əsəbiliklə yerindən tərpətməsinin doğurduğu səslər burada necə bir gərginlik hökm sürdüyündən xəbər verir. Yalnız yerli əhali deyil, buraya Rusiyanın müxtəlif guşələrindən dincəlməyə və qonaq gələnlərin də sifətlərindən elə bil zəhər yağır. Demək olar ki, səslərini bərkdən çıxarmasalar da, sakit səslə deyinirlər.

Bizi avtobusdan endirdilər. Yüklərimizi və əl çantalarımızı alıb vaqon evlərə getməyimizi əmr edirlər. Azərbaycanla Rusiya arasındakı yoxlamadan sərt bir yoxlama ilə burada rastlaşdıq. Keçid məntəqəsində də yoxlamalar sakit keçmirdi. Bəzilərini yükləri ilə birlikdə başqa vaqon-evlərə aparırdılar.

Bizim soyadımızın Şamil yazılması və pasportlarımızın Azərbaycan türkcəsində və ingilis dilində olması onları bərk qıcıqlandırmışdı. Sənədlərimizi yoxlayan podpolkovnik əsəbiliklə pasportumuza baxaraq: "Niyə rusca yazılmayıb?" – deyə xəbər alanda mən sakitcə: "Siz Xarici İşlər Naziri olanda göstəriş verərsiniz, pasportlarında rusca yazı olmayanları ölkəyə buraxmazlar", – dedim.

Yəqin, imkanı olsaydı, məni basıb döyərdi. Əsəbiliklə dedi:

– Siz dünənədək Sovet vətəndaşı idiniz. Bütün sənədləriniz rus dilində yazılırdı. İngilislərlə heç bir əlaqəniz yox idi. İndi sənədləri ingiliscə yazırsınız, rusca heç bir şey yazılmır. Biz də oxuyanda əziyyət çəkirik.

Mən təmkinlə və gülümsəyərək dedim:

– Sizin kimilərin davranışından SSRİ-dən ayrıldıq. SSRİ Avropa Birliyi kimi bir ittifaq olsaydı, heç kim ayrılmaq istəməzdi.

Yanında duran mülki paltarlı şəxs:

– Belələrini saxlama. Gələn kimi pasportlarına möhür vur, getsinlər. Bunlar həm bizi əsəbiləşdirir, həm də buradakı adamlara pis təsir edirlər, – dedi.

Hiss edirdim ki, imkanları olsa, pasportumu çırıb atar, özümü də bərk kötəkləyərlər. Çantalarımızı götürüb avtobusa gəldik. Hamı gəlib əyləşəndən sonra avtobus sürücüsü mənə müraciətlə:

– Yaxşı dediniz! Ürəyimizdən tikan çıxdı. Mən bir neçə dəfə Avropaya getmişəm. Maşınla neçə ölkəni dolanmışıq. Bir yerdə də bizi saxlayıb "Hara gedirsən", – deyən olmayıb. Burada isə hər 30-40 kilometrdən bir saxlayıb həm vaxtımızı alırlar, həm də qanımızı qaraldırlar. İnquşetiyada, Osetiyada da saxlayıb

sənədləri yoxlayacaqlar. Hər gün bunların kobudluğu ilə üzləşirik. Minlərlə insan əziyyət çəkir. Bu ölkədə məmurlar elə bil adamlara əziyyət verməkdən ləzzət alırlar, – dedi.

Avtobusdakılara da elə bil mövzu verdi. Əksəriyyəti yersiz yoxlamaların doğurduğu narahatlıqlardan danışmağa başladı. Avtobus sürücüsünün dediyi kimi də oldu. Yolda iki dəfə də saxlayıb sənədlərimizi yoxladılar. Amma bu yoxlamalar Çeçenistandakı kimi sərt olmadı.

Axşamüstü Vladiqafqaz avtovağzalına çatdıq. Orada rəhmətlik Aşıq İsgəndərin oğlu Murtuza bizi gözləyirdi.

İstefada olan polkovnik Murtuza İsgəndər oğlu

Murtuza İsgəndər oğlu ilə şəxsi tanışlığımız 25 il olar. Amma onu qiyabi 1983-cü ildən tanıyırdım.

1972-ci ilin aprelində tələbə yoldaşım Osman Əhmədoğlu kəndlərinə Türkiyədən bir aşıq gəldiyini dedi. Bu gözlənilməz və mümkünsüz sayıla biləcək bir hadisə idi. Aşığı görmək həvəsi dekanımız Şirməmməd

Hüseynovun qorxusuna üstün gəldi. Gürcüstandakı Keşəli kəndinə getdik. Rəhmətlik Qənbər rüşvət verərək Qars ilinin Kümbətli (Vladikars) kəndindəki dayısı Aşıq İslam Ərdənəri gətirdə bilmişdi.

Aşıq İslam Ərdənər bizim aşıq yaradıcılığı haqqında
bilgilərimizi alt-üst etdi. Ondan öyrəndik ki, Xəstə Hasan deyilən aşıq İrəvanlı deyil, Axısqanın Levis kəndindən imiş. Azərbaycanlı araşdırıcılar Xəstə Hasanı Aşıq Ələsgərə Xəstə Qasımın bağlamasını göndərən ədəbi oğru kimi tanıdırdılar. İslam Ərdənər isə bildirdi ki, bu mümkünsüz bir işdi. Birincisi, Xəstə Hasan Aşıq Ələsgərdən yaşda çox böyükdür. İkincisi, Xəstə Hasan ustad bir sənətkardır. Başqasının şeirini öz adından kiməsə göndərməz.

İslam Ərdənər iki aya yaxın Keşəlidə qaldı, ətraf kəndlərdən də gəlib onu qonaq apardılar. Adamlarla görüşdü, söhbətləşdi və getdi. Gedəndən sonra da Türkiyədən mənə məktublar yazdı.

O, gedəndən sonra Osmanla mən Azərbaycanda, Gürcüstanda, Ermənistanda Xəstə Hasanı tanıyan, şeirlərini bilən adam axtarışına çıxdıq. Axır ki, tapdıq. Aşıq Hüseyn Saraclı

Ermənistan Respublikası Amasiya rayonu Ellər (Elləroyuğu) kəndində yaşayan Aşıq İsgəndər Gülməmmədovun (Ağbabalı) Xəstə Hasanın şeirlərini bilmək ehtimalının çox olduğunu söylədi. Aşıq İsgəndər Gülməmmədova məktub yazdım. Aşıq Hüseyn Saraclı yanılmamışdı. Aşıq İsgəndər Ağbabalı nəinki Xəstə Hasanın şeirlərini bilirdi, hətta onun soyundan olub, Qazaxıstana sürgün olunanları da tanıyırdı. Aşıq İsgəndər Ağbabalını Naxçıvana gətirtdim, televiziyada və radioda verilişlərini hazırladım, qəzetdə haqqında məqalə verdirdim, söylədiklərini yazıya aldım.

Aşıq İsgəndər ailə üzvlərindən də geniş söhbət açdı. Böyük oğlu Murtuzanın Orconikidze (İndiki Vladiqafqaz) şəhərindəki ali ümumqoşun komandirləri hazırlayan məktəbdə zabit olduğunu söylədi. Beləcə, Aşıq İsgəndər Ağbabalı ilə ailəvi dostluğumuz başladı.

Biz 1993-cü ildə Bakıya köçəndən sonra Murtuza Viladiqafqazdan gələndə onunla görüşdük. Sağ olsun, sonralar hər Bakıya gələndə mənə zəng vurar, görüşüb dərdləşərdik. Bir-birimizə işimiz, planlarımız haqqında bilgi verərdik. Necə deyərlər, sözümüz-söhbətimiz

tutardı. Atası haqqında xatirələr kitabı nəşr etdirmək istədiyini dedi. Məndən və xanımımdan da xatirələrimizi yazmağı xahiş etdi.



Əli Şamil və Murtuza İsgəndər oğlu Vladiqafqaz parkındakı xatirə abidəsinin qarşısında

Yazımın həcminin böyük olduğunu gördükdə Aşıq İsgəndərlə yazışmalarımızı bir yerə toplayaraq 2006-cı ildə "Səda" nəşriyyatında "Aşıq İsgəndər Ağbabalı. (Xatirə, məqalə, məktub və sənədlərin işığında)" kitabını nəşr etdim. Kitab maraqla qarşılandığına görə

Murtuza Gülməmmədov 2012-ci ildə onun təkmilləşdirilmiş nəşrini çap etdirdi.

O, bizim Nalçikə sanatoriyaya getməyi planlaşdırdığımızı biləndə xahiş etdi ki, proqramımıza onunla görüşməyi, bir neçə gün Vladiqafqazda qalıb birgə gəzməyi də daxil edək. Murtuza bəyin sözünü yerə salmaq olmazdı. Bakıdan yola düşməmişdən əvvəl də, Mahaçqalada olanda da ona zəng vurmuş və gələcəyimizi xəbər vermişdik.

Murtuza İsgəndər oğlu bizi avtovağzalda qarşılayıb Şahin Məmmədovun qonaq evinə apardı. Bu bina Azərbaycanın Vladiqafqazda nümayəndəliyi rolunu oynayır. Azərbaycandan Vladiqafqaza gedən ictimai-siyasi xadimlərin, yazıçı və şairlərin, oxumuşların çoxu orada ağırlanır.

Murtuza bəy orada olduğumuz müddətdə nəinki bizim məsrəflərimizi öz üzərinə götürmüşdü, həm də gözəl bir tanıtma proqramı da hazırlamışdı.

Polkovnik rütbəsində istefaya göndərilən Murtuza Gülməmmədov vaxtının çoxunu ictimai işlərə həsr edib. O, Vladiqafqazdakı Azərbaycan

Konqresinin vitse-prezidenti seçilib. Həm bölgəni, həm də orada yaşayan azərbaycanlıları yaxşı tanıyır.

Osetiya və osetinlər

Xəritələrdə, inzibati ərazi bölgülərində iki Osetiya var. Birini Güney, o birini Quzey Osetiya adlandırırlar. Sovet dövründə ərazisi 8 min kvadratkilometr olan Quzey Osetiya Rusiya Federasiyasına bağlı muxtar respublika idi. Ərazisi 3 min 900 kvadratkilometr, əhalisi 50-60 min nəfər olan Güney Osetiya Gürcüstan Respublikasının tərkibində muxtar vilayət idi.

Çar Rusiyası çökdükdən sonra 1918-ci ilin mayın 11-də Quzey Qafqaz Dağlıq Xalqları İttifaqı Respublikası (Millətlər Birliyinə təqdim olunan sənəddə respublikanın adı *République de l'Uniom des peoples Montaguards du Caucase* kimi yazılıb) yaradıldığı elan edilir. Lakin bu hökumətin ömrü çox qısa olur. Denikin orduları bölgəni işğal edir. Bolşeviklər Denikinçiləri oradan qovub çıxarandan sonra Rusiya Federasiyasının tərkibində 1924-cü il

iyulun 7-də Quzey Osetya Muxtar Vilayəti yaradılır.

Sovetlər Birliyi dağılandan sonra, yəni 1991-ci ildə Rusiya Federasiyası bölgəni Quzey Osetya-Alanya Respublikası adlandırır. Gürcüstan Respublikasını da öz təsiri altında saxlamaq üçün Güney Osetiya-Alanya Respublikası yaradır və 2008-ci ildə yaratdığı oyuncaq dövləti tanıdığını da elan etdi. Hər iki respublika qədimliyini göstərmək üçün keçmişdə mövcud olmuş Alanya dövlətinin adına sahiblənib.



Murtuza İsgəndər oğlu
və Əli Şamil Vladiqafqazdakı parkda

Osetinlər özlərini İriston, Diqor və İroni adı ilə tanıtmağa çalışsalar da, mümkün olmur. Sovetlər Birliyində 70 ilə yaxın ateizm hakim ideologiya olsa da, şəriət qaydalarına əməl etməyən, ənənəyə dayanan bir çox insan özünü müsəlman sayır. Buna görə də osetinlərin yarıdan çoxunun müsəlman olduğu yazılır. Quzey Osetiya-Alanyada yaşayan təxminən 25 min inquş, 15 min qumuq, 3,5 min çeçen, 3 min Axısqa türkü, 2,5 min tatar, 2,5 min azərbaycanlı da müsəlman sayılır.

Azərbaycanla Osetiya arasında istər Çar Rusiyası zamanı, istərsə də Sovetlər Birliyi dövründə sıx iqtisadi, mədəni əlaqələr olmuşdur. Osetin dramaturqu, rejissor, pedaqoq Georqi Xuqayevin (1922-2005) "Arvadımın əri" (Naxçıvan Dövlət Musiqili Dram Teatrında bu əsər "Mənim arvadımın əri" adı ilə səhnələşdirilmişdir.), "Elburus evlənir", "Mənim xalam" komediyaları Azərbaycan teatrlarında tamaşaya qoyulmuşdur.

Vladiqafqazdakı məscidlər və mədrəsə

Murtuza bizi şəhərlə tanışlığa çıxaranda birinci milyonçu Murtuza Muxtarovun tikdirdiyi

məscidə apardı. Qazax rayonundan gəlmiş günəmuzd ustalar binada kiçik təmir işləri aparırdılar.

Məscidin tikilməsi ilə bağlı xalq arasında gəzən söhbətlərdən birində deyilir ki, Murtuza Muxtarov Vladiqafqazda olarkən bir rus generalının küçədə namaz qıldığını görür. Generalın yanında yaraşıqlı qız milyonçunun diqqətini çəkir. Generalla tanış olur. Rus generalı Hambi Tuqanovla Murtuza Muxtarovun söhbəti tutur.

Atası ilə milyonçunun söbətində Liza da iştirak edir. Arvadını boşamış Murtuza Muxtarov generalın ortancıl qızı olan Lizaya vurulur. Hambi Tuqanov da bu evliliyə etiraz etmir.

Murtuza Muxtarov Vladiqafqazda gözəl bir məscid tikdirir. Bu onun ilk xeyriyyəçiliyi deyildi. Doğma kəndi Əmircanda tikdirdiyi məsciddən bu gün də dindarlar istifadə edirlər.

1855-ci ildə Bakının Əmircan kəndində arabaçı ailəsində doğulan Murtuza zəhməti, işgüzarlığı və ağılı ilə milyonçuya çevrilmişdir.

Orta təhsili belə olmayan Murtuza Muxtarov fərdi şəkildə oxuması, öyrənməsi sayəsində ixtiraçı mühəndis kimi ad qazanmışdı. 1895-ci

ildə metal ştanqlarla zərbə qazma dəzgahını quraşdırdığına görə dövlətdən patent alıb. Çünki bu, dünya neft sənayesində ilk qurğu idi. 1917-ci ildə düzəltdiyi taxtayonan dəzgah Sankt-Peterburq şəhərindəki Dağ Mədən İnstitutunun muzeyində saxlanılır. Onun zavodunda istehsal edilən dəzgah və avadanlıqlar xarici ölkələrə də satılırmış. Abşeronda 1100 metrlik neft quyusunu da ilk dəfə o qazdırmışdır.



Əli Şamil və Murtuza İsgəndər oğlu Murtuza Muxtarovun tikdirdiyi məscidin qarşısında.

19-cu yüzilin sonlarında Murtuza Muxtarov Bibiheybətdə konstruktor bürosu olan neft avadanlıqları zavodu tikdirir. Bu, Rusiyada ilk neft avadanlıqları hazırlayan zavod olur. Murtuza Muxtarovun konstruktor bürosu təkcə Bakıda deyil, Maykop və Qroznuda da neft mədənlərinin sahibləri ilə müqavilə bağlayıb quyu qazdırır, zavodlar qurdurur, mədənlərin bütün texniki işlərini gördürürmüş.

Ali və orta ixtisas məktəblərində oxuyan 40 nəfər tələbə üçün təqaüd ayıran Murtuza Muxtarov Bakı Realnı Məktəbinin, Temurxan-Şura Qadın Gimnaziyasının hamisi, Peterburq Müsəlman Xeyriyyə Cəmiyyətinin, Dağılılar Arasında Savadın və Texniki Bilikləri Yayma Cəmiyyətinin fəxri üzvi imiş. Bakıda nəşr edilən "Tərəqqi" qəzeti də onun pulu ilə çıxırmış.

Yüksək memarlıq zövqü olduğuna görə Kislavodskidə, Rusiyanın müxtəlif şəhərlərində, İtaliyanın Florensiya şəhərində, Mərdəkanda (indiki AMEA Dendrologiya İnstitutunun binası) tikdirdiyi binalar indi də göz oxşayır. Onun Bakıda xanımı üçün tikdirdiyi bina məhəbbət əfsanəsidir.

Venesiyanı gəzərkən orada bir binadan xanımının xoşu gəldiyini görən Murtuza

Muxtarov polyak arxitektor İosif Ploşkona Bakıda elə bir bina tikməyi tapşırır. Çox qısa bir zamanda 1911-1912-ci illərdə nəhəng bir saray inşa etdirir. Qotik üslübunda tikilmiş saray sütunları, tağları, buta və gülləri, pəncərə və qapıları, bəzək ornamentləri təkrarolunmaz sənət əsərinə, memarlıq incisinə çevrilir.

Murtuza Muxtarov xanımı Lizanın da xeyriyyə işlərinə gen-bol pul xərcləməsinə şərait yaradır. Həsən bəy Zərdabinin xanımı Hənifənin təşəbbüsü ilə 1908-ci ildə yaradılan ilk Azərbaycan Qadın Xeyriyyə Cəmiyyətinin fəxri səfiri Liza Muxtarova olmuşdur. Sahibsiz uşaqlar üçün pansionat açan, onları oxudan bu ailənin sonu faciəli olmuşdur. Bolşeviklər 1920-ci ildə Bakını işğal edəndə onların da evinə zorla daxil olmaq istəmişlər. Murtuza Muxtarov özlərini-sözlərini bilmiyən bolşevik hərbçilərini güllələdikdən sonra özünü də öldürür. Gözəlliyi dillər əzbəri olan Liza xanım ərinin ölümündən sonra səfil həyatı yaşamış və ömrünün son günləri haqqında araşdırıcılar hələ də doğru-düzgün bir bilgi əldə edə bilməmişlər.

Məsciddə tanış olduğumuz qumuq qadın sanki dindar birisi deyil, peşəkar muzey bələdçisi idi. O dedi ki, Vladiqafqazda ilk məscid 1867-ci

ildə tatar, noqay və qaraqalpaqların təşəbbüsü ilə tikilib. 1900-cü ildə tikilən bu məscid ikinci olub. "Terk (Türk) Müsəlman İcması"nın təşəbbüsü ilə tatar əsilli memar Sadiq Radimqulov İstanbuldakı "Ayasofiya Məscid"inin bənzəri olan layihə hazırlayıb. Məscid sünni və şiələrin, nəqşibəndilərin və başqa təriqətdən olanların ortaq ibadət məkanı kimi fəaliyyət göstərib.

SSRİ-də dinə qarşı mübarizə adı altında məscidlərin, kilsələrin, sinoqoqların və başqa məbədlərin dağıdılmasına başlayanda Vladiqafqazdakı məscidi də uçurmaq istəyirlər. Deyilənə görə, oradakı hərbi hissənin komandiri, tatar Y.Betkov bu işi əngəlləyir. Onu tarixi memarlıq abidəsi kimi qoruya bilsə də, Nadejda Krupskaya adına uşaq bağçasına çevrilməsinin qarşısını ala bilmir. Sonralar bina baxımsızlıqdan dağılmaq dərəcəsinə gəlir. Sovetlər Birliyi dağıldıqdan sonra məscid yenidən təmir edilir, ibadətə açılır. İran İslam Respublikasının Viladiqafqazdakı Mədəniyyət Mərkəzinin əməkdaşları buranı İran yönlü şiə məscidinə çevirmək istəsələr də, istəklərinə nail ola bilməyiblər.

Murtuza Muxtarovun tikdirdiyi məscidi ziyarət etdikdən sonra Tərək (xəritələrdə Terek yazılan çaya yerli əhali Tərək deyir – Ə.Ş.) çayının sağ sahilindəki məscid-mədrəsəyə getdik. 20-ci yüzilin başlarında Vladiqafqazı ikiyə bölən Tərək çayının sağ sahilində şiə inanclılar da bir məscid, məscidin yanında da mədrəsə tikdiriblər. Sovet hakimiyyəti illərində məsciddən, mədrəsədən anbar, sex və s. kimi istifadə edilib.

Sovet hakimiyyətinin çöküşündən sonra İran İslam Respublikasından buraya gələnlərin sayı artıb. Onların arasında, hətta səfirlik əməkdaşları da olub. Məscidi də, mədrəsəni də təmir edib işlətməyə çalışıblar. Lakin yerli hakimiyyət orqanları icazə verməyib. Özləri təmir etdirəcəklərini bildiriblər. Yüngül təmir işi aparıb qapısına qıfıl vurdurublar. Dini mərkəz kimi fəaliyyətinə icazə verməyiblər.



Vladiqafqazda Murtuza Muxtarovun tikdirdiyi məscid. Məscidin yanında mədrəsə də varmış.

Orconikidze “bezparyadka”sı, yoxsa milli hərəkat

Rus dilindəki “bezparyadka” sözünü hərc-mərclik, qarışıqlıq kimi tərcümə edirik. Vladiqafqazda yaşayan osetinlər, inquşlar, qumuqlar da bezparyadok deyəndə 1981-ci ilin oktyabrında baş vermiş hadisəni nəzərdə tuturlar.

Necə deyərlər, gündəlik işlədilən söz burada terminə, bir növ tarixi hadisəyə çevrilib.

İosif Stalinin ölümündən sonra Tbilisi, Qori, Novorosiyski, Sumqayıt, Orconikidze və b. şəhərlərdə hökumət əleyhinə nümayişlər olub. Hamısı da hərbi güclə yatırılıb. Hadisələr zamanı nə qədər adam öldüyü, nə qədər adam yaralandığı, neçə nəfərin həbs edildiyi haqqında hələlik dəqiq bilgilər əldə etmək çətindir.

Qazaxıstana elliklə sürgünə göndərilmiş inquşlara 1957-ci ildə vətənə dönmələrinə icazə versələr də, onlar ata-baba yurdlarında, qoyub getdikləri evlərdə tam yerləşə bilmirdilər. İnquşların bəraət almasına baxmayaraq, Stalin dövrünün idarəetmə metodundan ayrılmaq istəməyən rəhbər işçilər hələ də onlara "satqın xalq" kimi baxır, ərizə və şikayətlərinə obyektiv yanaşmırdılar. Bu da inquşlarla osetinlər arasında narazılığa gətirib çıxarırdı. Rəhbər işçilər isə bu narazılıqları görməməzdikdən gəlir, ört-basdır edirdilər. 1981-ci ildə baş verən "bezparyadka"nı ört-basdır etmək mümkün olmadı.

1981-ci il oktyabrın 21-də Nazran rayonunun Plievo kəndində milliyətcə osetin olan taksi sürücüsü Kazbeq Qaqloyevin meyidi tapılır.

Şayiə yayılır ki, taksi sürücüsünü inquşlar öldürüb. Qarşıdurma yaranmasın deyə öncədən ciddi tədbirlər görülmür. Hüquq-mühafizə orqanının işçiləri, rəhbər partiya sovet işçiləri, ziyalılar yerlərə təbliğat işi aparmaq üçün göndərilmir.

Nəticədə cənazəni qəbristanlığa aparan 1000 nəfərə yaxın adam Orconikidze şəhərinin mərkəzi meydanına gəlir. Cənazə ətrafına toplanmış adamların mitinqi başlayır. Onlar rəhbər işçilərdən tələb edirlər ki, cinayətkar təcili tapılıb cəzalandırılsın. Partiya-sovet, hüquq mühafizə orqanlarının rəhbərlərinin heç biri meydana toplaşanların qarşısına çıxaraq onların tələblərini dinləmək istəmir.

Murtuza İsgəndər oğlunun da bu hadisələrin şahidi olduğunu və Sov.İKP Şimali Osetiya Vilayət Komitəsinin birinci katibi Bilar Kabaloyevin qorunmasında iştirak etdiyini bilmirdim. Bir var yazıdan nəyisə oxuyasan, bir də var canlı şahidi dinləyəsən. Ona görə də Murtuza İsgəndər oğlunun danışdıqlarını lentə yazdım.

Murtuza dedi ki, SSRİ Daxili İşlər Nazirliyinin Qırmızı bayraqlı Orconikidze adına Ali Komandirlər Məktəbini yenicə bitirmişdim. Nümunəvi məzunu kimi məni məktəbdə saxlamışdılar. O illərdə Pribaltikanı və Ermənistanı

çıxmaq şərtilə SSRİ-nin hər yerində payızda, məhsul yığımında tələbə və şagirdlərdən ucuz işçi kimi istifadə edilirdi. Bizim məktəbin ikinci və üçüncü kurslarında oxuyanları da qrup rəhbərlərinin nəzarəti altında sentyabr-noyabr aylarında kolxoz-sovxozalara köməyə göndərirdilər. Mən birinci kursun rəhbəri olduğuma görə şəhərdə qalmışdım.

İlk baxışda həyat sakitcə öz axarı ilə gedirdi. Məktəbimizin rəhbəri general İvanov da məzuniyyətə çıxmışdı. Hərbi məktəb qapalı olduğundan şəhərdə baş verənlərdən xəbərim yox idi.

Sentyabr ayının 25-də Orconikidze adına Ali Komandirlər Məktəbinin müvəqqəti rəisi, polkovnik Nabatov həyəcan siqnalı ilə zabitləri məktəbin toplantı salonuna çağırdı. Bildirdi ki, şəhərdə vəziyyət gərgindir. "Başıpozuq" dəstələr "Svaboda" meydanına toplaşıb. Sov.İKP Quzey Osetiya Vilayət Komitəsini, Nazirlər Sovetinin, Ali Soveti Rəyasət Heyətinin və başqa mühüm dövlət təşkilatlarının binaları təhlükə altındadır. Təcili rəhbərlik etdiyimiz kursların tələbələrini də götürüb həmin binaları qorumağa getməliyik. O zaman nə qalxan vardı, nə də dəyənək. Bizi binaları mühafizə etməyə əliyalın göndərdilər.

Görməli olduğumuz işin dəqiq planı, əlimizdə komandanlığın rəsmi əmri də yox idi. Orada ölənin qanı batacaqdı. Biz meydana giriş yollarını kəsmək üçün "divar"lar qurduq. Qadınlar, uşaqlar üz-gözümüzü cırır, bizi söyür, vurur, daş atırdılar. Özümüzü qorumağa gücümüz yox idi. Ona görə də qurduğumuz "divar"lar izdihamın təzyiqinə tab gətirmədi. Adamlar partiya komitəsinin binasına daxil oldu. Biz yumruq davası ilə özümüzə yol açıb birinci katibi qorumağa çalışdıq. Milis işçiləri də bizimlə birlikdə mitinq iştirakçılarını binadan çıxarmaq istəyirdilər.

Yumruq və təpik zərbələri ilə mitinqçiləri birinci mərtəbəyə kimi endirdik.

Birinci mərtəbənin foyesində mitinq iştirakçılarını itələyib çölə çıxarmaq istəyəndə sol əlimin baş barmağı kiminsə ağzına keçdi. O, var gücü ilə mənim barmağımı gəmirirdi. Gücümü toplayıb sağ əlimlə onun boğazını sıxdım. Boğulacağını, öləcəyini heç düşünmədim. Birtəhər barmağımı onun ağzından çıxara bildim. Qan durmadan axırdı. Məni binadakı tibb otağına apardılar. Orada ilk yardım göstərdikdən sonra təcili xəstəxanaya aparıb barmağıma tikiş qoydular.

Yaramın sağalması üç aya yaxın çəkdi. "Qəhrəmanlığımın" ağrısını bu gün də çəkirəm. Hava soyuq olan kimi həmin barmağım sızıldayır.

Məktəbin rəisi İvanov məzuniyyətdən geri çağırdılar. Zabitlərimizə özlərini qorumaq və zor tətbiq edənlərə cavab vermək üçün tabel silahları verildi, 2-3-cü kursun tələbələri təcili kolxoz-sovxozlardan məktəbə gətirildi. Zirehli maşınlar və pulemyotçular döyüşə hazır vəziyyətə gətirildi. Orconikidzedəki bütün hərbi məktəblərin kursant və zabitləri səfərbərliyə alındı. Hətta Qroznudan və Pyatiqorskdan hərbçilər gətirildi. Sentyabrda 26-da gecə meydan mitinq iştirakçılarından təmizləndi. Kütləvi həbslər başladı. Əsgər və zabitlərimiz bir aya yaxın Orconikidzenin küçələrində növbə çəkdi.

– Mutuza bəy, yazırlar ki, həmin hadisə zamanı kursantlardan birini ikinci mərtəbənin pəncərəsindən atıb öldürüblər. 328 nəfər hərbçi müxtəlif dərəcəli bədən xəsarəti alıb. Onların 226-sı sizin məktəbin kursantı olub. Mitinq iştirakçılarından da 800 nəfərə yaxın saxlanaraq istintaq edilib, – deyə xəbər aldım.

Mən həmin vaxt hərbi hospitalda müalicə olunurdum. Lap hadisələrin içərisində olsam da,

dəqiq bir rəqəm bilməzdim. Çünki hər şey çox gizli saxlanılırdı. Barmağımın dişlənməsini də təlim zamanı yaralanma kimi qeydə aldılar.

Sonralar eşitdim ki, RSFSR Nazirlər Sovetinin sədri Mixail Solementsev, Daxili İşlər Naziri, general Yuri Çurbanovun rəhbərliyi altında böyük bir istintaq qrupu, SSRİ baş prokurorunun müavini Bazhenovun rəhbərliyi altında əməliyyatçılar qrupu SSRİ Müdafiə Nazirliyinin generalları və başqa rəhbər işçilər Orconikidze hadisələrini tədqiq etməyə göndəriliblər. Hadisələr baş verəndə yerli partiya-sovet, hüquq mühafizə orqanlarının rəhbərləri xalqın qarşısına çıxıb onları dinləsəydi, məsələ bu qədər qəlizləşməyəcəkdi. Gözləmə mövqeyi tutdular.

Bu da adamların səbrini daşırdı. Rəhbər işçilərin kabinetlərinə doluşdular. Onların da əlindən gələn bu oldu ki, Moskvaya zəng vurub desinlər: "Xalq üsyan qaldırıb, hakimiyyəti devirir. Təcili tədbir görün". Tədbir də belə görüldü. Münaqişəyə səbəb olan məsələ kökündən, ciddi şəkildə həll edilmədi. Zor gücünə münaqişə dondurulduq.

Həmin hadisədən 35 ildən çox keçib. Sərhədlər elə cızılıb, hər addımda xalqlar arasında münaqişə yaratmaq mümkün olsun. Mərkəzi

hakimiyyətdə zəifləmə başlayan kimi Rusiyanın başbilənləri Quzey Qafqazda milli zəmində toqquşmalar törədə biləcəklər. Onları sakitləşdirmək də asan olmayacaq. Osetinlərin çoxu 1981-ci ilin hadisəsini indi milli dirçəliş hərəkatı kimi qələmə verirlər. Amma mən onlarla razı deyiləm, – dedi.



Vladiqafqazda Xolfman məhəlləsi

Murtuza İsgəndər oğlu bizi maşını ilə Vladiqafqaz şəhərini gəzdirdikcə keçdiyimiz yerlər haqqında bilgi verirdi. Səliqə-səhmanı və

memarlıq forması ilə şəhərin başqa məhəllələlərindən fərqlənən bir yerdən keçəndə "Bu məhəllənin adı Xolfmandır", – dedi.

Xolfman nə yerli xalqların, nə də rus dilinin sözünə oxşadı. Mənə alman sözünü xatırlatdı. Fikrimi Murtuza İsgəndər oğluna dedikdə, gülərək: "Düz tapdın. 1988-ci ildə almanlar Sovet hərbi birləşmələrini çıxarmağa çalışırdılar. Sovet rəhbərliyi isə bu işi yubatmaq üçün bəhanə gətirirdi. Deyirdilər: "Gözləyin, hərbi qışlalar, anbarlar, zabitlərin ailələri üçün yaşayış binaları tikək. Hazırlıq işlərimiz başa çatanda sonra köçürməyə başlayaq".

Almaniyanın kansleri Helmut Kol onlara inanmırdı. Bunun bir bəhanə olduğunu, rusların vaxtı uzatmaq istədiyini düşünürdü. Ona görə də SSRİ rəhbərliyinə "ərazi ayırsalar, gəlib SSRİ-də hərbi hissələr üçün gərək olan binaları, qurğuları öz xərclərilə tikərlər" təklifini verdilər. Sovet rəhbərliyi də Helmut Kolun təklifi ilə razılaşdı. Görünür, Güney Qafqazdakı respublikaların da SSRİ-dən ayrılmaq əhval-ruhiyyəsinin gücləndiyindən xəbərdar idilər. Ona görə də hərbi hissə üçün yeri Qafqazın quzeyində – Vladiqafqazda ayırdılar. Almanlar da gəlib qısa müddətdə nəinki əsgərlər üçün qışlalar, zabitlərin

ailələri üçün yaşayış binaları, texnika və hərbi sursat üçün anbarlar, hətta xəstəxana, məktəb, mədəniyyət evi və s. tikdilər. Beləcə, gözəl, alman səliqəsi ilə salınmış Xolfman məhəlləsi yarandı”.



1992-ci ildə Moskvada demokratiya uğrunda mübarizədə qəhrəmanlıqla həlak olmuş 27 yaşlı həmyerlimiz Nizami Mehdiyevin məzarı

Vladiqafqazda park qəbristanlıq

Vladiqafqazın hər addımında Rusiya müstəmləkəçiliyinin təsiri hiss olunur. Mərkəzi küçə və meydanlarda çar dövrünün "gir-davoy"unun heykəlinə də rast gəlmək olar, Sovet dövrünün öndərlərinin də.

Murtuza İsgəndər oğlu bizi bir parka aparır. Burada çoxlu heykəl var: 2-ci Yekatirina və ona minnətə getmiş osetin böyüklərinin, Quzey Osetiyanın işğalında fəallıq göstərənlərin, İkinci Dünya Savaşı iştirakçılarının, 1990-cı ildən sonra həlak olanların, yazıçı, şair, dramaturq, aktyorların və b. Park-qəbristanlıqda əzəməti ilə seçilən bir heykəl diqqətimi cəlb etdi. Bu bizim "Qanun naminə" filmində Mehman rolunu oynayan Bibo (Bimbolat) Batayevin (1939-2000) heykəli idi. Kinoda yaratdığı 50-yə kimi obrazdan ən çox yadımda qalanlar "Knyaz İqor" filmindəki Konçak, Firdovsinin "Şahnamə" dastanı əsasında çəkilmiş "Rüstəm haqqında hekayə", "Rüstəm və Söhrab", "Səyavuş haqqında hekayə" filmlərindəki Rüstəm, "Əbu Reyhan Biruni" filmindəki Mahmud Qəznəvi olmuşdur.

Şair, dramaturq, publisist, rəssam, etnoqraf, ictimai xadim, osetin ədəbiyyatının banisi kimi

tanınan Kosta Xetaqurovun (1859-1906) heykəli baxımlı və diqqətçəkici hazırlanıb. Osetinlər onun adının əbədiləşdirilməsi üçün çox işlər görüblər. Mükafat təsis ediblər, heykəllərini qoyublar, küçə və meydanları, mədəniyyət ocaqlarını onun adı ilə adlandırıblar.

2011-ci ilin may ayının 26-da, 71 yaşında bıçaqlanaraq öldürülən şair, filoloq, ictimai xadim Şamil Cıkkaytın heykəl kompleksi də gözəl hazırlanmışdır.

1992-ci ildə Moskvada demokratiya uğrunda mübarizədə qəhrəmanlıqla həlak olmuş 27 yaşlı həmyerlimiz Nizami Mehdiyevin qəbirüstü abidəsinin səliqə-səhmanı onu göstərirdi ki, azərbaycanlılar onu unutmayıblar, buraya tez-tez ziyarətə gəlirlər.

Səliqə-səhmanından və orada olduğumuz zaman gördüklərimizdən bu qənaətə gəldik ki, şəhər sakinləri hər gün buraya gəlir və qonaqlarını da gətirirlər.

Azərbaycanlılar Vladiqafqazda

Murtuza bəydən Vladiqafqazda yaşayan azərbaycanlılar və onların yaratdığı təşkilatın işi ilə maraqlandım. Onun dediyinə görə,

azərbaycanlılar 1860-cı illərdən Vladiqafqazda yaşamağa başlayıblar. Güney Azərbaycandan gəlib burada işləyənlərin sayı daha çox olub. Onlar əsasən tikintidə, ticarətdə və xalçaçılıqda çalışıblar. 20-ci yüzilin əvvəllərində azərbaycanlıların sayı daha çox olub. Belə ki, 100 min əhalisi olan Vladiqafqazın 20 faizini azərbaycanlılar təşkil edirmiş.

Bolşeviklər Quzey Qafqazı işğal edəndən sonra azərbaycanlıların sayı azalmağa başlayıb. Bir qismi həbs olunub və ya sürgünə göndərilib. 1938-ci ildə Güney Azərbaycandan gələnlər İrana deportasiya edilib. İndi 10-12 min Azərbaycanlı olsa da, cəmi 3-4 min nəfər rəsmi qeydiyatdadır.

Sovet hakimiyyəti illərində SSRİ-nin hər yerində olduğu kimi burada da milli mənsubiyyətə görə cəmiyyətlər, təşkilatlar yaradılmağa icazə verilmirdi. 1990-cı ildən Vladiqafqazda azərbaycanlıların ilk dərnəyi yaradıldı.

Bu işin başında çoxdan burada yaşayan, restoran işlədən Hüseyn Məmməd oğlu Mamiyev dururdu. Onun restoranı çox məşhur idi.

Hüseyn Mamiyevin hökumət adamları ilə də xoş münasibətləri vardı. Onun maddi imkanları

da yaxşı idi. Buna görə də o, yaratdığı dərnəyi qeydiyyatdan keçirə bildi.



Əzizə xanım Murtaza İsgəndər
oğlunun kiçik bağ evinin qarşısında

1992-ci ildə dünyasını dəyişəndə dərnəyə aptek müdiri Andrey Fərəcov rəhbərlik etməyə başladı. Azərbaycan Tibb Universitetini bitirib burada işləməyə başlamış Andrey Fərəcovun əsl adı kiminsə yadında qalmayıb. Burada hamı onu

Andrey Andreyeviç deyə çağırırdı. Dərnəyin formalaşmasında şəmkirli, Tibb Universitetini bitirmiş Teymur Yadigar oğlu Musayevin də böyük rolu olub. Mən dərnəyə 1993-cü ildən qoşuldum.

Dərnəyimizin formalaşmasında dinin də rolu böyük oldu. Burada Molla Mehdi deyilən bir el ağsaqqalı vardı. Güney Azərbaycan kökənli idi. Burada yaşayırmış. Bilmirəm nə səbəbdənsə sürgün olunubmuş. Sürgün müddətini başa vurandan sonra yenidən Vladiqafqaza qayıdıb.

1992-93-cü illərdə azərbaycanlıların qəbristanlıq üçün yer almasına Mehdi Rəcəbov başçılıq edirdi. Danışıqlarlarda mən də vardım. Danışıqlarımız uğurlu alındı. Dərnəyi biz cəmiyyətə çevirdik. Andrey Fərəcov dünyasını dəyişəndən sonra cəmiyyətə Vaqif Əliyev rəhbərlik etdi. 2010-cu ildə Vaqif Əliyev dünyasını dəyişəndən sonra cəmiyyətə rəhbərlik Şahin Məmmədova keçdi. 2015-ci ildə cəmiyyəti Azərbaycan Konqresinə çevirdik. Şahin Məmmədov prezident, mən də vitse-prezident seçildim. Zakir Məmmədov, Azər İsmayılov, Ələkbər Quliyev və başqaları isə idarə heyətinin üzvləri seçildilər.

Azərbaycan Konqresinin fəaliyyəti çoxşahəlidir. Birincisi, burada yaşayan soydaşlarımızın hüquqlarını qorumağa çalışırıq. İkincisi, Vladiqafqazda yaşayan xalqların dərnəkləri ilə dostluq əlaqələri qururuq. Üçüncüsü, Azərbaycanda baş verənləri diqqətlə izləyir və burada geniş təbliğat aparırıq.



Tərək çayı üzərindəki körpüdən görünüş

Peşəkar vəkil və tərcüməçi olmasam da, çox vaxt bu işləri də görürəm. Soydaşlarımız rus dilini incəliklərinə qədər bilmədiyindən bəzən

müstəntiqlər, hakimlər qərəzli şəkildə onlara ağır cəza verməyə çalışırlar. Bir dəfə yerlimiz olan iki gənc arasında dava olmuşdu. Müstəntiq həmin hadisəni qəsdən adam öldürməyə cəhd kimi sənədləşdirib məhkəməyə vermişdi. Biz işə qarışdıq. Məhkəmədə mən tərcüməçilik edirdim. Hakimə dedim ki, 40 ildən çoxdur mən burada yaşayıram, ali təhsil almışam. Amma rus dilini hələ də istənilən səviyyədə bilmirəm. İki-üç ildir buraya gəlmiş gənclər rus dilinin hüquqi terminlərini necə bilsin. Hakim fikrimlə razılaşdı. Gənclərə icbari iş kəsdi.

Azərbaycanlıların uşaqları üçün bazar günü məktəbi açılmasına nail olmuşuq. Məktəbin müdiri Zaur Məmmədovdur. Çox işgüzar, vətənsevər bir gəncdir. Heyif ki, adamlarımızın çoxu onun əməyini layiqincə qiymətləndirmir. Cəmi 20 şagirdi var. Çoxdan gələn və qarışıq ailələrin bəzilərinin övladları dilimizi bilmir.

Biz yalnız bu günlə yaşamırıq. Keçmişimizə də sahib çıxırıq. İkinci Dünya Savaşında faşizmə qarşı vuruşanlar arasında azərbaycanlılar da çox olub. Savaşda həlak olanların iki qardaşlıq məzarı var. Biri Rassvet kəndindədir, biri də Mazdok rayonunun Visyolı qəsəbəsindədir. Visyolı

qəsəbəsindəki abidə 223-cü Azərbaycan Diviziyasının şərəfinə qoyulub.

Onu da deyim ki, İslam dininin birləşdirici gücünü heç vaxt unutmamalıyıq. Burada Sergey Xutinayev adlı bir adam olub. Döyüşlər gedəndə yeniyetməymiş. Ölənlərin əksəriyyəti müsəlman olduğunu gördükdə cəsədini yığıb bir yerdə dəfn edib. Onun 9 oğlu bir qızı varmış. Oğullarına azərbaycanlıların qəbirlərini qorumalarını, qəbri üzərində abidə ucaldılmasına çalışmalarını vəsiyyət edib. Oğulu Lazar atasının arzusunu reallaşdıra bilib.

Təşkilatımızın üzvləri hər il əlamətdar günlərdə soydaşlarımızın qəbri üzərinə gedir, onların xatirəsini yad edir, orada səliqə-səhman yaradır.

Burada ən ağır işimiz Azərbaycan-Ermənistan davası haqqında həqiqətləri təbliğ etməkdir. Sadə adamlar bizi başa düşür, haqlı olduğumuzu qəbul edirlər. Lakin rəsmi dairələr, xüsusən, mətbuat bu mövzuda söz açmaqdan çəkinir. Məsələni həmişə görməməzlikdən gəlir.

Konqresimizin üzvü professor Rəşid Quliyev Xetequrov adına Universitetin "Xarici dillər kafedrası"nın müdiridir. Rusiya Qəhrəmanı adını almış Qafan Nəcəfov da burada yaşayır. Daxili

işlər orqanlarında, KQB-də və başqa sahələrdə işləyən soydaşlarımız da çoxdur.

Gömrükdə, sərhədlərdə yaradılan bürokratik əngəllər nəqliyyatın işini pozur, gediş-gəlişi əngəlləyir. Ona görə də Azərbaycanla əlaqələri istədiyimiz səviyyədə qura bilmirik. Sovet hakimiyyəti illərində Azərbaycandan minlərlə ailə yay tətilində Quzey Qafqazın sanatoriya və kurortlarında dincəlməyə gələrdi. Sanatoriya və kurortlara putyovka tapa bilməyənlər ev kirayələyib qalardılar. İndi onları barmaqla saymaq olar.

Gömrükdə problemlər aradan qaldırılsa, buranın dağlarında, meşələrində istirahət evləri açarıq. Yayda da, qışda da Azərbaycandan turistlər gələr. Azərbaycanda son illər qış turizminə maraq artıb. Osetiyanın elə yerləri var, ilin altı ayı qar olur. Oralarda düşərgələr qurub qonaqlar qəbul edə bilərik. Bu işləri görməyə soydaşlarımızın marağı da var, bacarığı da.

Bizim qaldığımız Şahin Məmmədova məxsus kiçik qonaq evinin səliqə-səhmanı, xidmət mədəniyyətinin yüksəkliyi Murtuza İsgəndər oğlunun dediklərini təsdiq edirdi.

Vladiqafqazdan Nalçikə doğru

Murtuza bizi Vladiqafqazda çox saxlamaq, oranın gəzməli və görməli yerlərini göstərmək istəyirdi. Vaxt isə öz işini görürdü. Nalçikdəki "Mayak" sanatoriyasında bizi gözləyirdilər. Murtuza İsgəndər oğlu bizi avtovağzala gətirib Nalçikə gedən bir taksiyə əyləşdirdi.

Sürücü orta yaşlı, idmançı görünüşlü bir kişiydi. Telefonla danışmasaydı, bəlkə, Nalçikədək lal-dinməz gedəcəkdik. Taksidən enəndə pulunu verib ayrılacaqdıq.

Sürücünün telefonu zəng çaldı. O, ana dilində şirin bir söhbət etdi. Qaraçay, malkar, noqay, qumuq dillərində danışsaydı, bilərdim, ancaq mənim başa düşmədiyim bir dildə danışırdı. Diqqət yetirdim ki, osetin dili də deyil. Güman etdim ki, qabardin dilində danışır.

Sürücü söhbətini bitirəndən sonra üzürxahlıqla: "Bağışlayın ki, rus dilində deyil, başa düşmədiyiniz ana dilimdə danışdım", – dedi.

Mən:

– Ana dilində danışmaq nə vaxtdan ayıb sayılıb? Nədən üzürxahlıq edirsiniz? – dedikdə

heyrətini gizlədə bilməyərək: “Sovet dövründə siz də belə deyildinizmi?” – dedi.

– Başqalarını bilmirəm, mən heç vaxt ana dilində danışdığıma görə kimdənsə üzr istəməmişəm! – dedim.

– Haqlısınız. Görünür, sizlərə nisbətən Rusiya əsarətində daha çox qaldığımızdan beləyik. Gürcü tanışlarım da var. Onlar da bir-biri ilə danışanda ana dilində danışırlar. Ətrafdakıların onları başa düşüb-düşmədiyinə heç əhəmiyyət vermirlər. Amma biz qabardalılar (kabardin) belə deyilik. Ana dilimizdə çəkinə-çəkinə danışırıq. Bir yerdə on qabardalı, bir nəfər rus varsa, hamımız rus dilində danışırıq ki, o bir nəfər nə dediyimizi anlasın.

Onun ana dilində danışması sanki yola bir nərdivan oldu. Tanış olduq. Adı Malbax idi. Ad diqqətimi çəkdi. Soruşdum ki, sizin babalarınız malkar deyil ki? Tez və bir az da sərt: “Yox, biz malkar deyilik”, – cavabını verəndə mən gülərək “Sizin adınızdakı Malbaxı mən malkar sözünə oxşatdım”, – dedim. O, malkar (balkar) sözünü izah etməyə başladı. Açıq görünürdü ki, onun izahının elmi əsası yoxdur. Sonra da Malbax sözünün xalis qabarda sözü olduğunu izah etməyə çalışdı. Bu sözü izah edərkən qabarda

ləhçəsində və sözün çalarlarını, səs dəyişimini də anlatmağa çalışırdı. Düzünə qalsa, bir şey anlamadığımdan və mənə yorucu gəldiyindən söhbəti dəyişdim. Vladislav Malbaxov haqqında bilgisi olub-olmadığını xəbər aldım. O, bir neçə Vladimir Malbaxov haqqında bilgi verməyə çalışdı. Mən isə onların heç birini tanımırdım.

Xəbər aldı ki, siz hansı Vladislav Malbaxovu tanıyırsınız? Onunla haradan tanışsınız? Mən dedim ki, Vladislav Malbaxovu Azərbaycanda tanıyanların sayı çox azdır. Amma onu tanıyan azərbaycanlılar həmişə hörmətlə yad edirlər. Vladimir Malbaxov, Axısqa türklərindən topçu İsgəndər Aznaurov 1992-1993-cü illərdə, ermənilər Rusiya hərbçilərinin köməyi ilə Azərbaycanın Gədəbəy rayonuna hücumlar edəndə, onlar qəhrəmanlıq göstərib. Azərbaycanın könüllü özünümüdafiə dəstələri ilə birlikdə peşəkar hərbçilərə – Rusiya ordusunun əsgər və zabitlərinə, erməni silahlılarına qarşı dirəniş göstəriblər. Gədəbəy torpaqlarının işğalına imkan verməyiblər.

Qabardalı Vladimir Malbaxovun və axısqalı İsgəndər Aznaurovun Azərbaycan könüllüləri ilə birgə vuruşması onu xeyli təəccübləndirdi.

Malbax mənə Vladislav Malbaxovun Kabarda-Balkar Respublikasının hansı şəhərində, qəsəbəsində doğulması, indi harada yaşaması və başqa suallar verdi. Mən ona əlavə bilgi verə bilməsəm də, o, həmyerlisi haqqında xoş söz eşitdiyinə görə qürurlandı.

Söhbətindən aydın oldu ki, hansısa zavodda mühəndisdir. İşi növbəlidir. İki gün işləyir, bir gün istirahət edir. İstirahət günlərində də Nalçik-Vladiqafqaz arasında sərnişin daşımaqla ailəsini dolandırır.

O da Azərbaycan hökumətinin Qarabağda nə vaxt qayda-qanun yaradacağı ilə maraqlananda mən qısaca "Rusiya bölgədən gedəndə" cavabını verdim. Bərkdən gülərək: "Bu cavabınız mənim xoşuma gəldi. Biz də bilirik ki, Azərbaycanla Ermənistanın arasındakı qarşıdurmanın səbəbkarı Rusiyadır. Amma radio-televiziyanın, qəzetlərin apardığı təbliğat adamları çaşdırır".

Mən qabardalılarla malkarların arasında münasibətlə maraqlandıqda: "Hələlik sakitlikdir. Turistlər üçün əşyalar satan bazar malkarların əlindədir. Sanatoryalar da yavaş-yavaş milli mənsubiyyətə görə formalaşır. Sizin gedəcəyiniz "Mayak" sanatoriyası malkarların obyekti kimi tanınır. Şəhərdəki bir çox obyektlər də

gözəgörünmədən qabardalılar və malkarlar arasında bölünür. Zavodlar, ciddi obyektlər, strateji vəzifələr isə rusların əlindədir. Əksər idarə və təşkilatların rəhbərləri qabardalı, yaxud malkar olsa da, xüsusi şöbənin müdiri, mühasib, kargüzarlıq idarəsinin müdiri ya ruslardır, ya da yerli xalqlardan olmayan rusdillilərdir", – dedi.

Bölgədə milli zəmində qarşıdurma olmadığını təqdir etdikdə: "Ruslar buradan gedəsi olsa, görəcəksiniz ki, ara qarışdı. Bu qarışıqlığı yaratmaq onların əlində çətin bir şey deyil. Kifayətdir ki, bir qabardalını öldürələr. Sonra da şayiə yayalar ki, onu malkarlar öldürüb. Ondan sonra görüm toqquşmaların qarşısını kim alacaq. Bölgədə işsizlik artsa da, dolanışıq çətinləşsə də, Muxtar Respublikada qabardalıların və malkarların sayı artıb, ruslar və gəlmə rusdillilərin sayı azalıb".

Avtovağzala çatanda maşından enib taksinin pulunu vermək istədik. Sürücü etiraz etdi: "Sizi sanatoriyaya kimi aparacam", – dedi. Bir kağız parçasına da telefon nömrəsini yazıb verdi: "Haraya getmək istəsəniz, bir gün öncə mənə zəng vurun. İstirahət günümə düşsə, gəlib sizi aparıb gəzdirim. Vladiqafqaza gedəndə iki gün

əvvəl zəng vurun ki, növbəmi dəyişib sizi aparım", – dedi.

Sürücü dediyi kimi də etdi. Bizi sanatoriyanın qapısına kimi gətirdi. Orada sağollaşıb ayrıldı.

Müalicə həkimimiz Safulya Batırbiyeva

"Mayak" sanatoriyasına iyulun 31-də günortadan sonra çatdıq. Qeydiyyat şöbəsinə getdik ki, bizə ayrılmış otağın nömrəsini və müalicənin nə vaxt başlanacağını öyrənək. Şöbə müdiri yol çantalarımızı otağına qoyub onunla getməyimizi xahiş etdi. Sanatoriyanın inzibati binası müalicə korpusundan aralıda idi. O, bizi sanatoriyanın direktoru Qalina Maqamedovna Mamayevanın otağına gətirdi.

Qarabuğdayı, yaşı əllini keçmiş Qalina Mamayeva bizi gülərüzlə qarşıladı, necə gəldiyimizlə, yolda çox incidilmədiyimizlə maraqlandı. Çay süfrəsi arxasındakı söhbətimiz yarım saata kimi çəkdi.



Soldan: Safulya Batırbiyeva, Əli Şamil və Əzizə Şamil

Sanatoriyanın direktoru Azərbaycanın durumu ilə maraqlandı və televiziyada Bakı haqqında çəkilən sənədli filimlərə baxdığını, şəhərin inkişafına heyran qaldığını söylədi. Bir az da gileyləndi ki, azərbaycanlılar daha əvvəlki kimi Nalçikə, oradakı sanatoriyalara gəlmirlər. Bizə ayrılmış otağın nömrəsini dedi və qeydiyyat şöbəsinin müdirinə tapşırdı ki, bizə ümumi yeməkxanada deyil, həkim-dietoloqun otağını səliqəyə salıb orada süfrə açsınlar. Müalicə həkimimizin Safulya Batırbiyeva olacağını bildirdi, onun haqqında xoş sözlər söylədi.

Azərbaycanlıların Nalçik və Quzey Qafqazdakı sanatoriyalara az gəlmələri məsələsinə mən də fikrimi bildirdim. Dedim ki, sovet dövrüdə adətən Sov.İKP MK sərəncamında olan sanatoriyalara istirahətə gedirdik. Onlar həmkarlar təşkilatının, ayrı-ayrı idarə və təşkilatların sanatoriyalarından səliqə-səhmanına, yeməyin keyfiyyətinə, xidmət mədəniyyətinin yüksəkliyinə görə seçilirdi. 1992-ci ildə Türkiyəyə gedəndən sonra oradakı hotelləri, yeməkxanaları, xidmət mədəniyyətini, insanların davranışını görəndən sonra bir daha Sovet sanatoriyalarına getməməyi qərara aldım.

Qalina Mamayeva da mənim dediklərimi təsdiqlədi. Dedi ki, mən də dəfələrlə Türkiyədə olmuşam. Oradakı xidmət mədəniyyəti ilə bizimkiləri müqayisə etməyə dəyməz. İndi deyirik ki, vəsait olmadığından binamızı təmir etdirə, yeni avadanlıqlar, tibbi cihazlar ala bilmirik. İnanın ki, vəsait ayrılsa, təmir işlərini yüksək səviyyədə aparsaq da, bizim sanatoriyalara gələnlərin sayı Sovet dövründəki kimi olmayacaq. Pulla qısa müddətdə tikinti, təmir işlərini görmək, avadanlıq almaq olar, amma insanların davranışını dəyişmək olmaz. Bizdə xidmət sektorunun bütün sahələrində işləyən adamlarda bir kobudluq var. Hamısı elə bilir

müştəri ona borcludur, muştəri ondan asılıdır. Müştəriyə evinə gələn qonaq kimi yanaşmaq psixologiyası bizlərdə hələ formalaşmayıb.

Bunları yaxşı bilsəm də, çalışıram ki, işimizdə dəyişiklik edəm. Sanatoriyaya müştərilər cəlb edəm.



“Mayak” sanatoriyasının həyəti. Soldan: Burxan Berberov, Əli Şamil və Ahmed Sozayev

Xarici ölkələrdən gələnlərin sayı nə qədər çox olsa, bizim güzəranımız o qədər yaxşı olar. Xaricdən gələnlər həm putyovkanın tam

qiymətini ödəyirlər, həm də büdcəmizə valyuta gətirirlər. Gözəl təbiətimiz, mineral sularımız, tarixi və təbiət abidələrimiz var. Yaxşı bilirəm ki, sərhəddə və yollarda qanqaraldıcı problemlər yaradılmasa, xidmət sahəsinin bütün sahələri normal işləsə, Azərbaycandan və Türkiyədən gələn turistlərin hesabına biz burada ağa kimi dolanarıq, respublikanın büdcəsinə də böyük qatqımız olar.

Qalina Mamayeva ilə fikirlərimizin üst-üstə düşməsi məndə xoş bir əhval-ruhiyyə yaratdı. Otağımıza gəlib iki-üç saat istirahət etdik, yol yorğunluğumuzu çıxardıq. Axşamüstü sanatoriyanın ətrafını gəzdik, şəhərin xəritəsini aldıq.

Səhər yeməyindən sonra tibb bacısı bizi müalicə həkimimizlə tanış etməyə apardı. Daxil olduğumuz otaq dar və uzunsov idi. İçəri girəndə salam verdik. Pəncərənin qarşısındakı stolun arxasında əyləşmiş, yaşı yetmişi haqlamış, balacaboy, dolubədənli qadın elə bil ki, gəlişimizi hiss etmədi. Qapıya yaxın orta yaşlı qadın isə ayağa duraraq gülər üzlə salamımızı aldı. Mehribanlıqla oturmağımız üçün yer göstərdi. Sanatoriyanın direktorunun dediyindən hiss etdim ki, bu Safulya Batırbiyevadır.

Mən onunla Azərbaycan və Türkiyə türkcəsinin qarışığında danışırdım. O da mənə Malkar və Türkiyə türkcəsinin qarışığı olan bir ləhcədə cavab verirdi. Bizi çoxdan tanıyırmış kimi səmimi danışır, gülür, hərdən də xanımımı əzizləyirdi. Bizim sənədləri hazırlayıb, müalicə qrafiki haqqında bilgi verəndən sonra sənədlər aparıb kardioloq Rimma Xazrailovna Aripşevanın qarşısına qoydu. O, bizi görməməzlikdən gəldiyi kimi, sənədlərimizə də baxmadı.

Safulya Batırbiyeva ona rus dilində:

– Sənədlərə baxın, yazın, vaxt itirməyib müalicəyə başlasınlar, – deyəndə dodaqaltı mızıldandı: – İndi vaxtım yoxdur, qalsın, sonra baxaram.

Safulya Batırbiyeva əhvalını pozmadan bizimlə dəhlizə çıxdı. Tibb bacısını çağırıb tapşırdı ki, bizi mualicə kursları olan otaqlara aparsın.

Aradan yarım saat keçməmişdi ki, yanımıza gəldi. Üzürxahlıq edərək:

– Siz ona fikir verməyin. Rus qafalı qabardindir. Rusdan da çox rus şovinistidir. Mən bir adamla ana dilimdə danışanda, elə bil, başına bir qazan qaynar su tökürlər. Xasiyyətini bildiyimə görə, xəstələrin yanında bir söz

deməsəm də, təklikdə, iclaslarda dərsini verirəm. Yenə də xasiyyətini tərgitmir. Sanatoriyanın direktoru onu işdən uzaqlaşdıra bilmir. Əlli ilə yaxındır, həm burada işləyir, həm də qonşuluqdakı KQB-nin sanatoriyasında. Təqaüd yaşı çatandan sonra sanatoriyanın direktoru onun əmrini verib işdən çıxardı. Ağlınıza gəlməyən yerlərdən, Moskvadan, yüksək vəzifəlilərdən zənglər gəldi. Məcbur qalıb yenidən işə qaytardılar.

Safulya Batırbiyeva bizimlə doğmaları kimi davranırdı. Dərdini-sərini də deyirdi. Öyrəndik ki, 4-5 il olar ki, ərini itirib. Ərdə olan qızı Vladiqafqazda münasib iş tapa bilmədiyindən ailəliklə İstanbula köçüb. Dolanışıqları yaxşıdır. Safulya Batırbiyeva də ildə bir-iki dəfə nəvələrini görməyə İstanbula gedir. Üç nəvəsi var. Dənizçi olan oğlu isə hələ evlənməyib.

O, axşamlar sanayoriya şəhərciyinin göl kənarındakı parkında bizimlə gəzməyə, çay süfrəsi arxasında, ya da restoranda yemək yeyərkən söhbət etməyə həvəskar idi. Həmişə də söhbəti hərləyib ona gətirirdi ki, əvvəllər yayda bu park Azərbaycandan istirahətə gələnlərlə dolu olardı. Onda biz də qürurlanardıq. Çünki hər

yerdə başa düşdüyümüz dildə danışanları görərdik.

O, Bakıya gəlməyə çox can atırdı. Qonaq dəvət etdik. Söz verdi ki, vaxt tapan kimi gələcək.

Araşdırıcılarla görüş

Avqustun 5-də mineral su vannası qəbul etdikdən sonra dincəlirdik. Safulya Batırbiyeva otağımıza gəldi. Üzü gülürdü, ərklə:

– Durun, hazırlaşın, indi dincəlmək vaxtı deyil. Sizi qonaq aparmağa gəliblər. Malkarların şair və alimləri sizi yaxından tanıyırmışlar. Gələnlərin biri də malkarların ünlü şairi, şagird yoldaşım Axmat Sozayevdir, – dedi.

Biz özümüzü səliqəyə salıb həyətə endik. Nalçik Dövlət Universitetində kafedra müdiri, professor Burxan Berberov, Elmlər Akademiyası folklor şöbəsinin müdiri, milliyətcə qaraçay olan Hamid Malkondiyev, şair Axmat Sozayev ağacların kölgəsində ayaqüstü söhbət edirdilər.

Onların bizi qarşılaması, səs-küylü görüşləri sanatoriyanın həyətindəkilərin deyil, kabinetlərdəki həkim və tibb bacılarının da diqqətini çəkdi. Kimisi nə baş verdiyini bilmək

üçün həyətə çıxdı, kimisi də pəncərədən boylandı. Axmat Sozayev dedi ki, sanatoriyada yerləşdiyiniz gündən xəbərimiz vardı. Həmin gün gəlmədik ki, yol yorğunluğunuz çıxsın. Dincəlib özünüzə gələsiniz, sonra görüşək. Bu gün şənbədir. Biz işdə deyilik. Sizin də gün-ortadan sonra prosedurlarınız olmadığını bilirik.

Gənclərin ətrafımızı sarması vəziyyəti dəyişdi. Onların əksəriyyəti Axmat Sozayevlə şəkil çəkdirməyə çalışırdılar. Onun şairliyi və uzun müddət televiziyada işləməsi öz işini görmüşdü. Universitet müəlliminə, akademiya işçisinə diqqət yetirən yox idi.

Təklif etdim ki, biz bir az aralanaq, gənc qızlar şairlə şəkil çəkdirib söhbət edə bilsinlər. Burxan Berberov dedi ki, yay tətili olmasaydı, sizi görməyə gələnlərin sayı çox olacaqdı. Kimi ailəsi ilə dəniz sahilinə dincəlməyə gedib, kimi iş dalınca başqa şəhərlərə, kimi də ata-baba yurdundakı kəndə.

Axmat Sozayevlə ilk dəfə 1987-ci ilin iyulunda tanış olmuşduq. Onda mən xanımımla Quzey Qafqaza sanatoriyaya getmişdim. Sonuncu dəfə isə 1989-cu ilin avqustunda görüş-müşdük. İlk görşümüzdə Respublika Lenin Komsomol laureatı, gənc şairlə söhbətimiz o

qədər də alınmamışdı. Sovetlərin qızğın tərəfdarı kimi çıxış edirdi. Ölkədə gedən, "yenidənqurma"ya, "aşkarlığ"a da münasibəti o qədər yaxşı deyildi. Milli məsələlərdən, xalqların sürgünündən, repressiyadan da ehtiyatla danışırdı. Cəmi iki il sonra isə Bakıdakı mitinqlərlə və orada söylənən şüarlarla maraqlanırdı. Naxçıvanda keçirilən mitinqdə mənim həbs edilməyimə, istintaqıma dair suallar verirdi.

Əhalisi 40-50 min nəfər olan Naxçıvan şəhərində mitinqlərə bəzən şəhər əhalisinin sayı qədər adam toplaşdığını eşidəndə heyrətləndi. O qədər insanı necə bir yerə toplaya bildiyimizlə maraqlandı. İkinci dəfə görüşümüzdə ona Pribaltikadakı və Ukraynadakı Xalq Cəbhələrinin öndərlərinin telefonlarını və ünvanlarını verdim, məsləhət gördüm ki, onların qəzetlərini alıb oxusun. Sonralar bildim ki, müxalif fikirlilərlə nəinki əlaqə saxlayıb, heç onların qəzet-jurnallarını, kitablarını da oxumayıb. Bütün bunlara baxmayaraq, onunla əlaqəni kəsmir, bayramlarda təbrik açıqcaları göndərir, ildə bir, iki ildə bir telefonla zəng vurub hal-əhval tutur, Türkiyədə keçirilən şairlərin toplantılarına getməyə həvəsləndirir, tanışlarım vasitəsilə ona şeir şölənlərinə dəvətnamələr göndərirdim.

Burxan Berberov və Hamid Malkondiyevi isə 2004-cü ildən tanıyırdım. Onları çox çətinliklə Bakıda keçirdiyimiz "Ortaq Türk keçmişindən, ortaq türk gələcəyinə" simopoziumuna gətirdə bilmişdim. Martın 17-21-də keçirilən simpoziuma onlar indi Nalçik Dövlət Unversitetində prorektor işləyən, professor Boris Tetuyevlə gəlmişdilər. Onlar simpoziumun adından çəkinərək bir daha AMEA Folklor İnstitutunun toplantılarına qatılmasalar da, Boris Tetuyev iki-üç dəfə başqa toplantılarda iştirak üçün Bakıya gəldi.

Boris Tetuyev Bakıda gedən dəyişikliklərlə qürurlanırdı. Ona və Quzey Qafqazdan tanıdığım alimlərə Türkiyədə, Avropa ölkələrində, Güney Koreyada, Yaponiyada keçiriləcək elmi toplantıların dəvətlərini göndərirdim. Həm də yazırdım ki, mövzuya uyğun məruzənizi hazırlayın, mən də əlimdən gələn köməyi edəcəm. Amma onlar hər dəfə gileylənirdilər ki, göndərdiyim dəvət məktubları nədən rus dilində deyil. Bakıda olduğu toplantılarda da rus dilinin aparıcı olmadığından narazı qaldığını bildirirdi. "Siz Almaniyaya, Fransaya, İngiltərəyə, Amerikaya və başqa ölkələrdə keçirilən konfranslara getsəniz məruzənizi rus dilindəmi oxuyacaqsınız?" – deyə sual verdikdə o,

nə dediyimi başa düşsə də, yenə kürəyini yerə vurmayaraq: “Onlar xarici ölkələrdir. SSRİ respublikalarında gərək belə olmasın. Axı biz keçmiş Sovet vətəndaşlarıyıq”, – cavabını verirdi. Məndən yaşda kiçik olan bu alimlərin rus dilindən başqa bir dil öyrənməmələri, ana dillərini yaxşı bilməmələri xarici ölkələrdə keçirilən elmi konfranslarda görüşməyimizi əngəlləyirdi.



Soldan: Burxan Berberov, Əli Şamil və Axmat Sozayev Malkar Repressiya Muzeyi qarşısında



Qaraçay kəndlisi

Nalçikdə repressiya muzeyi

Malkarlar bizi Nalçikdə bir neçə il əvvəl açılmış Balkar Repressiya muzeyinə apardılar. Sanatoriya şəhərciyi ilə Nalçik şəhəri arasında tikilmiş birmərtəbəli bina yaşıllığın ortasındadır. Həyətdə malkarların ünlü şairi Kazım Bekkin ulu

(qıpçaq türkləri oğlu sözünü ulu və yaxud ulı kimi işlədirlər) Meçiyevin (Meçilanı) qəbri var.

Kazım Bekkin oğlu Meçiyev 1859-cu ildə o dövrki Tersk vilayətinin (indiki Rusiya Federasiyası Kabarda-Balkar Respublikası) Holam-Bızıngi bölgəsində yerləşən Şiki kəndində dəmirçi ailəsində doğulub. İndi həmin bölgə Rusiya Federasiyasının Kabarda-Balkar Respublikasına daxildir. Lakin şairin doğulduğu kənd artıq burda yoxdur. Çünki 1944-cü il martın 8-də Sovet hökuməti balkarları ata-baba yurdları Qafqazdan elliklə Türküstana sürgün etdiyindən bir çox kəndlər kimi Şiki kəndi də xaraba qalıb. Əslində bu Rusiyanın türk xalqlarını tarixi ata-baba yurdları olan Güney bölgələrindən, yəni dindaşları və soydaşları yaşayan Osmanlı dövlətinin sərhədlərindən qovma siyasətinin son mərhələsi olub.

Şiki kəndində yaşayan dəmirçi Bekkinin Kazım adını qoyduğu oğlu doğulan il Qafqaz xalqları üçün kədər və qüssə ili olub. Rusiya İmperiyasının işğalçılıq siyasətinə qarşı 30 il müqavimət göstərmiş xalq üsyana ara verib. Üsyana rəhbərlik edən, tarixə adını qızıl hərflərlə yazdıran, təslim olsa da, yaddaşlarda qalib kimi qalmış Şeyx Şamil din adamlarının qərarı ilə

mübarizəni dayandırdığını elan etsə də, Rusiyanı bir sıra islahatlar aparmağa məcbur edib. Rusiya təhkimçilik hüququnu ləğv etməli olub. Şeyx Şamilin başçılıq etdiyi silahlı müqavimətin nəticəsindən rus xalqı da yararlanıb.

Kazımın adı və soyadı Kazım Bekkin ulu Meçilanı kimi də yazılır. Bizim "oğlu" kimi tələffüz etdiyimiz və yazdığımız sözü qıpçaq kökənli balkarlar, qaraçaylar, noqaylar, qazaxlar, qırğızlar ulu şəklində tələffüz edir və yazırlar. Kazım uşaqlıqdan fiziki məhdudiyyətli bir uşaq olub. Fiziki gücünü tətbiq etməklə, yəni ağır dəmirçi əməyi ilə ailəsini dolandıran Bekkin övladının belə vəziyyətdə dağlar qoyununda, təbətin sərt üzünü göstərdiyi bir bölgədə yaşaya bilməsinin çətin olacağını görüb, kiçik yaşlarından iti hafizəsilə diqqəti cəlb edən, yazmağa və oxumağa meyilli oğlunu kəndə tez-tez gələn din adamı Çepelli əfəndiyə verib ki, onu oxutsun.

Xalq arasında böyük nüfuzu olan və xeyirxahlığı ilə tanınan Çepelli əfəndi kiçik Kazımı özü ilə Bızınq kəndinə gətirərək ona təhsil verib. Üç ildən sonra isə onu Lesken kəndindəki mədrəsəyə göndərib. Dəmirçi Bekkinin oğlu mədrəsədə yalnız dini elmləri

öyrənməklə kifayətlənməyib, türk, ərəb, fars dillərinin qrammatikasını, poeziyanın nəzəriyyəsini öyrənib və şeir yazmağa başlayıb.

Kazım Bekkin oğlu doğulduğu kəndə döndükdən sonra mollalıq etməyib. O, həm dini bilikləri təbliğ edib, həm də şeirlər və poemalar yazıb. 1891-ci ildə mövzusunu Qurandan götürərək tamamladığı "Tahir və Zöhrə" poeması böyük maraqla qarşılanıb. Çünki bu mövzuda bir çox ünlü şairlər türk, fars, ərəb və b. dillərdə gözəl sənət əsərləri yaradıblar. Kazım Bekkin oğlunun məharəti onda olub ki, yazılı ədəbi dil ənənəsi olmayan balkar türkcəsinin dialektlərindən yararlanaraq həm dərin fəlsəfi fikri bədii şəkildə verə bilib, həm də yazı dilini formalaşdırıb. Malkar ədəbiyyatının ilk poeması sayılan bu əsər xalq tərəfindən maraqla qarşılanır.

İlahiyyatçı şair 1898-ci ildə "Şikayət" poemasını yazır, 1906-cı ildə Teymurxan-şurada "İman-İslam" adlı kitabını nəşr etdirir. Bu poema malkar türkcəsində ilk mətbu əsər sayılır. Şairin 1918-ci ildə Teymurxan-şurada çap etdirdiyi "Soltan-Hamid al Çeqemi" kitabına daxil edilmiş şeirlərin əksəriyyəti Çeqem dərəsində yaşayan malkarların Soltan Hamid Kalabeyin başçılığı ilə Ruslara qarşı üsyanından bəhs edir.



Uçkulan kəndindən bir Qaraçay ailəsi. Kuban quberniyası, 1900-cı illər

1903-cü ildə 44 yaşlı Kazım Meçiyev həcc ziyarətinə gedib. İlahiyyatçı şair fiziki cəhətdən zəif olsa da, iradəcə olduqca güclü olub. O, 1910-cu ildə ikinci dəfə həcc ziyarətinə getməklə yanaşı İstanbula, Şama, Bağdada və b. şəhərlərə səyahət də edib. Misirə səyahəti zamanı Qahirədəki Əl-Əzxər Unversitetinə daxil olaraq ilahiyyata dair biliklərini artırıb. Doğunun bir çox şəhərlərini gəzib, ünlü şəxsiyyətlərlə görüşməsi, biliyini artırması onun

dünyagörüşünün genişlənməsinə olduqca böyük təsir edib.

İlahiyyatçı şairin ilk kitabı 1906-cı ildə Teymurxan-şurada, indiki Dağıstan Cümhuriyyətinin Buynaksk şəhərində çap olunub. Kitaba daxil edilmiş "İman-İslam" didaktik poeması əsəri balkar türkcəsində ilk mətbu əsər sayılıb.

İti hafizəsi sayəsində xalq arasında geniş yayılan mahnıları, cırları və dastanları yaddaşında saxlayıb və onların təsiri ilə ilk şeirlərini yazmağa başlayan Kazım Bekkin oğlu az bir zamanda şifahi xalq ədəbiyyatını, aşıq-ozan ənənəsini yazılı ədəbiyyata gətirən bir ustad kimi tanınıb. "Peyğənbər" poemasını, "İsmayıl kıssası" və b. əsərlərini yardıb. "İsmayıl kıssası" əsərində Qurani-Kərimdə özünə yer tapan, İslam dinində olduqca önəm verilən, Allaha insanın qurban kəsilməsinə son verən, insan qurbanının qoçla əvəz olunması hadisəsi təsvir edilib.

Hacı Kazımın şeirləri bölgədə dillər əzbəri olub. Onun şeirlərini toylarda, məclislərdə xalq mahnıları kimi oxuyublar. Xalqının çoxsaylı təbəqəsinin təhsil almağa imkanı olmadığını görən Kazım dini mövzuları xalq şeiri ruhunda, sadə və anlaşıqlı dildə nəzmə çəkib. Onun

yazdığı zikrlər xalq arasında geniş yayılıb. Bu da insanların İslam dini ilə yaxından tanışlığına, onun qaydalarından xəbərdar olmalarına şərait yaradıb.

1914-cü ildə Teymurxan-şurada "İman-İslam" əsəri yenidən çap edilib. Şairin 1918-ci ildə yenə Teymurxan-şurada çap etdirdiyi "Soltan-Hamit al Çegemi" şeiri də xalq arasında yayılıb. Balkarların yaşadığı Çegem dərəsində üsyan qaldırmış insanların rəhbəri Soltan Hamit Kalabeyə həsr etdiyi bu şeirin həcmi böyük olsa da, xalq onu əzbərləməkdən zövq alıb.

Yaradıcılığı çoxcəhətli olan Kazım Meçiyev şeirlərində ən çox insanı tərənnüm edib. "Adımız insandır" şeirində şair ədəbiyyatda humanizm məsələsi ətrafında gedən mübahisələrə münasibətini bildirib və insanın ən yüksək qiymətə layiq olduğunu göstərib. "Ovçuların mahnısı", "Buz jigit" şeirlərini və "Tahir və Zöhrə" poemasını bu sənətkarın şəxsiyyət konsepsiyası saymaq olar.

Birinci Dünya Savaşını şeirlərində və moizələrində kəskin tənqid edən Kazım Meçiyev vətəninin Rusiya işğalından azad edilməsinə can atanlardan olub. 1917-ci ildə II Nikolayın taxtdan uzaqlaşdırılması, bolşeviklərlə ağqvardiyaçılar

arasında gedən qanlı savaşlar, Quzey Qafqaz xalqlarının birləşərək Rusiya işğalından azad dövlət qurmaları ilahiyyatçı şairin içində tərəddüdlər yaradıb.

O, bütün varlığı ilə savaşların durdurulmasını, insan qanının axıdılmasına son qoyulmasını istəyib. Bolşeviklərin sosial ədalət, savaşları durdurmaq, xalqlara azadlıq vermək haqqındakı şüarları Kazım Meçiyevi də inandırıb.

1920-ci ildən sonra kommunist partiyasını, Oktyabr inqilabını, kommunist öndərlərini, bir sözlə, sosializm quruculuğunu, Sovetlər Birliyini tərifləyən şeirlər də yazır. 1944-cü il martın 8-də 85 yaşlı şairi də yaşadığı Kisibalık kəndindən xalqı ilə birlikdə sürgünə göndərirlər. 1945-ci il martın 15-də sürgündə dünyasını dəyişən şairin nəşi 1999-cu ildə Taldı Kurqan vilayətinin Telman kəndindən Nalçikə gətirilərək muzeyin həyətində təntənə ilə dəfn edilir.

Biz öncə onun qəbrini ziyarət edib, Fatihə oxuduqdan sonra muzeyə keçdik.

Repressiya muzeyi Sovet dövrünün qaydaları əsasında qurulsa da, eksponatlarının zənginliyi ilə diqqətçəkicidir. Həssas tamaşaçının muzeyi diqqətlə və sonadək gəzməsi çətindir.

Çünki özünü bir anlıq işgəncə çəkən insanlar arasında hiss edirsən.

Muzeydə Həsən bəy Zərdabinin xanımı Hənifə Abayevaya (1856-1929) da yer ayrılıb. Onun maarifçilik fəaliyyəti haqqında qısa bilgi verilib.

Muzeyin işçilərinə və malkar aydınlarına: "Hənifə xanım və onun ailəsi haqqında geniş bilgi verən eksponatlar çox olsa yaxşıdır. Cünki repressiyanı əks etdirən eksponatlar tamaşaçını çox bədbinləşdirir. Bir neçə nikbinlik oyadan, insanlara həyatı sevdirən eksponatlar da olsa, yaxşı olar, dedim. Onların sual dolu baxışlarını görüb Həsən bəylə Hənifə xanımın evliliyindən danışdım. Dedim ki, 1865-ci ildə Moskva Universitetini bitirib Azərbaycana dönən Həsən bəy Məlikov (Məlikov Həsən bəy Zərdabinin soyadıdır) savadlı müsəlman qızı ilə evlənmək istəyir. Lakin belə bir qız tapa bilmir. 1872-ci ildə "Qafqaz" qəzetində bir yazıya rast gəlir. Orada Tbilisidəki Müqəddəs Nina qız məktəbini bitirənlərin siyahısı verilibmiş. Həmin siyahıda Terek vilayətinin Nalçik şəhərindən olan Hənifə xanım Abayevanın da adı varmış. Bu ad Həsən bəyin diqqətini çəkir.

O, Tbilisiyə gedir, məktəbin direktoru ilə görüşüb istəyini ona bildirir. Direktor Həsən bəylə Hənifə xanımı görüşdürür. Hənifə xanım Həsən bəyin savadına, davranışına heyran qalır və ona ərə getməyə razılıq verir. Həsən bəy Məlikov molla gətirdib kəbin kəsdirir. Beləcə, Hənifə xanım Abayeva Nalçikə qayıtmır, Bakıya gəlir və Məlikova olur.

Evlilikdən Pəri, Qəribsultan adlı qızları, Midhət və Səffət adlı oğlanları dünyaya gəlir.

Onların böyük qızı Pəri xanım Rusiya Müsəlmanları Qurultaylarına sədrlik edən, Azərbaycan Cümuriyyətinin qurucularından biri olan Əlimərdan bəy Topçubaşovun xanımı olub.

Onlar belə qəribə evliliyə güldülər. Mən bir az da "Əkinçi" qəzetinin nəşrində Hənifə xanımın rolundan, Midhətin 1937-ci ildə repressiyaya məruz qalıb güllələnməsindən, qızı Fatmanın repressiya illərində Bakıdan uzaqlarda, Stavropola sürgün olunmasından danışdım.

Sonrakı söhbətimizdən də aydın oldu ki, istər malkar şair və araşdırıcılarının, istərsə də muzey işçilərinin Hənifə xanımın nəsli haqqında geniş bilgisi çox azdır. Bir onunla qürurlanırlar ki, Hənifə xanımın atası Aslanbəy rus ordusunda ilk malkar zabit olub.

Hənifə xanımın 1880-ci illərdə qızları Pəri və Qəribsultanla ata-baba yurdu Günnüm kəndinə getdiyini yazırlar. Günnüm auluna gedib o yerləri ziyarət etmək istədiyimi bildirəndə ürək ağrısı ilə kəndin xarabalıqları qaldığını söylədilər.

Muzeydə Hənifə xanımın nəslinin, ailəsinin, Həsən bəy Zərdabinin xidmətlərinin geniş işıqlandırılması təkcə malkarlarla Azərbaycan arasında deyil, türk dünyası ilə aralarında əlaqələrin genişlənməsinə böyük təsir göstərə biləcəyi fikrimlə razılaşdılar.

Adətən repressiya deyəndə yadımıza 1930-40-cı illərdə insanların təqib edilməsi, həbsxanalara və sürgünlərə göndərilməsi, güllələnməsi düşür. Balkar Repressiya Muzeyində isə Rusların Quzey Qafqazı işğal etməyə başladıqdan günümüzədək olan dövrə dair sənədlərə rast gəlmək olur. 1957-ci ildən sonrakı sənədlər azdır və əsasən də, qəzet jurnallarda çap olunan yazılar, fotolardır.



Soldan: Burxan Berberov, Əli Şamil və Ahmed Sozayev Kazım Meçilanının qəbri başında

Aksu kəndində axşam süfrəsi

Muzeydən çıxdıqdan sonra Nalçikin yaxınlığındakı Aksu kəndinə getdik. Sürgündən döndükdən sonra Axmat Sozayevin ailəsi bu kənddə yerləşib. Ahmed ali məktəbi bitirdikdən sonra Nalçikdə yaşamağa başlayıb. Kəndin içərisində keçəndə ikimərtəbəli, qapısı-pəncərəsi olmayan bir binanı göstərən Ahmed: "Bura mənim

orta təhsil aldığım məktəbdir. Bu bina ilə bağlı şirin xatirələrim var. Şeirlərimin bir çoxunun mövzusu da bu məktəblə bağlıdır", – dedi.

Ahmedin kövrək danışması məni təsirləndirdi. Xahiş etdim ki, binanın qarşısında dursun, şəkilini çəkim. Malkarların üçü də birdən, elə bil şərtləşmiş kimi: "Yox, lazım deyil. Üç mərtəbəli yeni məktəb binası tikiblər. Gedər, orada şəkil çəkdirərik", – dedilər. Mən onların narahatçılığını başa düşdüm. Demokratik düşüncə olmayan yerlərdə həmişə belə olur. Onlar qorxdular ki, mən şəkil çəkib mətbuatda, kitabda verərəm, şəkli görən hakimiyyət orqanları onlara "Niyə imkan veribsiniz, qonağınız xarabanın şəkilini çəksin", – deyər və ya cəzalandırar.

Axşam sanatoriya şəhərciyindəki gölün kənarında, malkarların işlətdiyi bir kababxanada əyləşdik. Mən malkarların durumu, orta və ali məktəblərdə ana dilində təhsilin səviyyəsi, son illərdə nəşriyyatlarında hansı kitabların çap olunması və s. maraqlanırdım. Onlar isə Sovet dövründən danışırdılar. Hiss edirdim ki, keçmişdən qopmaq istəmirlər. Güzəranları ötən illərlə müqayisədə yaxşılaşsa da, əməklərinin dəyərləndirilməməsindən, yəni fəxri fərmanlar,

orden və medalların verilməməsindən, təntənəli toplantıların təşkil edilməməsindən gileylənirdilər.

Hamid Malkonduyev folklorun kiçik janrlarını, xüsusən ovsunları, mərasimləri, əyələrlə bağlı mətnləri və s. araşdırır. Bu mövzuda bir neçə kitabı çap olunub. Kitablarını nəzərdən keçirdikdə, söhbət etdikdə Sovet dövrünün təfəkküründən çıxa bilmədiyi hiss olunur. Yazdığı əsərlərdə Avropa, Amerika, Türkiyə, İran araşdırıclarının əsərlərində istifadə etmir. Bunu həmin ölkələrdə nəşr olunan kitabları və elmi məqalələri tapa bilməməsi ilə bağlayır. Mən sual verdim ki, tatar, başqırd, saka, şor, qazax, qırğız, özbək araşdırıcılarının kitablarını, məqalələrini tapmanız o qədər də çətin deyil, bəs nədən onlardan istifadə etmirsiniz? Sözü ora-bura yozmağa çalışdılar. Mənim əl çəkməyəcəyimi gördükdə: "Pantürkist damğası vurulmasını istəmirik", – dedilər.

Təklif etdim ki, Dədə Qorqud dastanları ilə qaraçay-malkar nartlarını müqayisəli şəkildə öyrənsinlər. Onların yazdığı kitabın Azərbaycanda və Türkiyədə nəşrinə mən vasitəçi olum. Onunla da razılaşmadılar. Dedilər ki, bu

mövzunu Türkiyəyə oxumağa gedən uşaqlarımıza verin. Onlar yaza bilərlər.

Hamid Malkonduyev sual verdi ki, Güney Azərbaycanı Azərbaycan Respublikasına nə vaxt birləşdirə biləcəyik? Mən də zarafatla: "Sizlər Qarabağ probleminin həllində Azərbaycana nə vaxt kömək etsəniz onda!" – dedim. Cavabıma üçü də güldü. Söhbətin mövzusu dəyişdi və biz İran İslam Respublikasından və orada yaşayan türklərdən danışmağa başladıq. Mən orada qaşqayların, xələclərin, türkmanların və başqa türk xalqlarının yaşadığı yerlər və onların sayı haqqında bilgi verəndə çox heyrətləndilər. Maraqlandılar ki, onların danışdığını başa düşmək olurmu? Gülərək: "Siz başa düşməsəniz də, biz başa düşürük!" – dedim. Hamid Malkonduyev "Onlar farsların əsarəti altındadır, ana dillərində məktəbləri, universitetləri, qəzet-jurnalları, televiziya və radioları yoxdur", – deyəndə mən yenə zarafata salaraq: "Amma onlar evdə də, küçədə də, bazarda da türkcə danışırlar. Təbrizdə ana dilində danışmayana ətrafdakılar çox pis baxır. Amma siz mənim yanımda malkarca danışırsınız, məndən üç addım ayrılan kimi bir-birinizlə yenə rus dilində danışmağa başlayırsınız. İranda istər Təbriz olsun,

istər Şiraz, istər Xorasan, istər Həmadan... türklər evdə oğul-uşaqları ilə türk dilində danışmağa üstünlük verirlər. Tehranda belə küçə və bazarda, hətta dövlət idarələrində tərcüməçisiz keçinmək olur. Mənə deyə bilərsinizmi, İranda assimilasiya güclü gedir, yoxsa Rusiya Federasiyasında?" – dedim.

Hamid Malkonduyev duruxdu, bilmədi nə cavab versin. Burxan Berberov susurdu. Vəziyyətdən çıxmaq üçün Axmat Sozayev zarafata keçdi: "Nə vaxt bizi İrana aparıb oradakı türklərlə tanış etsən, sualına onda cavab verəcəyik", – dedi.

Mən hər ay minlərlə insanın İran İslam Respublikasına müalicəyə getdiyindən, orada səhiyyənin səviyyəsinin RF-dən çox yüksək olduğundan, Tehran xəstəxanalarında Moskvadan gələn xəstələri gördüyümdən söhbət açanda təəccüblərini gizlətmədilər. Bir az da oradakı vergi sistemindən, qayda-qanundan, qadınların hüquqlarından danışanda lap təəccübləndilər. Oradakı inkişafın səbəbinin xaricə getmək istəyənlərə qapıların həmişə açıq olduğunu, bunun nəticəsində də minlərlə gəncin gedib Avropanın, Amerikanın ali məktəblərində oxuyub vətənə qayıtdıqları olduğunu dedim.

Ölkədəki İslam rejimini kommunist rejimi ilə müqayisə etdim. İranın bugünki durumunun ağır olmasının səbəbini xarici ölkələrin embarqosu olduğunu söylədim.

Söhbətimiz o qədər uzun çəkdi ki, qarsonu çağırıb əlavə yemək sifariş verəndə dedi ki, hamı gedib, onunla qarovuldan başqa kimsə qalmayıb.

Malkarların Göygölü

Dünyanın müxtəlif yerlərində kiçik dağ göllərinin bəziləri Göygöl adlandırılır. Kiçik Qafqazdakı Göygöllərdən biri Gəncə yaxınlığında, Kəpəz dağının ətəyində, biri Şəmkir çayın başlanğıcında, biri də Ordubad rayonundakı Gəmiqaya dağının yamacındadır. Böyük Qafqazdakı Göygöllərin biri Abxaziyada, Aşağı Göygöl və Yuxarı Göygöl isə Kabarda-Balkar Respublikasındadır.

Sovet dövründə Quzey Qafqaz sanatoriyalarında olanda Çerek Balkar çayının sahilindəki Aşağı Göygölə də getmişdim.

Böyük Qafqazın Dıx tay (dağ), Koştan tay zirvələrinin suları axdığı dərələrin adıyla Çerek Xula və Çerek Balkar adlandırılır. Bu çaylar

Babuqrent kəndində birləşəndən sonra Çerek adlanır. Nalçik, Baksan çayı ilə birləşib Proxladın qəsəbəsi yanında Malka çayına tökülür. Malka çayı da Tərəkə qovuşub Xəzərə axır.

Turist səfərləri zamanı o yerlərin gözəl təbiət mənzərələrini seyr edir, dincəlir, həm də oradakı səyyar bazarlardan özümüzə və dost-tanışa malkarların keçi tifdiyindən (anqorka) toxuduqları qış geyimləri alırdıq.

Avqustun 6-da Aşağı Göygöl və Yuxarı Balkariya kəndinə təşkil ediləcək turist səfərinə iki bilet aldıq. Məqsədimiz Həsən bəy Zərdabinin xanımı Hənifənin babalarının tikdirdiyi Abay qalasını ziyarət etmək idi. Yuxarı Balkar kəndini yaxınlığında, Çerek Balkar çayının sol sahilində dağ yamacındakı aulun xarabalıqları arasında Abay qalası ucalır. Buralarda qala deyəndə adətən geniş ərazili, uca hasarlı qala-şəhərləri nəzərdə tutulmur. Dördkünc, 15-20 metr hündürlüyündə, kiçik pəncərəli müşahidə qüllələri qala adlanır.

Nalçikdən təxminən 40 kilometr aralıda, Çerek Balkar çayının kənarındakı Aşağı Göygöl də o qədər böyük deyil. Avtobusumuz gölün yanında durmadan Yuxarı Balkar kəndinə doğru irəlilədi. Bir tunelə çatdıqda durmalı olduq. Bildirdilər ki, tuneldə təmir işləri gedir. Ona görə

avtobus bir saata yaxın yubanacaq. Kim istəsə, burada avtobusu gözləsin, kim gəzmək həvəskarıdırsa, keçmiş dağ yolu ilə tunelin o başına kimi piyada getsin.

Qoca olsaq da, sərin dağ havası almaq, yamacdan dərənin dibi ilə axan dağ çayına baxmaq, suyun qıjıltısını dinləmək üçün piyada getməyi qərara aldıq. Avqustun 6-sı olmasına baxmayaraq, burada yamacların otu hələ biçilməmişdi. Dağ çiçəklərinin çoxu yeni açırdı. Yol boyu malkar qadınları ayran, yerli meyvələr, toxuduqları paltarları, ağaclardan düzəltdikləri hədiyyəlik əşyaları, dərman bitkiləri satırdılar.

Təxminən 250, 500, 800 qramlıq plastik qablardakı kiçik, yumru və çil-çil əriklər diqqətimi çəkdi. Naxçıvanda olarkən bu əriklərdən çox yemişdim, qurusundan da qışda xörəklərdə istifadə edirdik. Gözəl ətiri vardı. Neçə illər idi, Bakı bazarında belə əriyə rast gəlmirdim. Naxçıvanlılar ona qığ ərik deyirlər. Ərik hər yerdə sovuşsa da, burada yeni-yeni yetişir. Sanatoriyada olduğumuz günlərdə yeməyə bir neçə qutu ərik aldıq.

Yeni tikilmiş tuneldən Yuxarı Balkar kəndinə məsafə o qədər də uzaq deyil. Turist cəlb etmək üçün tunellərin vurulması, yolların

asfaltlanması bölgədə yaşayan malkarların da xeyrinədir. Bu işlər görülməsə, qar yağan zaman dağ yamaclarında, dərələrdə yerləşən kəndlərin sakinlərinin şəhərlə əlaqəsi kəsilər və bu vəziyyət, təqribən, altı ay davam edə bilər.

Yuxarı Balkar kəndində yeni tikilmiş məscid, məktəb, evlərin abadlığı onu göstərir ki, adamlar köçüb getmək fikrində deyillər.

Malkar Azretlə söhbət

Avtobusumuz mənzilə çatdı. Burada yeni restoranlar, kafelər, qonaq evləri tikilib, çayların üzərində gözəl körpülər salınıb. Bələdçimiz bizi gətirən avtobusun iki saatdan sonra geri dönəcəyini bildirdi. Bu vaxtdan kim necə istəyir, elə istifadə edə bilərdi. İki saatdan sonra hamı avtobusda olmalıydı.

Mən xanımımla vaxtdan necə istifadə edəcəyimizi planlayırdıq. Yoldan keçən yaşlı birisi bizə yaxınlaşanda addımlarını yavaşıtdı. Deyəsən, bəzi sözləri başa düşdüyü üçün salam verdi. Biz də gülər üzlə onun salamını aldıq. Xoş baxışımız onu həvəsləndirdi. “Türkmüsünüz?” – deyə xəbər aldı. Mən elə bildim, qoca malkar bizi

türkiyəlilərə bənzədir. Dəqiqlik olsun deyə: “Azərbaycanlıyıq”, – dedim. O gülərək “Azərbaycanlı da türkdür, malkar da, qaraçay da”, – dedi.



Əli Şamil Abay qalası önündə

Bu kiçik dialoqumuz məni onunla tanışlığa həvəsləndirdi. Təklif etdim ki, yaxınlıqdakı kafe və restoranların birində oturub söhbət edək. Bir az fikrə gedib “Buradakı restoran və kafelərdə müsəlman oturmaz”, – dedi və nə fikirləşdisə:

“Yaxınlıqda “Əski Mecid” adlı bir restoran var. Orada mənim tanıdığım gənclər işləyir. Onlar bizə qaydasınca qulluq edərlər”, – dedi.

Söhbət edə-edə “Əski Mecid” restoranına gəldik. İçəri girərkən mən əlimi yumaq bəhanəsilə yubandım. Restoranı işlədənin yanında pul qoydum ki, bizim xərclərimizi oradan çıxsın. Bir az tərəddüdlə baxsa da, pulu götürdü.

Süfrə arxasında oturandan sonra tanış olduq. Azret kişi malkar olsa da, türkcə sərbəst danışırdı. Türk dilini harada öyrəndiyini xəbər aldıqda dedi:

– Sürgünə gedəndə üç yaşım olub. Orada malkarlar az, axısqalılar çox idi. Evdə malkarca, bayırda axısqalılar kimi danışırdıq. 1957-ci ildə biz vətənimizə döndük, onlara icazə vermədilər. Yaşıdlarım buraya döndükdən sonra da bir-biri ilə zarafatla türkcə danışırdı. İndi onlardan 5-10 qarı, 4-5 də erkək qalıb. Son 20-25 ildə ancaq sizin kimi turistlərlə türkcə danışıram.

Sürgündən əvvəl doğulduğu kəndi, evlərini xatırlayıb xatırlamadığını xəbər aldım. Dərin bir ah çəkərək:

– Sürgündən geri dönəndə elə bilirdim, buraları görmüşəm. İllər keçəndən sonra başa düşdüm ki, 3 yaşlı uşaq hər şeyi belə dəqiqliyi ilə

yadında saxlaya bilməz. Kəndimiz, evimiz, buradakı bulaqlar, çaylar haqqında yanımda o qədər danışmışdılar ki, geri dönəndə elə bilirdim, bu yerlər yadımda qalıb.

Azret kişi insanlardan da xeyli gileyləndi. Dedi ki, sürgünə göndəriləndə evimiz, ev əşyalarımız, mal-qaramız hamısı qalmışdı. Hökumət aşağıdakı düzən, əkin sahəsi geniş olan kəndlərə rusları, ukrayınları və başqa millətdən olanları yerləşdirə bilmişdi. Dağ kəndlərinə isə gələn olmamışdı. Sahibsizlikdən istifadə edən çobanlar, ovçular, yoldan keçənlər evləri dağıtmış, yandırmışlar. Biz gəldik, hər yeri xaraba gördük. Deyirdilər ki, qışda burada hər il neçə adam ölürdü. Çünki bir yerdən başqa bir yerə getməli olanlar daldalanmağa nə bir kənd tapa bilirdilər, nə örtülü bir yer, nə də isti bir ocaq. Buradakı evləri sökənlərin, dağıdanların, yandıranlarının özləri əməllərinin qurbanına çevrilirmiş.

Azret kişidən xəbər aldım ki, nədən kəndlərin çoxu xarabadır? Onlar sürgün yerindən geri qayıtmadılar, yoxsa başqa yerlərə köçdülər? Cavabı bu oldu ki, dağ kəndlərində əkinə yararlı torpaqlar az olduğundan, həm də düşməndən, vəhşi heyvandan qorunmaq üçün keçmişdə evləri

dağ yamaclarında, bir-birinə yaxın tikirdilər. Harada bir balaca düzən, əkinə yararlı torpaq görürdülər, oranı da əkib becərirdilər. Beləcə, yaşamlarını təmin edirdilər. Sürgündən geri dönəndən sonra adamlar basqınlar, silahlı toqquşmalar dövrü geridə qaldığını görüb çay kənarlarında, düzən yerlərdə ev tikdilər. İstədilər, həyətlərində 5-10 sot torpaq olsun, orada kartof, kələm, kök, pazı əkib qışda ailələrini keçindirsinlər. İndi həmin yerlərdə meyvə ağacları əkiblər.



Əzizə Şamil Çerek Balkar çayı üzərindəki körpüdə

Azret kişi Çerek Balkar çayının sol sahilində xarabalıqda yeganə salamat qalan Abay qalasından, onunla üzbəüzdəki, çayın sağ sahildəki Əmirxan qalasından da xeyli söhbət etdi. Babalarından da gileyləndi. Onların aralarındakı tayfa davasından, kənd davasından danışdı və xırda bir şeyi qan düşmənçiliyinə çevirmələrindən, qan düşmənçiliyinin yüz illər boyu davam etməsindən, qan düşmənçiliyinə görə neçə soyun yox olmasından olduqca maraqlı söhbətlər etdi.

Sözünü belə yekunlaşdırdı ki, babalarının yanlışlıqları olmasaydı, xalq bu günə qalmazdı. Çox heyifsiləndim ki, Azret kişinin danışdıqlarının hamısını yaza bilmədim.

Yeməkləri Azret kişi sifariş vermişdi. Özünün və bizim yaşımızı nəzərə alıb xəmir xörəkləri hazırlatmışdı. Söhbətimiz şirin olduğundan xörəyi necə yediyimizi də bilmədik. Qarsona dedim ki, restoranda türk qəhvəsi dəmləyə bilən varsa, bizə türk qəhvəsi hazırlatsın. O, özündən, işindən razı halda cavab verdi ki, Türkiyədə universiteti bitirib özünə ixtisası üzrə iş tapa bilməyən bir gənc burada işləyir. Gözəl türk qəhvəsi dəmləyir. Bizi də qəhvə içməyə o alışdırdı. Deyərəm, sizin üçün də dəmləyər.

Qəhvələrimiz gəldi. İçdik. Bizim də xoşumuza gəldi, Çerekli Azret kişinin də.

Azret kişi qarsonu çağırıb hesabı gətirməsini istədi. Ondan hesabın ödəndiyini eşidəndə bir anlığına çaşqınlıq keçirdi. Sonra özünü o yerə qoymayaraq:

– Bilsəm, həmişə hesab ödənəcək, həftədə bir dəfə gəlib türk qəhvəsi içərəm, – dedi.

Azret kişi ilə sağollaşıb ayrılandan sonra bir az da Abay qalasının ətrafında gəzinib avtobusumuzun yanına gəldik. Deyəsən, gecikməkdə olan biz idik. Avtobusa minən kimi yola düşdü.

Satıcıların ucuz malları turistlərə baha satması

Avtobus Aşağı Göygölün yanında yenə durdu. Burada da iki saatlıq fasilə verdilər. Gölün ətrafında gəzinib, alver edib, şəkil çəkdirdik. Nazik parçadan, uzun, milli ornamentli bir paltar diqqətimi çəkir. İstədim dostum Aydın Kərimin kiçik qızı Sevda üçün alım. O, AMEA Hüquq və İnsan Haqları İnstitutunun doktoranturasına sənəd vermişdi. Ondan az bal toplayan hansı nazirinsə gəlini olduğu üçün tələbə biletini almışdı. Sevda isə “havada qalmışdı”. Yüksək

vəzifəsi və nüfuzu olan bir neçə nəfər onun haqlı olduğunu bilsə də köməklik edə bilməmişdi. Sənət sahəsində məşhur olan nüfuzlu bir şəxs (məşhur heykəltəraş, Azərbaycan Respublikasının xalq rəssamı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Eldar Umarov) işə qarışandan sonra AMEA rəhbərliyi Hüquq və İnsan Haqları İnstitutunun doktoranturasına əlavə yer ayırmışdı. Sevdanın imtahanlardan sonra keçirdiyi həyəcan imtahanlardakından qat-qat çox olmuşdu.

Açığını deyim, mən ona heç bir kömək edə bilməsəm də, həyəcanla hadisələrin gedişini izləyirdim. Sevda gələn il də imtahan verib doktoranturaya qəbul oluna bilərdi, gedib xarici ölkələrin nüfuzlu ali məktəblərində də oxuya bilərdi. Buna onun savadı da, dil bilgisi də çatardı. Biz istəmirdik ki, Sevdanın inamı qırılsın, Azərbaycandakı bürokratik əngəllərdən, saxtakarlıqdan bezib xarici ölkələrə üz tutsun.

Gözüm tutduğu bu paltarı almaqla bir növ Sevdaya "rüşvət vermək", küskünlüyünü aradan götürmək istəyirdim. İstəyirdim Sevda düşünsün

ki, Azərbaycanda onun haqqını yeməyə çalışanlar olsa da, zəhmətini dəyərləndirənlər, öz haqqı uğrunda mübarizəsini alqışlayanlar da var.



Əli Şamil Çerek Balkar çayının sahilində.

Paltarın qiymətini xəbər aldım. Satıcı min rubl dedi. Xanımım paltarın parçasına baxan kimi onun 300-400 rubldan baha olmadığını deməsi satıcını bərk hirsləndirdi. Mən də paltarı almayıb göl ətrafında gəzməyi qərara aldım. Həmin paltardan başqa yerdə görmədim. Geri qayıdanda satıcı bizi dilə tutub 800 rublmuzu alaraq paltarı bizə verdi. Bunu ona görə belə təfsilatı ilə deyirəm ki, oxucular turistlərin çox getdiyi yerlərdə satıcıların mallarını iki-üç qat baha qiymətə satmağa çalışmasını, alıcıları dilə tutmasını bilsinlər. Biz Nalçikdə, qaldığımız "Mayak" sanatoriyasından 1500-2000 metr aralıda malkarların açdığı bazarda həmin paltarın 500 rubla satışa qoyulduğunu gördük. Bir az bazarlıq etsəydik, 400-350 rubla ala biləcəkdik.

Sirrləri yeni-yeni açılan Aşağı Göygöl

Aşağı Göygölün ətrafında bir-birindən o qədər də uzaq olmayan 5 kiçik dağ gölü var: Aşağı Göygöl, Yuxarı Göygöl (o, iki göldən ibarətdir), Qurugöl, Sirligöl.

Turistləri əsasən Aşağı Göygölə aparırlar. Dəniz səviyyəsindən 809 metr yüksəklikdə yerləşən, sahəsi 0,0216 kvadratmetr olan gölü

maraqlı edən yalnız gözəlliyi deyil. Ətrafı enliyarpaqlı ağaclarla örtülmüş, güzgü kimi hər şeyi özündə əks etdirən göl uzun illər sirrini qoruyub saxlaya bilib. Gölü öyrənmək istəyən neçə-neçə araşdırıcı, peşəkar akvalanq burada ya boğulub ölub, ya da yoxa çıxıb.

Son illər mühəndis-texniklərin yaratdıqları akvalanq-kabinələr insanların həyatını xilas edir. Onunla gölün dərinliyinə enən akvalanqlar müxtəlif dərinliklərdə yeraltı axınlar, mağaralar olduğunu görüblər. Öyrəniblər ki, gölün dərinliyi 279 metrdir.

Vulkan püskürməsindən yaranan göldən axan su ətrafdakı bulaqların suyundan çox soyuqdur. Belə ki, yay-qış burada suyun temperaturu 9,3 dərəcə olur. Suyunun tərkibindəki minerallara görə qış sərt keçən illərdə də göl donmur. Təsadüfi halda çaydan gölə gələn balıqlar da həmin dəqiqə ölür.

Malkarların Çerek göl adlandırdıqları gölün suyu həmişə göy rəngdə olmur, hava dəyişəndə sürməyi çalarda da olur. Dünyanın çox az göllərindəndir ki, suyun 22 metr dərinliyində olan hər hansı bir əşyanı normal gözlə görmək mümkün olur.

Avtobus sürücüsü bizi axşam yeməyinə çatdırmaq üçün yaman tələsirdi. Bir neçə dəfə döngələrdə az qaldı qarşıdan gələn maşınlarla toqquşsun.

Malkar aydınları ilə bölgənin demoqrafiyası haqqında söhbətimiz

Avqustun 8-də axşamüstü malkar tanışlar yenə gəldilər. Keçən dəfə həkimimiz Safulya Batırbiyevanın bacısının ad günü olduğundan bizimlə getməmişdi. Bu dəfə böyük həvəslə dəvətimizi qəbul etdi. Sanatoriya şəhərindəki süni gölün sahilindəki restoranda oturduq. Burada oturmaq bizə daha xoş idi. Çünki qaldığımız "Mayak" sanatoriyasında axşamlar ya akkardionda, sintizatorda çalır, ya da maqnitafon tipli cihazlarda lentlər fırladırdılar. Onları da səsgücləndiricilərə qoşurdular. Qocası da, cavanı da atılıb düşürdü. Səsdən nə sanatoriyanın həyətində oturmaq, gəzişmək olurdu, nə də otaqda yazıb-oxumaq. Ətrafımızdakı sanatoriyaların əksəriyyətində də vəziyyət belə idi.

Musiqinin səsini azaltmaq, yaxud sakitlik yaratmaq haqqında düşünməyə də dəyməz. Bunu bir mədəniyyət göstəricisi kimi qəbul edirlər.

Bilmirəm, bu Sovet dövrünün yadigarıdır, yoxsa keçmişdə də Rusiyanın şəhər, kənd və qəsəbələrində belə imiş.

Kiçik bilgisayarımı özümlə götürsəm də, səsküy işləməyə imkan vermirdi.

Tanışlar söhbətə yenə giley-güzarla başladılar. Axmat Sozayev gileylənirdi ki, şeirlərini nəşr edib, qonorar verən yoxdur. Sponsor tapıb kitabı nəşr etdirəndə də onu satmaq müşkülə çevrilir. Təntənəli toplantılar, yubiley tədbirləri də azalıb. Bir sözlə, dinləyici auditoriyasını itiriblər. Şeir oxumağa yer qalmayıb. Açıq-aşkar görünürdü ki, Ahmed Sovet dövrünün xiffətini çəkir. Lenin Komsomolu mükafatı aldığı günlərə, partiya-sovet rəhbərlərinin yubiley tədbirlərinə, Qələbə günü, Oktyabr Sosialist İnqilabının ildönümü, Leninin anadan olmasının ildönümlərində keçirilən toplantılarda şeir oxuduğu günlərə qayıtmaq istəyir.

Kitab nəşrinin çətinliyindən, qonorar ala bilmədiklərindən çox gileylənəcəklərini görüb söhbətin mövzusunu dəyişməyə çalışdım. Xəbər aldım ki, Kabarda-Balkar Respublikasında yaşayan malkarların sayı nə qədərdir?

Ahmed gülərək dedi:

– Gəlmə xalqların hamısının sayı gündən-günə azalır, bir ermənilərdən başqa. Son 20-30 ildə ermənilərin sayı iki dəfədən çox artıb. 5-6 min nəfəri keçib. Bilmirəm, bizimlə yaxın ləhcədə danışan, eyni dinin daşıyıcısı olan azərbaycanlılar niyə bu cənnət kimi yerləri qoyub gedirlər. Eyni dildə danışan qaraçaylar da burada qalmaq istəmir. Hakim xalq olan ruslar da.

Maraq məni bürüdü, xəbər aldım ki, ermənilər təbii artımlamı saylarını 5-6 min nəfərə çatdırıblar? Cavab verir ki, təbii artım hesabına deyil, Qafqazın güneyindən köçənlərin hesabına artıblar.

Mən gülərək:

– Ahmed bəy, Kabarda-Balkar Respublikasının əhalisinin sayı 900 minə yaxındır. Onun da 120-130 mini malkardır. Əksəriyyət də rusdillidir. Belə olan halda sizin şeirlər kitabına kim pul verəcək, kim alıb oxuyacaq?

Ahmed bəy dedi:

– Rus dilində çap olunan kitablarımı da alan yoxdur. Professor Hamid Malkonduyev, Burxan Berberov və başqaları da kitablarını rus dilində yazırlar. 400-500 tirajla çap olunur. Onları da alan yoxdu. Sovet dövründə kitab azı 10 min,

bəzən də 50-100 min tirajla çap olunurdu. Qısa müddətdə də satılıb qurtarırdı.

– Hörmətli şairimiz, birincisi, son illər dünyada kitab oxuyanların sayı sürətlə azalır, interneti izləyənlərin sayı artır. Mən internet izləyirəm, nə sizin, nə Hamid Malkonduyev və Burxan Berberovun, ümumiyyətlə, tanıdığım malkar şair və alimlərinin yazılarını internet saytlarında görmürəm. Əhalisi və təbii artımı az olan xalqların tarix səhnəsindən silinməsi normaldır, – dedim.

Bu yerdə söhbətimizə Safulya Batırbiyeva da qoşuldu:

– Hocam, təbii artım düzəlməyə doğru gedir. Sovet dövründə təbii artım yüksək idi. 1990-cı illərdən azalmağa başladı. 1999-2006-cı illərdə təbii artım çox aşağı düşdü. İndi 1993-cü ilin səviyyəsinə çatmışıq, – dedi.

– Mən təkcə sizləri qınamıram. Babalarımızı da qınayıram. İki gün öncə Abay qalasını görməyə getmişdik. Orada yaşı 80-ni haqlamaqda olan Azretlə görüşüb söhbət etdik. Onun keçmişdən, soylar arasındakı qan düşmənçiliyindən söylədikləri ürəyimi göynətdi. Babalarımız bir-biri ilə dalaşmaqdansa, birləşib xalqımız üçün iş görsəydilər, bizlər də bu gün

oturub gileylənməzdik. Başqa problemlərdən danışardıq, – dedim.

Başı yeməyə qarışmış Hamid Malkonduyev dikəldi və əlini süfrədən çəkərək dedi:

– Azreti yaxşı tanıyıram. Ondan xeyli folklor nümunəsi toplamışam. Dediyində həqiqət var, lakin elmi əsası yoxdu. Ruslara qarşı savaşda qaraçay-malkarlar qabardalılardan çox itki verdi. Sonra da Osmanlı dövləti ilə Çar Rusiyası arasında bağlanmış müqaviləyə görə də bizim babalarımızın çoxu buradan köçdü. 1918-1920-ci illərdəki döyüşlərdə ölənlərlə yanaşı aclıqdan, yoluxucu xəstəlikdən ölənlərin sayı da çox oldu. Ən ağır zərbəni isə İkinci Dünya Savaşı və sürgün vurdu. 34 min malkar 1926-cı ildə Kabarda-Balkar Respublikası əhalinin 15 faizini təşkil edirdi. Bu da ruslardan çox olduğumuzun göstəricisi idi. Sürgündən geri döndükdən sonra əhalinin siyahıyaalınması 1959-cu ildə aparıldı. Malkarlar onda 34 min nəfər idilər. Bu da təxminən 8 faiz demək idi. 1989-cu ilədək malkarlar 8-9 faizdə də qaldılar. Son siyahiyaalma göstərdi ki, biz burada 120 min nəfərə yaxınıq. O da 13-14 faiz deməkdir.

Burxan Berberov da müzakirəyə qoşularaq:

– Elə bilməyin azalan malkarlardır. Son illərdə Karaçay-Balkar Respublikasında sayı ən çox azalan xalq ukraynalılardır. 1926-ci ilin siyahıya almasında onlar 11 faiz idilərsə, indi 0,5 faizdən azdılar. Ruslar 1939-1989-cu illərə 35 və 31 faiz idilərsə, indi onların sayı da 22 faizə enib. Xulamo-Bezinqiyev, Çeqem, Çerek, Elburus rayonlarının əhalisinin yüzdə 70-95 faizi malkarlardır – dedi.

Söhbətimiz çox uzandı. Mövzudan mövzuya keçdik. Gah Türkiyədən danışdıq, gah Azərbaycandan. Açıq-aydın görünürdü ki, dünyanı hərbi gücü ilə sarsıdan Sovetlər Birliyinin çöküşü həmsöhbətlərimi yaman karıxdırıb. Yeni böyük qardaş, hami axtarırlar. Azərbaycanın, Türkiyənin onlara kömək etməsini, kitablarını çap etdirib qonorar vermələrini, ildə bir neçə aylığa universitetlərə mühazirə oxumağa dəvət edilmələrini istəyirlər. Amma fikirləşmirlər ki, rus dilindən başqa bir dil bilməyən və öyrənmək də istəməyən, öz dillərində danışmayan professorları, şairləri heç bir xarici ölkə dəvət etməyəcək. Deyəsən, bunu özləri də başa düşür. Ona görə də Putinə böyük rəğbətləri var. Hələ də gözləyirlər ki, Putin Rusiya

Federasiyasını keçmiş Sovetlər Birliyi kimi bir dövlətə çevirəcəkdir.

Keçən dəfə görüşəndə mən onlara Bakıdan gətirdiyim kitabları bağışlamışdım. Ariuka Qelyayeva, Yuruslan Bolatova, Boris Tatuyevin istədikləri kitabları da Burxan Berberova vermişdim ki, onlara çatdırsın. Bu dəfə də onlar mənə kitab gətirmişdilər. Bu kitablar arasında Axmat Sozayevin son illərdə yazdığı şeirlər toplusu, Burxan Berberovun 2011-ci ildə "KBİQİ" nəşriyyatında çap etdirdiyi "Тема народной трагедии и возрождения в карачаево-балкарской поэзии (на материале устной и письменной словесности 1943-2000 гг)", xanımı Zuxra Kuçukovanın 2015-ci ildə "Elburus" nəşriyyatında çap etdirdiyi "Карачаево-балкарская вертикаль", Hamid Malkonduyevin 2015-ci ildə "Peçatnıy dvor" nəşriyyatında çap etdirdiyi "Историко-героические песни карачаево-балкарского народа (конец 14-18 века)" və 2017-ci ildə "Print sentr" nəşriyyatında çap etdirdiyi "Карачаево-балкарский нартский эпос. Теория. Историзм. Самобытность" kitabları da vardı.

Ayrılanda Bakıya nə vaxt gedəcəyimizi xəbər aldılar. Bildim ki, bizi yola salmaq

istəyirlər. Gələndə də hədiyyə gətirəcəklər. Bu kasıb aydınları xərcə salmamaq üçün: "Dəqiqləşdirməmişik. Gediş biletləri də almamışıq", – dedim. Təklif etdilər ki, bazar günü bir daha görüşək, Nalçikdən kənarda olan tanışlarım və şəxsən tanımadığım malkar vətənpərvərləri də gəlsinlər. Mən qeyri-müəyyən cavab verdim və şənbə günü yola çıxmazdan əvvəl də telefonla sağollaşdım.

Baş tutmayan geri dönüş planı

Murtuza İsgəndər oğlu ilə razılaşmışdıq ki, geri dönəndə yenidən Vladiqafqaza gedək. Bir neçə gün alaq, azərbaycanlılarla görüşümüzü təşkil etsinlər. Oradan Hərbi Gürcüstan Yolu (Kazbek aşırımından keçən yol Hərbi Gürcüstan Yolu adlandırılır.) ilə Borçalıya gedək, tələbəlik dostum Osman Əhmədoğlunun qonağı olaq. Keçəli kəndindən uzun illər tanıdığım insanlarla dərdləşək.



Soldan: Ahmed Sozayev, Hamid Malkanduyev, Əli Şamil və Burxan Berberov

Həmin günlərdə Moskva televiziyası gündə bir neçə dəfə xəbər verirdi ki, Kazbek aşırımındakı sərhəd keçid məntəqəsində basırıq yaranıb. Adamlar üç gündür gömrüyü keçə bilmir. Növbələrə səbrim çatmadığından geri dönüş planını dəyişdik. Qatara bilet alıb birbaşa Bakıya gəldik.

15 sentyabr 2017-ci il

“Quzey Qafqaz sovetlərin çöküşündən sonra” məqaləsi Əli Şamilin “Yol dəftərimdən: Quzey Qafqaz, Ukrayna, Moldova və Güney Koreya” kitabından (Bakı, “Köhlən” nəşriyyatı, 2022, səh. 15-100) ixtisarla alınmışdır.

QARAÇAY-MALKAR (BALKAR) TÜRKLƏRİ ƏDƏBİYYATININ İNKİŞAF YOLU

Özət
Giriş
1. Tarixi özündə yaşadan xalq mahnılarının yaranma səbəbləri
1.2. Milli azadlıq mübarizəsi ədəbiyyatın mövzu qaynağı kimi
2. Qaraçay-malkar folklorunun janrları
2.1. Folklorda Tanrıçılıq inancının izləri
2.2. Nartlar
2.3. Uşaq folkloru
2.4. Nəğmələr
3. Yazılı ədəbiyyatın başlanğıcı
3.1. Yazılı ədəbiyyatın yeni mərhələyə qədəm qoyması
3.2. Anadilli mətbuatın yaranması və ədəbiyyatın inkişafına təsiri
3.3. Sovet ideologiyasının yeni ədəbiyyatı formalaşdırması
3.4. Sürgündən sonra ədəbiyyatın inkişafı
3.5. Ədəbi mühitdə dönüş
3.6. Bədii nəsrin yaranması və formalaşması
3.7. Dramçılığın yaranması və inkişafı

3.8. Uşaq ədəbiyyatı

3.9. Ədəbiyyatda yeni yüksəliş və milli mövzuların önə çıxması

Sonuc

Путь развития литературы Карачай-малкарских (балкарских) тюрков

The Development of Literature By Karachay-Balkar (Malkar) Turks

Qaynaqlar

Özət

Uzun illər qaraçay-malkar (balkar) ədəbiyyatı tarixini araşdıranlar onun 18-ci yüzildən başladığını yazırdılar. Son zamanlar isə qaynaqlara dayanaraq Mikail Şamsi Baştu (835-900), Tram xan (10-12-ci yüzillər), Zurum Biyçe (14-cü), Aqbilek Biyçe (14-cü), Qoşayax Biyçe (16-17-ci yüzillər), Qaltur Semenov (18-ci yüzil) kimi yaradıcı şəxsiyyətlər haqqında bilgi verməklə qaraçay-malkar yazılı ədəbiyyatının tarixinin 9-cu yüzildən başladığını bildirirlər. Gənc araşdırıcıların bəziləri isə ədəbiyyat tarixlərini Orxon-Yenisey abidələri ilə başlayırlar. Bu da təbiidir. Xalq özünü tanıdıqca,

tarixini öyrəndikcə milli şüuru artır, tarixinə də, ədəbiyyatına da, mədəniyyətinə də yiyə çıxır.

Rusiya işğalçılarının yeritdiyi ayrı-seçkilik siyasəti gücünü itirdikcə qaraçay-malkarlar (balkar) arasında əski qıpçaq ədəbiyyatının, ümumtürk mədəniyyətinin öyrənilməsinə və təbliğinə da maraq artır. 20-ci yüzildə yaratdıqları ədəbi nümunələri yeni gözlə saf-çürük edir, Sovet dövründə yasaqlananlar üzə çıxarılır, dəyərlilərini yenidən çap edərək gənc nəslin ixtiyarına verirlər.

Qaraçay-malkarlar (balkar) günümüzədək zəngin folklorlarını qoruyub saxlaya bilmiş və onları toplayaraq çap etdirmişlər. Bunlara daxil olan nartları, tanrılar haqqında nəğmələri, uşaq folkloru nümunələrini öyrənmək ümumtürk folkloruna, mədəniyyətinə, dünyagörüşünə yiyələnmək baxımından olduqca vacibdir. Bu zəngin xəzinə vaxtında öyrənilməsə dünya mədəniyyəti bir parçasını itirmiş olar.

Qaltur Semenov (Semenlanı) (1751-1851), Küçük Bayramukov (Bayramuklanı) (1772-1862), Kasbot Koçkarov (Koçkarlanı) (1834-1940), Kazım Meçilanı (Meçiyev) (1859-1945), İslam Kırımşamxalov (Kırımşamxallanı-Teberdiçi) (1864-1910), İsmayıl Akbayov

(Akbaylanı) (1874-1937) və b. qaraçay-malkar klassikləri ilə yanaşı 20-ci yüzildə ədəbiyyata gəlmiş İsmail Semenov (Semenlanı) (1891-1981), Umar Əliyev (Aliylanı) (1895-1938), İslam Xubiyev (Xubiylanı) (1896-1938), İssa Qaraköтov (Qarakötlanı) (1900-1942), Daut Bayqulov (Bayqullanı) (1902-1942), Abdulkerim Bayqulov (Bayqullanı) (1902-1942), Abidat Botaşov (1902-1982) Asan (Xasan) Appayev (Appalanı) (1904-1938), Azret Örtenov (Örtenlani) (1907-1937), Bert Qurtuyevin (Qurtulanı) (1910-2001), Axmat Bilimğotov (1910-1960), Kerim Otarov (Otarlanı) (1912-1974), Toxtar Borlakov (Borlaklanı) (1914-1942), Maqomet Urusov (Uruslanı) (1916-1942), Xabu Xatsiyev (Xatsilanı) (1916-1974), Maksim Qıttıvanov (Qıttıvanlanı) (1916-1986), Qaysın Quliyev (Qulilanı) (1917-1985), Xalimat Bayramukova (Bayramuklanı) (1917-1996), Osman Xubiyev (Xubiylanı) (1918-2001), İbraqim Maqammatov (1919), Azret Semenov (Semenlanı) (1924-2008), Tanzila Zumakulova (Zumakullanı) (1934), Jağafar Tokumayev (Tokumalanı) (1935), Xusey Caubayev (Caubalani) (1936-1999), Salix Qurtuyev (Qurtulanı) (1938), Salix

Xoçuyev (Xoçulanı) (1910-1942), Axmat Sozayev (Sozalanı) (1941), Muradin Ölmezayev (Ölmezlanı) (1949) və b. yaradıcılıqlarında bu zəngin söz xəzinəsindən yararlanmağa çalışmışlar.

Açar sözlər: qaraçay-malkar (balkar) ədəbiyyatı, Qafqaz savaşları, qıpçaqlar, yeni dövr ədəbiyyatının formalaşması.

Giriş

Çar Rusiyası Qafqazı işğal etsə də, burada etiraz dalğaları, üsyanlar uzun müddət sönmədi. 1830-cü illərdə başlayan üsyanların yatırılmasına hökumət 30 ildən çox vaxt sərf etdi. Döyüşlərdə 200 min nəfərdən çox əsgər və zabit məhv oldu. Düşmənə müqavimət göstərən, aclıqdan, xəstəlikdən, soyuqdan ölən dağlıların sayını isə qeydə alan olmadı.

Qazilər şurasının qərarı ilə Şeyx Şamil döyüşü dayandırandan sonra da dağlarda üsyançı qruplar müqavimət göstərirdilər. Çar Rusiyasının hökumət dairələri məcburiyyət qarşısında qalıb ölkədə bir sıra islahatlar keçirməli oldular. 1861-ci il təhkimçilik hüququnun ləğvi haqqında qəbul edilmiş qanun dediklərimizə nümunə ola bilər.

Bu qanunun qəbulundan sonra Qafqazda müridizm hərəkatı sönməyə başladı. Döyüşüb qan axıdan, itki verən qafqazlılar oldusa da qanundan ən çox yararlanan isə Rusiya, xüsusən də təhkimli kəndlilər oldu.

İşğal etdiyi ərazilərdə idarəetməni asanlaşdırmaq üçün hökumət 1861-ci ildə Qafqazı vilayətlərə-quberniyalara ayırdı. Qaraçay türklərini Kuban vilayətinin, malkar türklərini isə Terek vilayətinin tərkibinə daxil etdi.

Basxan bölgəsində yaşayan, türkcə danışan toplum isə bəzi qaynaqlarda orusbiylər kimi göstərilir (Türkiye dışındakı..., 2002, 22-ci cild). (Bölgü zamanı həmin ərazi – Basxan başqa bir vilayətin tərkibinə qatılsaydı, yəqin ki, indi qaynaqlarda qaraçay, balkar adı ilə yanaşı orusbiy adlı bir "xalqa" da rast gələcəkdik). Beləliklə, eyni dildə danışan, eyni mədəniyyətin daşıyıcısı olan, eyni dinə inanan, eyni kökənli toplumdan iki xalq - qaraçaylar və malkarlar formalaşdırılmağa başlandı.

Statistikada "qaraçay", "balkar" kimi qeyd edilən xalqların yaşadığı bölgə bir-birinə bitişikdir. Dilçiliyə, tarixə dair bütün ədəbiyyatlarda bu xalqların bir kökənli olduğu və

yazılı ədəbiyyatlarının qaraçay, basxan-çeqem və malkar ağzı (şivəsi) əsasında formalaşdığı göstərilir. Yüz illər boyu ərəb qrafikalı əlifbadan istifadə edən qaraçay-malkarlara 1924-cu ildə latın qrafikalı əlifba yaratdılar. Lakin bu əlifbanın ömrü uzun olmadı. Rus dilini asan öyrənsinlər adı altında SSRİ-də yaşayan bütün türk-müsəlman xalqlarını 1938-ci ildə Kiril qrafikası əsasında hazırlanmış əlifbaya keçməyə məcbur etdilər. Yeni əlifbada 38 hərf var. Türk dillərinin hamısında olduğu kimi, onların dili də səslilərlə (saitlər) zəngindir (İsayev, 1970: 93). Azərbaycan əlifbasından çıxarıldığına görə dildə də yox olmağa doğru gedən sağır nun deyilən hərif əksər türk xalqlarında olduğu kimi qaraçay-malkarların ədəbi dilində geniş işlədilir.

Uzun illər qaraçay-malkarların tarixi, ədəbiyyatı, folkloru türk xalqlarından təcrid edilmiş şəkildə öyrənilmiş və təbliğ olunmuşdur. Sovet strateqləri bu ayrılığı getdikcə dərinləşdirmək üçün malkarlara Nalçikdə, qaraçaylara Çerkesskdə elmi-mədəni mərkəzlər yaratmışlar.

Qaraçay-malkarlar haqqında İslam Ensiklo-pediyasındakı məqaləsində azərbaycanlı bilgin Mirzə Bala yazır: “Dil, örf, adet, din, içtimai

teşkilat, folklor, edebiyat ve tarih itibari ile bir küll teşkil etdikleri halde, takriben XV asırdan sonra, karaçay ve balkar (b-m değişmesi ile malkar) veyahut tavlı (dağlı) adları altında ayrı-ayrı iki cami olarak, 1944 yılına kadar, Şimali Kafkasiya-da yaşamış eski bir türk kabilesidir" (Mirza Bala, 1967: 217).

Mirzə Bala bu geniş məqaləsində qaracay-malkarların tarixindən, soykökündən söz açmaqla yanaşı folklorlarına, ədəbiyyatlarına da diqqət yetirmişdir. Görünür hələ Bakıda yaşayar-kən tanış olduqlarındanmı, yoxsa haqqında daha çox bilgisi olduğundanmı Qaracay-Çərkəz Respublikasının yaradıcısı və ilk rəhbəri, sonralar ədəbiyyat və elmlə ardıcıl məşğul olan, 1938-ci ildə güllələnən Umar Əliyev (Bu insanın adı Umar, Omar, soyadı Aliyev, Aliylanı kimi də yazılır) haqqında diqqəticəkən bilgilər vermişdi.

Son 200 ildə aramsız basqılarla üzləşən, torpaqları əllərindən alınıb yerində sanatoriya və kurortlar, istirahət evləri tikilən, bir sözlə, mülkiyyətləri başqalarına verilən, kütləvi sürgün-lərə uğrayan, həbs edilən, güllələnən bir toplumun dilini qoruması, folklorunu yaşatması və ana dilində bədii əsərlər yaratması heyrətamizdir. Azsaylı xalqın şair və yazıçılarından İsmail

Akbaylanı (1874-1937), Ömer Ali Aliylanı (1895-1938), İslam Xibiylanı (1896-1938), Asxat Bicilanı (1900-1958), Sait Otarlanı (1903-1975), Hasan Appalanı (1904-1938), Axmadiya Malkarlı (1905-1965) və digərləri 1937-ci il irticasına uğramış, Salix Xoçuyev (1910-1942), Toxtar Borlaklanı (1914-1942), Azret Budaylanı (1916-1942), Maqomet Oruslanı (1916-1942), İssa Qarakötlanı (1900-1942), Daut Baygullanı (1902-1942) və başqaları isə İkinci Dünya Savaşında faşizmə qarşı döyüşlərdə qəhrəmanlıqla həlak olmuşlar (Türkiye dışındakı..., 2002, 22-ci cild).

Qaraçay-malkarlar Quzey Qafqazın mərkəzi bölgəsində-yüksək dağlıq ərazidə məskunlaşmışlar. Qaraçaylar Kuban çayının başlanğıcındakı Xurzuk, Uçkulan, Kart Curt kəndlərində, oradan batıdakı Duvut, Teberdi, Morx, İsxavat, Urup, Laba çaylarının yuxarı axarlarındakı kəndlərdə və Mara, Cögtey, Zelençuk (İncik) vadilərindəki kəndlərdə yaşayırlar. Malkarlar isə Elbrus (Mingitav) dağının doğusunda Basxan (Baksan, Bahsan) vadisindən doğuda yerləşən Çeqem, Xolam, Bızıngı və Malkar (Çerek) vadilərindəki ərazilərdə, Köndelen, Aksuv, Xasaniya, Kaşqatav, Karasuv, Gerpegey və başqa

kəndlərdə yaşayırlar (Türkiye dışındakı..., 2002: 14, 22-ci cild).

Bir sözlə, qaraçay-malkarları güneydən Böyük Qafqazın qarlı zirvələri alınmaz qala kimi qoruyur. Quzeydə isə onların məskənləri iti çaylar, dərin dərələr, dar keçidlərlə əhatə olunublar. Kəndlərin uca dağlar qoynunda yerləşməsi, gediş-gəlişin çətinliyi onları uzun müddət ətraf aləmdən ayrı salmışdır. Onlar, bəlkə, buna görə soydaşları arasında İslamı elliklə ən gec - 18-ci yüzildə qəbul edənlərdir.

Bəzi araşdırıcılar bölgədəki kilsə qalıqlarına əsaslanaraq yazırlar ki, "Gürcü kraliçası Tamara 1207-ci ildə onları hakimiyyəti altına almış və burada xristianlığı yaymış"dır (Türkiye dışındakı..., 2002: 34, 22-ci cild). 14-cü yüzilin başlarında qıpçaqlar arasında xristianlığı yaymaq məqsədilə hazırlanan "Codex Cumanicus"dakı sözlərin dörddə üçünün bugünkü qaraçay-malkar dilində işlək olmasını, arxaik sözləri daha çox qoruyub saxlamalarını araşdırıcılar onların ətraf mühitdən daha çox təcrid olunduqlar ilə əlaqələndirirlər. Qaraçay-malkarların etnik mənşəyinə dair çoxlu fikir və mülahizələr olsa da, araşdırıcılardan İsmail Miziyev və Kazıy T. Layran bu toplumun soykökündə kimmer, saka

(skif, iskit) kimi prototürk tayfalarının və hunların, bulqarların, as-alanların, xəzərlərin, sabirlərin və qıpçaqların olması fikrində yekdildirlər. İsmail Miziyev şumer (sumer) yazıları ilə çağdaş qaraçay-malkar kəlmələrini müqayisə edərək bir çox oxşarlıqlar tapmışdır. O, araşdırmalarında bu nəticəyə gəlmişdir ki, qaraçay-malkarların ulu babaları – prototürklər iskit (skif) - sarmat, hun, bulqar, alan, as və s. adlarla tarix səhnəsinə daxil olmuşlar (Mızı ulu İsmail, 1993).

Soydaşlarından təcrid olunmuş halda, uca dağlar qoynunda yaşayaraq təbiətin şıltaqlığına və yadelli işğalçılara qarşı döyüşlərə mətanətlə sinə gərmiş xalqın bu günkü varlığını və adət-ənənəsini yaşatması möcüzə sayıla bilər. 1790-1800-cü və 1808-1814-cü illərdə bölgədə yayılan vəba xəstəliyindən minlərlə insan məhv olmuşdur. Bunun ardınca rus ordusunun basqını başlamışdır. Qaraçay-malkarlar nə qədər cəsarətlə döyüşsələr də, çoxsaylı və daha mükəmməl atıcı silahlarla silahlanmış ordunun qarşısında duruş gətirə bilməmişlər. Formal olaraq 1827-ci ildə malkarlar, 1828-ci ildə qaraçaylar çar Rusiyasının tərkibinə daxil olmuşlar. Dağlarda partizan dirənişi isə müxtəlif

aralıqlarla 1940-cı illərin sonlarınadək davam etmişdir.

1. Tarixi özündə yaşadan xalq mahnılarının yaranma səbəbləri

Çar Rusiyası bölgədəki mövqeyini möhkəmlətmək üçün 1838-ci ildə Peterburqda "Qafqaz komitəsi" adlı bir təşkilat qurdu. Bu təşkilatın planına görə Quzey Qafqazda yaşayan xalqların üçdə biri köçürülməli və onlardan boşaldılan ərazilərə rus kazakları yerləşdirilməli idi. İlk baxışda könüllülük prinsipi əsasında həyata keçirilən bu tədbir haqqında general Postislav Fadeyev 1899-cu ildə "Qafqaz məktubları" əsərində yazır: … "Qafqazın yerli xalqları dəstə-dəstə Qara dəniz sahillərinə gətirilərək zorla gəmilərə doldurulub Anadoluya doğru yola salınırdı" (Hayati, 1991: 46).

Qafqazdakı köçləri araşdıran Hayati Bice yazır: "1850-ci illərin ilk yarısında bəzi qafqazlı ailələrin könüllü olaraq Osmanlı torpaqlarına köç etdiyi bilinməkdədir. Krım savaşı zamanı məcburi bir hərəkat halına gələn köç hadisəsi, 1862-1865-ci illər arasındakı müddətdə zirvəyə çatmış və 1877-1878, 1890-1908-ci illərdə

artaraq 1920-ci illərə qədər davam etmişdir" (Türkiye dışındakı..., 2002: 45, 22-ci cild). Osmanlı dövlətinə köçlərə dair müxtəlif qaynaqları tutuşduran Bedri Hacıoğlu bu qənaətə gəlir: "Böylece 1865-1907 yılları arasında yalnız Kafkasya'dan gelen göçmenlerin mevcudu 165.000-i buldu. Böylece 1855'den 1907'ye kadar olan dönemde Osmanlı topraklarına ulaşabilen kafkasyalı göçmenlerin sayısı (ortalama olarak) 600.000'in üzerindedir" (Hacaloğlu, 1993: 73).

Bu köçlərin dəqiq rəqəmləri olmadığı kimi, köç zamanı yolda xəstəliklərdən ölənlərin, dənizdə batanların sayı da dəqiq bəlli deyildir. Üzləşdiyi faciəyə xalq biganə qala bilməzdi. "Al emina" (birinci vəba), "Ekinci emina" (ikinci vəba) adlı şərqilərində 1790-1800, 1808-1814-cü illərdə vəba xəstəliyinin yayılmasından bəhs edilir. "Hasavka", "Bagatır oğlu Umar" (bu yırların oxunması və nəşri nəinki çar Rusiyasında, hətta Sovetlər Birliyi zamanı da yasaqlanmışdır) şərqilərində qaraçaylıların rus əsgərlərinə qarşı dirənişləri, "Ullu Hoj" şərqisində isə rus kazaklarının Hoj kəndində törətdikləri vəhşiliklər təsvir olunur. "Tatarqan", "Sarıbiy bla Karabiy", "Candar", "Zavur biy", "Qobanldanı

qöy bölek” və başqa mahnılarda qaraçay-malkarlara edilən basqınlardan söz açılırsa, “Güyeldi”, “Bekmırzalar, Qaysınlar”, “Zağoştoq oğlu Çöpellev”, “Cansohların yırı” və s. mahnı və nəğmələrdə isə onların başqaları üzərinə basqınları, çapqınçılıqları öyülür.

Vəba kimləri aparmış, xalqı kimlərdən məhrum etmişdir? Bu suallara yırlarda aydın cavab verilir. Düşmənlərin yenə bilmədiyi, məğrur igidi vəba yenir. Onun ölümünə xalq belə təəssüflənir:

Candetli bolsun Söyünçlanı Bekmırza,
- Cənnətlik olsun Söyünçlanı Bekmırza,
Atha minse, atnı belin bügedi,
- Ata minsə atın beli bükülür,
Suvğa kirse, suv çabaklay cüzedi,
- Suya girsə balıq kimi üzür,
Arkan atsa, atnı boynun üzedi,
- Örkən (kəmənd) atsa atın boynunu üzərdi,
Sadak atsa, tiyer cerin biledi,
- Ox atsa, vuracağı yeri bilərdi,
Kamçı ursa cerni carıb kiredi.
-Qamçı vursa yeri yarıb icərisinə girərdi.

Döyüşlərdə qəhrəmanlıq göstərən, ov etməkdə mahir igidlər haqqında da onlarla yır qoşulmuş və az zamanda dillər əzbərinə

çevrilmişdir. Xalqın yaddaşına hopmuş, çox oxunan yırlardan biri də Toxçukların Acı Murata həsr edilmişdir. Yırda deyilir:

Kafkaz tavladan carık gün batadı,

- Qafqaz dağlarında parlaq günəş batır,

Xurzuk özende bir tav aslan catadı,

- Xurzuk vadisində bir dağ aslanı yatır.

Atı aytılsa barğan Kobannı tohtathan,

- Adı söylənsə, Kuban çayını durduran,

Ma ol allay cigit tavlu edi.

- Bax, o belə igid dağlı idi.

Toxçukların Acı Murat Xurzuk eldə biy edi,

- Toxçukların Hacı Muratı Xurzuk elində bəy idi,

Xurzuk özenden bir katı suvuk cel uradı,

- Xurzuk vadisində bir şiddətli soyuq yel əsdi,

Candetleni ceti eşigi sannğa boş bolsun,

- Cənnətlərin yeddi qapısı sənə açıq olsun,

Toxçuk ulu cigit tuvğan Acı Murat.

- Toxçuk oğlu, igid doğulan Hacı Murat

(Tavkul, 1992: 732).

Qaraçay-malkarların zorla Osmanlı dövlətinə köçürülməsi ilə bağlı yaradılmış yırlar xalq arasında "İstampulda getgenleni yırları"

("İstanbula gedənlərin nəğmələri") adlanır. Onların birində deyilir:

İstampulçula İstampulda ketdile,
- İstambulçular İstambula getdilər,
Munda kalganlaga ne kıyınlıkla cetdile.
- Burda qalanlar nə güçlüklər çəkdilər.
Ol künlede bizge bolur bolqandı,
-O günlərdə bizə olanlar oldu,
Aq betleden qızıl nurle onngandı,
- Ağ üzlərdən qızıl nurlar silindi,
Ol künle mahşarlanı künüdü.
- O günlər məhşərlərin günüydü
(Hayatı, 1991: 210).

Müəllifi bilinən yırlar arasında Kasbot Koçkarovun və Appa Canıbekovun yırları daha məşhurdur.

1.2. Milli azadlıq mübarizəsi ədəbiyyatın mövzu qaynağı kimi

1905-ci ildə Rus-Yapon savaşında Rusiyanın yenilməsi bu dövlətin çökdüyündən xəbər verirdi. Rusiyanın öndə gedənləri vəziyyətdən çıxış yolları axtarırdılar. Kimisi konstitusiyalı monarxiya, kimisi respublika yaratmağa

çalışırdı. Sosialistlər isə sinfi mübarizəni önə çəkərək, ətraflarına daha çox tərəfdar toplayıb hakimiyyəti ələ almaq istəyirdilər. Çar Rusiyasının hökumətinə qarşı çıxan bu insanların əksəriyyəti imperiyanı qoruyub saxlamağa çalışır, işğal altında olan xalqlara azadlıq verəcəklərini düşünmürdülər.

Əsarətdə olan xalqların öndə gedənlərinin bir qrupu Rusiyadakı ayrı-ayrı siyasi təşkilatları dəstəkləsə də, əslində müstəqil dövlətlərini qurmağa çalışırdılar. 1917-ci ilin fevralında baş verən çevriliş bu işi sürətləndirdi. Lakin bolşeviklər bu dəyişikliklə razılaşmadılar. Onlar demokratik yolla – seçkilərdə fəal iştirak etməklə hakimiyyətə gələ bilməyəcəklərini görüb 1917-ci il oktyabrın 25-də (yeni təqvimlə noyabrın 7-də) silah gücünə hakimiyyəti ələ aldılar. Bununla da dünyanın altıda birini tutan bir ölkədə vətəndaş savaşlarının, qarışıqlığın, hərci-mərcliyin əsasını qoydular.

Belə ağır, çətin günlərdə qaraçay-malkarlar rus ordusunda polkovnik rütbəsinədək yüksəlmiş Mırzaqul Kırımşavxalın ətrafına toplaşaraq bolşeviklərə qarşı mübarizəyə başladılar. Onlar adıgey, çeçen, inquş və başqa Dağıstan xalqları ilə birləşərək 1918-ci ilin may ayının 11-də “Quzey

Qafqaz Dövlətləri Federasiyası“nı (Bu qısa ömürlü dövlətin adı qaynaqlarda fərqli şəkildə yazılır) qurduqlarını elan etdilər. Ay-ulduzlu, yaşıl bayraq qaldırdılar. Lakin bu dövlətin ömrü uzun olmadı. Daxili çəkişmələr, xarici qüvvələr, ağqvardiyaçı-general Denikin 1919-cu ilin sonlarında bu dövlətin varlığına son qoydu. 1920-ci ilin martında isə bolşeviklər denikinçiləri bölgədən qovub çıxardılar.

Qaraçay-malkarlar öz müstəqilliklərini əldə etmək üçün Mırzaqul Kırımşavxal və Qılıç Giray xanın başçılığı ilə bolşeviklərə qarşı vuruşdular. Beş aya qədər davam edən bu müqavimətə 1920-ci ilin dekabrında son verildi. Bolşeviklər vəd etdilər ki, Sovet Rusiyası daxilində qaraçaylara müstəqilliklərini saxlamağa, muxtar respublikalarını qurmağa icazə verəcəklər. Lakin mövqelərini möhkəmləndirən bolşeviklər vədlərinə dönük çıxdılar. 1922-ci ilin yanvarında yeni inzibati bölgü - Qaraçay-Çərkəz Muxtar Vilayəti yaratmaqla malkarları yenidən çar Rusiyası zamanında olduğu kimi, qaraçaylardan ayırdılar. Malkarları isə Kabarda Muxtar Sovet Sosialist Respublikasının tərkibinə daxil etdilər.

Bu tarixi hadisələr öz əksini xalq yaradıcılığında tapsa da, Sovet hakimiyyəti

illərində onların oxunması, toplanması və nəşr edilməsi yasaq idi. Yalnız bolşevikləri öyən, kollektivləşməni tərənnüm edən, vətəndaş savaşında bolşeviklərin tərəfini tutan, İkinci Dünya Savaşında Rusiyanın mövqeyini müdafiə edən mahnı və nəğmələrin, lətifələrin toplanmasına və nəşrinə icazə verilirdi. Bu dövrdə qaraçay-malkarlar arasında da din əleyhinə yönələn, bəy-xanları, bir sözlə, varlı təbəqəni tənqid edən folklor nümunələri görünməyə başladı. Bolşeviklər öz hakimiyyətlərini möhkəmlətmək, təbliğatlarını geniş xalq kütlələrinə çatdırmaq üçün bir tərəfdən milli dillərdə məktəblər, teatr, qəzet-jurnal, elmi-tədqiqat müəssisələri açırdı, o biri tərəfdən millətpərvər, xalqın azadlığını və müstəqilliyini istəyən insanları güllələyir, həbsxanalara və sürgünlərə göndərirdilər. 1918-1919-cu illərdə xalqın önündə getmiş, milli dövlət quruculuğunda fəal iştirak etmiş Qiliastan Sefer, Basxanuk Kırımşavxal, Qazi Hacı Laypan, Davud Özgen, Barisbiy Duda, Catay Bayramuk və başqa vətənpərvərlər güllələndi. Keçmiş qazı Qafar Naçır, Muhəmmət Ali Botaş, Salix Barisbiy, İbrahim Koba, Şaban Qagu, Maşak Hubi, Musa Bayramuk, Şamil Qaca, Muhəmmət Tambiy (Hayatı, 1991: 87). və s. kimi

oxumuşlar həbs edilmişdir. Qaynaqlar 34 min insanın həbs edildiyini göstərir. Azsaylı bir xalqdan bu qədər insanın məhv edilməsi onun ədəbiyyatının məhv edilməsi demək idi. Çünki bu insanlar folkloru yarşatmaq və təbliğ etməklə yanaşı, yeniyetmələrə dərs keçir, yazılı ədəbiyyat formalaşdırır və yeni nəsil yazıçı, şair və bilginlər yetişdirirdilər.

1930-cu ildə qaraçay-malkarlar kolxozlaşmanın əleyhinə çıxdılar. Abdulkərim Xasanın başçılığı ilə xalq dörd günə bölgəni bolşeviklərdən təmizlədi. Əslində bu, yaşam mücadiləsi idi. Xalqın əlindən torpağı, malqarası alınmış, bir sözlə, insanlar yaşamlarını təmin edəcək vasitələrdən mərhum edilmişdi. Üsyan Sovet hərbi hissələri tərəfindən qəddarlıqda yatırıldı. Kəndlər dağıdıldı, minlərlə insan öldürüldü − 3 min adam güllələndi, 17 min nəfər həbsxanalara və sürgünlərə göndərildi (Hayatı, 1991: 90).

Bütün bunlar azmış kimi, 1937-ci ildən başlayaraq Sovet hakimiyyətinin qurulmasında, bolşeviklər partiyasının bölgədə möhkəmlənməsində xidməti olan milli kadrlar başda olmaqla 7 min insana "xalq düşməni" adı

verilərək həbs edildi və güllələndi. Bu da əhalinin hər 14 nəfərindən biri demək idi.

İkinci Dünya Savaşı isə qaraçay-malkar xalqı üçün əsl faciəyə çevrildi. Əli silah tuta bilənlər - 17 yaşından 55 yaşınadək kişilər Sovet ordusuna səfərbərliyə alınıb Almaniyaya qarşı döyüşə göndərildi. Yüzlərlə insan dağlara çəkilərək partizan savaşına başladı. Onlar müstəqillik naminə Sovet xüsusi xidmət orqanlarına və alman ordularına qarşı vuruşa atıldılar. Alman orduları Qafqazdan geri çəkildikdən sonra Sovet xüsusi xidmət orqanlarının yaratdığı cəza dəstələri dağlara sığınmış insanların üzərinə təyyarələrlə, tank və toplarla hücuma keçdi. 5 malkar kəndi yerlə yeksan edildi. Ullu qaraçay qalasındakı, Kart Curt, Uçkulan və Xursuk kəndlərindəki müqavimət hərəkatı iştirakçıları da məhv edildi (Hayatı, 1991: 99).

1943-cü ilin noyabrın 2-də qaraçaylar, 1944-cü il martın 8 də malkarlar elliklə sürgünə göndərildi. Onların az qala yarısı yollarda aclıqdan, soyuqdan və xəstəlikdən ölsə də, mübarizəni dayandırmadılar. 1957-ci ildə vətənə dönmək hüququ qazandılar.

2. Qaraçay-malkar folklorunun janrları

Araşdırıcı Tanzilya Xadjilanı belə bir müsibətlər yaşamış xalqdan toplanmış folklor nümunələrini aşağıdakı şəkildə qruplaşdırır: 1. "Mitoloji adet-gelenek-töre şiirleri (Mif em adet-töre poeziya. Mifoloqiçeskaya i obryadovaya poeziya), 2. Adet ve törelerle ilgili şiirler (Adet-töre bla baylamlı poeziya. Obryadovaya poeziya), 3. Nart destanları (Nart epos), 4. Masallar (Comakla. Skazki), 5. Masal olmayan, sözlü halk eserleri (Comak bolmağan, kara söz bla aytılğan halk çığarmala. Neskazoçnaya poeziya), 6. Şarkılar (Cırla), 7. Halk edebiyyatının küçük türleri, 8. Zikirler (Türkiye dışındakı..., 2002: 48, 22-ci cild).

Türkiyəli araşdırıcı Ufuk Tavkul isə qaraçay-malkar folklorunu aşağıdakı bölgülər altında verir: 1. Efsaneler, 2. Nart efsaneleri, 3. Destanlar-tarihi şarkılar, 4. Aşk şarkıları-maniler, 5. Ninniler, 6. Atasözleri, 7. Bilmeceler (Tavkul, 1992: 731).

Qaraçay-malkar folklorunun yorulmaz araşdırıcısı Hamid (Rus dilində h hərifi olmadığından Xamid yazırlar) Malkanduyev isə bədii-poetik ənənəni və janrları öyrənərkən onları aşağıdakı kimi qruplaşdırır: 1. Magik poeziya, 2.

Ovçuluq poeziyası, 3. Təqvim poeziyası, 4. Lirik poeziya (Malkonduev, 1990).

Bu bölgü ilə qaraçay-malkar folklorçularının bəziləri razılaşmır. Fikir ayrılığını ümumi türk xalqlarının folklorşünaslığına da aid etmək olar. Türk xalqlarının folklor mətnləri toplanıb nəşr edilmədikcə, onların öyrənilmə metodları hazırlanmadıqca bu cür qarışıqlıq olacaqdır.

2.1. Folklorda Tanrıçılıq inancının izləri

Qaraçay-malkar folklorunda tanrılarla bağlı poetik nümunələrə daha çox rast gəlinir. Mərasim nəğmələrində Teyri (Tanrı), Çoppa, Eliya, Şibila, Totur Ozay və b. adlar tez-tez çəkilir. Dolay, Erirey, İnay, Apsatı, Biynöger adlı cırlar ən qədim nümunələr sayılır (İranda türklərin toplum yaşayış mərkəzi olan Savə bölgəsində bugün də şeirə yır, şairə yırçı deyirlər). Dolay tanrısı ilə bağlı nəğmələr qaraçaylar arasında bu gün də yaşayır. Azərbaycanda isə Dolay tanrısı haqqında nəğmə ilkin mənasını itirərək, məzmununu dəyişərək xalq mahnısına çevrilmişdir. Onu da xatırladaq ki, qaraçaylarda şərəfinə nəğmələr oxunan Debet

və Anaxatır tanrılarının adını Azərbaycanın qərbində çaylara vermişlər.

Qaraçaylar Ayterek və Cannız Terek tanrılarını təmsil edən ağaclara, malkarlar Ravbaziy tanrısına, Çeqem vadisindəki Totur tanrısı şərəfinə Totur adlandırılan daşa sitayiş edirlər. Altaylar və Sibirdə yaşayan bəzi türk xalqları şamançılığa inanırlar. Bütpərəstliyi heç vaxt qəbul etməmişlər. Onlarda ağaca, daşa inam bu gün də yaşamaqdadır. Eləcə də, İslamı çoxdan qəbul etmiş türklərin əksəriyyətində də bu inanclar yaşayır. Bu da onu göstərir ki, qaraçay-malkarlar şamançılıq dönəmindəki inanclarını və həmin dövrə aid müxtəlif bərəkət tanrılarının adlarını yırlarında qoruyub saxlamışlar. Belə ki, yağ-ayran almaq üçün nehrə çalxarkən Dolayın, xırmanda taxıl döyərkən Erireyin, yun darayıb, əyirib və toxuyarkən İnayın şərəfinə cırlar (yırlar) söyləyər, məhsullarının bərəkətli olmasını istəyərdilər.

Zaman keçdikcə bu mərasimlər və inanclar islamlaşmağa başlayır. İslamlaşmanın izlərini qaracay-malkarlarda da görmək olar. Ovun uğurlu olması üçün Apsatın qızı Baydimat (Patimat) - Fatimatın şərəfinə mərasimlər keçirirlər. Buradan Baydimatın Fatimaya çevrilməyə doğru

getdiyinin şahidi oluruq. Belə ki, Fatimə Məhəmməd (ə.s.) peyğəmbərin qızı - dördüncü xəlifə Əlinin arvadıdır. Azərbaycanda müqəddəs sayılan, şərəfinə qurban kəsilən daş və qayaların əksəriyyəti İslamın dördüncü xəlifəsi Əlinin adı və atı Düldülün ayaq izləri ilə bağlıdır.

Qaraçay-malkarların ov tanrısı Apsatın qızı Baydimat-Fatimatın igid ovçunu arxasınca yalçın qayanın zirvəsinə çıxarmasından, oradan düşə bilməyəcəyini görən igidin özünü qayadan atıb öldürməsindən bəhs edən "Biynöger" dastanı çox məşhurdur. Araşdırıcıların fikrincə, bu dastan 12-13-cü yüzillərdə yaradılmışdır.

2.2. Nartlar

Qaraçay-malkarlar arasında yaşayan Nart əfsanə və dastanlarında nartlar insanlardan üstün tanrılar kimi təsvir edilir. Bunu əsas götürən araşdırıcılar həmin mətnlərin türk xalqlarında olmadığını söyləyirlər. Hətta bu dastandakı miflərlə yunan mifləri arasında paralellər apararaq qonşu xalqlar vasitəsilə yunanlardan alındığını da söyləyirlər. Əlbəttə, hər bir xalq qonşu xalqlarla mədəni-iqtisadi əlaqələr şəklində yaşayır. Qaraçay-malkarların da qonşu

çərkəzlərin, abazalıların, kabardaların, inquşların folklorundan qarşılıqlı bəhrələnməsi təbiidir.

Bununla yanaşı, Nart dastanlarında qədim türk dastanlarının izlərinə rast gəlmək olur.

Tanzilya Xadjilanı yazır: "Çok tanınmış Nartlar, eski halk inancına göre ilginc biçimlerde yaratılmışlar: Yer tanrısı Debet ilə Gök tanrısının oğludur. Satanayın babası Günəş, annesi Aydır. Örüzmek gökyüzünden düşen bir kuyruklu yıldızın içinden çıkmıştır. Sosuruk Kayadan doğmuştur, babası ise bir çobandır. Karaşavay Debetin torunudur, annesi bir devdir. Bu gibi şeyler eski mifoloji ile de ilişkilidir" (Türkiye dışındakı..., 2002: 51, 22-ci cild).

Yuxarıda deyilənlərlə "Oğuznamə" və "Kitabi-Dədə Qorqud" qəhrəmanları arasında paralellər aparmaq olar. Bu da dastan yaradıcılarının eyni qaynaqdan bəhrələndiklərini açıq göstərir. "Nart Paçıkan"da Paçıkanın dörd çuval undan bişirilmiş çörəyi bir dəfəyə yeməsi və qırx igidin güclə qaldırdığı küpədəki suyu bir dəfəyə içməsi sanki azala-azala gələrək Koroğlunun qarıya qonaq olarkən bir pud düyünün plovu ilə bir qoyunu yeməsi şəklinə düşmüşdür.

Yalnız qonşu noqaylar, qumuqlar, tatarlar deyil, onlardan çox uzaqda yaşayan qırğızlar, sakalar və başqaları da dastanlarını qaraçay-malkarların Nart dastanlarını söylədiyi üslubda söyləyirlər. Qonşu çərkəz, abaza, abxaz, adıgey Nartlarından fərqli olaraq qaraçay-malkarların Nartları türk mifologiyasına daha yaxındır. Ritm, vəzn oxşarlığı da çox vaxt qorunub saxlanılır.

Nartların toplanıb nəşr edilməsinin və öyrənilməsinin tarixi 19-cu yüzilin sonlarına təsadüf edir. Safar Ali Urusbiyevdən toplanmış "Urızmek", "Şauay", "Raçikay", "Sosuruk" SMOMPK-ın 1881-ci il birinci buraxılışının ikinci bölməsinin 1-42-ci səhifələrində, Mixail Aleynikovun topladığı SMOMPK-ın 1883-cü il üçüncü buraxılışının ikinci bölməsinin 139-155-ci səhifələrində, Aleksandır Bataşevin topladığı SMOMPK-ın 1896-ci il iyirimi birinci buraxılışının ikinci bölməsinin 76-88-ci səhifələrində çap olunmuşdur (Сабанчиев, 1989).

Qaraçay-malkarlarda nəsr şəklində söylənilən, amma nağıl olmayan folklor nümunələrinə "tavruh" (dastan, əfsanə, hekayə) deyirlər.

Bizim atalar sözlərini qaraçay-malkarlar "Nart sözləri" adlandırırlar. Bunun səbəbi

miflərindəki əfsanəvi insanlar kimi təsvir olunan Nartları ulu babaları saymalarıdır. Nart miflərində ilk dəfə atı əhliləşdirib minən, ilk dəfə dəmiri kəşf edib ondan silah düzəldən Nartlar olduğu deyilir. Onlar ağılı, mərdliyi, cəsarəti ilə əfsanəvi varlıqları-divləri, cinləri və b. da məğlub edə bilirlər.

Nart əfsanələrinin qəhrəmanları bunlardır: Örüzmek, Sosurka (Sosuruk), Soslan, Davat, Debet, Sibilçi, Alavqan, Fuk, Karaşavay, Batırez, Cönger, Şrdan, Acemaz, Aymuş, Gezok, Satanay, Ağunda. Örüzmek Nartların ən yaşlısı və ən ağıllısı, Batırez düşmənlərə qarşı hiylə işlətmədən döyüşən ən cəsur cəngavər, Sosurka ağılı və fəndləri ilə özündən güclü düşmənləri yenən, Debet usta dəmirçi kimi təsvir edilir. Dastanda onu belə tanıdırlar: "Nart Örüzmek süyse kökge uçandı" (Nart Örüzmek istəsə, göydə uçarmış) və ya "Kökge bulutlanı celça çaçhandı" (Göydə buludları yel kimi dağıdandı) (Tavkul, 1992: 731).

"Nartlar" Azərbaycan alimlərinin həmişə diqqət mərkəzində olsa da, ayrı-ayrı vaxtlarda, tədqiqat mövzuları ilə bağlı "Nart"lara müraciət etsələr də bu xüsusi araşdırma mövzusuna çevirməyiblər. Son illər Nizami Tağıoy

(Məmmədov) bu mövzuya diqqəti artırmışdır. Onun 21-22 noyabr 2008-ci ildə Bakıda keçirilən "Müqayisəli ədəbiyyat: Ədəbiyyatlarda və mədəniyyətlərdə stereotiplər" mövzusunda Beynəlxalq Elmi Konfransda "Balkar-qaraçay "Nart" qəhrəmanlıq eposu (Digər Qafqaz xalqlarının "Nart"ları ilə oxşar və fərqli məqamlar)" adlı maraqlı məruzəsini uğurlu araşdırmaların başlanğıcı kimi dəyərləndirmək olar. (Tağısoy, 2008).

Bu gün folklor nümunəsi kimi söylənilən bədii parçaları tarixin hansı kəsimindəsə ayrı-ayrı poetik istedadı olan insanlar yaratmışlar. Zaman keçdikcə onların yazıçıları unudulsa da, tarixi hadisələrdən bəhs edən cırlarda (yır) qəhrəmanların adları və onların hansı tayfadan, soydan olduğu göstərildiyindən bu gün də yaşayır. Necə deyərlər, cırlar (yır) xeyirxah insanları da, xalqına pislik edənləri də, qorxaqları və satqınları da yaşadan qaynağa çevrilmişdir.

Bizim nağıl, qaravəlli, rəvayət dediyimiz folklor nümunələri qaraçay-malkarlarda "comak" və ya "tavruh", yəni tarix adlanır.

2.3. Uşaq folkloru

İdeoloji təsirlər altında türk xalqlarının çoxunda ovsunlar, miflər və başqa folklor nümunələri vaxtında toplanıb çap edil-mədiyindən böyük bir qismi itib-batmışdır. Bütün bunlara baxmayaraq, Sovetlər Birliyində rejim çökməyə başlayandan sonra toplanan folklor mətnləri, keçirilən mərasimlər və bu mə-rasimlərdə oxunan mahnılar göstərir ki, mətnlərdə oxşarlıq çoxdur. Bunları sanamalarda, təkərləmələrdə, cırlarda və başqa uşaq folkloru nümunələrində də görmək olar. Məs.:

Bara, bara cün tabdım,- Gedə-gedə yun tapdım,

Cün içinde tarak tapdım,-Yun içində daraq tapdım,

Tarağı ammğa berdim,-Darağı nənəyə verdim,

Ammağ manna bappu berdi.- Nənə mənə əppək verdi,

Bappunu itge berdim, -Əppəyi itə verdim,

İt manna küçük berdi,- İt mənə küçük verdi,

Küçüknü koyçuğa berdim,- Küçüyü çobana verdim,

Koyçuk manna kozu berdi.- Çoban mənə quzu verdi.

(Türkiye dışındakı..., 2002: 209, 22-ci cild).

Uşaq folklorunun ən maraqlı janrlarından biri də tapmacalardır. Tapmaca yalnız yaddaşı itiləməklə qalmır, həm də uşaqların biliyini artırır, hazırcavablığını yüksəldir. Tapmaca deyənin cavabı verilməyəndə qarşı tərəf əvəzini ödəməlidir. Bu ödənc adətən maddi deyil, mənəvi olur. Azərbaycanda tapmacanın cavabını tapmayanı tapmaca deyən rəmzi olaraq satmaq hüququ qazanır. Qaraçay-malkarlar isə tapmacanın cavabını tapmayan şəxs tapmadığı hər bir cavab üçün rəmzi olaraq bir kənd verməlidir. Tapmaca deyildiyi məclisdə bir kənd iki dəfə verilə bilməz. Bu gələnək də uşaqların coğrafi biliklərinin artmasına, xalqının yaşadığı kəndləri yaxşı-yaxşı tanımasına səbəb olur. Bu qaydanın bizim kəndlərdə də yaşadığını uşaqlıqda Göyçədə görmüşdüm.

Qaraçay-malkarlar tapmacaya "comak" və ya "elber" deyirlər. "Elber"də "el verdi" – "kənd verdi" sözünün qısaldılmış formasıdır. Bu janrın inkişafında 18-ci yüzildə yaşamış Matçı Aliyin

və 19-cu yüzildə yaşamış Appiy Xasanın xidmətləri böyük olmuşdur.

Mahmud Kaşğari "balu-balu" adlı bir şeir formasından söz açır. Qaraçay-malkarlarda isə uşağı əzizləyərkən oxunan nəğmələrə "bellav" (beşik nəğməsi) deyirlər. Bu da xalq arasında geniş yayılmışdır.

2.4. Nəğmələr

Qaraçay-malkarlarda sevgi nəğmələrinə süymeklik cır, yəni sevgi şeirləri deyirlər. Bunlar qısa və uzun, bəzən də süjetli ola bilir. Xalq arasında "Aycayak", "Aktamak" və "Kemisxan" kimi sevgi nəğmələri daha geniş yayılmışdır. Dillər əzbəri olmuş "Aktamak" nəğməsi İsmayıl Unuh ulu Semenlə İja sülaləsindən olan Aktamak Yaqup qızının (əsil adı Anisat) sevgisindən danışır. Nəğməni yaradan tarixi şəxsiyyət, nəğmənin qəhrəmanı el şairi İsmayıl Semendir (1891-1981). Ufuk Tavkul yazır ki, "Şarkı oldukca uzun olup iki min dördlükten fazladır".

Bizim bayatılarla eyni olan şeir şəklinə qaraçay-malkarlar "iynar" deyirlər. Ağıları isə "küv-küy", "sıyıt", "sarın" adlandırırlar. "Qaralav", "Kanamat", "Aybıçe ilə Ramazan" və

“Zariyat” kimi süjetli ağılar günümüzədək gəlib çatmışdır. Bizcə, Azərbaycanda bu cür ağılar, mərsiyə və növhələr içərisində əridiyindən günümüzdə belə nümunələrlə rastlaşmırıq.

Xalq arasında “Çam cır” dedikləri nəğmələr çox oxunandır. Burada kimlərsə tənqid, hətta təhqir də edilir. Bu da Azərbaycandakı həcvləri xatırladır. “Çam cır”ın çoxunu el şairi Kalay ulu Appan söylədiyini yazırlar.

3. Yazılı ədəbiyyatın başlanğıcı

Zaman öz işini görür. Dünənədək qaraçay-malkar ədəbiyyatının 20-ci yüzildən-bolşeviklər hakimiyyətə gəldikdən sonra, bir az cəsarətliləri 19-cu yüzildən başlandığını yazırdılarsa milli oyanışdan sonra 9-cu yüzildən “Şan qızı” dastanının müəllifi sayılan Mikail Şamsi Baştu ilə (835-900) başladığını, Tram xan (10-XII yüzillər), Zurum Biyçe (13…-1396), Aqbilek Biyçe (13…-1396), Qoşayax Biyçe (16-17-ci yüzillər), Qaltur Semenov (Xici) (1751-1851), Duda ulu Aysandır (Şıyıx Abdullax), Adraxman Botaşlanı və b. ilə davam etdiyini yazırlar (Kaqiylanı, 2001).

Araşdırıcı Adilhan Adiloğlu yazır: “Karaçaylı Bayramuk Küçük Efendi ile Yusuf Haçir Efendi, malkarlı Muhammedül Varakinin Arap yazısı ve Karaçay-Malkar türkçesiyle yazmış oldukları dini manzumeler ilk edebi eserlerdir. …Bu dönemde sadece Karaçay-Malkar yazılı edebiyatının babası sayılan Kazim Meçinin Arap yazısı və Karaçay-Malkar Türkçesiyle yazdığı şiirlerin yayımlandığı bilinmektedir” (Türkiye dışındakı..., 2002: 224, 22-ci cild).

Son illər hazırlanan ədəbi topluları isə Qaltur Semenov (Semenlanı) (1751-1851), Küçük Bayramukov (Bayramuklanı) (1772-1862), Kasbot Koçkarov (Koçkarlanı) (1834-1940), Kazim Meçilanı (Meçiyev) (1859-1945) və b. el şairlərinin əsərləri ilə karaçay-malkar ədəbiyyatının başlandığını yazan araşdırıcılar da vardır (Antaloqiya literaturı..., 2003).

3.1. Yazılı ədəbiyyatın yeni mərhələyə qədəm qoyması

Dağlı xalqlar, xüsusilə türklər 20-ci yüzildəki itgiləri və sıxıntılarına baxmayaraq kültürlərini qoruya bildilər və ona yeni çalarlar

da qazandırdılar. Bu zaman folklor əsərlərində milli və dini hissləri təbliğ edən, qəhrəmanlıq ruhu oyadan mövzular arxa plana çəkilsə də lirik janrların və Sovet ideologiyasının təbliği ön plana çıxdı. Bir tərəfdən anonim şeirlərdən mahnılar yaradılırdısa, digər tərəfdən də onların keyfiyyəti fərdi improvizəçilər tərəfindən cilalanırdı. Məsələn, qaraçay-malkar mahnılarından "Taukan", "Aliyə cırı", "Aycayaq", "Karqış etme" mahnıları və Rus-Yapon savaşına həsr olunmuş mahnılar sürətlə xalq arasında yayılırdı. Eyni zamanda, həmin mahnılarla yanaşı, improvizəçilərin adları məşhurlaşırdı.

Belə improvizəcilərin əsələrində Qafqaz xalqlarının Rus işğalçılarına qarşı müqavimət zaman baş verən hadisələr əsas mövzu olurdu.

Qafqazın quzeyini işğal etdikdən sonra sürətlə güneyə doğru irəliləyən işğalçı rus orduları bu yerləri də imperiyanın tərkibinə qatmışdır. Lakin, işğal etdikləri əraziləri idarə etmək müharibə aparmaqdan çətin olmuşdur. Çünki Rusiyada təhkimçilik hələ də davam edirdi. Knyaz ona məxsus kəndlərlə istədiyi kimi davranırdı. İstədiyi vaxt kəndlini, onun ailə üzvlərini, yəni qızını, oğlunu başqasına sata

bilirdi. Bu alqı-satqı gizli deyil, açıq-aşkar aparılırdı. Hətta qəzetlərdə belə knyazların-ağaların kəndlilərinin ailə üzvlərini yol çəkilişində, meşə qırılmasında, tikintisində, gəmiçilikdə, ev qulluqçuluğunda işləmək üçün satdığına dair elanlar verilirdi. Yəni quldarlığın bəzi xüsusiyyətləri hələ də davam edirdi.

Rusiya işğal etdiyi xalqları da ruslar kimi idarə etməyə çalışırdı. Hakimiyyət orqanları işğal altına aldıqları xalqların psixologiyasını, adət-ənənəsini, tarixini bilmədən onları istədikləri kimi, yəni zor gücünə öz qanunlarına tabe etmək istəyirdi. Əsarət altına düşmüş xalqların övladları isə aliə şərəfini, namusunu qorumaq üçün döyüşə atılırdı. Baxmayarak ki, onların nə nizami ordusu, nə silah istehsal edən zavodları vardı. Sayca az, silah və sursad baxımından yetərsiz olsalar da işğalçılara qarşı mübarizə on illərlə davam edirdi.

Bu müqavimət hərəkətinə isə 30 ilə yaxın Şeyx Şamil başçılq etmişdir. Onun Rus imperiyasına qarşı apardığı inanılmaz mübarizə dünyanı heyrətə salmşıdı. Bu mübarizə yalnız özünü qoruyan Quzey Qafqaz xalqlarının deyil, işğalçı Rusiyanın da əbəbiyyatına çoxlu mövzu vermişdir.

Kasbot Bağır ulu Koçkarov (Koçkarlanı) **(**1834, Kuban quberniyasının Uçkulan yaxınlığındakı Kasbot kəndi-1940). Kasbot Bağır oğlunun uşaqlıq və yeniyetməliyi Qafqazda qanlı savaşların hökm sürdüyü bir dönəmə təsadüf etmişdir.

Balaca Kasbotun gözü qarşısında Şeyx Şamilin müridləri Rusiyanın toplu-tüfəngli ordularını pərən-pərənə salırdı. Analar döyüşlərdə şəhid olan oğullarına, bacılar qardaşlarına, qadınlar ərlərinə yırlar söyləyirdilər. Necə deyərlər Kasbotun gözü qarşısındaca hər gün yeni bir qəhrəmanlıq yırı yaranırdı. İstəsə də, istəməsə də o bu yırları eşidir, onlar yaddaşına hopur və onun bədii təxəyyülünü zənginləşdirirdi.

Kiçik yaşlarından yeddi il molla yanında təhsil alan, Quran oxumağı, ərəb və fars dillərini öyrənən Kasbot mədrəsədə təhsilini davam etdirə bilmir. Yeniyetmə çağlarında çoxlu cır (yır) və xalq mahnıları əzbərləyərək yığnaqlarında oxuyur. Oxuduqlarının təsiri ilə gənc yaşından öz şeirlərini söyləməyə başlayır. Şairin "Xorasan", "Deboş", "Aycayak" cırları və mahnıları xalq arasında geniş yayılır (Literatura narodov...,

1999: 115). Araşdırıcılar xalq nəğmələri kimi bu gün də oxunan və antologiyalara daxil edilmiş "Candar", "Barak", "Qapalav" və "Qanamat"ın da yazarının Kasbot olduğu qənaətindədirlər (Türkiye dışındakı..., 2002: 237, 22-ci cild).

Kasbot Koçkarov mükəmməl dini təhsil almasa da, sonralar mədrəsə təhsili görmüş, Şərqin dini və mədəniyyət mərkəzlərini gəzib gəlmiş həmyerlilərinin söhbətlərini dinləməklə dini biliklərini artırmışdı. Ona görə də Kasbot Koçkarovun cır və nəğmələrində didaktika, İslami dəyərlərə dayanan öyüd və nəsihətlər çoxluq təşkil edir. Ənənəyə sədaqəti və fitri istedadı sayəsində yazdığı cır və mahnılar qaraçay-malkar poeziyasının qızıl fondunu təşkil edir.

19-cu yüzilin sonları 20-ci yüzilin əvvəllərində Kasbot Koçkarov Quzey Qafqazda yalnız Qaracay-malkarlar arasında deyil, no-qaylar, çərkəzlər, abazalar, qumuqlar, qabardinlər və başqa xalqlar arasında da məşhur olmuşdu.

Kasbot Koçkarovu üsyankar ruhlu şeirləri, həcvləri bolşeviklərin də diqqətini cəlb etmişdi. Bolşeviklər xalq arasında məşhur olan şairləri öz tərəfinə çəkməklə Kommunist Partiyasına,

Leninə, Stalinə mədhiyyələr yazdırır, sosializm quruculuğunu tərənnüm etdirirdilər. Ləzgi xalq şairi Süleyman Stalskini, qazax Cambul Caboyevi, avar Həmzət Sadasanı və b. mükafatlarla, rəsmi toplantılara dəvətlərlə şirnikləndirərək sosializm quruculuğunun məddahına çevirə bilmişdilər.

Sovetlərin dinə mənfi münasibətini, milli ayrıseçkilik siyasətini, müxtəlif adlar altında azad düşüncəli insanları məhv etdiyini görən Kasbot Koçkarov dəvətləri qəbul etmir. At üstündə dərvişvari bir həyat sürərək, kənd-kənd gəzib cırlar oxuyur. Nə yazıq ki, onun yaddaşında gəzdirdiyi yüzlərlə cırı, nəğməni, mahnını, ata sözü və məsəlləri toplayan olmur.

Şairin ölümündən 24 il sonra, yəni 1964-cü ildə "Saylamalar" (Seçmələr) və 1986-cı ildə "Qoçkarlanı Kasbot-Xalq cırçılanı tamadası" (Kasbot Qoçkar-xalq şairlərinin öncülü) kitabları nəşr edilir.

1940-cı ildə, 106 yaşında dünyasını dəyişən Kasbot Koçkarov sağ qalsaydı yəqin ki, 1943-cü ildə xalqı ilə birlikdə o da Qazaxıstana və ya Sibirə sürgün ediləcəkdi. SSRİ dağıldıqdan sonra Kasbot Koçkarovun əsərləri Türkiyədə də çap olunmağa başladı. Kasbot Koçkarovun yaradıcılığına türk

xalqlarında da maraq artmışdır. Onun qaraçay milli ruhunu özündə daşıyan şeirləri Türk xalqlarının ədəbiyyatının bir parçasına çevrilməkdədir.

Kazim Bekkin ulu Meçiyev (Meçilanı) (1859, Tersk vilayətinin-indiki Rusiya Federasiyası Kabarda Balkar Respublikasının Xolam-Bızgi bölgəsində yerləşən Şiki kəndi (indi bu kənd yoxdur, xarabalıqları qalır - Ə.Ş.) - 1945, Taldı Kurqan vilayətinin Telman kəndi). Şiki kəndində yaşayan dəmirçi Bekkinin Kazim adını qoyduğu oğlu doğulan il Qafqaz xalqları üçün kədər və qüssə ili olmuşdur. Rusiya İmperiyasının işğalçılıq siyasətinə qarşı 30 il müqavimət göstərmiş xalq üsyana ara vermişdir. Üsyana rəhbərlik edən, tarixə adını qızıl hərflərlə yazdırmış, təslim olsa da, yaddaşlarda qalib kimi qalmış Şeyx Şamil din adamlarının qərarı ilə mübarizəni dayandırdığını elan etsə də, Rusiyanı bir sıra islahatlar aparmağa məcbur etmiş, Rusiya təhkimçilik hüququnu ləğv etməli olmuşdur. Şeyx Şamilin başçılıq etdiyi silahlı müqavimətin nəticəsindən rus xalqı da yararlanmışdır.

Kazimin adı və soyadı Kazim Bekkin ulu Meçilanı kimi də yazılır. Bizim “oğlu” kimi tələffüz etdiyimiz və yazdığımız sözü qıpçaq

kökənli malkarlar, qaraçaylar, noqaylar, qazaxlar, qırğızlar “ulu” şəklində tələffüz edir və yazırlar. Kazim uşaqlıqdan şikəst olmuşdur. Fiziki gücünü tətbiq etməklə, yəni ağır dəmirçi əməyi ilə ailəsini dolandıran Bekkin şikəst övladının dağlar qoynuda, təbətin sərt üzünü göstərdiyi bir bölgədə yaşaya bilməsinin çətin olacağını görmüş, buna görə də kiçik yaşlarından iti hafizəsilə diqqəti cəlb edən, yazmağa və oxumağa meylli oğlunu kəndə tez-tez gələn din adamı Çepelli əfəndiyə vermişdir ki, onu oxutsun.

Xalq arasında böyük nüfuzu olan və xeyirxahlığı ilə tanınan Çepelli əfəndi kiçik Kazimi özü ilə Bızınq kəndinə gətirərək ona təhsil vermiş, üç ildən sonra isə onu Lesken kəndindəki mədrəsəyə göndərmişdir. Dəmirçi Bekkinin oğlu mədrəsədə yalnız dini elmləri öyrənməklə kifayətlənməyib, türk, ərəb, fars dillərinin qrammatikasını, poeziyanın nəzəriyyəsini öyrənib şeir yazmağa başlamışdır.

Kazim Bekkin oğlu doğulduğu kəndə dönüb mollalıq etməmiş, həm dini bilikləri təbliğ etmiş, həm də şeirlər və poemalar yazmışdır. 1891-ci ildə mövzusunu Qurandan götürərək tamamladığı

“Tahir bla Zöhrə” poeması böyük maraqla qarşılanmışdır. Çünki bu mövzuda bir çox ünlü şairlər türk, fars və b. dillərdə gözəl sənət əsərləri yaratmışlar. Kazim Bekkin oğlunun məharəti onda olub ki, yazılı ədəbi dil ənənəsi olmayan malkar türkcəsinin dialektlərindən yararlanaraq həm dərin fəlsəfi fikri bədii şəkildə verə bilmiş, həm də yazı dilini formalaşdırmışdır.

Bu uğurlu addımdan sonra ilahiyyatçı şair 1898-ci ildə “Şikayət”, 1903-cü ildə isə üçüncü poemasını tamamlamışdır. Həmin il 44 yaşlı Kazim Meçiyev Həcc ziyarətinə getmişdir. İlahiyyatçı şair fiziki cəhətdən zəif olsa da, iradəcə olduqca güclü olmuşdur. O, 1910-cu ildə ikinci dəfə Həcc ziyarətinə getməklə yanaşı, İstanbula, Şama, Bağdada və b. şəhərlərə səyahət də etmişdir. Misirə səyahəti zamanı Qahirədəki Əl-Əzhar Universitetinə daxil olaraq ilahiyyata dair biliklərini artırmışdır. Doğunun bir çox şəhərlərini gəzib, ünlü şəxsiyyətlərlə görüşməsi, biliyini artırması onun dünyagörüşünün genişlənməsinə olduqca böyük təsir göstərmişdir.

İlahiyyatçı şairin ilk kitabı 1906-cı ildə Teymurxan-şurada, indiki Dağıstan Respublikasının Buynaksk şəhərində çap olunmuşdur. Kitaba daxil edilmiş “İman-İslam”

didaktik poeması malkar türkcəsində ilk mətbu əsər sayılır.

İti hafizəsi sayəsində xalq arasında geniş yayılan mahnıları, cırları və dastanları yaddaşında saxlayıb və onların təsiri ilə ilk şeirlərini yazmağa başlayan Kazim Bekkin oğlu az zamanda şifahi xalq ədəbiyyatını, aşıq-ozan ənənəsini yazılı ədəbiyyata gətirən bir ustad kimi tanınmışdır. "Peyğəmbər" poemasını, "İsmayıl kıssası" və b. əsərlərini yaratmışdır. "İsmayıl kıssası" əsərində Qurani-Kərimdə özünə yer tapan, İslam dinində olduqca önəm verilən, Allaha insanın qurban kəsilməsinə son verən, insan qurbanının qoçla əvəz olunması hadisəsi təsvir edilmişdir.

Hacı Kazimin şeirləri bölgədə dillər əzbəri olmuş, toylarda, məclislərdə xalq mahnıları kimi oxumuşdur. Hamının təhsil almağa imkanı olmadığını görən Kazim dini mövzuları xalq şeiri ruhunda, sadə və anlaşıqlı dildə nəzmə çəkmiş, onun yazdığı zikrlər xalq arasında geniş yayılmışdır. Bu da insanların İslam dini ilə yaxından tanışlığına, onun qaydalarından xəbərdar olmalarına şərait yaratmışdır.

1914-cü ildə Teymurxan-şurada "İman-İslam" əsəri yenidən çap edilmişdir. Şairin 1918-

ci ildə yenə Teymurxan-şurada çap etdirdiyi "Soltan-Hamit al Çeqemi" şeiri də xalq arasında yayılmışdır. Malkarların yaşadığı Çeqem dərəsində üsyan qaldırmış insanların rəhbəri Soltan Hamit Kalabeyə həsr etdiyi bu şeirin həcmi böyük olsa da, insanlar onu əzbərləyərək məclislərdə söyləməkdən zövq almışlar.

Yaradıcılığı çoxcəhətli olan Kazim Meçiyevin şeirlərində ən çox insan tərənnüm edilmişdir. "Adımız insandır" şeirində şair ədəbiyyatda humanizm məsələsi ətrafında gedən mübahisələrə münasibətini bildirmiş və insanın ən yüksək qiymətə layiq olduğunu göstərmişdir. "Ovçuların mahnısı", "Buz cigit" şeirlərini və "Tahir və Zöhrə" poemasını bu sənətkarın şəxsiyyət konsepsiyası saymaq olar.

Birinci Dünya Savaşını şeirlərində və moizələrində kəskin tənqid edən Kazim Meçiyev vətəninin Rusiya işğalından azad edilməsinə can atanlardan olmuşdur. 1917-ci ildə II Nikolayın taxtdan uzaqlaşdırılması, bolşeviklərlə ağqvardiyaçılar arasında gedən qanlı savaşlar, Quzey Qafqaz xalqlarının birləşərək Rusiya işğalından azad dövlət qurmaları onda bir qeyri müəyyənlik yaratmışdır. Özü də kimi mövqeyini

tutacağını, kimi müdafiə edəcəyini müəyyənləşdirə bilməmişdi.

O, bütün varlığı ilə savaşların durdurulmasını, insan qanının axıdılmasına son qoyulmasını istəmişdir. Bolşeviklərin sosial ədalət, savaşları durdurmaq, xalqlara azadlıq vermək haqqındakı şüarları Kazim Meçiyevi də inandırmışdır.

1920-ci ildən sonra yazdığı şeirlərində kommunist partiyasını, Oktyabr inqilabını, kommunist öndərlərini, bir sözlə, sosializm quruculuğunu, Sovetlər Birliyini tərifləyən, kasıbların inqilabı sevinclə qarşıladığını tərənnüm edən coşqun misralara da tez-tez rast gəlirik. Az vaxt sonra şair xalqının aldadıldığını başa düşmüşdur. Lakin o aktiv mübarizəyə atılmamışdır. Yaşının çoxluğu və fiziki şikəstliy, xarekterinin mülayimliyi ona üsyankar şeirlər söyləməyə imkan verməmişdir. Zamanəyə qarşı narazılıqlarını eyhamlar şəklində söyləmişdir.

Xalq poeziyası üslubunda yazan şair sosializm quruculuğunu tərənnüm etsə də, ədəbiyyata yeni gələn Rus Sovet şairlərinin təsiri ilə yaradıcılığa başlayan gənclərin basqısına uğramış, ədəbi mübahisələrdə tez-tez təzyiqlə üzləşmişdir. Sosializmi yetəri qədər tərənnüm

etməsinə baxmayaraq, 85 yaşlı şairi də 1944-cü il martın 8-də yaşadığı Kisibalık kəndindən xalqı ilə birlikdə Qazaxıstan Respublikasına sürgün etmişlər. 1945-ci il martın 15-də sürgündə ölən şairin nəşi (sümükləri) 1999-cu ildə Taldı Kurqan vilayətinin Telman kəndindən Nalçikə gətirilmiş və şərəfinə ucaldılmış abidənin yanında dəfn edilmişdir.

1990-cı illərədək şairin yalnız Sovet rejiminə uyğun şeirləri çap edilmiş, son illərdə Alim Teppeyevin hazırladığı "Kazim: nazmula, zikirle, poemala" və Abdullah Bekiyevin tərtib etdiyi "Kazım: şiirler, zikirler, poemalar" (Kazim..., 1996) kitablarına dini məzmunlu əsərləri də daxil edilmişdir.

Quzey Qafqaz xalqları arasında İslam dininin yayılmasında əməyi olan, fərqli-fərqli dillərdə danışan xalqları islam dini vasitəsilə birləşdirməyə çalışan Kazim Meçiyevin ideyaları şairin ölümündən 55 il sonra, Sovetlər Birliyi çökdükdə yenidən çiçəklənməyə başamışdır.

Appa Qala-Gerey ulu Canıbekov (Janıbeklanı Kıala-Ceriyni jaşı Zekeriya Canibeklanı) (1860/64, Kuban quberniyasının Uçkulan kəndi-1934, Qızıl Pokun kəndi). Əsil

adı Zəkəriyə olan şair xalq arasında Kalay oğlu Appa, Çamçı adı ilə tanınmışdır. Ömrünün sonunadək evlənməyən, günlərini at üstündə keçirən şair həcvləri ilə xalqının sevimlisinə çevrilmişdir. Cəmiyyətdəki sosial ədalətsizliyi, insanların pis əməllərini poetik dillə tənqid etdiyinə, həcvlər yazdığına görə iki dəfə Sibirə sürgün edilmiş, 11 il sürgün həyatı yaşamışdır. Sibir mədənlərində ağır şəraitdə işləməsi də onun iradəsini qıra bilmir. Geri döndükdən sonra yenə də at belində aulları gəzərək həcvlər söyləyir.

20-ci yüzilliyin başlarında çar Rusiyasının durumu getdikcə ağırlaşır. Çar hökuməti Qafqazda yaratdığı sərt rejimdən əhalinin cana doyduğunu, yenidən üsyan qaldıra biləcəyindən narahat olaraq onların bir qismini 1905-1907-ci il inqilabı illərində Osmanlı dövlətinə köçürür. Bölgənin narahat və hökumət üçün təhlükəli adamları sırasında həcvləri ilə məşhur olan Appa Qalay oğlu da olur.

Osmanlı dövlətinə köcən dəstə ilə İstanbula gedir. Orada kukla oynadanlar və məddahlarla tanış olur. Qürbətdə qala bilməyib vətənə dönən şair burada kuklalar düzəldib oynatmaqla özünün satirik şeirlərini və həcvlərini söyləyirmiş

Qürbətdə dözə bilməyən şair minbir əziyyətlə yenidən ata-baba yurduna qayıdır. Yenidə aul-aul gəzərər, kuklalar düzəldib oynadır, kuklaların dili ilə həcvlərini, satiric şeirlərini söyləyir. Rusiya getdikcə zəiflədiyinə görə daha onu həbs edib Sibirə göndərmirlər. Necə deyərlər hökümətin başı tətillərə, üsyanlara, siyasi etirazları söndürməyə qarışdığından Appa həyatını bildiyi kimi yaşayır.

Bolşevikləri hakimiyyəti silah gücünə əla aldıqdan sonra onu da proletar şairi kimi öz tərəflərinə çəkməyə çalışsalar da mümkün olmur.

1934-cü ildə xalq ozanı ağır xəstəlikdən bacısının evində dünyasını dəyişir. Appanın əsərlərinin bir çoxunun uzun zaman çapı və oxunması qadağan edilir.

Sovetlər Birliyi çökdükdən sonra Appa Qalay oğlunun əsərlərinin toplanıb nəşr edilməsinə şərait yaranır. 1995-ci ildə Rimma Ortabay ilə Ahiya Biciri hazırladığı "Kalay ulu Appanın izin izlay" (Kalay oğlu Appanın izi ilə) adı kitabı Çerkası şəhərində çap olunur. Eləcə də şairin fəaliyyətinə həsr olunmuş elmi konfrans keçirilir və burada onun yaradıcılığını tədqiq edən materialllar toplusu çap olunur (https://www.elbrusoid.org/upload/iblock/b27/b

277e7e38322558b249b1ee2d5f6f55e.pdf.АПП А).

İslam Kırımşamxalov (Kırımşamxallanı-Teberdeçi) - (1864, İndiki Kuban quberniyasının Kart Curt kəndi-03.12.1910, Ukrayna Respublikası, Krım Muxtar Respublikasının Yalta şəhəri). Qaraçay yazılı ədəbiyyatının banilərindən sayılan İslam knyaz ailəsində doğulmuşdur. Ata-anasını uşaq ikən itirdiyindən ilk tərbiyəsini dayısı, məşhur malkar ziyalısı İsmail Urusbiyevin yanında almışdır. Peterburq mühiti, orada dostlaşdığı insanlar gənc İslamın dünyagörüşünün formalaşmasına güclü təsir göstərir. Rus və ərəb dillərinin qramatikasını dərindən öyrənən İslam 1903-1910-cu illərdə Parisdə çərkəz Maqomet bey Xacet Laşenin rus, türk və tatar dillərində nəşr etdirdiyi "Musulmanin" jurnalı ilə əməkdaşlıq edir.

Moskva Rəssamlıq Məktəbinə qəbul olunan İslam Kırımşamxalov vərəm xəstəliyinə tutulduğundan təhsilini başa vura bilmir. Vətənə qayıdaraq 1894-1910-cu illərdə Teberdedə yaşayır, ictimai işlərlə məşğul olur, "Severnıy Kafkaz" qəzetinə və "Musulmanin" jurnalına məqalələr yazır.

Onun evi yalnız yerli əhalinin deyil, bölgəyə gələn qonaqların da mədəni mərkəzi rolunu oynayır. O, ardıcıl rəssamlıqla məşğul olmaqla yanaşı, latın qrafikalı ilk qaraçay əlifbasını yaradır.

Şair və peşəkar rəssam kimi tanınan İslam Kırımşamxalov uşaq şeirləri və satiraları ilə məşhurdur. "Anda bla mında" (Orda ilə burda) adlı hekayə yazdığını söyləsələr də, bu hekayə günümüzədək gəlib çıxmamışdır (Literatura narodov..., 1999: 149-151).

İsmaıl Yakub ulu Akbayov (Akbaylanı) - (1874, Kuban quberniyasının Yuxarı Teberdi kəndi-1937). Uşaqlıq və yeniyetməlik illərində vətənindəki müxtəlif mollaxana və mədrəsələrdə oxuyan İsmayıl İstanbula gedir, orada ali təhsil alıb geri qayıdır. İstanbulda tanış olduğu elm və sənət adamları onun dünyagörüşünün formalaşmasına güclü təsir edir.

Rusiyanın düşmən kimi baxdığı Osmanlı dıvlətində ali təshil aldığına görə onu ixtisasına uyğun işlə təmin etmirlər. Odur ki, Yuxarı Teberdi kəndində imamlıq (mollalıq) etməklə yanaşı 1914-cü ildən məktəb açaraq uşaqlara yeni üsulla dərs deməyə başlayır. Xalq arasında Çokuna Əfəndi ləqəbi ilə şöhrətlənir. Ərəb

əlifbasını qaraçay türkcəsinin fonetikasına uyğunlaşdırır və bu əlifba ilə "Ana tili" kitabını yazır. Kitabı 1916-cı ildə Tiflisdə nəşr etdirir. Bu Qaraçay türkcəsində çap olunan ilk kitab sayılır. Kiabda şairin öz şeirləri ilə yanaşı, rus dilindən etdiyi bədii tərcümələr də vardır.

1924-cü ildə nəşr olunan ilk qaraçay-malkar türkcəsindəki qəzetə − "Tavlu caşav" (Dağlı yaşamı) qəzetinə İsmayıl Akbayov redaktor təyin edilir. Həmin illərdə "Ana tili" dərsliyini, "Tilmanc" (Rusca-qaraçay türkcəsində sözlük) kitablarını çap etdirir. Onun Süleyman Cələbinin "Mövlud-i şərif"indən qaraçay-malkar türkcəsinə etdiyi çevirmə və özünün yazdığı "Mövlud" xalq arasında geniş yayılır. Bütün bunlar Sovet xüsusu xidmət orqanlarının diqqətindən yayınmır. 1937-ci ildə minlərlə vətənsevər və aydın kimi İsmayıl Akbayov da həbs olunur. Sonrakı taleyi haqqında bilgi yoxdur.

İsmail Unux ulu Semenov (Semenlanı) (1891, Kuban quberniyasının Uçkulan kəndi-1981). Onun anası Julduzxan folklor söyləyicisi olmuşdur. Bu qadın özünün qoşduğu şeirlərlə danışırmış. Atası Unux dövrünün savadlı

adamlarından, klassik ədəbiyyatın və ərəb dilinin mükəmməl bilicisi olmuş, 38 yaşında Həccə ziyarət zamanı vəfat etmişdir. Jırçı İsmailin ilk müəllimləri valideynləri, ilham mənbəyi isə ətəyində yaşadığı Elbrus dağı, doğma təbiəti gözəllikləri olmuşdur. Digər tərəfdən, ona bu istedad nəsilliklə ötürülmüşdür. İsmail Semyonovun babası xalq cırçısı (jır) Kaltur Semyonov olmuşdur (Həşimi, 2013: 40). Qaraçay-malkar şeirində fəlsəfi düşüncənin və poetik sözün zirvəsini xalq şairi, nəğməkar İsmail Semenovun (Semenlanı) yaradıcılığı təşkil edir. O, məşhur "Minnitav" (Elbrus dağı) mahnısının, "Aktamak" lirik-epik poemasının və b. poetik parçaların yazarıdır. Bu poema dağlının yüksək və ülvi sevgisi haqqındadır. Poemada simvolikadan fəlsəfi səviyyədə istifadə olunmuşdur. Burada təbiətin gözəl mənzərələri canlanır, milli adət və ənənələr göstərilir. Xalq şeirləri üslubunda yazıları ilə ədəbiyyata gələn İsmail Semenov 1920-ci illərdən modern şeir yaradıcılığına başlamışdır. 1939-cu ildə ermənilərin milli qəhrəmanı Sasunlu Davudun 1000 illiyinə Yerevan şəhərində təşkil olunmuş şeir müsabiqəsində birinci mükafata layiq görülməsinə baxmayaraq həmişə sıxışdırılmış, şeirlərinin

çapına qadağalar qoyulmuşdur. Buna baxmayaraq ömrünün sonunadək antisovet ruhlu şeirlər yazmaqdan çəkinməmişdir.

İsmail Semenov cəsarəti, qətiyyəti və dönməzliyi ilə nəinki qaraçay-malkalar arasında, Quzey Qafqazın hər yerində nüfuzlu bir şəxs kimi tanınmışdır.

3.2. Anadilli mətbuatın yaranması və ədəbiyyatın inkişafına təsiri

Qaraçay-malkar yazılı ədəbiyyatının formalaşmasında mətbuatın rolu olduqca böyükdür. 1922-ci ildə Batal Paşa (indiki Çerkessk) şəhərində rusca nəşr olunan "Qorskaya bednota" (Dağlı yoxsullar) qəzetinin bir səhifəsi qaraçaylara ayrılmışdı. Bu səhifədə ərəb qrafikası ilə qaraçay-malkar dialektində məqalələrlə yanaşı, şeirlər də çap edilirdi. 1924-cü il oktyabrın 19-da nəşrə başlayan "Tavlu caşav" (Dağlı yaşamı) qəzeti qaraçay-malkar türkcəsində çıxırdı. Qəzetin adı 1928-ci ildə dəyişdirilərək "Tavlu carları" ("Dağlı kasıbları") qoyuldu. Bu qəzetlərin nəşri qaraçay-malkarlar arasında ana dilində yazılı ədəbiyyatın təşəkkülünə və inkişafına səbəb oldu.

Mətbuat, mədəni mərkəzlər Sovet hökumətinin əlində olduğundan təbliğat və basqılar öz işini görürdü. İssa Qarakötov, Azret Örtenov, Daut Bayqulov (Bayqullanı), Abdulkerim Batçayev (Batçalanı), Xasan Bostanov, Sait Şaxmurzayev (Şaxmurzalanı), Sait Otarov (Otarlanı), Bert Qurtuyev (Qurtulanı) və b. bolşeviklərin qəhrəmanlıqlarını, döyüşlərdə göstərdikləri igidlikləri tərənnüm edir, onların dünyanı zülm və əsarətdən qurtaracaqlarını poetik dillə xalqa çatdırmağa çalışırdılar. O dövrün ruhuna uyğun olaraq poetik pafosla Sovet hökumətinin üstünlüklərinə, kasıbların dayağı olduğuna, xalqlara dinclik və əmin-amanlıq gətirdiyinə, yoxsulların bu hökuməti sevinclə qarşıladıqlarına dair şeir və poemalar yazırdılar. O biri tərəfdən də keçmişi tənqid adı altında bütün milli dəyərləri, adət-ənənəni pisləyir, onları gözdən salırdılar. 20-ci illərin ikinci yarı-sından başlayaraq, ictimai həyatda olduğu kimi, ədəbiyyatda da İslam dininə, İslam mədəniyyətinə qarşı kəskin mübarizəyə girişildi. Din, əski mədəniyyət, adət-ənənə xalqın geri qalmasının başlıca səbəbi kimi göstərilməyə, bir buxov kimi təsvir edilməyə başlandı.

Umar Caşuv ulu Əliyev (Aliylanı-Алийланы Джашууну джашы Умар**)** (25.08.1895, Kuban quberniyasının Kart Curt kəndi - 1938). Umar Əliyev Kuban çayının sağ sahilindəki Kart-Curt kəndində anadan olmuşdur. O, Qaraçaylıların zadagən (üzden ailə) ailəsində anadan olmuşdur

Elə şəxsiyyətlər var ki, onlar ədəbi-bədii yaradıcılıqla ardıcıl məşğul olmasalar da ədəbi mühitin formalaşmasında rolları böyük olmuşdur. Belə insanlardan biri də Umar Əliyev olmuşdur. Umar Caşuv oğlu Əliyev haqlı olaraq Qaraçay-balkarşünaslığın banisi və Qaraçay-Balkar dilinin ilk sistemli təsvirinin müəllifi hesab olunur. Bu gün Qaraçay-Çərkəz Dövlət Universiteti onun adını daşıyır.

İlk təhsilini kəndlərində almış, sonra Malkardakı Köndələn kəndinə gedərək orada oxumuş və yaşamışdır. Təhsilini Qahirədə davam etdirmək arzusunda olan gənc Bakıya gələrək burada işləyib pul qazandıqdan sonra istəyini reallaşdırmağa çalışmış, burada dəmiryolunda və neft mədənlərində fəhlə işləmişdir.

Qahirəyə gedə bilməsə də Dağıstanda, qumuqların yaşadığı məşhur Yaxsay

mədrəsəsində oxumuşdur. Ərəb, fars, türk dillərini, İslam elmlərini dərindən öyrənsə də din xadimi olmaq, bu sahədə çalışmaq istəməmişdir. Dağıstanın inzibati və mədəni mərkəzi olan Teymurxan-şurada imtahan verərək rəsmi dövlət məktəblərində müəllim işləmək hüququ verən diplom almışdır.

1915-ci ildə qumuqların yaşadığı Qumtorqala kəndində müəllimliyə başlamış, 1916-cı ildə Tiflisə gedərkən Azərbaycan türkcəsində cap olunan qəzet və jurnallara dağlı xalqlar haqqında məqalələr yazmışdır. Oradan Ufa şəhərinə gedən Umar Əliyev Osmaniyə mədrəsəsində ərəb və türk dillərindən dərs deməyə başlamışdır. Ufadakı Müsəlman Müəllimləri Birliyinin, sonra Rusiya Müsəlman Müəllimləri Birliyinin sədri, Kazanda tatar türkcəsində çap olunan "Ukutuvcu" (oxuducu-müəllim) jurnalının baş redaktoru vəzifələrində işləmişdir.

Bolşeviklərin ölkədə yaratdıqları qarışıqlıq, onların xalqlara azadlıq, xoşbəxtlik gətirəcəkləri haqqındakı şüarları gənc Umari də inandırmış, o, 1917-ci ilin dekabrında Kommunist Partiyasına üzv yazılmışdır. Ağqvardiyaçılara qarşı savaşda fəal iştirak edən, bolşeviklərin yeritdiyi siyasəti

canı-dildən müdafiə edən Umar Əliyev Qafqaz çəbhəsinin hərbi şurasının üzvü olan İosif Stalinlə (Cuqaşvili) tanış olur. İosif Stalin (Cuqaşvili) onun işgüzarlığını nəzərə alib 1918-ci ildə rəhbərlik etdiyi Millətlər Komissarlığında işə götürür. Komissarlığın işçisi kimi onu ağqvardıyaçılara qarşı mübarizə üçün dəfələrlə Quzey Qafqaza, Krıma göndərir. Dəfələrlə ölümlə üzləşə də mübarizəsindən çəkinmir. 1919-cu ilin avqustunda bolşeviklərin xüsusi tapşırığı ilə gizlicə vaxtı ilə müəllim işlədiyi Gürcüstana, oradan da Azərbaycana gəlir. Azərbaycanda həbs edilir. Lakin Bakının hərbi general qubernatoru olan Murad Geray Texlasın yardımıyla həbsdən qurtulub geri dönə bilir.

Rusiyanın güney bölgələrinin, Quzey Qafqazın sovetləşməsi üçün çalışan, Qaraçay Respublikasının yaradılmasında böyük əməyi olan, 1921-1923-cü illərdə bu respublikanın inqilab komitəsinin sədri işləyən Umar Əliyevin ictimai-siyasi işlərə başı qarışdığından bədii yaradıcılığa vaxt ayıra bilməsə də bu sahədə çalışanları istiqamətləndirmiş, milli kadrlar hazırlanmasına böyük qayğı göstərmişdir.

Müxtəlif rəhbər vəzifələrdə işləyən Umar Əliyev, həmyerliləri Kerim Mametbekov, Nana

Tokov, Abdulkerim Xubuyevlə birlikdə 1926-cı ildə Bakıda keçirilən I Türkoloji qurultayda iştirak etmişdir. Bu qurultay sanki onlara fəaliyyət proqramı vermiş, o, harada yaşamasından və hansı vəzifədə işləməsindən asılı olmayaraq həmişə xalqının sabahını düşünmüşdür.

SSRİ-də yaşayan türk xalqları üçün latın qrafikalı vahid əlifbanın yaradılmasında Umar Əliyevin böyük xidmətləri olmuşdur. "Birlikdə-tirilik" dərslik-müntəxəbatını, "Qaraçay-balkar dilinin qrammatikası", "Rusca-qaraçay-balkarca sözlük", "Qaraçay-balkarca-rusca sözlük", "Rusca-qaraçay-balkarca terminoloji sözlük" kitablarını nəşr etdirmiş, dövri mətbuatda da onlarla elmi-publisistik məqaləsi çap olunmuşdur.

Azərbaycanla və Azərbaycan aydınları ilə sıx əlaqədə olan Umar Əliyev qaraçay-malkar ədəbiyyatının inkişafına, dilinin zənginləşməsinə güclü təsiri olan şəxsiyyətlərdəndir.

O, 1937-ci ilin iyunun 24-də Moskvada vəzifə başında həbs edilmiş və bir il sonra güllələnmişdir.

Umar Əliyevin adına yalnız qəzet və jurnallarımızda deyil, həm də 1937-ci ildə həbs

edilmiş, güllələnmış aydınlarımızın istintaq materiallarında rast gəlmək olur. Həmin sənədlərdən aydın olur ki, yüksək vəzifələrdə işləməsinə, kommunist partiyasının üzvü olmasına baxmayaraq o da bir çox məsləkdaşları ilə birlikdə SSRİ-dən ayrılmaqla Vahid Türk Tatar Dövlətinin yaradılması uğrunda çalışmışdır.

İslam Abdulkerim ulu Xubiyev (Xubiylanı-Karaçaylı) (1896, Kuban quberniyasının Kart Curt kəndi -1938). Kəndli ailəsində doğulan İslam dördsinifli məktəbi bitirdikdən sonra Stavropol oğlan gimnaziyasına qəbul olunaraq 1918-ci ildə gimnaziyanı bitirmişdir. 15 yaşında ikən Parisdəki "Musulmanin" jurnalında məqaləsini çap etdirən İslam Xubiyev Sovet dövründə ardıcıl olaraq "İzvestiya", "Molot", "Sovetskiy yuq", "Sovetskiy Severnıy Kafkaz", "Jizn natsionalnostey", "Revolyutsiya i pismennost" və b. qəzet-jurnallara məqalələr yazmışdır.

20-ci yüzilin əvvəllərində Doğu klassiklərinin xalq arasında məşhur olan əsərlərini qaraçay türkcəsinə çevirməklə ədəbi dilin formalaşmasına və zənginləşməsinə xidmət

edən İslam Xubiyevin Sovet dovründə qadın azadlığı, din, əlifba, təhsil, eləcə də sinfi mübarizə mövzusunda çoxlu məqalələr yazmışdır. Xalqının taleyi ilə bağlı yazdığı məqalələr əslində Sovet təbliğatına xidmət edirdi.

Qəzet-jurnallarda rəhbər vəzifələrdə çalışan, gənclərin mətbuatda iştirakına şərait yaradan, onların bədii əsərlərini çap edən ictimai-siyasi xadim millətçilikdə ittiham edilərək təbliğatçısı olduğu hökumətin xüsusi xidmət orqanları tərəfindən məhv edilmişdir.

3.3. Sovet ideologiyasının yeni ədəbiyyatı formalaşdırması

Təbliğat maşını elə qurulmuşdu ki, ədəbiyyata yeni gələn gənclərlə birlikdə Kasbot Koçkarov, Appa Canıbekov, Kazim Meçiyev kimi bolşevik inqilabından öncə də məşhur olan şairlər belə, Sovet rejimini keçmiş dövrlə qarşılaşdıraraq tərifləyirdilər. Onlar kasıbların varlı zülmündən qurtardığını sevinclə bildirən, sinfi mübarizəni önə çəkən, hər şeyə sinfi mübarizə baxımından yanaşan əsərlər yazmağa başladılar.

Artıq 1927-ci ildə İslam Xubiyevin rəhbərliyi, Abidat Botaşov və çərkəzlərdən Maqomed Dışekovun, Xalid Astecyevin üzvlüyü ilə Qaraçay-Çərkəz Proletar Yazıçılar Cəmiyyəti fəaliyyətə başladı. Cəmiyyətin şeir bölməsinə İssa Qarakötov ilə Asxat Biciyev, nəsr bölməsinə Abdulkerim Batçayev, teatr və pyes bölməsinə Qemma Qebenova ilə Abidat Botaşov rəhbərlik edirdilər. Bu təşkilat 1934-cü ildə SSRİ Yazıçılar İttifaqının Qaraçay-Çərkəz şöbəsinə çevrildi. Təşkilat ətrafında birləşən ədiblərdən Xasan Appayev, İssa Qarakötov, Asxat Biciyev, Abidat Botaşov, Azret Örtenov, Abdulkerim Batçayev, Xasan Bostanov və Daut Bayqulovun təşəbbüsü ilə 1936-cı ildə Mikoyan (Maykop) şəhərində "Almanax-Karaçay Sovet xudejestvo literaturanı ülgüləri" və 1937-ci ildə qaraçay şairlərinin şeirlərindən ibarət "Nazmula" kitabı çap olundu.

1930-cu illərdə ölkənin hər yerində olduğu kimi, Quzey Qafqazda da aydınların "tərkibi"ndə dəyişikliklər baş verdi. Malkar xalqının poetik imkanlarının fəallaşması, intellektual gücünün artması- onun mədəni yaşamına şairlərin böyük bir dəstəsinin gəlişi ilə müşahidə olundu. Bert Qurtuyev (Qurtulanı), Qaysın Quliyev

(Qulilanı), Kerim Otarov (Otarlanı), Salx Qurtuyev (Qurtulanı) və b. buna misal göstərmək olar. Onlar yaradıcılıqlarını sosial sifariş əsasında formalaşdırdılar. Adət-ənənədən, keçmişdən bəhs edəndə ifrata varır, milli dəyərləri alçaldır, dini mədəniyyətin inkişafına əngəl olan vasitə kimi təsvir edirdilər. Onlar kimi düşünməyən ədiblərə qarşı açıq mübarizədə "Bizdən deyilsənsə, bizə qarşısan!" ("Кто не с нами, тот против нас") şüarını irəli sürürdülər. Bədii dəyərlərə o qədər də diqqət yetirməyən ədiblər Sovet rejimini xalqa təbliğ etməyə və deyilənlərə inandırmağa çalışırdılar. Azret Budayev, Xamit Temmo, Omar Etezov, Salix Xoçuyev, Xaci-Mussa Quliyev, Ahmadiya Malkarlı (Ulubaş) və b. dövrün öndə gedən yazıçı və şairlərindən idi.

Yaradıcılığa 1930-cu illərdə başlayan Qaysın Quliyev və Kerim Otarov kimi parlaq fərdlər başqa yolla getdilər. Sənətkar borcuna ciddi münasibət, axtarışların intensivliyi ona gətirib çıxardı ki, onların ilkin lirikasında formaların rəngarəngliyinə, şeir texnikasına, obrazlı, estetik təkmilləşməyə meyl artdı.

Onlar keyfiyyətcə yeni yaradıcılıq düşüncəsinə, ətrafın obyektiv təsviri və dərk edilməsinə gəlib çatmışdılar. Malkar şeirinin

inkişafı haqqında danışarkən, yada salmalıyıq ki, onun əsas milli xüsusiyyətlərindən biri - qəhrəmanın daxili aləmi ilə dünyanın gedişinin uyğunsuzluğunu doğuran səbəbləri axtarmaq idi. Malkar poetik düşüncəsinin ünsürləri 1940-cı illərdə yeni bədii cizgilər kəsb edirdi.

Qaraçay-Çərkəz bölgəsinin Sovetləşmənində iştirak edənlərin bəziləri yazıçı, şair, jurnalist olsa da Qaraçay Sovet poeziyasının özülünü qoyanlar sırasında İssa Qarakötov (Qarakötlanı) (1900-1942), Daut Bayqulov (Bayqullanı) (1902-1942), Azret Örtenov (Örtenlanı) (1907-1955) və b. adları çəkilir.

İssa Zavurbek ulu Qarakötov (Qarakötlanı) (1900, Kuban quberniyasının Cöqetey kəndi-1942, İkinci Dünya Savaşı). Molla yanında təhsilini başa vurduqdan sonra kənddəki rusdilli olan ümumtəhsil məktəbində oxumuşdur. Sovetlər Quzey Qafqazı işğal etdikdən sonra İssanı Moskvadakı Şərq Zəhmətkeşləri Universitetində oxumağa göndərmişlər. 1924-cü ildə universiteti bitirir və orada ana dilində "Yeni mahnılar" kitabını çap etdirmişdir. Kitaba daxil etdiyi şeirlər əsasən Sovet təbliğatının təsirilə yazılmış, bədii cəhətdən o qədər də güclü

olmayan nəzm parçalarıdır. 1931-ci ildə çap etdirdiyi şeirlər toplusunu "İnqilab nəğmələri" adlandırmışdır. Sosializmi tərənnüm edəndə belə dağlı qürurunu, dağlı cəsarətini, dağlı igidinin hünərini ön plana çəkmişdir. Bu baxımdan 1928-ci ildə yazdığı "Qafqaz" şeiri olduqca önəmlidir.

İssa Qarakötovun Sovet dönəmində ən çox təbliğ olunan əsərləri sırasına "İnqilab nəğmələri", "Qafqaz" şeirlərini, "Bay və batrak" poeması daxil edilmişdir (Literatura narodov..., 1999: 161-163).

Azərbaycanı sevən və elmi, ədəbi, iqtisadi əlaqələrin getdikcə güclənməsinə can atan gənc şair 1929-cu ildə Bakı-Qroznı-Tuapse neft kəməri çəkiləndə "Bakı şəhəri-neftin anası" şeirini çap etdirmişdir. Onun "Selmaş", "Çobanın dedikləri", "Azadlığın töhfəsi", "Komsomolçunun molla ilə mübahisəsi" və b. əsərləri də əsasən Sovet quruculuğunun tərənnümünə həsr edilmişdir.

Şair 1942-ci ildə tank döyüşündə şəhid olmuşdur.

Daut Paqo ulu Bayqulov (Bayqullanı)- (1902 Kuban quberniyasının Yuxarı Mara kəndi -1942, İkinci Dünya Savaşı). Kənd məktəbini bitirən

Daut 1925-ci ildə müəllimlər hazırlayan kursu bitirdikdən sonra kənd məktəbində dərs deməklə yanaşı, "Taulu caşav" qəzetinin kəndli müxbiri vəzifəsini də yerinə yetirmişdir. 1929-cu ildə onu Rostovdakı Kommunist Ali Məktəbinin jurnalistika bölməsində oxumağa göndərmişlər. Oranı bitirdikdən sonra "Qızıl Qaraçay" qəzetində işləməyə başlamışdır.

29 yaşında "Bekmurzanın həyatı" hekayəsini çap etdirmiş, həmin il yazarın "Cangı caşavğa cırla" (Yeni yaşam mahnıları) adlı kitabı da çap olunmuşdur. "Mariyam bla efendi" (Məryəm və əfəndi), "Şamay alğın bla endi" (Şamay öncə və indi), "Zalixat" poemaları, "Yenidən" əsəri və b. poetik nümunələri onun məhsuldar yaradıcılığından xəbər verir (Literatura narodov..., 1999: 167-168).

Qaraçay folklorunun toplanması və nəşrində də əməyi olan Daut Bayqulov Aleksandr Puşkinin bir sıra əsərlərini də ana dilinə çevirərək nəşr etdirmişdir.

İkinci Dünya Savaşına hərbi müxbir kimi qatılan Daut Bayqulov cəbhədə həlak olandan sonra da onun əsərləri unudulmamış, dönə-dönə çap olunmuşdur.

Azret Loğman ulu Örtenov (Örtenlanı) (1907, Kuban quberniyasının Kart Curt kəndli-1937). Mədrəsə təhsili görmüş, orada ərəb-fars dillərini, İslamın əsaslarını öyrənmiş Azret 1924-cü ildə Dərbənddəki rus məktəbini bitirmişdir. Oradan Simferopola gedərək Krım Tatar Pedaqoji Texnikumunda oxumuşdur. Texnikumda oxuyarkən orada müəllim işləyən malkar şairi Said Şaxmurzayev və qaraçay şairi Xasan Bostanovla dostlaşmış və bu dostluğu ömrünün sonunadək davam etdirmişdir.

Krımın qaynar mühiti, oradakı millətsevər və vətənpərvər adamlarla etdiyi söhbətlər, üzvü olduğu ədəbi-bədii dərnəkdə iştirakçısı olduğu mübahisələr yeniyetmə Azretin dünyagörüşünün formalaşmasına güclü təkan vermişdir. İlk şeirlərini də məhz orada yazdığından mövzunu Krımdan, Bağçasaraydan almışdır. Sonralar da Krım mövzusuna dönə-dönə müraciət etmişdir.

1926-cı ildə texnikumu bitirib geri dönən Azret doğulduğu kəndin adını özünə ləqəb götürmüşdür. Bir çox şeirlərini Azret Kartcurtlu imzası ilə çap etdirmiş, 1927-ci ildə isə "Yeni cırlar" kitabı işıq üzü görmüşdür. Məhsuldar yaradıcılıqla məşgul olan gənc şairin "Azadlıq qığılcımı" kitabı 1929-cu ildə, "Şeirlər və

poemalar” kitabı isə 1934-cü ildə çap olunmuşdur.

İstedadlı şair və tərcüməçi, folklordan bacarıqla yararlanaraq qaraçay poeziyasını zənginləşdirmişdir. O, Oktyabr inqilabını tərənnüm etmiş, Doğu poeziyasından ruhlanıb epik janrda xalqının qəhrəmanlıqlarından yazmışdır. Axtarışlarda olan gənc şair cəmiyyətdə gedən dəyişikliklərin ədəbiyyatda da baş verməsini istəmiş, yeni janr axtarışlarına təşəbbüs göstərmiş, Mayakovskinin təsirilə sərbəst şeirlər yazmışdır. Aleksandr Puşkindən tərcümələr etmiş, tanınmış osetin dramçısı Dmitriy Kusovun əsərlərini ana dilinə çevirmişdir.

“Oxu!”, “Bay və batrak”, “Safiyat”, “Əfəndi və ölüm” poemalarını yazan şair Sovet hökumətinin tərənnümçüsü kimi tanınsa da, 1937-ci ildə “xalq düşməni” damğası ilə həbs edilmişdir.

Xasan Appayev (Appalanı) (1904, İndiki Kuban quberniyasının Kart Curt kəndi - 1938). İlk Qaraçay romançısı olan Xasan kəndli ailəsində doğulmuşdur. Xasan Sov.İKP Qaraçay-Çərkəz vilayət partiya komitəsinin katibi vəzifəsinədək yüksəlmişdir. İxtisasca mühəndis

olan, Novoçerkassk Politexnik İnstitutunu bitirən Xasan Appayev "Tavlu carlıla" qəzetində ardıcıl ictimai-siyasi məzmunlu məqalələr yazmaqla yanaşı, bədii yaradıcılıqla da məşğul olmuşdur.

Onun ilk əsərləri 1928-ci ildə nəşr olunmuşdur. Əsas əsəri qaraçayların inqilabdan əvvəlki həyatından və onların sosial ziddiyyətlərindən bəhs edən ikicildlik "Kara küyür" (Qara sandıq, 1935-1936) romanı idi. Bu əsər qaraçay ədəbiyyatında ilk roman oldu (Аппаев, 1935).

"Dil zəngindir, təxəyyüllüdür, onun obrazlılığı doğma həyat tərzi, doğma təbiətlə qırılmaz şəkildə bağlıdır. Yazıçının dili artıq folklor dili deyil, zənginləşdirilmiş, ədəbi dildir" (Карасва, 2018: 15 İyul).

Qaraçay-malkarlarda ilk çoxcildlik roman müəllifi kimi tanınan Xasan Appayev "Qara sandıq" əsərində xalqının çoxillik tarixini bədii dillə təsvir etməyə çalışmışdır. O, realist nəsr nümunəsi yaratmaq istəsə də romanında xalqının folklorundan geniş bəhrələnməsi əsərə marağı daha da artırmışdır. 1937-ci ildə xalq düşməni adı ilə həbs olunması "Qara sandıq" romanının nəşrini dayandırmış və əsərin son cildinin məhv edilməsinə səbəb olmuşdur.

Kerim Otarov (Otarlanı) (03.05.1912, Kabarda-Malkar Respublikasının Kirxojan kəndi (indiki Tırnavuz şəhəri) -13.10.1974, Nalçik). Kənddə orta məktəbi bitirdikdən sonra Nalçik şəhərində pedaqoji texnikumda oxumuşdur. Gənc yaşlarında yaradıcılığa başlayan Kerim 1936-cı ildə SSRİ Yazıçılar İttifaqına üzv qəbul edilmişdir. 1938-ci ildə Nalçikdə "Nazmula bla cırla" (Şeirlər ilə nəğmələr) kitabını çap etdirmiş və SSRİ Yazıçılar İttifaqı Kabarda-Malkar şöbəsinə başçılıq etmişdir. 1941-ci ildə qardaşları ilə birlikdə savaşa yollanmışdır. Savaşda iki qardaşını və bir ayağını itirən gənc şair 1943-cü ildə sinəsində "Qırmızı ulduz" ordeni və bir neçə medalla vətənə dönsə də, sürgündən qurtula bilməmişdir. Ailəsi ilə birlikdə Frunzedə (indiki Bişkək) sürgün həyatını yaşayan şair xalqının vətənə dönməsi uğrunda mübarizəyə başlamış, Stalinə məktub yazaraq xalqına qarşı edilən haqsızlıqların qarşısının alınmasını xahiş etmişdir.

Otarovun ilk şeirləri 1930-cu ildə çap olunub. Onun yaradıcılıq irsinin əsasını lirik şeirlər təşkil edir ("Yay otlaqlarında", 1935; "Dağ dərəsi", 1936; "Səndən uzaq", 1941-1942

və s.). Kerim Otarov "Şeirlər və mahnılar" (1938), "Yollar" (1956), "Doğma torpaq" (1960), "İllər" (1964), "Səhər ulduzum" (1969) poeziya toplularının müəllifidir. Doğma xalqının dramatik taleyi ilə ayrılmaz şəkildə bağlı olan Kerim Otarov yaradıcılığında Balkar folklorunun, Keçe Meçiyev, Mixail Lermontov, Sergey Yesenin yaradıcılığının təsirini hiss etmək olur. Ən əlamətdar əsərlər sırasında müharibə illərinin poeziyası ("Səndən uzaqda", 1941-1942) və deportasiya dövrü ("Durnalar dönəcək", 1943-1969) daxildir. Sonrakı şeirlərində insanın peşəsi və onun məsuliyyəti haqqında fəlsəfi düşüncələr vardır: "Mənim səhər ulduzum" (1969), "Abidələr" (1972) və s. Kerim Otarovun şeirlərini Semyon Lipkin, Dmitri Qolubkov, Georgi Yaropolski və başqaları tərcümə etmişlər.

Şair sürgün illərində də həvəsdən düşməmiş, bədii yaradıcılıqla məşğul olmuşdur. "Jolla" ("Yollarda") adlı şeirlər kitabını 1956-cı ildə Frunze şəhərində çap etdirmişdir.

Vətənə döndükdən sonra şair bədii yaradıcılıqla məşğul olmaqla yanaşı, dilmanclıq da etmiş-rus klassiklərinin əsərlərini ana dilinə çevirmiş, dərsliklər yazmış, "Şuyokluk" adlı

jurnala redaktorluq etmiş, bədii yaradıcılıqla yanaşı, coşğun ictimai-siyasi fəaliyyət də göstərmişdir. Şairin sağlığında ana dilində və rusca 11 kitabı çap olunmuşdur.

Qaysın Quliyev (Qulilanı- Къулийланы Шуўаны жашы Къайсын) - (1917, Kabarda-Malkar Respublikasının Yuxarı Çeqemdəki Juvungu kəndi-1985) Uşaqlıqdan xalq şeirinə böyük həvəs göstərən və onları əzbərləyən Qaysın ilk şeirini orta məktəbdə oxuyarkən yazmışdır. 1934-cü ildə isə "Qara xalq" qəzetində şeiri çap olunmuşdur. Bolşeviklərin malkar xalqını ağ günlərə çıxarması, sosializmin xalqlara bərabərlik, azadlıq, əmin-amanlıq gətirdiyini tərənnüm və keçmişi tənqid edən gənc Qaysının dünyagörüşünün formalaşmasında Moskva mühitinin rolu böyük olmuşdur. 1935-ci ildə A.V. Lunaçarski adına Dövlət Teatr Sənəti İnstitutuna qəbul olunan gənc şair axşamlar SSRİ Yazıçılar İttifaqının nəzdindəki Ədəbiyyat İnstitutunun ali ədəbiyyat kurslarında dinləyici kimi iştirak edir. O, burada tanınmış şair, yazıçı və ədəbiyyatşünaslarla sıx ünsiyyətdə olmaqla yanaşı, gələcəyin bir çox istedadlı şair və yazıçıları ilə də dostlaşır. Moskva təhsili gənc şairi 37-ci il irticasından qurtarır.

1940-cı ildə vətənə dönərək ədəbiyyat müəllimi işləməklə yanaşı, Nalçikdə "Salam ertenlik" (Salam səhər) şeirlər kitabını nəşr etdirir. İkinci Dünya Savaşında Sovet ordusunun tərkibində faşizmə qarşı döyüşür. Savaşdan geri dönəndə artıq onun xalqı sürgündə idi. SSRİ Yazıçılar İttifaqı Qaysın Quliyevin Nalçikdə qalması və yaradıcılığını davam etdirməsi üçün hökumətdən icazə alsa da, o, xalqı ilə birlikdə olmağa üstünlük verir və Qırğızıstana gedir. Sürgündə də ardıcıl bədii yaradıcılıqla məşğul olan şairin əsərlərinin mətbuata çıxması əngəllənir. O, şeirlərini çox vaxt dostlarının və tanışlarının yanında saxlayır, qorxur ki, xüsusi xidmət orqanlarının əlinə keçər. 1957-ci ildə xalqı ilə birlikdə vətənə döndükdən sonra Moskvaya gedir, Maksim Qorki adına Ali Ədəbiyyat İnstitutunda təhsilini tamamlayır. Elə həmin il də onun sürgündə yazdığı şeirləri iki kitab halında çap olunur (Kuliyev, 1958).

Qaysın Quliyevin poeziyası savaş dövrünün mücərrəd, pafoslu təsvirlərdən sadə və aydın misralara keçir, 1950-ci illərdə sanki yeniləşir, yer üzünün insanları və təbiətini üçün rahatsız olan bir filosofun düşüncələrinə çevrilir. Savaşdan qayıtmış şair-cəbhəçinin gözlərində

dünya yeniləşmiş, onun ürəyinə yaxın və əziz olmuşdur. Şeirlərində şəxsi duyğu və həyəcanlarını, millət və vətən sevgisini anladan, təbiət təsvirlərinə üstünlük verən şairin əsərləri hakim dairələr tərəfindən müsbət qarşılanmır. Bütün bunlara baxmayaraq, şair 1961-ci ildə "Janngı kitap" (Yeni kitab), 1963-cü ildə "Kök çinarla" (Göy çinarlar), 1965-ci ildə "Jaralı taş", 1967-ci ildə "Üyügüze igilik" (Evinizə yaxşılıq), 1969-cu ildə "Çumla qızaradılar" (Zoğallar qızardılar), 1972-ci ildə "Jer kitabı" (Torpaq haqqında kitab) şeir kitablarını çap etdirir. Bu kitablardan "Jaralı taş" (Yaralı daş) ona 1966-ci ildə Maksim Qorki adına Ədəbiyyat Mükafatını, "Jer kitabı" isə 1974-cü ildə SSRİ Dövlət Mükafatını qazandırır.

Şair "Dərələrin nəğməsi" (1946-1951) silsilə şeirlərində və "Jaralı taş" kitabında öz xalqının tarixi keçmişindən, vətənpərvərlik və müdrikliyindən bəhs edirdisə, "Lenin haqqında dağlar dastanı"nda (1959-1960) Vladimir Leninin (Ulyanov) ideyalarını tərənnüm edir və bu ideyaları bəşəriyyətin xilası kimi tanıtmağa çalışırdı (ASE, 1979: 266, 3-cü cild). Onun "Jer kitabı", "Aşham" (1975), "Tünene. Bugün" (Dünən. Bugün, 1977), "Uçup barğan kanatlar"

(Uçub gedən quşlar, 1980), "Keçe bla tang" (Gecə ilə dan yeri) (1985) və b. kitablarında toplanan şeirlər insanların mənəvi zənginliyinə, xalqlar dostluğuna, yaşadığı bölgənin təbiət gözəlliklərinə həsr edilmişdir.

Ömrünün son illərində yazdığı və ya çoxdan yazıb, çap etdirmədiyi bəzi şeirlər ölümündən sonra Nalçikdə çıxan üç cildlik əsərlərinə, eləcə də 1997-ci ildə çap olunan "Tauvla turğan kadarda" (Dağlar duran qədər) kitabına daxil edilmişdir.

3.4. Sürgündən sonra ədəbiyyatın inkişafı

1950-ci illərdə malkar ədəbiyyatında, bütövlükdə Sovet ədəbiyyatının mövzusunda nisbi dəyişiklik baş verir. Əmək mövzusu önə çıxır. Nikita Xruşşov dövründə rejimdə baş verən yumşalmadan istifadə edərək millətin sürgündə çəkdiyi əziyyətlərdən bəhs edən bədii əsərlər yaradılır. Lakin bu əsərlərdə quruluş, hökumət, deyil, hökumət başındakı ayrı-ayrı şəxslər tənqid edilir, Kommunist Partiyasının rəhbərliyinin öz nöqsanlarını düzəltdiyi, haqq-ədalətin bərpa olunduğu tərənnüm olunurdu. Yeni mövzunun əhəmiyyəti və bədii sənətkarlığın yüksəlişi

şairlərə elə əsərlər yaratmağa imkan verirdi ki, mərkəzdə "yaradan insan", təbiətin dəyişdiricisi, qurucusu dayanırdı. Baqir Qurtuyevin "Kosari" (Biçinçilər), Qaysın (Kaysın) Otarovun "Bülbüllərin nəğmələri" poemaları buna misal ola bilər.

1960-cı illərdə də qaraçay-malkar poeziyası inkişaf yollarında idi. Bu mərhələ də maraqlı və verimli oldu. Bədii yaradıcılığa yeni yazarların - Azret Semenov (Semenlanı) (1924-2008), Tanzila Zumakulova (Zumakullanı), İbrahim Babayev (Babalanı), Musa Mokayev (Mokalanı), Ahmat Sozayev (Sozalanı**)** (Şamil, 2000: 118) və başqalarının gəlişi ilə milli ədəbiyyatın yeni siması müəyyənləşdi.

Azret İsmail ulu Semenov (Semenlanı) (1924, Qaraçay Çərkəz MV Uçkulan kəndi - 2008). Qaraçayların ünlü ozanı İsmailin oğlu olan Azretin şeirləri şairin ana dilinin gözlliyini və zənginliyini baxımından olduqça önəmlidir. Sürgündə çətin günlər yaşayan gənc şair vətənə döndükdən sonra ali təhsil ala bilir. 1963-cü ildə Qaraçay-Çərkəz Dövlət Universitetini bitirir. Şairin ilk kitabı "Cazuv ayla" (Yazı ayları) 1964-cü ildə çap olunmuşdur. Şifahi xalq

ədəbiyyatından səmərəli bəhrələndiyindən və onu çağdaş şeir formaları ilə təqdim etdiyindən böyük oxucu marağı qazanmışdır. Buna görə də onun şeirləri yalnız anadilli oxucular tərəfindən deyil, asan çevriyə yatdığından rusdilli oxucular tərəfindən də rəğbətlə qarşılanmışdır. 1967-ci ildə "Seyir ton" (Qərib kürk) və "Nür ciltinle" (Nur qığılcımları), 1974-cü ildə "Ananı kolu" (Ananın əli), 1991-ci ildə "Nasıb bolsa" (Kısmət olursa) və b. kitabları çap olunmuşdu.

Onu ana dilindən ən ustalıqla istifadə edən şair kimi tanıyırlar. Elə buna görə də Ömər Xəyyamdan, Rudəkidən, Aleksandr Puşkindən, Musa Cəlildən, Rəsul Həmzətovdan və b. dünyanın məşhur ədiblərindən etdiyi çevirilər qaraçay-malkar şerindən demək olar ki, fərqlənmir.

Bu ailədən baba İsmailin da oğul Azretin də, nəvə Rakayın da şeirləri sevilə-sevilə oxunur. Fəlsəfi və lirik şeirləri ilə diqqəti çəkən Rakayın ana dilində və rusça 15-ə yaxın kitabı çap edilmişdir.

Tanzila Mustafa qızı Zumakulova (Zumakullanı) **(**1934, Kabarda Malkar Respublikasının Kirxojan kəndi-indiki Tırnavuz

şəhəri). Şairə də uşaqlıq illərini Qırğızıstanda sürgündə keçirmişdir. İlk şeirlərini orada yazmağa başlamış və 1953-cü ildə mətbuatda çap etdirmişdir. "Kayada külle" (Qayada güllər) adlı ilk şeirlər kitabı 1959-cu ildə Nalçikdə çap olunmuşdur. Ana dilində və rusca 20-yə yaxın kitabı çap olunan Tanzila Zumakulova qaraçay-malkarların ilk qadın şairidir ki, Maksim Qorki adına Ədəbiyyat İnstitunu bitmiş və 1974-cü ildə RSFSR-in Maksim Qorki adına Dövlət Mükafatını almışdır.

1970-ci ildə "Tav ayaz" (Dağ ayazı-1967) və "Çıraxtan"(Çilçıraq-1969) kitablarına görə Kabarda-Malkar Respublikasının Dövlət Mükafatını almış Tanzila Zumakulovaya 1982-ci ildə Kabarda-Balkar, 1994-cü ildə isə Qaraçay-Çərkəz xalq şairi adı verilir.

Onun kitablarına aşağıdakıları nümunə göstərmək olar: "Tavlanı jırı" (Dağların nəğməsi, 1962), "Tav ayaz" (Dağ ayazı, 1967), "Çiraxtan" (Çilçıraq) (1969), "Göz jarıq" (Göz işığım) (1976), "Jazıysuz jazmala" (Yazılmamış yazılar) (1977), "Ata üyüm" (Ata evim, 1984), "Saylamala. Eki tomluk" (Seçmələr. İki cilddə, 1989), "Saylamala" (Seçmələr, 1994) və s.

Tanzila Zumakulova yaradıcılığında milli ruh daha qabarıq şəkildə duyulur.

Sergey Baruzdin yazırdı − "Onun yaradıcılığı, istedadının dərəcəsinə, düşüncələrinin və poetik kəşflərinin dərinliyinə görə nəinki balkar, həm də çoxmillətli poeziya hüdudlarını çoxdan aşıb. Bu isə dünya poeziyasının fəxri olan Aleksandr Tvardovski, Mustai Kerim, Yaroslav Smelyakov, Petrus Brovka, David Kuqultinov, Alim Keşokov, Zülfiyyə və başqa şairlərin səviyyəsidir" (Баруздин, 2010, Атабиева, 2002).

Salix Qurtuyev (Qurtulanı) (1938, Kabarda Malkar Respublikasının Nalçik şəhəri yaxınlığındakı Aksu kəndi, 2020, Nalçik şəhəri). Malkar ədəbiyyatçıları arasında ən məhsuldar yazıçı mükafatı ayrılmış olsa, ona yəqin ki, Salix Qurtuyev (Qurtulanı) layiq görülərdi. Salix Qurtuyev Kabarda Malkar Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. İndiyədək Aleksandr Puşkinin, Mixail Lermontovun, Taras Şevçenkonun, Salomeja Nerisin, Adam Mitskeviçin, Sergey Yeseninin, Nikolay Tixonovun, Konstantin Simonovun, Yevgeni Yevtuşenkonun, Şota Rustavelinin,

Mustai Karimin, Çingiz Aytmatovun və b. əsərlərini ana dilinə çevirməklə yanaşı, özünün də 20-dən çox kitabı çap olunmuşdur. Onun əsərlərinin tərcümə olunub yayılma coğrafiyası da genişdir. Buraya Macarıstanı, Polşanı, keçmiş Yuqoslaviya və keçmiş Sovetlər Birliyinin Azərbaycan, Qırğızıstan, Türkmənistan və b. resbublikalarını daxil etmək olar. Bir çox ölkələrin mükafatlarına layiq görülmüş şairin "Qıyınlı kıtabı" (Qayğılı kitab) romanı malkar oxucularının sevə-sevə oxuduqları əsərlərdəndir.

Axmat Sozayev (Sozalanı). (1941, Kabarda-Malkar Respublikasının Xolam-Bızgi bölgəsinin Aksu kəndi) Sürgündən döndükdən sonra yaradıcılığa başlayan gənclərdən biri olmuşdur. Kabarda-Malkar Dövlət Universiteti filologiya fakültəsinin malkar dili şöbəsini bitirən Axmat Sozayev ilk əmək fəaliyyətinə qəzetdə başlasa da, sonradan uzun müddət Kabarda-Malkar Dövlət Televiziya və Radio Verilişləri Komitəsində işləmişdir. İlk şeirlər kitabı olan "Künnü köremem" (Günəşi görürəm) 1968-ci ildə çap olunmuşdur. Jurnalistlik fəaliyyəti ilə yanaşı, məhsuldar bədii yaradıcılıqla da məşğul olan şairin 1972-ci ildə "Gün avanala" (Günəşin

kölgəsi), 1978-ci ildə “Kırdık avazla” (Sement səsləri), 1983-cü ildə “Aq suv” (Ağ su), 1987-ci ildə “Kolla” (Qollar), 1991-ci ildə “Ertdenlikni açama” (Sabahı açıram), 1995-ci ildə “Allah aytsa” (Allah qoysa), 1998-ci ildə “Tanımı avazıv” (Dan yerinin səsi) və b. kitablarını çap etdirmişdir. Bundan başqa şairin ruscaya tərcümə edilmiş şeirləri də iki kitab halında nəşr edilmişdir. Axmat haqqında “Tanıdığım insanlar” kitabında geniş bilgi verilmişdir (Şamil, 2000: 118).

Xusey Muxacir ulu Caubayev (Caubalani) **(**1936, Qaraçay Çərkəz Muxtar Vilayətinin Aşağı Teberdi kəndi-1999) Sürgündən vətənə döndükdən sonra pedaqoji institutu bitirib qəzetdə işləyən Hasan Caybalanı ömrünün son illərində daha çox xalqının sürgün olunmasından, milli və dini məsələdən yazırdı. Qaraçay Çərkəz Muxtar Vilayətində nəşr edilən “Leninin bayrağı” qəzetində işləyən Xusey Caubalani ilə bir neçə dəfə görüşmüş, ədəbiyyat, xalqlarımızın keçmişi və gələcəyi mövzusunda söhbətlər etmişdik. 1987-ci ildə Çerkesskdə çap etdirdiyi “Kyumyuş canqur” (Gümüş yağış) kitabına 1990-ci ilin aprelin 20-də imzalayaraq mənə bağışlamışdı. Kitabda

diqqətimi ilk çəkən şeirlərin məzmunu olmuşdu. Çünki SSRİ-də çap olunan şeir kitablarının ilk səhifələrində adətən Kommunist partiyası və onun liderlərini, sosializm quruculuğunu öyən şeirlər verilirdi. Xusey Caybalanının kitabı isə belə deyildi. O, kitab "Elimin cazı" şeiri ilə başlayırdı. Kiçik formatlı 126 səhifəlik kitabda partiya, oktyabr inqilabı, Lenin və bu kimi şeirlərə rast gəlmədim. Çalışdığı "Lenin bayrağı" qəzetinin 20 sentyabr 1990-cı ildə çap olunmuş sayının üçüncü səhifəsi bütövlükdə Xusey Caybalanının şeirlərinə həsr edilmişdi. Qəzet Sov.İKP Qaraçay Çərkəz Vilayət Komitəsinin və vilayət xalq deputatlar sovetinin orqanı olmasına baxmayaraq burada da kommunis partiyası və sosializm quruculuğunu öyən şeirlər yox idi. "On bir day", "Ana dili", "İyesiz mekan", "İynam", "Qayanın ürəyi", "Gözlə", "Gecə", "Axır səbəb", "Sen patçax esenq" və başqa şeirləri şairin vətəni və milləti haqqında lirik düşüncələrindən ibarət idi.

Sovetlər Birliyi dağıldıqdan sonra iş yoldaşları ilə birlikdə çalışdıqları qəzetin adını dəyişdirərək "Karaçay" etmişdilər.

Şeirlərinə çoxlu mahnı bəstələnən şairin "Atamı sözü" (Ata sözü), "Güzgü", "Çagadıla baliylə" (Albalı ağacları pöhrəliyir), "Şuvuldayıla

naratla” (Pəncərələr uğulduyur), “Sibü Nartlar”, “Kızgan nal” (Qızaran nal) şeir kitabları çap olunmuşdur.

Muradin Ölməzov (Ölmezlanı - Ёлмезланы Мурадин Мусса улу) - (1949, Qazaxıstan Respublikasının Taldı Kurqan vilayətinin Ernazar kəndi). İbtidai təhsilini doğulduğu kənddə alıb. 1958-ci ildə Balkar xalqının reabilitasiyasından sonra Muradinlər ailəsi vətənlərinə − Kabardin Balkar Muxtar Respublikasına dönmüşlər. Orta təhsilini Nalçikdə tamamladıqdan sonra Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunu bitirib.

Tərcümələri, uşaqlar üçün yazdığı əsərləri, pyesləri və şeirləri ilə qaraçay-malkar oxucularının qəlbinə yol tapmışdır. İndiyədək 10-dan çox kitabını oxucuların mühakiməsinə verən şair təbiətin, kənd həyatının təsvirindən yararlanaraq vətəninin gözəlliklərini, xalqının yüksək mənəvi dəyərlərini təsvir etmişdir.

Muradin Ölməzov yaradıcılığa 1969-cu ildə başlamışdır. Onun əsərləri janr baxımından rəngarəngdir: şeir, poema, hekayə, povest, pyes, ədəbi tənqid, tərcümə və s. (Журнал “Вайнах”. 2023: 29 iyul).

Şimali Qafqaz Milli Teatrlarının II "Sərhədsiz səhnə" festivalında dramaturqun "Tahir və Zöhrə" pyesi ən yaxşı milli tamaşa kimi qiymətləndirilib (Vladikavkaz, 2002).

Muradin Ölməzovun "Sükutun içi" (Изнанка тишины) pyesinin konflikti yüksək dağlıq ərazidə yerləşən Balkar kəndindəki hadisələr fonunda cərəyan edir. Şəhərdə yaşayan uşaqların maddi problemlərini aradan qaldırmaq üçün yaşlıları doğma evlərini satmağa çağırışlarından bəhs olunur. Pyesdə mürəkkəb dramatik münaqişə fonunda kimsəsiz qalan qoca çətin vəziyyətdə olan nəvəsinə kömək etmək üçün evini satmağı qərara alır və qocalar evində köçür.

"Sükutun içi" adlı pyesinin tamaşaları hazırda Şimali Qafqazın bir neçə teatrında uğurla ifa olunur. Bu tamaşa Ümumrusiya qrantı almış və Cənubi Rusiya Teatrları festivalında 2017-ci ilin ən yaxşı milli pyesi olaraq mükafata layiq görülüb.

Yaradıcılığında uşaq ədəbiyyatı ilə bağlı örnəklər xüsusi yer tutur.

3.5. Ədəbi mühitdə dönüş

Haqqında yazdığımız bölgədə də 1960-1970-ci illərdə ictimai şüurda bir dəgişiklik baş verirdi. Uzun illər davam edən kütləvi həbslərin, sürgünlərin yaratdığı psixoz aradan qalxır, mədəni intellektual səviyyə yüksəlir, yaradıcı insanlar fikirlərini ifadə edə bilmək üçün yeni formalar axtarırdı. Bu illərin ədibləri arasında Azret Semenov, İbrahim Qadiyevin, Jağafar Tokumayevin, Macit Quluyevin, Eldar Qurtuyevin, Alim Töppeyevin, Asan Şavayevin, Zeytun Tolqurovun, Svetlana Mottayevanın, Aliy Bayzullayevin, Zuğar Sarıbaşovun və digərlərinin adları qaraçay-malkar oxucularına yaxşı tanışdır.

1970-1980-ci illərə qaraçay-malkar poeziyasında sosializmi quruculuğunun tərənnümünün yerini insanın daxili aləminin açılması, bir bölgənin, bir dövlətin deyil dünyanın taleyi üçün narahat olan bəşər övladları obrazının yaradıldığını görürük. “Kainat - evimizdir“ formulu bütün millətlərin şairləri üçün əsas mövzuya çevrilir.

Malkar şairlərinin, xüsusən 1970-ci illərin şairləri adlandırılan Asker Doduyevin, Abdullah

Begiyevin, Mutalip Beppayevin, Sakinat Musukayevain, Muxtar Tabakovun, Safariyat Axmatovun, Xıysa Qurtubayovun, Örüzlan Bolatovun, Burxan Berberovun, Lyuba Axmatovanın və b. yaradıcılığında poetik "mən" qabarıqlığı ilə özünü büruzə verir. Adını çəkdiyimiz və çəkmədiyimiz ədiblər sürgündə xalqın başına açılan müsibətləri, sosializm quruculuğu, kollektivləşmə və s. adı altında millətin sürükləndiyi faciəni ədəbi mövzusuya çevirirlər.

Çox təəssüf ki, bu kimi ağrılı-acılı məsələlər ədəbiyyatın mövzusuna çevriləndə də Rusiyanın imperiya maraqları çılpaqlığı ilə ifşa olunmur.

Malkar şairləri əsərlərinin mərkəzinə keçmişlə gələcəyin dialektik əlaqələrini, milli-xalq və ümumbəşəri problemlərin həllini, tarixi yaddaşı qoyurlar. Bununla belə, göstərilir ki, tarixi yaddaşı, öz xalqı ilə doğmalıq duyğuları olmayan insan sosial və milli köksüz varlıqdır.

Milli ədəbiyyatın inkişafında folklor əsas başlanğıc rolunu oynayır. Folklordan fərdi yaradıcılıq mərhələsinə keçiddə xalq nəğməkarlarının rolu böyükdür. Onlar ədəbi yaradıcılıqda mövcud olmuş ideoloji yöndən

uzaqlaşaraq bədii dəyərləri, insanın iç dünyasını önə çəkməyə meylli sənətkarlardandır.

20-ci yüzilin 20-30-cu illərində ədəbiyyata gələn gənc şair və yazıçılar yeni ədəbi üslublara, janrlara, metodlara diqqət yetirirdilər. Sənətkarlığı arxa plana keçirərək əsərlərində ideologiyanı, gerçək münasibətləri, sosial emosiyaları təşviqat vasitələri ilə, çağırışlarla açıq bildirirdilər. Əlbəttə, buna bəzi amillər öz təsirini göstərirdi. Belə ki, estetik şüurun səviyyəsi, gələnək gücünün yetərsiz olması ilə bərabər, yeni çağın özünəməxsus kəskinləşən tələbləri, sinfi, sosial duyğuların mövcudluğu, ictimai münasibətlərdəki kəskin dəyişikliklər də burada rol oynayır, özünün siyasi mübarizəsi ilə xarakterizə olunur, şəxsiyyəti bu prosesin iştirakçısına çevirirdi.

1930-cu illərin poeziyasından söz açarkən Xasan Bostanovun "Yeni mahnılar" və "Yeni nəslə" əsərlərini, Maqomet Urusovun (1916-1942) qaraçay-malkarcadan ruscaya çevirdiyi "Biyneger" poema-əfsanəsini, ilk qadın şair Abidat Botaşevanın (1902-1982) 1924-cü ildə çap etdirdiyi şeirlərini yaddan çıxarmamaq lazımdır.

Onların yaradıcılığında rus ədəbiyyatından tərcüməçiliyin təsiri hiss olunur. Həmin illərdə bir çox tərcümə əsərləri də çap olunmuşdur. Qaraçay poeziyası ilk mərhələdə janr-tematik planca müxtəlif olmuşdur. Poeziyanın intensiv inkişafının göstəricisi olaraq "Qaraçay sovet bədii ədəbiyyatı" toplusu çap edilmişdir.

1930-cu illərin sonunda gənc şairlər Osman Xubiyev (Xubiylanı) (1918-2001), Toxtar Borlakov (Borlaklanı) (1914-1942), Maqomet Urusov (Uruslanın) (1916-1942), Abdulkerim Bayqulov (Bayqullanı) (1902-1942), Xalimat Bayramukova (Bayramuklanı) (1917-1996) ilk əsərləri ilə çıxış etmişlər. 1940-cı ildə "Qaraçay" adlı toplu buraxılmışdır.

İkinci Dünya Savaşı və savaşdan sonrakı illərdə qaraçay-malkar ədəbiyyatında bir durğunluq müşahidə olunsa da, 1941-ci ildə "Vətən uğrunda irəli!" şeirlər toplusu çap olunmuşdu. Onlar Vətənə sürgün illərində yaratdıqları ağı-mahnıları gətirdilər. Sürgündən sonrakı illərdə İsa Semenovun, İsmail Əliyevin, Osman Xubiyevin, Aslan Söyünçiyevin və başqalarının əvvəllər çap olunmamış şeirləri "Gözlərimizdən qan damır" adlı kitabda toplanmışdır.

Sovet irticasına uğramış xalqın yazıçılarının xidməti onda idi ki, belə ağır vəziyyətdə qələmi yerə qoymamış, poetik dillə millətin taleyinin salnaməsini yaratmışdılar. Qaraçay-malkar ədəbiyyatının nümunələri Almatı və Frunze (Bişkək) şəhərlərində 1956-57-ci illərdə nəşr olunan "Jaşavu biznu bayrağı" (Yaşam bayrağımız), "Taza cürekden" (Təmiz ürəkdən), "Qığılcımlar" adlı toplulara daxil edilmişdir.

3.6. Bədii nəsrin yaranması və formalaşması

1934-cü ildə çap olunan "Atasını casы" (Atasının oğlu) (yazarı Salix Xoçuyev, 1910-42) və "Maqomet bla karabin" (Maqomet ilə karabin) (yazarı Axmat Bilimğotov, 1910-60) kitabları qaraçay-malkarların çap olunan ilk bədii nəsr kitabları hesab edilir. Uzun illər rəhbər partiya-sovet işində çalışmış Xasan Appayev (Appalanı) (1904-1938) nəsr sahəsində məhsuldar yaradıcılıqla məşğul olmuşdur. Onun "Qara kübür" (Qara sandıq) romanının birinci cildi 1935-ci, ikinci cildi 1936-cı ildə çap olunmuş, əsərin üçüncü cildi isə 1937-ci ildə mətbəədən götürülərək məhv edilmişdir. Xabu Xatsıyevin

(Xatsılanı) (1916-74) “Tamata”, Daut Bayqulovun (Bayqullanı) (1902-42) “Bekmurzanın caşavu” (Bekmurzanın yaşamı) hekayələri, Bert Qurtuyevin (Qurtulanı) (1910-2001) “Bekir” povesti, Maksim Qıttıvanovun (Qıttıvanlanı) (1916-86) “Künümü küzgüsü” və Osman Xubiyevin (Xubiylanı) (1918-2001) “Aybek” (yazarın İkinci Dünya Savaşından sonra yazdığı “Assi” romanı daha məşhurdur və bu əsər qaraçay-malkarların 19-cu yüzildə Osmanlı dövlətinə sürgünündən bəhs edir), Minaldan Şavayevin (Şavalan) (1957) “Murat“ (1958) romanları bu ədəbiyyatda nəsrin “qaranquşlarından” sayıla bilər.

Qaraçay-malkar nəsrinin formalaşması və inkişafında 1960-cı illərdə Sovet rejimində baş verən yumşalma xüsusi rol oynamışdır. Bundan sonra Xabu Xatsiyev (Xatsilanı, 1916-1974), Janakayut Zalixanov (Zalixanlını, 1916-1995), Xalimat Bayramukova (Bayramuklanı, 1917-1996), Osman Xubiyev (Xubiylanı, 1918-2001), Seyit Layranı (1925-2001), Süleyman Babayev (Babalanı, 1932), Üzeyir Julbyev (Julblani, 1932), Eldar Qurtuyev (Qurtulanı, 1935), Jağafar Tokumayev (Tokumalanı, 1935) (o, malkar ədəbiyyatında ilk trilogiyanın (1976-1983)

yazarı kimi tanınır), Alim Töppeyev (Töppelani, 1937), Mussa Batçayev (Batçalanı, 1939-1982), Zeytun Tolğrov (Tolğrlanı, 1939), Boris Çırıkov (Çırıklanı, 1949) və b. nasirlər ordusu yetişdi.

3.7. Dramçılığın yaranması və inkişafı

Dramçılıq sahəsində də diqqəti çəkən cəhətlər olmuşdur. Qaraçay-malkar ədibləri 1930-cu illərdən səhnə əsərləri yaratmağa başlamışlar. Abidat Botaşov (1902-1982) "Bay caş bla carlı kız" (Varlı oğlan ilə kasıb qız) (1923), Abdulla Qorxmazov "Qırmızı komandir kadetlər əsirliyində" (1929), Abdulkerim Batçayev "Axmat Batır" (1933) pyeslərini yazmışlar. Şaxarbiy Ebzayevin "Oğurlu" (Uğurlu) komediyası isə 1931-ci ildə Rostov-Don şəhərində keçirilən Qafqaz Xalqlarının Birinci İncəsənət Festivalında ən yüksək mükafata layiq görülmüşdür (Antaloqiya literaturı..., 2003: 160-170). Pyes 1937-ci ildə üzərində yenidən işlənərək çap edilmişdir.

Ramazan Qelayevin yazdığı "Kanlı kalım" pyesi malkarların ilk səhnə əsəri sayılsa da, bu janrın inkişafı İssa Botaşovun adı ilə bağlıdır. O, sürgündən geri dönəndən sonra "Tavlada tan

jarıydı” (Dağlarda dan qızarır), “Quşla biyikni süedile” (Quşlar yüksəklikləri sevər), “Abrek”, “Soltanın jazısı”, “Tavlı kızın yigidliği” (Dağlı qızın igidliyi) və başqa pyesləri yazaraq səhnələşdirdi (Türkiye dışındakı..., 2002: 405, 22-ci cild). Teatr sahəsində ardıcıl çalışan yazarlardan biri də İbraqim Maqammatovdur (1919). 1961-ci ildən başlayaraq “Toydan sonra”, “Jaralı juğutur” (Yaralı dağ keçisi), “Şamay qala”, “Süymeklikin poeması” (Sevgi poeması), “Aylıq turmala” (Turpluq), “Elibizin adamları” (Elimizin adamları) və b. pyesləri səhnəyə qoyulmuşdur (Türkiye dışındakı..., 2002: 393, 22-ci cild). Jağafar Tokumayevin “Avanala” (Kölgələr), “Jalğan daraja” (Yalan ünvan), “Örten” (Yanğın), “Emina” (Vəba) və b. pyesləri malkar teatrında maraqla qarşılanmışdır.

Son illər ədəbiyyata gələn gənclərdən Burxan Berberovun “Ağaç çana” (Ağac paz) pyesi diqqəti cəlb edir.

Bədii və elmi yaradıcılığı parallel aparan, pedaqoji sahədə çalışan, Kabarda-Malkar Dövlət universitetində prorektor işləyən Burhan Berberov Azərbaycanla bağlı olan malkar ədiblərindəndir. Azərbaycanın alimləri və elm ocaqları ilə daha sıx bağlı olan ədib Bakıda

AMEA Folklor İnstitutunun keçirdiyi “Ortaq türk keçmişindən ortaq türk gələcəyinə” simpoziumularına qatıldığı kimi, Azərbaycan alimlərinin də Nalçikdə keçirilən toplantılara getməsinə vasitəçi olur.

3.8. Uşaq ədəbiyyatı

Qaraçay-malkar yazılı ədəbiyyatı yaranmağa başladığı ilk günlərdən uşaq ədəbiyyatının inkişafına xüsusi diqqət yetirilmişdir. İsmail Aqbayovun 1916-cı ildə Tiflisdə çap olunan “Ana tili” kitabında (bu kitab qaraçay-malkarca çap olunan ilk dərs kitabıdır), İslam Kırımşamxalovun da əsərləri verilmişdir və onun uşaqlar üçün yazdığı maraqlı ədəbi nümunələrə rast gəlirik. Sonrakı dövr yazıçı və şairlərin əsərləri arasında da uşaqlar üçün yazılmış bədii ədəbiyyat örnəklərini görmək mümkündür.

Vətənə qayıtdıqdan sonra şair və yazıçılar ədəbi fəaliyyətlərini davam etdirərək boşluğu doldurmağa çalışsalar da, üzərlərində güclü senzor nəzarəti vardı. Sürgün illərinin acılarını olduğu kimi təsvir etmək yasaqlanmışdı. Ədəbi yaradıcılıqda estafeti gənc nəslə verməklə xalq ənənələrinin yaşaması üçün zəmin yaradıldı.

Yeni əsərlər çap olunur, qaraçay poeziyasının inkişaf yolları müəyyənləşdirilirdi. Əsərlərin rus dilinə tərcümə edilməsi qaraçay ədəbiyyatının çoxmillətli ölkədə tanınmasına səbəb olurdu. Dirçəlmiş qaraçay poeziyasının ilk nümunələri olan kitablarda Osman Xubiyevin, Həlimət Bayramukovanın, Aslan Söyüncevin, Nuh Xubiyevin, Azeret Ebzayevin, Xusey Caubayevin və başqalarının şeirləri dərc olunmuşdu. 1960-cı illərdə qaraçay poeziyası da önəmli uğurlar əldə etmişdi. Şeirlərin yeni nəzəri quruluş metodları işlənib hazırlanırdı. Sərbəst şeirə meyl artırdı.

3.9. Ədəbiyyatda yeni yüksəliş və milli mövzuların önə çıxması

1970-1980-ci illərdə məşhur qaraçay şairləri lirikanın inkişafına daha çox diqqət yetirmişlər. Gənc nəslin istedadlı nümayəndələri sərbəst vəzndə daha çox yazır, yenilik axtarışı ilə şeirin inkişaf yollarını müəyyənləşdirməyə çalışırdılar. Azret Akbayev, Boris Lauranov, Türkli Turkliyev, Jamal Sozarukov, Kübra Salpaqarova, Dina Mamçuyeva və b. poeziyanın müxtəlif janrlarında-mahnı mətnləri, sonet, ballada,

poema və s. yazdıqları üçün bu janrlar getdikcə təkmilləşirdi, yazıçıların sənətkarlığı yüksəlir, poeziya yeni üslublarla zənginləşirdi.

Sovet ədəbiyyatına 1960-cı illər nəsli kimi daxil olmuş ədəbi mühitin təsiri ilə qaraçay-malkarlarda da Tanzila Zumakulova, İbraqim Babayev, Bayçora Soslanbekov, Salix Qurtuyev, Svetlana Mottaiyeva, Ali Bayzullayev, Muxamat Moqayev, Muradin Ölmezov, Abdullah Beqiyayev, Bilal Laupanov, Sakinat Musukayeva, Rakay Semenov və b. istedadlı ədiblər meydana çıxmışdı. İndi onların əsərlərinin mövzusu da, yazı manerası da dəyişmişdir. Onlar vətənin, millətin tarixindən, başlarına gətirilən müsibətlərdən yazır, xalq yaradıcılığının zəngin poetik formalarından bacarıqla istifadə edirlər.

Aşkarlıq və yenidənqurma hərəkatından bəhrələnən qaraçaylar "Camağat","Alan", malkarlar "Birlik" ictimai təşkilatlarını qurmuşlar. Yazıçı və şairlərin əsərləri "Nur", "Şohluk", "Töre" jurnallarında, "Zaman", "Mingi tav", "Üyge igilik" və b. qəzetlərdə çap olunur. Çox təəssüf ki, iqtisadi çətinlikdən qəzet və jurnallar müntəzəm çap olunmadığı kimi,

yazıçı və şairlər də əsərlərini vaxtında nəşr etdirib oxucuların mühakiməsinə verə bilmirlər.

Sonuc

Müstəmləkəçilər xalqları nə qədər bir-birindən ayırmağa çalışsalar da, insanların dünyagörüşləri genişləndikcə, oxuyub yeni bilgilərə yiyələndikcə yetərincə milli kimliyini ortaya qoymağa, zor şərtlər altında olsa belə həqiqəti yazmağa, doğru olanı xalqa çatdırmağa çalışacaqlar. Bunu qaraçay-malkar ədiblərinin timsalında da görmək olar. Belə ki, Qaraçay-Çərkəz Muxtar Vilayətində şagirdlər üçün 1976-cı ildə hazırlanmış "Ana literatura" dərsliyinə qaraçay yazıçı və şairləri ilə yanaşı, Kabarda-Balkar Muxtar Respublikasında yaşamış, yəni bu günün bölgüsünə görə malkar ədibləri hesab edilən Qaysın Quliyevin, Canakayıt Zalixanovun, İssa Botaşovun, Xabi Xatsıyevin də əsərləri daxil edilmişdir. Həmin dərsliyin 1988-ci ildə hazırlanmış yeni nəşrində Kazim Meçiyevə də geniş yer ayrılmışdır (Türkiyə dışında..., 2002: 224, 22-ci cild).

Son illərin elmi araşdırmalarında bu yöndə xeyli iş görüldüyünün şahidi oluruq.

ПУТЬ РАЗВИТИЯ ЛИТЕРАТУРЫ КАРАЧАЙ-МАЛКАРСКИХ (ВАЛКАРСКИХ) ТЮРКОВ

Резюме

Долгие годы исследователи карачай-малкарской (балкарской) истории литературы отмечали его наличие с 18 века. Такие творческие личности как Микаил Шамси Башту (835-900), Трам хан (10-12 век), Зурум Бийче (13…-1396), Агбилек Бийче (13…-1396), Гошаях Бийче (16-17 век), Галтур Семенов (18 век), опираясь на первичные источники, выявили, что история письменной литературы карачай – малкарских тюрков берет свое начало с 9. века. Некоторые моло-дые исследователи считают, что история литературы берет свое начало с Орхоно-Енисейского памятника. Естественно то, что изучая свою историю, повышается национальное смосознание, приобщаемся к своей истории, литературе и культуре.

Утратив политическое влияние русских на лите-ратуру, карачай-малкары углубили

свои исследования на изучение и распространение к общетюркской культуре и на старейшую кыпчакскую литературу.

Были пересмотрены все ценности литературы советского периода, выявлена запретная литература и с новой призмы представлены для читателей нового поколения.

Карачай-малкарские тюрки собрали, (и по сей день собирают), сохранили и издали свои фольклорные образцы. Бесценен для общетюркского фольклора, культуры, мировоззрения такие фольклорные образцы как нарты, песни о богах и образцы детского фольклора собранные карачай-малкарами.

Если вовремя не изучить этот богатейший материал, то это для мировой культуры будет большой потерей.

Пришедшие в литературу 19. века такие имена, Калтур Семенов (1751-1851), Кучук Байрамуков (1772-1862), Касбот Кочкаров (1834-1940), Кязим Мечиев (1859-1945), Ислам Крымшамхалов-Тевердичи (1864-1910), Исмаил Акбауов (1874-1937) и пользуясь этим богатейшим багажом, черпают свои знания, пришедшие в

литературу 20. века такие имена, как Ислам Хубиев (Хубийлани) (1896-1938), Абидат Боташов (Боташлани) (1902-1982), Исса Гарагетов (Гарагетлани) (1900-1942), Асхат Бичиев (Бичилани), Абдулкерим Батчаев (Батчалани), Гемма Гебенова (Гебенлани), Хасан (Асан) Аппаев (Аппалани) (1904-1938), Азрет Йертенов (Йертенлани) (1907-1937), Тохтар Борлаков (1914-1942), Хасан Бостанов (Бостанлани), Берт Гуртуев (Гуртулани), Керим Отаров (Отарлани) (1912-1974), Гайсын Гулиев (Гулилани) (1917-1985), Азрет Семенов (Семенлани) (1924-2008), Танзила Зумакулова (1934), Жагафар Токумаев (1935), Салих Гуртуев (Гуртулани) (1938), Азрет Будаев (Будайлани), Омар Этезов (Этезлани), Салих Хочуев (Хочулани) (1910-1942), Ахмат Созаев (Созалани) (1941), Ахмадия Малкарлы (Улубашлани) и др.

Ключевые слова: карачай – малкарская (балкарская) литература, Кавказские воины, кыпчаки, формирование литературы нового периода.

THE DEVELOPMENT OF LITERATURE BY KARACHAY-BALKAR (MALKAR) TURKS

Abstract

For many years the research activities on the history of Karachay-Malkar (Balkar) written literature claimed that this literature started in the eighteenth century. Nowadays the sources on such creative personalities as Michael Shamsi Bashtu (835-900), Tram khan (10th-12th century), Zurum Biyche (13..-1396), Akbile Biyche (13..-1396), Koshayak Biyche (16th - 17th century), Semenlani Kaltur (18th century) take the start of the history of Karachay-Malkar (Balkar) written literature to the ninth century. Some young researchers draw this history back to Orkhon-Yenisey scripts. It is a natural process since the more the nation gets aware of itself and considers its history, the more developed national consciousness appears and the nation starts to possess its history, literature and culture more strongly.

The decrease in the discrimination policy pursued by Russia gave possibilities for

Karachay -Malkars (Balkar) to get more involved in the study and publicity of old Kipchak literature and joint Turkic culture. The literary works from the twentieth century are thoroughly considered, prohibited works written during Soviet period are disclosed and valuable ones are re-published for young generation.

The Karachay -Malkars (Balkar) have been able to keep their rich folklore, collect and publish it. The study of songs on narts, gods and the samples on child folklore contain flush treasure for taking possession of joint Turkic folklore, culture and outlook. In case of failure in studying this rich treasure in proper time world culture may lose one of its pieces.

Galtur Semenov (Semenlanı) (1751-1851), Kuchuk Bayramukov (Bayramuklanı) (1772-1862), Kasbot Kochkarov (Kochkarlanı) (1834-1940), Kazim Mechilanı (Meçchiyev) (1859-1945), İslam Kırımshamkhalov (Krımshamkhallanı-Teberdiçi) (1864-1910), İsmail Akbayov (Akbaylanı) (1874-1937), İsmail Semenov (Semenlanı) (1891-1981), Omar (Aliy-lanı) (1895-1938), Islam Khubiyev (Khubiylani) (1896-1938), İssa Karakotov (Karakotlani) (1900-1942), Daut Baygulov (Baygullanı)

(1902-1942), Abdulkerim Baygulov (Baygullanı) (1902-1942), Asan (Khasan) Appayev (Appalani) (1904-1938), Azret Ortenov (Ortenlani) (1907-1937), Bert Gurtuyev (Gurtulani) (1910-2001), Salih Hojuyev (Hojulani) (1910-1942), Kerim Otarov (Otarlani) (1912-1974), Gaysin Guliyev (Gulilani) (1917-1985), Azret Semenov (Semenlanı) (1924-2008), Tanzila Zumakulova (Zumakullanı) (1934), Jaghafar Tokumayev (Tokumalanı) (1935), Xusey Caubayev (Caubalanı) (1936-1999), Salih Gurtuyev (Gurtulani) (1938), Axmat Sozayev (Sozalani) (1941), Muradin Olmezayev (Olmezlanı) (1949), Haji-Mussa Guliyev (Gulilani), Ahmadiya Malkarov (Ulubash) and others who came into literature in the twentieth century tried to use this rich vocabulary treasure in their creativities.

Key words: Karachay-Malkar (Balkar) literature, The Caucasus battles, The Kipchaks, the formation of literature of modern times.

QAYNAQLAR

Azərbaycan türkcəsində

1. ASE (Azərbaycan Sovet Ensiklopediyası). (1979). 3-cü cild. ASE nəşriyyatı, Bakı.

2. Dünya xalqları (tarixi, etnoqrafik ensiklopedik məlumat kitabı). (1998). Azərbaycan Ensiklopediya Nəşriyyat Birliyi, Bakı.

3. Həşimi, Afət. (2013). Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş "Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları, Bakı: Nurlan.

4. Şamil Əli. (2000). Qafqazın o tərəfində və bu tərəfində: – Axmat Sozaye, "Tanıdığım adamlar", Sumqayıt nəşriyyatı.

5. Tağısoy (Məmmədov) Nizami. (2008). Balkar-qaraçay "Nart" qəhrəmanlıq eposu (Digər Qafqaz xalqlarının "Nart"ları ilə oxşar və fərqli məqamlar), Müqayisəli ədəbiyyat (Ədəbiyyatlarda və mədəniyyətlərdə stereotiplər), 21-22 noyabr 2008-ci ildə keçirilən Beynəlxalq Elmi Konfransının materialları, Bakı.

6. Yoloğlu Güllü. (1996). Qaraçay-balkarlar, “PRESS Fakt” qəzeti, 19-25 yanvar.

Türkiyə Türkcəsində

7. Caferoğlu Ahmet. (1988). Türk kavimleri, İstanbul.

8. Bice Hayatı. (1991). Kafkasya’dan Anadolu’ya göçler, Ankara.

9. Hacıoğlu Bedri. (1993). Kafkasya’dan Anadolu’ya göçler, İstanbul.

10. Hayit Baymirza, (1995). Türkistan Devletlerinin Millî Mücadeleleri Tarihi, TTK Basımevi, Ankara.

11. Mirzə Bala. (1967). Karaçay və balkarlar, İslam Ansiklopedisi

12. Mızı ulu İsmail. (1993). Merkezi Gafgazın etnik tarihinin köklerine doğru, Türk Dünyası Araştırmalar Vakfı, İstanbul.

13. Tavkul Ufuk, Kalafat Yaşar (2003). Karaçay-balkarlar (Tarih, toplum ve kültür), “KaraM” nəşriyatı, Ankara.

14. Türkiye Dışındaki Türk Edebiyatları Antolojisi. (2002). Karaçay-Malkar ədəbiyyatı, Ankara, 22 cild.

15. Türk dünyası el kitabı. (1992). Üçüncü cilt, edebiyat, İkinci baskı, Ankara.

16. Türk dünyası el kitabı. (2003). Dördüncü cilt, edebiyat, Üçüncü baskı, Ankara.

Qaraçay-Malkar (balkar) Türkcəsində

17. Karaçay-Malkar folklor. (1996). Xrestomatiya, (Kitapnı basmaqğa jaraşdırqğan gm al sezü jazqğan Xadjilanı Tanzilya), Nalçik.

18. Meçiev Kyazım. (1987). Nazmula bla pogmala, Nalçik.

19. Caubalanı Xusey. (1987). Kömöş djanqur, Çerkassk.

20. Caubalanı Xusey. (1990). Djanqı nazmula, “Leninni bayrağı” qəzeti, 20 sentyabr, sayı 109 (8179) s. 3.

21. Sozayev Axmat. (1987). Kcolla. (Nazmula kitabı), Nalçik

22. https://www.elbrusoid.org/upload/iblock/b27/b277e7e38322558b249b1ee2d5f6f55e.pdf.АПИА

Rus dilində

23. Алиев Умар Джашуевич. Энциклопедический словарь

Ставропольского края. Гл. ред. В.А. Шаповалов; рецензенты: Ю.А. Поляков, О.Г. Малышева. Ставрополь: Изд-во Ставропольский государственный университет , 2006, с. 36.

24. Антология литературы народов северного Кавказа. (2003). Поэзия. Пятигорск, Т. 1.

25. Аппаев Х. А. Чёрный сундук = карач.-балк. Къара кюбюр. − Микоян-Шахар, 1935. Т. 1

26. Атабиева, Асият Даутовна. Лирика Т. Зумакуловой: Традиции и новаторство. 2002-01-01.

27. Байрамуков И.З. (1999). Этимологический анализ имен главных героев старшего поколения в национальных версиях эпоса “Нарты”, Карачаевск. Баруздин С. Заметки о творчестве Танзили Зумакуловой. − Посвящение, 2010.

28. Баташова Б. (2001). Истоки Карачаевского и балкарского театров (автореферат), Москва.

29. Бероев Б.М. (1984). Приэлбрусье. Из. Профиздат, Москва.

30. Вопросы искусства народов Карачаево-Черкесии. (1993). Черкесск.

31. Исаев М.И. (1970). Сто тридцать равноправных, Из. Наука, Москва.

32. История народов северного Кавказа, Конец 18. в-1917 г. (1988). Москва.

33. Караева А. И. Становление карачаевской литературы. Черкесск: Карачаево-Черкесское издательство (1963).

34. Журнал “Вайнах”, 29 iyul 2023.

35. Керейтов Р.Х. (1997). Культурное взаимодействие тюркских народов в этнической истории ногайцев. “Вестник Карачаево-Черкесского института гуманитарных исследований”. Выпуск 2, Черкесск, ст. 24.

36. Краткая литературная Энциклопедия. (1966). 7 том, Из. Советская енсиклоредия. Москва.

37. Культурная диаспора народов Кавказа: генезис проблем изучения (по материалам международной научной конференции. 14-19 октября 1991 г. Черкесск), (1993). Черкесск.

38. Литература народов Карачаево-Черкесии. (1999). 1 том. Черкесск.

39. Пословицы и поговорки народов Карачаево-Черкессии. (1990) / Сос.Р.А.Ормабаева, М.И.Мижаев, С.У.Чикатуева, А.И.-М.Сикалиев), Черкесск.

40. Раевский Д.С. (1985). Модель мира скифской культуры, Из. Наука, Москва.

41. Сабанчиев Х.-М.А. (1989). Пореформенная Балкария в отечественной историографии, Из. Эльбрус, Нальчик.

42. Семенланы А. (1999). Магана, Черкесск, Т. 1.

43. Смирнов Н.А. (1970). Мюридизм на Кавказе, Москва.

44. Созаев А. (1985). Летающие окна, Москва.

45. Суючев А. (2001). Белая лебеда на синей волне, Карачаевск.

46. Суинейев А. (2002). Заповедный край, Теберда Дамбой, Ставрополь.

“Qaraçay- Malkar (Balkar) türkləri ədəbiyyatının inkişaf yolu.” məqaləsi Əli Şamilin “Uyğur, Qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyytı” kitabının (2012-ci il, “Nurlan” nəşriyyatı) 234-296-cı səhifəsindən alınmışdır.

QAFQAZIN O TƏRƏFİNDƏ VƏ BU TƏRƏFİNDƏ: – AXMAT SOZAYEV

Balkarları bizdən bir dağ silsiləsi ayırır. Böyük Qafqazın güneyində biz yaşayırıq, qüzeyində onlar. Quzey Qafqazdakı dincəlmə və müalicə yerlərinə Sovetlər Birliyinin müxtəlif bölgələrindən hər il minlərlə insan dincəlməyə gəlirdi. Yayda bu yerlər daha gur olurdu. Yaxın olduğundan və ya başqa səbəblərdən, azərbaycanlıların böyük əksəriyyəti istirahətə uzaqlara deyil, Quzey Qafqaza getməyə üstünlük verirdi. Ailəliklə gedənlər də çox olurdu.

Bütün bunlara baxmayaraq, Quzey Qafqazda dili dilimizdən olan qaraçay, balkar, noqay, qumuq adlandırılan soydaşlarımızla mədəni əlaqə yox dərəcəsində idi. Bu əlaqələrin yaranması və güclənməsinə Sovet strateqləri açıq və gizli əngəllər törədirdilər.

Bütün qadağalara, yasaqlara baxmayaraq içimdə türk ellərini gəzmək, onlarla birbaşa ilişki qurmaq istəyi vardı. Dış məmləkətlərə getməyə isə nə maddi imkanım vardı, nə də yaradılmış maneələri keçməyə gücüm. Ola bilsin, Bolqarıstana, Yuqoslaviyaya, Rumıniyaya turist göndərişi ala bilərdim. Onda da, birincisi, sərbəst

gəzib türklərlə görüşüb, söhbətləşməyə imkan olmayacaqdı. İkincisi də, hər turist qrupunda DTK və başqa təşkilatın adətən bir neçə güdükçüsü olurdu.

Bütün bunlara görə öncə mümkün olan yerləri gəzib görməyi qərara aldım. İlk səfərim 1983-cü ilin dekabrında Krıma oldu. Krım haqqında bilgim yetərincəydi. İsmail Qaspıralı, Bəkir Çobanzadə, Krımda hakim olmuş Geray xanlar haqda çox oxumuşdum. Yer-yurd da mənə doğma idi. Qaldığımız istirahət evi "Foros", ümumiyyətlə, kurortları ilə zəngin olan Yalta yörəsi − ölkənin güneyi mənə Azərbaycanın Astara, Lənkəran, Nabran bölgələrini, dağları aşıb quzeyə keçəndə isə Naxçıvanı, Şirvanı, Qarabağı, Muğanı xatırladırdı. Təbiətinə vurulduğum bu yerlərdə addım başı qanım qaralırdı. Dağ, daş, çay, çəmən, çöl adları türkcəydi. Torpağın hər qarışı türklərdən xəbər verirdi. Amma onların özlərindən xəbər-ətər yox idi.

Baxçasarayı, Gireyxanların sarayını gəzəndə dözə bilməyib acığımı bələdçiyə tökdüm. Muzey kompleksi haqqında bilgi verən cavan və yaraşıqlı qız tez-tez "köçəri, vəhşi, qaniçən tatarlar" deyə vurğulayırdı. Özümü saxlaya

bilməyib: “Onların heç olmasa bir nümunəsini muzeydə görmək istərdim!” − dedim. Mənim bu atmacam yalnız bələdçini deyil, muzeyin rəhbərliyini və b. “dəvət olunmuşları” bərk sancdı.

Qrupumuzun partiya işçilərdən ibarət olması və qaldığımız sanatoriyanın nüfuzu (xanımım Naxçıvan Vilayət Partiya Komitəsində işlədiyinə görə Sov.İKP MK-nın “Foros” sanatoriyasına göndəriş almışdıq) mənim yaxamı onların əlindən qurtardı.

Sovet rejimi yavaş-yavaş laxlayırdı. M.S.Qorbaçovun hakimiyyətə gəlməsi bunu daha da sürətləndirdi. Bundan istifadə edib arzularımı həyata keçirmək istəyirdim. Çalışdığım “Sovet Naxçıvanı” qəzetinin redaktoru Akif Axundovun razılığını alandan sonra Sovetlər Birliyindəki özərk − muxtar respublikalarda milli dillərdə nəşr edilən qəzetlərin redaksiyalarına məktublar yazdıq. Məktublarda hər şey Sovet qaydalarına uyğun idi. Formal cəhətdən biz Sovetlər Birliyinin yaranmasının 60 illiyi münasibəti ilə səhifə mübadiləsi edəcəkdik: biz Naxçıvanla bağlı yazılar hazırlayıb onlara göndərəcəkdik, onlar da özərk respublikaları haqqında bizə materiallar

göndərəcəkdilər. SSRİ-də belə bir təcrübə var idi − bu iş mərkəzləşmiş qaydada SİTA tərəfindən həyata keçirilirdi. Biz isə belə bir mərkəzləşmədən qaçır, birbaşa ilişkilər qurmağa çalışırdıq. Bunlardan əlavə həmin özərk respublikalarda çıxan rusdilli qəzetlərlə yox, milli dillərdə nəşr olunan qəzetlərlə işbirliyi qurmaq istəyirdik. Rusdilli qəzetlərlə bu işi qurmaq asan idi. Onlar öz qəzetləri üçün hazırladıqları materiallardan seçib bizə göndərəcəkdilər. Biz də tərcümə edib qəzetimizin səhifələrinə qoyacaqdıq. Bu isə bizi təmin etmirdi...

Biz çətin yol seçmişdik. Çünki məqsədimiz başqa idi. Sovetlər Birliyindəki 20 muxtar respublikadan 10-da türk ləhcələrində qəzetlər nəşr olunurdu. Mən imkandan istifadə edib özərk vilayətləri olan qaraçaylara, xakaslara, hətta noqaylara da məktub göndərmişdim. Məktublar, əlaqə forması Sovetlər Birliyinin təbliğatına uyğun seçilmişdi. Ancaq redaksiyaların heç də hamısı bizim təşəbbüsümüzə həvəslə qoşulmadılar. Türk xalqlarına dəfələrlə məktub yazıb onları bu işə çəkmək istəyirdimsə, bəzi qəzetlərə ikinci-üçüncü dəfə müraciət etməyi lazım bilmirdim. Qəzetimizin adından səhifələr

hazırlayıb özərk respublika və vilayətlərin qəzetlərinə göndərirdik. Bu səhifələrin materiallarını mən hazırlayır, qəzetimizin rus redaksiyasında işləyən Tahirə Müslümqızı isə tərcümə edir, makinada yazır, yola salırdıq. Hazırlayıb göndərdiyimiz materiallar özərk respublikanın iqtisadiyyatının ayrı-ayrı sahələrini əhatə edirdi. İqtisadiyyata aid olan belə yazıları bu və ya digər biçimdə tarixlə, mədəniyyətlə bağlayırdım. Məsələn, üzüm istehsalından, şərab emalından məqalə hazırlayırdımsa, əvvəlində mütləq Naxçıvanın üzümün vətəni olmasına aid araşdırıcıların fikirlərini, arxeoloji qazıntı zamanı tapılmış üzüm emalı alətləri haqqında bilgi verirdim.

Belə səhifələrimdən biri 1987-ci ilin 22 aprelində balkarların "Kommunizmqe jol" qəzetindən "Şuxluq bizqe güç beredi" başlığı ilə çap olunmuşdu. Qəzet mənə də gəlib çatmışdı. Məqalənin altında imzam yanlış verildiyinə görə redaktorun ünvanına etiraz məktubu da göndərmişdim. Təxminən bir ay sonra isə partiya işçilərinin Jeleznovodsk şəhərindəki "Qornı vozdıx" (Dağ havası) sanatoriyasında idim. Yerimizi rahatlayıb Nalçikə yollandıq. "Kommunizmqe jol" qəzetində qiyabi tanıdığım

Fatma Baziyeva ilə, Əlibəylə, redaksiyanın başqa əməkdaşları ilə söhbətimiz səmimi keçsə də, mübahisəsiz ötüşmədi. Xüsusən, milli dəyərlərdən, milli münasibətlərdən söz düşəndə fikirlər haçalanırdı. Hamımız sosializm quruluşunda yaşasaq, Sovetlər Birliyində təhsil alsaq da çox fikirlərimiz düz gəlmirdi. Xüsusən, 1937-ci ildə adamların kütləvi həbsinə münasibətdə, 1943-cü ildə qaraçay-balkarların sürgünü məsələsində. Bəziləri həmin ağır və çətin günlərdə Azərbaycanın azsaylı türk xalqlarına himayə durmadığını söyləyirdilər. Mən isə onlara etiraz edir, həmin vaxt Azərbaycanda da yüzlərlə aydının həbs edildiyini, güllələndiyini, Ermənistandan Azərbaycan türklərinin köçürüldüyünü söyləyirdim. Söhbətlərimizdən aydın olurdu ki, biz onları tanıdığımız qədər onlar bizi tanımırlar. Bu da təbii idi. 13-14 illik sürgün müddətində məktəblərini, kitabxanalarını, arxivlərini, ən əsası isə aydınlarını itirən xalq hələ yenicə dirçəlirdi.

Söhbət zamanı radioda olmaq istədiyimi bildirdim. Azdanışan, şərq qızları sayaq həyalı Fatma xanım mənə radioda baş redaktor işləyən şair Axmat Soziyevlə görüşməyi məsləhət bildi.

Özü ona zəng etdi. Telefondaca bizim haqqımızda bilgi verdi. Axmat bəy bizi radioya aparmağa gəldi. Redaksiyadan çıxanda qapıda iki nəfərlə qarşılaşdıq. Axmat bəy məni və xanımımı təqdim etdi. Sinəsində muxtar respublikanın deputatı nişanı olan şəxsin qəzetin redaktoru İ.İ. Quzyev olduğunu söylədi. Quzyev bizi təkidlə kabinetinə dəvət etdi.

Azərbaycandan, bizim gəlişimizin məqsədindən xəbər tutmamış, ərkyana mənə hücuma keçdi:

− Qəzetçi deyilsən? Heç özün səhvə yol vermirsən? Bir korrektura səhvinə görə məni nə atəşə tutubsan? − dedi.

− Baxır o hansı səhvdir. Sizin qəzet korrektura səhvi ilə mənim milliyyətimi dəyişib. Şalimov geniş yayılmış yəhudi soyadıdır. Mən isə türkəm.

Quzyev mənim sözümü kəsib: − Yalnız mənim yaxın qohumlarım arasında 5 nəfərin adı sənin soyadındandır. Balkarların da hər 10-15 nəfərindən birinin adı Şamildir. Yanlışlığa yol verib “l”i önə çəkib “m”i arxada yazıblar. Bəxtin kəsib ki, indi 37-ci il deyil. Yoxsa səni çoxdan millətçi kimi həbs etmişdilər − deyərək güldü.

Sonra konuşmamız rəsmiləşdi. Quzyev Azərbaycandakı şəxsi dostlarını, qəzetimizin tirajını və s. soruşdu. Sessiyadan fasiləyə çıxdıqlarını, yenidən toplantıya qatılmaq zorunda olduğunu söylədi.

Axmat bəylə söhbətimiz ümumi tanışlıqla başlasa da, əsasında balkarların sürgün edilməsi, sürgündə və ordan geri döndükdən sonra başlarına gələn faciələr dururdu. Elə yana-yana danışırdı ki, bəzən onun cavan olduğunu unudurdum. Mənə elə gəlirdi Axmatın özü də sürgündə olub.

− Yük vaqonlarında tualet yoxuymuş. Küncə bir qab qoyublarmış. Ondan tualet kimi istifadə etməli, stansiyalarda dayananda isə boşaltmalıymışlar. Cavan qız-gəlinlər qaynatalarından, ağsaqqallardan utandıqlarından həmin tualetlərdən istifadə etməməyə çalışırlarmış. Nəticədə ya böyrəkləri xarab olur, ya da sidik kisələri partlayırmış. Bax, beləcə bəziləri xəstəlikdən, soyuqdan ölürmüşsə, bəziləri də abır-həyadan ölürmüş.

Alman orduları 1942-ci ilin sentyabrında bu yerləri tutub 4-5 ay sonra − 1943-cü ilin yanvarında geri çəkiliblər. Kəndlərimizin çoxu dağlar qoynunda yerləşdiyindən qış aylarında

ətraf mühitlə əlaqəsi tamam kəsilir. Balkarların, qaraçaylıların çoxu alman ordularının gəlib qayıtmasından heç soraq da tutmamışdı. Xəbərsiz insanların hamısını almanlarla işbirliyi yapmaqda suçlayıb sürgün etdilər. Bir deyən olmadı, onların iş birliyi nədəymiş.

Sovet DTK-sı onları ucqar dağ kəndlərindən qısa bir müddətdə elə toplayıb vaqonlara doldurdu ki, yazıqlar nə baş verdiyini başa düşməmiş gedib Qazaxıstanın çöllərinə çıxdılar. Rəhbər partiya, sovet xadimlərinə, hüquq işçilərinə, bir sözlə, sosializm quruculuğuna bütün varlığı ilə inanan və ona xidmət edənlərə, onların ailələrinə də güzəştə getmədilər.

Bu gün qəzetlərdə, jurnallarda, kitablarda iftixarla yazır, az qala hər gün televiziya və radioda səsləndiririk: Kabarda-Balkar Muxtar Respublikasında 25 nəfər Sovet İttifaqı Qəhrəmanı var, 15 min nəfər isə cəbhədən orden və medallarla qayıdıb. Müharibədə minbir əziyyət çəkən, ölümün pəncəsindən xilas olaraq şikəst və ya sağlam geri dön balkarları vətənə buraxmadılar. Onları da ailələrinin arxasınca sürgünə göndərdilər. Sürgündə isə ailə üzvlərini tapmaq çox çətin idi. Hərəni bir tərəfə dağıtmışdılar. Komendantın icazəsi olmadan bu

kənddən o birinə getmək mümkün deyildi. Hələ bunlar azmış kimi, həyatın dibinə endirilmiş adamların hər 15-20 nəfərindən biri öz soydaşlarından komendanta xəbərçilik etməliydi. Hamı narazı olsa da, bu narazılığı dilinə gətirənlər incidilir, həbsxanalara göndərilirdi.

Mən: − Buna da şükür. siz N.X. Xruşşovun İ. Stalin əleyhinə başladığı kompaniya sayəsində vətənə dönə bildiniz. Krım türkləri Axısxa (Mesxeti) türkləri isə hələ də sürgündədirlər, − dedikdə Axmat bəy könülsüz-könülsüz:

"SSRİ Ali Soveti Rəyasət Heyətinin 9 yanvar 1957-ci il fərmanı formal bir sənəd idi. Sürgündən geri dönənlər ev-eşiklərinin ya uçub dağıldığını, ya da onlarda başqalarının məskunlaşdığını gördülər. Yenidən doğma yurdda yuva qurmaq dağlıq bölgə şəraitində çox çətin oldu. İnsanların həyatında heyvandarlıq əsas rol oynayır. Balkarlar da tarixən buna alışmışlar. Sürgündən gələndə isə bilmirdilər özlərinə ev tiksinlər, damazlıq inək, keçi, qoyun alsınlar, yoxsa ala bildikləri heyvanlara tövlə tiksinlər.

Sürgün haqqında yazmaq o yana, toplum içərisində o barədə danışmaq belə yasaq idi. Son illərdə qorxa-qorxa sürgün məsələsinə toxuna

bilirik. Hamımızın içərisinə çökmüş qorxu hələ də bizlərə həqiqəti dolğun yazmağa imkan vermir".

İlk baxışda Axmat Sozayev xoşbəxt insanlardan idi. Gənc yaşında rusca və ana dilində bir neçə şeirlər kitabı çıxmışdı. Kabarda-Balkar Muxtar Respublikası Lenin komsomolu laureatıydı, Televiziya və Radio Verilişləri Komitəsində baş redaktor işləyirdi, yəni vəzifəsi də vardı, onun Sovetlər Birliyindən narazı qalmağa sanki haqqı yox idi. Amma o narazıydı. Bu narazılıq şəxsən özünə görə deyildi. Xalqının başına gətirilənləri heç cür bağışlaya bilmirdi. Tarixi çözələyirdi. Az qala balkarların hər nəslinin, hər tayfasının 19-cu yüzildə Rusiya imperiyasına qarşı necə döyüşdüklərindən, Şamil hərəkatında necə fəal iştirak etdiklərindən söz açır, bəzən də döyüşlərin daha geniş bölgəni çulğadığı 1824-1825, 1837, 1854-cü illərdən söhbət açırdı.

Onun Quzey Qafqaz haqqında rusca yazılmış tarixi və bədii kitablar oxuduğu aydın idi. Mən isə söhbətimdə bir az yazılanlara məntiq əsasında yanaşmağa çalışdım:

− Axmat bəy, tarix kitablarında kabarda-balkarların 1727-ci ildə Rusiya imperiyasının tərkibinə qatıldığını yazırlar. Elə onun arxasınca da bu yerlərdə 1804-cü, 1824-1825-ci illərdə müstəmləkə zülmünə qarşı üsyanların baş qaldırdığını göstərirlər, − dedim.

Axmat bəy bir xeyli durub:

− Düzünə qalsa, tarixi hadisələrə bu cür yanaşmamışam. Yazılanların çoxunun yalan olduğunu hamı bilir. Yazanların özləri də bilirlər. Şamil əsir alınandan, minlərlə soydaşımız Türkiyəyə köçmək məcburiyyətində qalandan, Sibirə sürgün ediləndən sonra da dağlarda dinclik yaranmadı.

Onların yazdıqlarına inansaq, soykökümüzün bir olduğu, birlikdə dövlət qurub idarə etdiyimiz Krım türkləriylə, bu gün "noqay" adlandırılan türklərlə, lap elə siz azərbaycanlılarla düşmən olmalıyıq. 200 ildi təbliğat aparırlar − bir şey çıxmır. Yenə də bir-birimizin səsini eşidəndə tanımaza-bilməzə qardaş kimi qucaqlaşıb görüşürük. Dilimiz bizi möhkəm tellərlə bir-birimizə bağlayıb. Heç bir fitnə-fəsad, ləhcə ayrılıqlarının şişirdilməsi bu telləri qıra bilməz. Biz dağlılar əyilməz, qürurlu

xalqıq, bu gün parçalanıb zəifləmişik. Ağır döyüşlərdə çoxlu qan itirmiş döyüşçü kimiyik. Sabah yaralarımız sağalıb, gücümüz bərpa olunanda yenidən döyüşə atılacağıq, − deyir.

Axmat danışdıqca qəlbim qürur hissiylə dolur. Öz içimdə yaxın və uzaq tarixi götür-qoy edirəm. Rusiyanın apardığı tarixi yaddaşsızlaşdırma metodunun hər addımda iflasa uğradığının şahidi oluram. Rusiya tarixçilərinin yazdığına görə, Quzey Qafqazda erkən dəmir dövründə skif və sarmat mədəniyyətinin izləri tapılıb. Bu xalqlar isə kabardalıların, adıgeylərin, çərkəzlərin əcdadı hesab edilir. Balkarlar qıpçaq köklü olub 13-cü yüzilin başlanğıcında tatar-monqollarla dağlara çəkilib bu yerlərdə məskunlaşdıqlarını yazırlar.

Skiflərin (saklar), hunların, xəzərlərin, bulqarların türk kökənli olduğunun üstündən isə sükutla keçirlər. Amma atalar sözü var: ”Cidanı çuvalda gizlətmək olmaz”. Son illər balkar bilgini Miziyev apardığı araşdırmalar, yayınlatdığı kitablar, qəzet və jurnal məqalələri çox qaranlıqlara işıq salır.

Rusiya çarları qonşuluqlarındakı qüdrətli Krım xanlığını gücdən salmaq üçün öncə adıqları parçalayıb onların bir tayfasından istifadə etdi.

Kabardalılar adlanan bu tayfa Moskva çarları ilə qohum oldular. Kiçik bir bölgədə − Mərkəzi Qafqazda yaratdıqları "dövlət"in 1557-ci ildə Rusiyanın tərkibinə daxil olduğunu elan etdilər. Bu oyuncaq dövlətə diqqət yetirməkdə Rusiyanın məqsədi onlardan Krım xanlığına və Osmanlı dövlətinə qarşı dayaq məntəqəsi kimi istifadə etmək idi. Bu da mümkün olmurdu. Nəinki 16-17-ci yüzillikdə heç 19-cu yüzildə də Quzey Qafqaz xalqları Rusiya qanunlarını qəbul etmək, bu qanunlar əsasında yaşamaq istəmirdilər. Çünki onlar həmin mərhələni min-iki min il öncə keçmişdilər. Qul sözü bu xalqlara nağıl və rəvayətlərdən qalmışdı. İnsan azad olmuşdu. Rusiyada isə 19-cu yüzilin ikinci yarısında belə, qəzetlərdə knyazların kəndlər, kəndlilər satdığına dair elanlara rast gəlmək olurdu. Elanlarda yazılırdı: "Knyaz filankəs, filan kənddən 3 nəfər 15-18 yaşlı qız satır. Qızlar ev-eşik işləri görməyi, toxumağı bacarırlar." Və yaxud: "Filan kənddə 15 nəfər hər cür fiziki işə yararlı cavan kişi satılır".

Satılan oğlanın, qızın ata-anaları övladlarının sonrakı taleyindən xəbərsiz olurdular. Rusiyada təhkimçilik hüququ 1861-ci ildə rəsmən ləğv

olunsa da, yaşayırdı. Geridə qalmış, hərbi qüdrəti gündən-günə artan Rusiya işğal etdiyi əraziləri də beləcə − təhkimçilik qaydaları ilə idarə etmək istəyirdi. Bu da daimi üsyanlar, qiyamlar kütləvi çaxnaşmalar törədirdi.

Axmat bəy bizi balkarların döyüş yerləri, tarixi abidələri ilə tanış edə bilməyəcəyi üçün üzrxahlıq etdi. Bizim gəlişimiz Axmatın işinin ən qaynar çağına düşmüşdü. Mən isə qaldığım sanatoriyadan Elbrusa, Göy gölə, Çegem dərəsinə təşkil olunmuş turist səfərlərinə bilet aldığımı bildirdim. Axmat da ürək ağrısıyla ekskursavodların-bələdçilərin balkarları turistlərə geridə qalmış, az qala yarımvəhşi kimi tanıtmasından gileyləndi və − Elbrusun zirvəsinəmi qalxacaqsan? Mütləq Yusup İbrahimoviçlə məsləhətləş! − deyə zarafat etdi. Sonra da − Gedəcəyiniz yerdəki ”Elbrus” kepinqinin direktoru dostumuz Yusup İbrahimoviçdir. Onunla mütləq görüşərsən. SSRİ-nin məşhur alpinistlərindəndir. Dəfələrlə Elbrusun və b. dağların zirvəsinə qalxan dəstələrə başçılıq edib. İndi təlimatçılıqla məşğuldu. Alpinistləri öyrədir. 1982-ci ilin mayında Comolunqmanı gecə fəth edən Sovet

alpinistlərinin də təlimatçısı Yusup İbrahimoviç olub, − dedi.

Həkimlər xanımıma yüksəkliyə qalxmağa icazə vermədilər. O, Qazaxıstanın Uralsk şəhər partiya komitəsinin I katibinin bizimlə bir sanatoriyada dincələn qızına göz-qulaq olmağı mənə tapşırdı. Tibb institutunun son kursunda oxuyan bu qazax qızı olduqca utancaq və çəkingən idi. Bizlərdə belələrinə "elə bil kənddən yenicə gəlib" deyirlər.

Axmat bəyin dediyi an gəlib çatır. Milliyyətcə rus olan bələdçi qəribə bir təbəssümlə balkarlar arasında çoxuşaqlılığın geniş yayıldığını, hətta Zayukovanın 17 uşaq dünyaya gətirdiyini deyəndə avtobusdakılar gülüşür, müxtəlif atmacalar atır, bunu az qala geriliyin, vəhşiliyin örnəyi kimi qiymətləndirirlər. Onlara qoşulub mən də gülürəm. Amma sevincindən gülürəm. Ürəyimdə deyirəm: "Kərəminə şükür, ilahi! 200 ildir Rusiya müstəmləkəçiləri bu xalqı qırır. Amma qurtara bilmir". Çünki sağ qalan hər bir ailə min bir əziyyətlə də olsa, 10-15 övlad böyüdür. Bəlkə ata-anaların özləri də bunun xalqa və millətə nə qədər gərəkli olduğunu düşünmürlər. Axmatla görüşəndə ona: "Cavan rus qızı olan bələdçilərin

istehzasından narahat olma, qardaşım. Əksinə, qürur duy! Demək, sənin xalqın yaşayır və yaşayacaq" − deməyi qərara aldım.

Şxelda zirvənin ətəyində coşub-daşan dağ çayının sahilində salınmış "Elbrus" kempinqi üçün olduqca gözəl yer seçilmişdi. Bina doğudan iynəyarpaqlı, batıdan enliyarpaqlı ağaclarla əhatə olunmuşdu. Pəncərələrdən Şxeldanın qarlı zirvəsi görünürüdü. Biz birinci gün burada qalıb dincəlib, şəraitə alışandan sonra ertəsi gün Elbrusun qarlı yamaclarına gəzməyə gedəcəkdik.

Kempinqin işçilərinin ikisi foyedə nərd oynayır, bir neçə gənc də azarkeşlik edirdi. Uduzmaqda olan oyunçu əsəbiliklə zər atır və ana dilində söyüş söyürdü. Yaxınlaşıb sakitcə: − Bacarmırsan, oynama! Niyə söyüş söyürsən?! Görmürsən qadınlar var?! − dedim. Oyunçular da, azarkeşlər də təəccüblə mənə, bir də aralıda dayanmış qazax qızına baxaraq, işin nə yerdə olduğunu anladılar. − Elə bildim gələnlər rusdur. Dediklərimi anlamazlar. Bağışlayın, − deyib nərdi örtdülər. Utandıqlarından nəinki qızdan üzr istədilər, heç ona tərəf baxmadan sakitcə dağılışdılar.

Günortadan sonra foyedə nərd oynayan gənclərdən biri gəlib məni direktorun çağırdığını söylədi. Direktorun otağında yaşı 40-ı keçmiş, pəhləvan cüssəli birisi əyləşmişdi. Axmat bəyin təsvirindən Yusup (İbrahim oğlu) olduğunu bildim. İrəli gəlib mənimlə mehribanlıqla görüşdü. Nərd oynayanlara görə üzrxahlıq etdi. Azərbaycandan olduğumu biləndə sevinci daha da artdı. Dostlarını xəbər aldı. Xəbər aldığı adamların hamısını tanısam da, çoxu ilə şəxsi əlaqəm yox idi.

Mən də ona Axmat bəyin salamını çatdırdım.Üzü güldü. Axmatla bağlı bə'zi hadisələri lətifəvari danışdı. Mən ondan məşhur balkar şairi Qaysın Quliyevlə qohum olub-olmadığını soruşanda: − Bu, rusca yazılışdan gələn dolaşıqlıqdır. Mənim soyadım Gülüyevdir. Rusca yazanda "Gül" "qul"a çevrilir, − deyərək bərkdən güldü. Sonra da: − Keçib gəldiyiniz yolun sağında qalan, buradan 5 kilometr aşağıdakı Yuxarı Baksan kəndində doğulmuşam, − dedi.

Axmat bəydən onun SSRİ alpinistləri sırasında dünyanın ən uca zirvələrini fəth etdiyini öyrəndiyimi deyəndə əlini yelləyərək: −

Kiçik şeydir. Bu yerlərdə insanlar anadan alpinist doğulurlar. 1829-cu ildə general Q.A. Emanuel Elbrusun zirvəsinə ekspedisiya təşkil edəndə Axiey Sattayev bələdçi olub. O, ingilis Duqlas Freşfildin 1868-ci ildə təşkil etdiyi ekspedisiyanın tərkibində də Elbrusun zirvəsinə qalxıb. Neçə-neçə qrupa bələdçilik edən Axiey 130 il ömür sürüb. Sonuncu dəfə 114 yaşında Elbrusu aşıb. O heç "alpinist" sözünün nə olduğunu da bilmirdi, adi bir balkar ovçusuydu. Mənim yaxından tanıdığım Çokka Zəlixanov da dəfələrlə Elbrusun zirvəsinə qalxıb, sonuncu dəfə 110 yaşında! 10 yaşlı oğlum İbrahimə də bu il 3 dərəcəli alpinist nişaın veriblər, − dedi.

O elə söhbət edirdi, elə bil 5642 metr ucalığındakı dağın zirvəsinə qalxmaq su içimi kimi bir şeydi. Mən də zarafata salıb: − Yusup bəy, elə danışdınız, məni elə həvəsləndirdiniz, səhər turistlərdən ayrılıb Elbrusun zirvəsinə qalxacam. Axşam gəlməsəm, narahat olmayın, − dedim.

Zarafatıma zarafatla: − Sən də çıxa bilərsən, fiziki hazırlığı olan hər bir adam da. Oğul ona deyərəm, adını bəsini eşitmədiyiniz Uşbaya çıxa. Şxeldanın zirvələrindən biri olan Uşba 4700 metrdən bir az ucadır. Onun da 4000 metrlik

qayalığı buz layı ilə örtülü olur. Necə deyərlər, qarış-qarış qalxmaq, ayağına yer açmaq üçün qaya kimi sərt buzları çapmaq lazım gəlir, – deyir. O bu yerlərdə baş verən qar uçqunlarının hər il 100 hektarlarla meşəni dəryaz kimi biçdiyindən, ov heyvanlarının zənginliyindən, təbiətin gözəlliyindən necə deyərlər (hər qarışından, hər bir insanından) ilhamla söhbət açdı. Balkariyanın Qafqaz ərazisinin cəmi 3%-ni təşkil etdiyini, amma burada Qafqazda bitən 6000 çiçəkdən 3000-nə rast gəlmək mümkün olduğunu ondan eşitdim. Yusup bəylə söhbətədək bilmirdim ki, Elbrus dağında qarın qalınlığı 400 metrə çatan yer var. Dağda daimi buz örtüyünün sahəsi 144,5 kv. km-dir. Qafqazda dəniz səviyyəsindən ən aşağı yüksəklikdə 230 metrdə olan buzlaq Şxeldadır. Ümumiyyətlə, Böyük Qafqaz dağlarında 1400 buzlaq qeydə alınıb. Bunların çoxu balkarlar və qaraçaylar yaşayan ərazilərdədir. Bu buzlaqlar yüzlərlə bulağı bir-birindən dadlı su ilə tə'min edir. Ümumiyyətlə, bu yerlərdə bulaqların sayını bilən yoxdur.

Əslində bura müalicəvi mineral bulaqları ilə, əsrarəngiz təbiəti ilə möcüzəli bir diyardır. Bir də baxırsan, buzlaqların arasından qaynar su

kükrəyib çıxır. Adamlar qarın üstünə adyal atıb dəniz sahili çimərliklərində olduğu kimi, soyunub günəş vannası qəbul edirlər. Baksan çayının yuxarı vadisində dəniz səviyyəsindən 2150 metrlikdə olan bir sahə qışı ən isti olan bölgə sayılır. Buranın havası adətən Orta Asiya ilə müqayisə edilir.

Bu yerlərdə yaşamaq çox çətindir. Az qala ilin 7 ayı hər tərəf qarla örtülü olur. Amma bütün bu çətinliklərə baxmayaraq, balkarlar yurdlarını coşğunluqla sevirlər. Buzlaqlardan başlayan köpüklü çayları ilə də, minbir dərdin dərmanı bulaqları ilə də, sıx ormanları, il boyu qarlı zirvələri ilə də, hətta deyərdim mal-qaralarına tez-tez hücum edən ayıları, qurdları ilə də öyünürlər. Bu yerlərdə torpağın altı da, üstü qədər zəngindir. Volfram-molibden yataqlarının yaxınlığında Tırnauz Mədən Metallurgiya Kombinatı işləyir. Bunun hesabına dağlar qoynunda yaraşıqlı bir şəhər salınıb.

Ormanlar arasında güzgünü xatırladan Göy gölün sahilində gəzəndə də, Çegem dərəsində sevgililərin göz yaşı bulaqlarına baxanda da mənə elə gəlir ki, bu yerlərdə doğulub boya-başa çatmışam. Çeqet dağının 2719 metrliyindəki "Ay" kafesində oturub Elbrusun qoşa zirvəsinə

baxıram. Buradan dağın qoşa zirvəsi çox aydın görünür. Bəxtimdən duman-çən də yoxdur. Bir azdan özümü saxlaya bilməyib qara bata-bata daha yuxarılara dırmaşmaq istəyirəm. Sağımdan, solumdan xizək sürənlər şütüyürlər. Ürəyim məni zirvələrə, bələdçimizin və yol yoldaşlarımın səsi ilə kanat meydançasına səsləyir. Geri dönmək vaxtıdır. Bələdçilər türkcə olan dağ, dərə, göl, çay, şəhər, kənd adlarının rusca tərcüməsini deyəndə, mən doğma yerlərə yadların axıb dolduğunu ağrıyla duyurdum. İçimdə kədər qarışıq qəzəb baş qaldırırdı.

1989-cu ilin iyulunda da, 1990-cı ilin sentyabrında da Axmatlə görüşəndə hər ikimiz elə bil bir-birimizdən çəkinirdik. Axmat üstüörtülü Azərbaycan olaylarına gendən baxdıqlarına görə narahat olduğunu bildirirdi:

– Bir muxtar respublikamız var. Onun da adı muxtardır. Nə dilimizdə məktəbimiz var, nə də hüququmuz. Bir tərəfdən rusların basqısı altındayıqsa, digər tərəfdən dinimiz bir, dilimiz ayrı olan kabardalı qardaşlarımız sıxışdırır bizi. 80-90 min balkarıq. Rusların sayı 220 mini, kabardalılarınkı isə 330 mini keçib. İnzibati ərazini qəsdən belə təşkil ediblər, bizimlə eyni

dildə danışan, eyni dindən olan xalqa “qaraçay” adı verib çərkəzlərlə bir muxtar vilayətdə birləşdiriblər, − deyir.

− Bu muxtariyyatlar, respublikalar üçün biz babalarımıza minnətdar olmalıyıq. 1918-1920-ci illərdə onlar qanları bahasına müstəqil dövlətlərimizi yaratmağa cəhd göstərməsəydilər, bolşeviklər heç bir muxtariyyət verməzdilər. Çarizm zamanında olduğu kimi, Rusiyanın bir vilayəti olaraq idarə edəcəkdilər.

Mənim söhbətim Axmat bəyin də ürəyindən oldu. Amma qaraçaylarla balkarların iki xalq kimi tanıdılması, iki inzibati bölgüyə daxil edilməsi ilə heç cür razılaşa bilmirdi.

Axmat bəylə ilk görüşümüzdə balkar yazılı ədəbiyyatı mövzusunda söhbətimizdə fikir ayrılığı yaranmışdı. O, Qaysın Quliyevin yaradıcılığını yüksək qiymətləndirirdi. Mən isə balkar xalqını Qaysın Quliyevə görə tanısam da, onun yaradıcılığına o qədər də önəm vermirdim. Q.Quliyevin şeirləri Azərbaycan türkcəsinə çevrilmiş, haqqında istər azərbaycanlı, istərsə də rusiyalı ədəbiyyatşünaslar xeyli tərif dolu məqalələr yazmışdılar. Bunların çoxu ilə tanış olduğuma görə fikrimin üstündə durur, Qaysın

Quliyevi ədəbiyyata yenilik gətirməmiş, dərin fəlsəfi və milli dəyərli şeirləri olmayan, Sovetlər Birliyinin onlarla tərənnümçü şairlərindən biri hesab edirdim. Yerliçilik duyğusundanmı, ya Axmat Sozayevin öz yaradıcılığına da söylədiyim fikirlər uyğun gəldiyindənmi, mənimlə razılaşa bilmirdi. Mübahisəmizin gərgin keçməsi səmimiyyətimizə söz yox, təsir etmirdi. Axmat bəy balkar ədəbiyyatının qüdrətini sübut üçün ana dilində müxtəlif şairlərin əsərlərindən nümunələr söyləyir və onları təhlil edirdi.

− Axmat bəy, adını çəkdiyiniz şairlərin heç birinin əsərlərini oxumadığıma görə sizinlə mübahisə edə bilmərəm. Heç adlarını da eşitməmişəm. Yalnız Kazım Meçiyev haqqında Azərbaycan ensiklopediyasında qısa bir bilgi oxumuşam. Bir misra da olsun şerini oxumamışam. Oxuduğum Qaysın Quliyevdir. Onun haqqında da söylədiklərində məni fikrimdən döndərə bilmədi, − dedim.

Axmat bəy ayrılanda Kazım Meçiyevin şeirlər kitabını mənə bağışladı. 100 səhifəlik bu kitabda şeirlər və iki poema salınmışdı. 1859-cu ildə Şiki aulunda doğulan Kazım Bekki oğlu

1945-ci ilin 25 martında sürgündə Qazaxıstanın Taldı Kurqan şəhərində ölmüşdü. Onun şeirləri Azərbaycanda 20-ci yüzilin önlərində yaşamış orta səviyyəli aşıqların şeirlərinə oxşayırdı. Şairin 1910-cu ildə Həccə getdiyi zaman İstanbulda, Məkkədə yazdığı şeirlər 1920-ci ildən sonra yazdığı şeirlərlə uyğun gəlmirdi.

1989-cu ilin iyulunda Axmat bəylə Nalçikdə yenidən görüşəndə zarafatımdan qalmadım:

− Axmat bəy, deyəsən kitab nəşr olunsun deyə Kazım bəyin adından Lenin, Oktyabr, Pioner, kolxoz mövzusunda şeirlər də yazıbsınız. Bizdə də bu təcrübədən çox istifadə ediblər, − dedikdə o ciddiyyətlə: − Yox, hamısı öz şeirləridir, − dedi.

− Bəs onda dini məzmunlu şeirləri hanı? − deyə sual verdikdə mənalı-mənalı üzümə baxdı. Onun baxışından: Sizdə məgər dini məzmunlu şeirləri çap etmək mümkündür? − sualı oxunsa da, dildə: − Hər şeyə bir qulp qoymağı sevirsən! − deyərək, zarafata keçdi.

Mən isə ondan əl çəkmək istəmirdim:

− Siz deyirsiniz balkarlar bu yerlərin qədim sakinləridir. Zəngin folklorunuz da var. Bu çox gözəl. Bir tərəfdən də Kazım Meçiyevin balkar

yazılı ədəbiyyatının banisi adlandıraraq onunla öyünürsünüz. Necə qədim xalqsınız ki, yazılı ədəbiyyatınız 19-cu yüzilin sonlarından başlayır? Özünüzə zidd getmirsnizmi? Bəlkə birdən Çegemi ayırıb başqa bir inzibati mərkəzə çevirdilər. Onda Qaysın Quliyev də Çegem ədəbiyyatının banisi olacaq? − deyə xəbər aldım.

Axmat bəy nə demək istədiyimi anlayıb xeyli düşünməli oldu: Çətin sual qarşısında qoydun məni. Bunun üçün zaman və çox iş lazımdı. Əməli bir iş görməmiş danışmağı artıq sayıram, − dedi. Ayrılanda 1985-ci ildə Moskvada "Sovetskiy pisatel" nəşriyyatında rusca çap olunmuş "Letyaşis okna" şeirlər kitabına "Doroqaya sestra Aziza, brat Ali. S pojelaniem bolşoqo sçastya! Sau boluquz! avtor Axmat. 3.08.89".

1987-ci ildə Nalçikdə "Elbrus" kitab basmasında yayınlanmış "Kolla" (Qollar) adlı şeirlər kitabına: **"**Bahalı qonaqlarım − Azizaqa bla Aliqe nasıbıqız köp bolsun! deyme. 3 avqustda 89 j. Axmat Sozayev" yazıb bizə bağışladı.

Zaman elə gətirdi Axmat Sozayevlə 1990-cı ildən sonra görüşə bilmədik. Müxtəlif toplantılarda balkarların milli azadlıq hərəkatı

öndərləri ilə görüşəndə Axmati soraqladım. O da Azərbaycandan tanıdığı adamlardan narahatlıqla "Əli sağdırmı" deyə məni soruşur, salam göndərirdi.

Əli Şamil. Tanıdığım insanlar. I kitab. "Sumqayıt" nəşriyyatı, 2000, səh. 118-128.

TÜRK DÜNYASININ MƏŞHURLARI

APPA JANIBEKOV



(karaç. Janıbeklanı Kıala-Ceriyni jaşı Zekeriya Kalay ulu Appa, əski əlifba ilə آپپا جانيبئكوو, *rusca Anna Джанибеков; 1864 - 1934)*

Zəkəriyyə Qalay oğlu Janıbekov 1864-cü ildə Rusiyanın Kuban quberniyasındakı Uçkulan aulunda doğulmuşdur. Bölgənin nüfuzlu ailələrindən olan Canıbekovların soyunun Krım xanlı Gereydan gəldiyi bilinir. Qaraçayda yaşayan bir nəslin Krım xanları ilə bağlılığı bu gün dinləyicilərə qəribə gələ bilər. Tarixə nəzər saldıqda isə orta yüzilliklərdə bu gün Rusiya Federasiyasına daxil edilmiş, Dərbənddən Qara dənizədək uzanan Quzey Qafqazın, Stavropol diyarının, Krasnodarın, Quzeydə Volqa çayı sahillərinədək böyük ərazinin, eləcə də bugünkü

Ukrayna Respublikasına daxil olan böyük ərazilərin Krım xanlığına daxil olduğunu görərik.

Zəkəriyyə Janıbekovun xan soyundan olmasına baxmayaraq onun dəqiq doğum tarixi haqqında rəsmi sənədlər yoxdur. Odur ki, təxmini hesablamalar əsasında doğum tarixini 1860-cı, 1864-cü illər göstərirlər.

O, Quzey Qafqazın ən çətin və ağır günlərini yaşadığı bir dövrdə, Şeyx Şamil silahdaşlarının və din adamlarının məsləhətilə xalqını qırğına verməmək üçün mübarizəni dayandırdığını və təslim olduğunu bildirdikdən sonra dünyaya gəlmişdi. Zəif silahlanmış, heç bir hərbi sənayesi olmayan, lakin qüruru və cəsarəti ilə dünya hərbçilərini heyrətləndirən, kiçik dəstələrin 30 ilə yaxın arxasından hərbi sənayesi və nizami ordusu olan nəhəng Rusiya imperyası qorxuya sala bilməsi düşüncəsi dağlılar arasında hələ sönməmişdi. Müridlər mübarizələrini dayandırdıqlarını bildirsələr də yaddaşlarda müstəmləkəçilərə qarşı nifrət davam edirdi.

Qafqazı Rusiya silah gücünə təslim etmişdi. Lakin burada müstəmləkənin idarəçilik aparatlarını qurmaq, vergi toplamaq, adamları Rus hökumətinin qanunları ilə edarə etmək heç də rahat olmamışdı. Rusiya məcburiyyət

qarşısında qalıb dünyanın inkişafı ilə ayaqlaşmaq üçün 1861-ci ildə təhkimçilik hüququnun ləğv edilməsi haqqında qanun qəbul etmişdir. Ölkdə mülki şəxslərə qılınc, xərçər daşımaq qadağan edilsə də dağlıların xənçərlə gəzməsi qanuniləşdirilmişdi. Təhkimçilik hüququnun ləğv edilməsi fərmanı Rusiyanın və Avropada demokratik fikirli insanlar tərəfindən alqışlarla qarşılanmışdır. Rejimdəki bu yumşalmalara baxmayaraq dağlılar hökümətə boyun əymək istəmirdilər. Çar Rusiyası vəziyyətdən çıxış yolunu boyun əymək istəməyən on minlərlə ramedilməz saydığı ailəni Osmanlı dövlətinə köçürmək haqqında müqavilə imzaladı.

Zəkəriyyənin uşaqlığı və yeniyetməliyi rus əsgərlərilə döyüşlərdə şəhid olan müridlərin şərəfinə qoşulmuş yırları, eləcə də Osmanlı dövlətinə köçürülənlərin ağır və üzücü yollarda başlarına gələn faciələrdən bəhs edən nəğmələri eşitməklə keçir. Şərəfli doyüşlərdən bəhs edən yırları dinlədikcə qəlbi qürur hissilə döyünən Zəkəriyyə ayrılıq, ağrı-acı və ölümün doğurduğu qüssə-kədər dolu nəğmələri eşitdikdə rahatsız olur, vəziyyətdən çıxış yolları axtarırdı.

Yeniyetməliyindən yaşadığı mühitdə onu razı salmayan mövzularda həcvlər, satirik şeirlər yazmağa başlamışdır. Buna görə də onu Qaraçayın ilk satirik şair hesab edirlər. Günümüzə qədər gəlib çatmış bir çox söz və mahnıların müəllifi Zəkəriyyə olduğu yazılır. O, öz əsərlərində yoxsulların fəal müdafiəçisi və zalım zənginlərin şiddətli ifşası kimi çıxış etmişdir. Elmi və publisistik ədəbiyyatda ən çətin durumda belə ruhdan düşməyən, hər vəziyyətdə şənliyini və zarafatcıl təbiətini qoruyan Appa Janıbekovu "balaqur" adlandırırlar. Səyyar mahnı müəllifi, hazırcavab və ruhdan düşməyən insanın ömür yolu heç də asan olmayıb.

Uca dağlar qoynundakı sərin yaylaqlarda, bu günkü Qaraçay-Çərkəz Respublikasında da Gerey xanların böyük torpaq sahələri, yaylaq və qışlaqları olduğundan nəslin nümayəndələrindən bəziləri bu yerlərdə məskunlaşmışlar.

Çar Rusiyası Krım xanlığının ərazilərini işğal etdikdən sonra bu yerlərdə öz idarəçiliyinə uyğun inzibati vahidlər yaratdı. Buna görə də Zəkəriyyə Canıbekovun ömür yolunu işıqlandıran araşdırıcılar, ondan söhbət açanlar Rusiyanın Kuban quberniyasındakı Uçkulan aulunda doğulduğunu yazırlar.

Yaxın keçmişimizdə yaşamasına baxmayaraq el nəğməkarının, xalq ozanının uşaqlıq və yeniyetməliyi tarixin dumanına bürünmüşdür. Onun təhsili, təhsil almışsa harada, hansı məktəbdə oxuması haqqında doğru-düzgün bilgi yoxdur. Xalq arasında gəzən rəvayətlərdə Zəkəriyyənin savadsız olduğu deyilir. Lakin onun şeirlərində işlətdiyi ifadələrdən məlum olur ki, nəinki dərin dini biligisi, hətta tarix, coğrafiya, təbiətşünaslıq haqqında da məlumatı olmuşdur.

Bölgədə qəhrəmanlıq, tarixi, tərənnüm nəğmələrinin geniş yayılmasına baxmayaraq Zəkəriyyə Qalay oğlu gəncliyindən cəmiyyətdəki nöqsanları, ayrı-ayrı adamların, xüsusən vəzifə və imtiyaz sahiblərinin yaramazlıqlarını, kasıblara əziyyət vermələrini tənqid edən həcvlərilə məşhurlaşmışdır.

Qaraçay-malkarlar arasında kəskin həcvləri ilə şöhrətlənən Zəkəriyyə Qalay oğlunun yavaş-yavaş əsil adı unudulmağa, Appa, Çamçı deyə çağrılmağa başlayır. Beləcə Zəkəriyyə Qalay oğlu Canıbekov Appa Canıbeklaniyə çevrilir. O dəvrişvari bir həyat sürür, nə malı-mülkü, nə var dövləti, nə də evi-eşiyi, ailəsi olur. Amma, o Yunis İmrənin dediyi kimi, döyənə əlsiz, söyənə

dilsiz, nə də Mövlanənin yeddi öyüdündə dediyi kimi, başqalarının nöqsanlarını örtməkdə gecə kimi ola bilir. Əksinə hamının nöqsanlarını el-el, oymaq-oymaq gəzərək söyləyir. O, cəmiyyəti, insanları tənqidlə, el içində biabır etməklə islah etməyə çalışır. Həcvlərində bəzən ifrata vararaq insanların şəxsiyyətinə toxunan ifadələr işlədir, bəzən də söyməkdən belə çəkinmir.

Çar məmurlarını, yerli hakimləri, kasıba, fağır-füqaraya əziyyət verənlərə həsr etdiyi həcvlər qısa zamanda dillər əzbərinə çevrilir. Onun həcvləri yalnız qaraçay-malkarlar arasında deyil, abazalar, çərkəzlər, kabardinlər, osetinlər və başqa xalqlar tərəfindən də maraqla qarşılanır.

Appanın həcvlərindən cana doymuş yerli məmurlar xalq ozanını iki dəfə həbs etdirərək Sibirə göndərtdirirlər. Sibir mədənlərində 11 il ağır şəraitdə işləməsi də onun iradəsini qıra bilmir. Geri döndükdən sonra yenə də at belində aulları gəzərək həcvlər söyləyir.

20-ci yüzilliyin başlarında çar Rusiyasının durumu getdikcə ağırlaşır. Xüsusən rus-yapon savaşındakı ağır məğlubiyyət ölkənin iqdisadiyyatını çökdürür. Tətillər, üsyanlar, qaçaqçılıq hərəkatı ara vermir. Çar hökuməti Qafqazda yaratdığı sərt rejimdən əhalinin cana

doyan hissəsi Osmanlı dövlətinə köçməsilə kifayətlənmir, 1905-ci ildə yenidən kütləvi köçürmələr təşkil edir. Bölgənin narahat və hökumət üçün təhlükəli adamları sırasında həcvləri ilə məşhur olan Appa Qalay oğlu da köçürülür. Appa Osmanlı dövlətinə köçürülərkən İstanbulda məddahlarla tanış olur, "Qaragöz" oyunlarına tamaşa edir. Kuklalar düzəltməyi, kuklalarla tamaşa hazırlamağı öyrənir. Geri qayıtdıqdan sonra özü kuklalar düzəldərək tamaşalar hazırlamağa başlayır.

Doğma yerlərin həsrətinə dözə bilməyən şair minbir əziyyətə qatlaşaraq yenidən Qafqaz dağlarının qoynuna, ata-baba yurduna qayıdır.

Rusiyada ictimai-siyasi vəziyyət gərginləşməsi, siyasi təşkilatların hakimiyyəti sarsıdan tədbirləri Appa Qalay oğluna diqqətin azalmasına səbəb olur. Necə deyərlər hökumət elə böyük zərbələr alır ki, daha Appa kimilərinə baş qatmağa, onları cəzalandırmağa, həbsxanalara salmağa imkan tapmır.

Bolşeviklər Sovetləşdirmə adı altında Quzey Qafqazda yaradılmış respublikanın varlığına son qoyur. Appa Qalay oğlunu da özünün ideyalarının tərənnümçüsünə çevirməyə çalışsa

da bu mümkün olmur. Appa yenə də həcvlər söyməkdə davam edir.


1934-cü ildə ağır xəstələnən xalq ozanı bacısının evində dünyasını dəyişir. Bu ölüm onu 1937-ci ilin labüd həbsindən qurtarsa da əsərlərinin yasaqlanmasından qurtara bilmir. Appanın əsərlərinin bir çoxunun uzun zaman çapı və oxunması qadağan edilir.

Sovetlər Birliyi çökdükdən sonra Appa Qalay oğlunun əsərlərinin toplanıb nəşr edilməsinə şərait yaranır. 1995-ci ildə Rimma Ortabay ilə Ahiya Biciri hazırladığı "Kalay ulu Appanın izin izlay" (Kalay oğlu Appanın izi ilə) adı kitabı Çerkassı şəhərində çap olunur. Eləcə də şairin fəaliyyətinə həsr olunmuş elmi konfrans keçirilir və onun həyat və yaradıcılığınıdan bəhs edən məruzələr toplusu çap olunur.

Bütün bunlar onu göstərir ki, təqiblər, yasaqlar, qadağalar heç zaman vətən və xalq üçün çalışanların adını arada götürə, yaddaşlardan silə bilmir.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il martın 2-də, saat 12.14-də efirə getmişdir.

İSLAM KIRIMŞAMXALOV



(*karaç.-balk. Кърымшаухалланы Пачаны джашы Ислам, əski əlifba ilə* ايسلام كيريمشامخالوو, *rus. Крымшамхалов Ислам Пашаевич, Ислам Тебердичи; 1864-1911)*

İslam Kırımşamxalov 1864-cü il martın 31-də indiki Kuban quberniyasının Kart Curt, yəni Köhnə Yurt kəndində İslam anadan olub. Anası onu dünyaya gətirərkən sonra dünyasını dəyişir. İslamın dayısı tanınmış malkar ziyalısı İsmail Urusbiyev də Rus dilində təhsili görmüş, hökumət dairələrində tanınmış birisi olub.

Knyaz ailəsində doğulduğundan İsmail maddi sıxıntı içərisində böyüməyib. Rus qoşunları Qafqazı 1828-ci ildə işğal edəndə İsmailin babası işğalçılara qarşı müqavimət göstərməyib. Buna görə də çar generalları onun ata-babadan qalmış torpaqlarına, mülkünə və var-dövlətinə toxunmayıb. İslam yeniyetməliyini

axar-baxarlı Kart Curtin səfalı təbiəti qoyununda keçirib. Bura Qafqazın ən bərəkətli bölgələrindən biri sayılırmış.

Atası övladının xanzadələr kimi böyüməsi üçün ona xüsusi müəllimlər tutmuş, ona xarici dilləri, elmi bilikləri öyrətdirmişdi. Ali məclislərdə davranma qaydalarını da öyrənən İslam bir dağlı dəliqanlısı, cəngavər kimi böyüdüyü vaxtlarda atası da dünyasını dəyişib.

Dayısı İsmail Urisbayev onu yanına aparır. Rusiya Qafqazı işğal etdikdən sonra bu əsrarəngiz yerlər rəssamları, şair və yazıçıları, elm adamlarını, geoloqları və b. peşə sahiblərini maqnit kimi özünə çəkir. Onlar yerli ziyalıların evlərində qalır, onların qonaqpərvərliyinə heyrətlərini bildirir, həm də yeri gəldikdə bildiklərini ailənin gənc üzvlərinə öyrədirlər.

Rusiya Qafqazı işğal etsə də, orada yaşayan xanzadələrin, bəyzadələrin bir qismini özünə tərəf çəksə də dağlarda döyüş ara vermirdi. Hər il minlərlə rus hərbçisi Qafqaz dağlarında ölürdü. Avropanın güclü dövlətlərini lərzəyə gətirən, Napolyon Bonapartı məğlub edən rus ordusu topu, topxanası, silah zavodları, güclü iqtisadiyyatı olmayan Qafqazlıları istədiyi kimi idarə edə bilmirdi. Savaşların başa çatmayacağını görən Rusiyanın hakim dairələri ölkədə islahatlar

aparmalı oldu. Yüz illər boyu quldarlıqdan o qədər də seçilməyən təhkimçilik hüququnu ləğv etməliydi.

Qafqaz kökənli alimlər vasitəsi ilə Rusiya hökuməti qafqazlıların müqavimətinin əsasını təşkil edən müridizmin mahiyyətini və onu zəiflədərək çökdürmə yollarını da öyrəndi. Beləliklə, Qafqaz dağlarında müqavimət hərəkatı zəiflədi, Şeyx Şamil də divanın hökmü ilə mübarizəni dayandırdı. Çar hökuməti yerli hakimlərin övladlarını oxutmaq, xidmətə almaq adıyla bir növ girov saxlayırdı. Qaraçay-çərkəz bölgəsinin də nüfuzlu hakimlərindən olan Kırımşamxalovlardan çar sarayında tərbiyə alanlar, çar ordusunda xidmət edənlər də vardı.

Yeniyetməliyində İslam da dayısıgildə qonaq olan rəssam, şair, elm adamları ilə görüşür. Bir dəfə İsmail Urisbayevin evində qonaq olan rəssam İslama fırça tutmağı, boya hazırlamağı, gördüyü mənzərələri kağıza və kətana köçürməyi öyrətməyə çalışır. İslamın deyilənləri tez mənimsəməsi, böyük həvəslə işləməsi, ilk günlərdən çəkdiyi rəsmlər ətrafındakıların diqqətini özünə çəkir. Onun fitri istedadını ilk duyan dayısı olur. İslamın çəkdiyi rəsmləri bir albomda toplayır, kiçik İslamı çəkdiyi rəsmləri səliqə ilə saxlamağa həvəsləndirir.

1880-ci ildə rus dilində gimnaziyanı bitirən İslam Kırımşamxalov knyaz ailələrinin övladı kimi çar hökumətinin rəhbərlərini qorumalı olan mühafizə dəstəsində xidmətə başlayır. Çarın mühafizə dəstəsinin süvari alayını əsasən dağlılar və kazaklar təşkil edirdi. İslam Kırımşamxalovu da süvari alayında xidmətə alırlar.

İslam Kırımşamxalov az müddətdə nümunəvi xidməti ilə diqqəti cəlb edə bilir. Ona çar sarayında taxt-tacın keşiyində durmaq həvalə olunur. Dağlar qoynunda böyümüş İslam Kırımşamxalova imperiyanın başkəndi olan Peterburq olduqca xoş təsir bağışlayır. Sarayların möhtəşəmliyi, küçələrin genişliyi, daşdan tikilmiş böyük və yaraşıqlı evlər, bu evlərdə təşkil edilən təntənəli bal mərasimləri, qadınların-qızların sərbəstliyi onu məftun edir. Süvari mühafizə alayında xidmət etsə də, vaxt tapıb teatr tamaşalarına, konsertlərə gedir, rəssamların emalatxanalarında olur, yazıcı və şairlərlə görüşür. Yeniyetmə yaşlarından bədii yaradıcılığa başlayan İslam Kırımşamxalov Peterburqda rus və dünya ədəbiyyatının ən gözəl nümunələrini oxuyur. Ərəb və fars dillərini bilməsi, Şərq mədəniyyəti ilə yaxından tanışlığı onu Peterburqun aristokrat ailələrində sevdirir. Peterburqda olarkən, Rusiyanın ən tanınmış

ziyalıları ilə şəxsən görüşüb, münasibətlər qura bilir.

İslam Kırımşamxalov yalnız Peterburqda olan Rus yazıçıları, rəssam və sənət adamları ilə görüşməklə kifayətlənmir, əsərlərinə vurğun olduğu Lev Tolstoyu görmək üçün Yasnaya Polyanaya gedir. Rusiyanın Peterburqda gördüyü zadəganlarından fərqli yaşam və düşüncə tərzinə malik olan Lev Tolstoy İslam Kırımşamxalova güclü təsir edir. Onun təsiri altında "Orda və burda" hekayəsini yazır. Lev Tolstoyun əsərlərini ana dilinə çevirməyə başlayır.

Lakin İslam Kırımşamxalovun Peterburq həyatı çox da uzun sürmür. Oranın rütubətli havası səhhətinə mənfi təsir edir. Vərəm və asma xəstəliyinə tutulduğundan xidmətə başladığından üç il sonra istefaya çıxıb doğulub boya-başa çatdığı Kart Curt kəndinə dönür. Buranın yaşıllığı, mineral suları, sağlam havası səhhətinə müsbət təsir edir.

Doğma kəndinə dönən İslam Kırımşamxalov bölgənin inkişafı üçün bir sıra tədbirlər həyata keçirməyə başlayır. Öncə insanları savadsızlıqdan, cəhalətdən qurtarmaq, maarifləndirmək üçün kənddə məktəb təşkil edir.

Bölgənin iqtisadiyyatını yüksəltmək üçün özü kiçik bir sex qurur. Burada süddən pendir,

müxtəlif yağ çeşidləri hazırlayaraq satışa çıxarır. Bununla həmyerlilərini də istehsal etdikləri südün yalnız ailələrinin tələbatından artıq olanının satışını təşkil etməyə həvəsləndirir.

Onun Qafqaz dağlarının təbii iqlim şərtlərindən, mineral sularından istifadə edərək sağlamlıq ocaqları yaratmaq təşəbbüsü də öz bəhrəsini verir. Sonralar Kislovodsk kimi müalicə mərkəzi yaradıldı.

Vətənə dönən, bədii, elimi yaradıcılıqla məşğul olan, rəsm əsərləri çəkən İslam Kırımşamxalov rəssamlıq təhsili almağa bir neçə dəfə təşəbbüs göstərir. Lakin sağlamlığı Moskvaya və Petorburq kimi şəhərlərdə yaşamağa imkan verməyindən geriyə dağlar qoynuna qayıdır. 1894-1910-cu illərdə Teberdedədə yaşayır, ictimai işlərlə məşğul olur, "Severnıy Kafkaz" qəzetinə məqalələr yazır və 1903-1910-cu illərdə Parisdə çərkəz Maqomet bəy Xacet Laşenin rus, türk və tatar dillərində nəşr etdirdiyi "Musulmanin" jurnalı ilə əməkdaşlıq edir.

Onun evi yalnız yerli əhalinin deyil, bölgəyə gələn qonaqların da mədəni mərkəzi rolunu oynayır. O, ardıcıl rəssamlıqla məşğul olmaqla yanaşı, latın qrafikalı ilk qaraçay əlifbasını yaradır. Şair və peşəkar rəssam kimi tanınan

İslam Kırımşamxalov uşaq şeirləri və satiraları ilə məşhurdur.

Xan nəslindən olduğuna görə o nə hakim dairələrə qarşı çıxır, nə də xalqını üsyana, azadlıq mübarizəsinə səsləyir. O xalqının azsaylı və gücsüz olduğunu görürdü. Buna görə də xalqını silahlı mübarizəyə deyil, dünyanın inkişaf etmiş ölkələrinin mədəniyyətinə yiyələnməyə çağırırdı. Həm də dönə-dönə xatırladırdı ki, xarici ölkələrdən hər görünəni kortəbii qəbul etmək lazım deyil. Xalq özünün mənəvi dəyərlərini qoruyub saxlamaqla yanaşı, onu Avropaya da tanıtmalıdır.

1910-cu il dekabrın 3-də Krımın Yalta şəhərində müalicə olunarkən dünyasını dəyişən İslam Kırımşamxalovun cəsədini gətirib doğulduğu kənddə dəfn edirlər. Ölümündən yeddi il sonra onun "Qurd və pişik" təmsili kitab şəklində çap olunur.

1943-cü ildə qaraçay-malkar xalqının doğma yurdundan elliklə sürgün edilməsi İslam Kırımşamxalovun əsərinin itib-batmasına səbəb olur.

Qaraçay-malkarlar sürgündən döndükdən sonra mədəni miraslarına sahib çıxmağa və onu tanıtmağa başladılar. Teberdeçi, İslam Kırımşamxalov imzası ilə yazdığı qəzet və

jurnallarda çap etdirdiyi əsərlər, iti yaddaşı olan insanların hafizəsində qalanlar, eləcə də rəsm əsərləri bir yerə toplayırlar. İslam Kırımşamxalov şərəfinə muzey yaradılır. Teberdaya gələnlər də yerli xalqın övladları da böyük həvəslə bu muzeyi gəzir, buradan çox şey öyrənirlər.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il yanvarın 23-də, saat 12.14-də efirə getmişdir.

İSMAİL SEMENOV

(karaç. Semenov, Sımayıl, əski əlifba ilə ايسماعيل سئمونوو, *rus.Семенов Исмаил Унухович; 1891-1981)*



İsmail Unux ulu Semenlanı 1891-ci ildə çar Rusiyasının işğal etdiyi Quzey Qafqazda yaratdığı Kuban quberniyasının Uçkulan kəndində doğulub. Onun adı və soyadı qaynaqlarda İsmail Unuxoviç Semenov, İsmail Unux oğlu Semenlanı kimi də yazılıb. Mömin və dindar, həm də duz-çörəkli, xeyirsevər, kasıb-kusuba əl tutan, darda qalanlara yardım edən bir soydan olan İsmail körpə ikən atasını itirib.

İsmailin atası da, babası da Həcc ziyarətinə gedərkən müqəddəs torpaqda dünyalarınıb. O, yetim qalmasına baxmayaraq kəndlərindəki ibtidai məktəbdə, sonra da mədrəsədə oxuyub, türk, ərəb, fars dillərini öyrənib, İslam elmlərinə yiyələnib.

20-ci yüzilin başlarında Rusiyada baş verən qarışıqlıq, rus-yapon savaşında Rusiyanın uduzması, ölkəni hərcmərcliyin bürüməsi İsmailin təhsilini davam etdirmək üçün Şərqin məşhur mədrəsələrində oxumağa getməsini əngəlləyib. O, klassik şeir formalarını gözəl bilsə də, daha çox xalq ozanlarının yaradıcılığına meyillənib. Yeniyetməliyindən xalq arasında ağızdan-ağıza gəzən, müəllifi bilinən və bilinməyən yüzlərlə cırı – xalq şeirini əzbəryib.

Özü də cırlar söyləyən və söylədiyi cırları xalq arasında dolaşan el şairi həm də yeniyetmələrin təhsili və tərbiyəsi ilə məşğul olub. Uşaqlara Quran oxumağı, İslamın qaydalarını öyrədib.

Onun gənclik illərində kommunizm ideologiyası dünyada sürətlə yayılsa da, İsmail oradakı bir çox müddəaları bəyənmiş, lakin bu ideologiyanı yayanlarla eyni təşkilatlarda olmamışdı. Çünki İslamın başqasının malına və mülkünə göz tikməmək, bir şeyə nail olmaq istəyirsənsə ona halallıqla nail olmaq prinsipi İsmail üçün daha önəmli olmuşdu. O, kommunistlərin varlıların malını-mülkünü zorla əlindən almaq prinsipilə heç cür barışmayıb.

Gəncliyində xalq şeirinin müxtəlif ölçülərində poetik nümunələr yaradan İsmail Semenov təbiət mənzərələrini sözlə mahir bir rəssam kimi canlandırıb, qaraçay-malkarların adət-ənənəsini ilhamla oxucusuna və dinləyicisinə çatdırıb.

Şeirlərində xalqına bu qədər ürəkdən bağlı olan şair siyasi məsələlərdə burulğan içərisində olub. 1917-ci ilin fevralında çar II Hikolay taxtdan uzaqlaşdırılıb Müvəqqəti Hökümət qurulduqda Quzey Qafqazın və Dağıstanın vətənsevər oğulları xalqlarına azadlıq bəxş etmək, demokratik dövlət qurmaq istəyi ilə vətənlərinə dönüblər.

Bakı milyonçuları Hacı Zeynalabdin Tağıyevin, Murtaza Muxtarovun və Şəmsi Əsədullayevin maliyə yardımı ilə 1917-il mayın 14-21-də Vladiqafqaz şəhərinə toplaşmış 340 nümayəndə Dağlıların Birləşmiş Müvəqqəti Mərkəzi Komitəsini Quzey Qafqaz və Dağıstan Dağlıları İttifaqı kimi formalaşdırıblar. Dörd ay sonra isə, sentyabrda keçirilən növbəti qurultayda Abxaziyanın da İttifaqa qoşulması nəticəsində qurum Quzey Qafqaz, Dağıstan və Abxaziya İttifaqı yaradıldığını elan edib.

Millətin taleyüklü məsələləri həll olunduğu bir zamanda İsmail Semenov bu işlərdə fəal iştirak etməyib. O, inana bilməyib ki, dövlətçilik təcrübəsi olmayan, maddi dayaqdan məhrum həmyerliləri yeni bir hökumət qurub xalqı idarə edə bilərlər. O, dindar bir ailədə böyüdüyü üçün İslamın xəlifəsi olan Osmanlı sultanlarına meyillənib. Gah Osmanlı ordularının gəlişini arzulayıb, gah da çar II Nikolayın yenidən taxtına qayıdacağını, islahatlar keçirərək ölkəni ədalətlə idarə edəcəyini düşünüb.

Birinci Dünya Savaşında Osmanlı dövlətinin məğlubiyyətə uğraması İsmail Semenovu çar Rusiyasına meyilləndirib. Bolşeviklərin, bərabərlik, sülh, Rusiya əsarəti altında olan xalqlara azadlıq verəcəkləri vədi ona olduqca inandırıcı və şirin gəlib.

İsmail Semenov belə tərəddüdlü bir günləri yaşadığı zaman onun cəsur həmyerliləri 1918-ci il mayın 11-də Birləşmiş Dağlılar İttifaqının Mərkəzi Komitəsi Gürcüstan, Azərbaycan, Ermənistan cümhuriyyətlərini önləyərək Quzey Qafqaz Dağlıları Cümhuriyyətini yaratdıqlarını elan ediblər. Az sonra Azərbaycan Cümhuriyyətinin özü ağır vəziyyətdə olmasına baxmayaraq Quzey Qafqaz Dağlıları

Cümhuriyyətinə ilk maddi və mənəvi yardımı göstərib.

Sevr və Mondoros anlaşmalarının ağır şərtləri Osmanlı əsgəri birliklərinin Quzey Qafqazdan və Dağıstandan geri çəkilməsinə səbəb olub. Antantadan yardım alan, Rusiyanın Osmanlı cəbhəsindən geri çəkilərkən hərbi sursatın və hərbçilərin böyük bir qismini Ermənistana verməsi gənc dövləti ilk yarandığı gündən işğalçıya çevirib. Onlar yalnız yeni yaranmış Azərbaycan Cümhuriyyətinin ərzilərini işğal etməklə qalmayıb, dinc müsəlmanları da qəddarlıqla qırıblar. Azərbaycan Cümhuriyyətinin Ermənistanla savaş vəziyyətində olması, Gürcüstanla mübahisəli sərhəd məsələlərini həll edə bilməməsi ona imkan verməyib ki, Quzey Qafqaz Dağlıları Cümhuriyyətinə lazimi səviyyədə yardım edə bilsin. Avropanın güclü dövlətləri də, Amerika Birləşmiş Ştatları da yeni yaranmış respublikaya maddi və hərbi yardım o yana, heç mənəvi dəstək də vermməyiblər.

Yaranmış vəziyyətdən istifadə edən general Denikinin ağqıvardıyaçıları Quzey Qafqaz Dağlıları Cümhuriyyətinin varlığına son qoyub. Lakin onların ömrü də o qədər uzun olmayıb.

Bakı neftinə sahib olmaq üçün ölüm-dirim savaşına atılan bolşeviklər ağqıvardiyaçıları məğlub edərək Bakını işğal ediblər.

Bolşeviklərin milli dillərdə məktəb, qəzet-jurnal açmaq cəhdi, düyaya sülh və ədalət gətirəcəkləri haqqda söylədikləri şirin vədlər İsmail Semenovu da özünə çəkib. Cırlar söyləməklə yanaşı, o dövrün modern şeiri adlanan poeziyaya meyillənib. Hakimiyyət orqanları da onu bu işdə dəstəkləyib. Beləliklə 1920-ci illərdə qaraçay-malkar şeirində fəlsəfi düşüncəni və poetik sözün zirvəsini xalq şairi, nəğməkar, cırçı İsmail Semenov fəth edib.

Yeni yaranmış Sovetlərin məktəblər açması, hətta evlərdə kurslar açaraq yaşlı kişi və qadınlara əlifba öyrətməklə savadsızlığı aradan qaldırma cəhdi İsmail Semenova nə qədər xoş gəlirdisə, insanların malını, mülkünü zorla əlindən almaları, çadra, papaq əleyhinə apardıqları mübarizə, İslam dininə mənfi münasibət, məscidlərin qapadılması cəhdi onu üzüb. Bütün bunları görsə də, hökumətin siyasətinə qarşı çıxmayıb.

1937-ci ilin kütləvi həbs və sürgünlərində ona toxunmayıblar. Əksinə 1939-cu ildə ermənilərin milli qəhrəmanı Sasunlu Davudun

1000 illiyinə İrevan şəhərində təşkil olunmuş şeir müsabiqəsinə dəvət edilib. Müsabiqədə bədahətən dediyi şeirlərə görə onu birinci mükafata layiq görüblər. Sonralar da o bir neçə mükafata layiq görülüb.

İkinci Dünya Savaşının başlanması, qaraçay-malkarların minlərlə oğlunu onlara dəxli olmayan döyüşə göndərmələri, sürətlə irəliləyən alman ordularının məğlübedilməz sayılan Qızıl Ordunu geri çəkilməyə məcbur etməsi, almanların qaraçay bölgəsini işğalı İsmail Semenovun dünyagörüşündə böyük dəyişikliyə səbəb olub.

Quzey Qafqazı yenidən işğal edən Sovet Ordusu qaraçay-malkarları 1943-cü il noyabrın 2-də Qazaxıstana, Qırğızıstana sürgün edib. Xalqının kütləvi sürgünü, yük vaqonlarında minlərlə insanın ölümü İsmail Semenovu ruhdan salsa da, onu şeir deməkdən çəkindirməyib. "Stalinə" şerində millətinin həyatını qurudan, dilini kəsdirən, özünə mədhiyyələr yazdıran adlandırıb. Özünün də mədhiyyələr yazdığını, sonralar tövbə etdiyini poetik dillə xalqına çatdırıb.

"Səbir" adlı şerində ona inandığı dindən uzaqlaşmağı, insanlıqdan uzaqlaşmağı, Allaha

küfür etməyi, xalqına xainlik etməyi təlkif etdiklərini yazıb. “Mənə dinsiz olmaq yaraşırmı?” şeirini bədii sualı ilə bitirib.

Şair “Zülmün nəğməsi” şerində isə quruluşun dindar oğlu ilə kommunist oğlunun, yəni iki qardaşın bir birinə necə düşmən etdiyini ürək ağrısı ilə söyləyib. İsmail Semenovun “Sürgün günümdə”, “Haradadı inqilab”, “Təsəlli edirəm” və başqa şeirləri antisovet şeirlər olduğundan onun əsərlərinin çapı qadağan olunub.

Bütün təqib və təzyiqlərə baxmayaraq onun “Mingi tav”, yəni “Sonzuzluq dağı” şeiri milli himnə çevrilib. Xanımı Aktamaqa-Anisata həsr etdiyi 5200 misralıq poemasında yalınz ömür-gün yoldaşının insani keyfiyyətləri tərənnüm olunmayıb, vətəninin, çayları, dağları, dərələri, bulaqları, buzlaqları, meşələri də şirin bir dillə oxucuya çatdırılıb.

Stalinin şəxsiyyətə pərəstlikdə suçlanmasından sonra, 1957-ci ildə xalqı ilə doğma yerlərə qayıdan şair hökumətin nəzərindən düşür. 1981-ci ildə dünyasını dəyişən İsmail Semenovun şeirləri Sovetlər Birliyi çökdükdən sonra toplanaraq, çap edilib,

haqqında araşdırmalar aparılır və adının əbədiləşdirilməsi üçün işlər görülüb.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il sentyabrın 24-də, saat 12.14-də efirə getmişdir.

KASBOT KOÇKAROV



(əski əlifba ilə كاسبوت كوچكاروو, rus. Касбот Багырович Кочкаров - Багъыр улу; 1834-1940)

Kasbot Bağır oğlu Koçkarov 1834-ci ildə bugünkü Qaraçay Çərkəz Respublikasının Uçkulan qəsəbəsinin yaxınlığındakı Kasbot kəndində kasıb bir ailədə doğulub. Onun adı ilə doğulduğu kəndin adının eyni olması çoxlarını çaşdırır. Kəndlərimizin bir çoxu orada yaşayan tayfasının, yaxut kəndi salan insanın, nəslin adıyla adlanır. Kasbot da belə kəndlərdəndir.

Qış-yay başı qarla örtülü uca Qafqaz dağlarının qüzey ətəklərində ömür sürmüş, özü də Qafqaz dağları kimi əyilməz xarakterli Qaraçay şairi Kasbot Koçkarovun uşaqlıq və yeniyetməliyi işğalçılara qarşı qanlı savaşların höküm sürdüyü bir dönəmə təsadüf edib. Qafqazın quzeyini işğal etdikdən sonra sürətlə

güneyə doğru irəliləyən rus orduları bu yerləri də imperyanın tərkibinə qatıb. Lakin, işğal etdikləri əraziləri idarə etmək müharibə aparmaqdan çətin olub. Çünki Rusiyada təhkimcilik hələ də davam edirdi. Kinyaz ona məxsus kəndlərlə istədiyi kimi davranırdı. İstədiyi vaxt kəndlini, onun ailə üzvlərini, yəni qızını, oğlunu başqasına sata bilirdi. Bu alqı-satqı gizli deyil açıq-aşkar aparılırdı. Hətta qəzetlərdə belə kinyazların-ağaların kəndlilərinin ailə üzvlərini yol çəkilişində, meşə qırılmasında, tikintisində, gəmiçilikdə, ev qulluqçuluğunda işləmək üçün satdığına dair elanlar verilirdi. Yəni quldarlıq hələ də davam edirdi.

Türk xalqları isə minillərdi quldarlıqdan uzaqlaşmışdı. Quldarlığın ləğvində İslam dininin də rolu böyük olmuşdu. Rusyanın hakimiyyət orqanları isə işğal altına aldıqları xalqların psixologiyasını, adət-ənənəsini, tarixini bilmədən onları istədikləri kimi, yəni zor gücünə idarə edirdi. Əsarət altına düşmüş xalqların silah istehsal edən zavodları, nizami ordusu olmasa da işğalçılara qarşı müqaviməti davam etdirir, minlərlə insan aliə şərəfini, namusunu qorumaq üçün döyüşə atılırdı.

Şeyx Şamilin Rus imperyasına qarşı apardığı inanılmaz mübarizə də belə bir ortamda davam edirdi. Balaca Kasbotun gözü qarşısında Şeyx Şamilin müridləri Rusiyanın toplu-tüfəngli ordularını pərən-pərənə salırdı. Analar döyüşlərdə şəhid olan oğullarına, bacılar qardaşlarına, qadınlar ərlərinə yırlar qoşurdular. Necə deyərlər Kasbotun gözü qarşısındaca hər gün yeni bir qəhrəmanlıq yırı yaranırdı. İstəsə də, istəməsə də o bu yırları eşidir, onlar yaddaşına hopur və onun bədii təxəyyülünü zənginləşdirirdi.

Şeyx Şamil 1859-cu ildə qazilərin fitvasıyla 30 ilə yaxın davam etdirdiyi döyüşü dayandırdı. Lakin qazavat dayandırılsa da dağlarda Rusiya əsgəri birliklərinə qarşı fərdi döyüşlər davam etdirdi. Çar Rusiyasının hökuməti məcburiyyət qarşısında bir sıra islahatlar həyata keçirdi. 1861-ci il təhkimçilik hüququnun ləğvi haqqında qanun qəbul edildi. Bu qanunu Avropa dövlətləri də, tərəqqipərvər Rus ziyalıları da sevinclə qarşıladılar. Beləliklər Qafqazda müridizm hərəkatı sönməya başladı. Rusiya təhkimçilik hüququnu ləğv etsə də müstəmləkəçiliyin əsas strategiyası olan "parçala, höküm sür!" siyasətini davam etdirdi. Ruslar işğal etdiyi ərazilərdə idarəetmənin yeni formasını tətbiq etdi. 1861-ci

ildə Qafqazı vilayətlərə-quberniyalara böldü. Qaraçay türklərini Kuban vilayətinin, malkar türklərini isə Terek vilayətinin tərkibinə daxil etdi.

Baksan bölgəsində yaşayan, türkcə danışan toplum isə orusbiylər kimi göstərdi. Yəqin ki, orusbiy tayfası yaşayan Baksan bölgəsi üçüncü bir vilayətin tərkibinə daxil edilsəydi indi statistikada qaraçay, malkar (balkar) adı ilə yanaşı orusbiy adlı bir xalqa da rast gələcəkdik.

Beləliklə, eyni dildə danışan, eyni mədəniyyətin daşıyıcısı olan, eyni dinə inanan, eyni soylu toplumdan iki xalq - qaraçaylar və balkarlar kimi formalaşdırılmağa başlandı. Statistikada "qaraçay", "balkar" kimi qeyd edilən xalqların yaşadığı bölgə bir-birinə bitişikdir. Dilçiliyə, tarixə dair bütün ədəbiyyatlarda bu tayfaların eyni kökənli olduğu yazılır. Yüz illər boyu ərəb qrafikalı əlifbadan istifadə edən qaraçay-balkarlar 1929-cu ildə əksər türk xalqları kimi latın qrafikası əsasında yaradılmış əlifbaya keçdilər. Lakin bu, uzun sürmədi. 1938-ci ildə onlar üçün 38 hərfdən ibarət də Kiril qrafikalı əlifba yaratdılar. Tarix, ədəbiyyat, folklorlar bölgəsəl öyrənildi və təbliğ olundu. Sovet strateqləri bu ayrılığı getdikcə dərinləşdirmək

üçün malkarlara Nalçikdə, qaraçaylara Çerkesskdə elmi-mədəni mərkəzlər yaratdı.

Kiçik yaşlarında molla yanında təhsil alan, Quran oxumağı, ərəb və fars dillərini öyrənən Kasbot mədrəsədə təhsilini davam etdirə bilmir. Yeniyetmə çağlarında çoxlu cır (jır) və xalq mahnıları əzbərləyərək yığnaqlarında oxuyur. Oxuduqlarının təsiri ilə gənc yaşından öz şeirlərini söyləməyə başlayır. Şairin "Xorasan", "Deboş", "Aycayak" cırları (jır) və mahnıları xalq arasında geniş yayılır. Araşdırıcılar xalq nəğmələri kimi bu gün də oxunan və antologiyalara daxil edilmiş "Candar", "Barak", "Qapalav" və "Kanamat"ın da yazarının Kasbot olduğu qənaətindədirlər.

Kasbot Koçkarov mükəmməl dini təhsil almasa da sonralar, mədrəsə təhsili görmüş, Şərqin dini və mədəniyyət mərkəzlərini gəzib gəlmiş həmyerlilərinin söhbətlərini dinləməklə dini biliklərini artırmışdı. Ona görə də Kasbot Koçkarovun cır (jır) və nəğmələrində didaktika, İslami dəyərlərdə dayanan öyüd və nəsihətlər çoxluq təşkil edir. Ənənəyə sədaqəti və fitri istedadı sayəsində yazdığı cır (jır) və mahnılar qaraçay-malkar poeziyasının qızıl fondunu təşkil edir.

19 yüzilin sonları 20 yüzilin əvvəllrində Kasbot Koçkarov Quzey Qafqazda yalnız qaracay-malkarlar arasında deyil, noqaylar, çərkəzlər, abazalar, qumuqlar, qabardinlər və başqa xalqlar arasında da tanınmışdır.

Kasbot Koçkarovu üsyankar ruhlu şeirləri, həcvləri bolşeviklərin də diqqətini cəlb etmişdi. Bolşeviklər xalq arasında məşhur olan şairləri öz tərəfinə çəkməklə kommunist partiyasına, Leninə, Stalinə mədhiyələr yazdırır, sosializm quruculuğunu tərənnüm etdirirdilər. Ləzgi xalq şairi Süleyman Stalskini, qazax Cambul Caboyevi, avar Həmzət Sadasanı və b. mükafatlarla, rəsmi toplantılara dəvətlərlə şirnikləndirərək sosializm quruculuğunun məddahina çevirə bildilər.

Sovetlərin dinə mənfi münasibətini, milli ayrıseçkilik siyasətini, müxtəlif adlar altında azad düşincəli insanları məhv etdiyini görən Kasbot Koçkarov dəvətləri qəbul etmir. Nə yazıq ki, onun yaddaşında gəzdirdiyi yüzlərlə cırı (jır), nəğməni, mahnını, ata sözü və məsəlləri toplayan olmur.

Şairin ölümündən 24 il sonra, yəni 1964-cü ildə "Saylamala" (Seçmələr) və 1986-cı ildə "Koçkarlanı Kasbot-Xalq cırçılanı tamadası"

(Kasbot Koçkar-xalq şairlərinin öncülü) kitablarını nəşr etdirillər.

Uzun illər qaraçay-malkar ədəbiyyatı tarixini araşdıranlar onun 18-ci yüzildən başladığını yazıblar. Son zamanlar isə qaynaqlara dayanaraq Mikail Şamsi Bastu (835-900), Tram xan (10-12 yüzillər), Zurum Biyçe (13…-1396), Akbilek Biyçe (13…-1396), Qoşayax Biyçe (16-17-ci yüzillər), Semenlanı Kaltur (18-ci yüzil) kimi yaradıcı şəxsiyyətlər haqqında bilgi verməklə qaraçay-balkar yazılı ədəbiyyatının tarixinin 9-cu yüzilə qədər aparmağa çalışırlar. Gənc araşdırıcıların bəziləri isə ədəbiyyat tarixlərini Orxon-Yenisey abidələriylə başlayirlar. Bu da təbiidir. Xalq özünü tanıdıqca, tarixini öyrəndikcə milli şüuru artır, tarixinə də, ədəbiyyatına da, mədəniyyətinə də yiyə çıxır.


Rusiya işğalçılarının yeritdiyi ayrı-seçkilik siyasəti gücünü itirdikcə qaraçay-malkarlar arasında əski qıpçaq ədəbiyyatının, ümumtürk mədəniyyətinin öyrənilməsinə və təbliğinə da maraq artır.

20-ci yüzildə yaratdıqları ədəbi nümunələri yeni gözlə saf-çürük edir, Sovet dövründə yasaklananlar üzə çıxarılır, dəyərlilərini yenidən çap edərək gənc nəslin ixtiyarına verirlər.

1940-cı ildə, 106 yaşında dünyasını dəyişdiyi söylənilən Kasbot Koçkarov sağ qalsaydı yəqin ki, 1943-cü ildə xalqı ilə birlikdə o da Qazaxıstana və ya Sibirə sürgün ediləcəkdi. SSRİ dağıldıqdan sonra Kasbot Koçkarov əsərləri Türkiyədə də çap olunmağa başladı. Kasbot Koçkarovun yaradıcılığına türk xalqlarında da maraq artmışdır. Onun qaraçay milli ruhunu özündə daşıyan şeirləri Türk xalqlarının ədəbiyyatının bir parçasına çevrilməkdədir.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2010-cu il iyulun 23-də, saat 12.14-də efirə getmişdir.

KAZIM MEÇİYEV



(карач.-балк. Мечиланы Беккини джашы Кязим, əski əlifba ilə كاظيم مئچئ, rus. Кязим Беккиевич Мечиев; 1859-1945)

Kazım Bekkin oğlu Meçiyev 1859-cu ildə o dövrki Tersk vilayətinin Holam-Bızıngi bölgəsində yerləşən Şiki kəndində dəmirçi ailəsində doğulub. İndi həmin bölgə Rusiya Federasiyasının Kabarda-Balkar Respublikasına daxildir. Lakin şairin doğulduğu kənd artıq burda yoxdur. Çünki 1944-cü il martın 8-də Sovet hökuməti malkarları ata-baba yurdları elliklə Qafqazdan Türküstana sürgün etdiyindən bir çox kəndlər kimi Şiki kəndi də xaraba qalıb. Əslində bu Rusiyanın Türk xalqlarını tarixi ata-baba yurdları olan Güney bölgələrindən, yəni dindaşları və soydaşları yaşayan Osmanlı

dövlətinin sərhədlərindən qovma siyasətinin son mərhələsi olub.

Şiki kəndində yaşayan dəmirçi Bekkinin Kazım adını qoyduğu oğlu doğulan il Qafqaz xalqları üçün kədər və qüssə ili olub. Rusiya İmperiyasının işğalçılıq siyasətinə qarşı 30 il müqavimət göstərmiş xalq üsyana ara verib. Üsyana rəhbərlik edən, tarixə adını qızıl hərflərlə yazdıran, təslim olsa da, yaddaşlarda qalib kimi qalmış Şeyx Şamil din adamlarının qərarı ilə mübarizəsini dayandırdığını elan etsə də, Rusiyanı bir sıra islahatlar aparmağa məcbur edib. Rusiya təhkimçilik hüququnu ləğv etməli olub. Şeyx Şamilin başçılıq etdiyi silahlı müqavimətin nəticəsindən Rus xalqı da yararlanıb.

Kazımın adı və soyadı Kazım Bekkin ulu Meçilanı kimi də yazılır. Bizim "oğlu" kimi tələffüz etdiyimiz və yazdığımız sözü qıpçaq soylu malkarlar, qaraçaylar, noqaylar, qazaxlar, qırğızlar ulu şəklində tələffüz edir və yazırlar. Kazım uşaqlıqdan şikəst olub. Fiziki gücünü tətbiq etməklə, yəni ağır dəmirçi əməyi ilə ailəsini dolandıran Bekkin şikəst övladının dağlar qoyununda, təbətin sərt üzünü göstərdiyi bir bölgədə yaşaya bilməsinin çətin olacağını

görüb. Buna görə də kiçik yaşlarından iti hafizəsilə diqqəti cəlb edən, yazmağa və oxumağa meyilli oğlunu kəndə tez-tez gələn din adamı Çepelli əfəndiyə verib ki, onu oxutsun.

Xalq arasında böyük nüfuzu olan və xeyirxahlığı ilə tanınan Çepelli əfəndi kiçik Kazımı özü ilə Bızınq kəndinə gətirərək ona təhsil verib. Üç ildən sonra isə onu Lesken kəndindəki mədrəsəyə göndərib. Dəmirçi Bekkin oğlu mədrəsədə yalnız dini elmləri öyrənməklə kifayətlənməyib, türk, ərəb, fars dillərinin qrammatikasını, poeziyanın nəzəriyyəsini öyrənib və şeir yazmağa başlayıb.

Kazım Bekkin oğlu doğulduğu kəndə dönüb mollalıq etməyib. O, həm dini bilikləri təbliğ edib, həm də şeirlər və poemalar yazıb. 1891-ci ildə mövzusunu Qurandan götürərək tamamladığı "Tahir və Zöhrə" poeması böyük maraqla qarşılanıb. Çünki bu mövzuda bir çox ünlü şairlər türk, fars, ərəb və b. dillərdə gözəl sənət əsərləri yaradıblar. Kazım Bekkin oğlunun məharəti onda olub ki, yazılı ədəbi dil ənənəsi olmayan malkar türkcəsinin dialektlərindən yararlanaraq həm dərin fəlsəfi fikri bədii şəkildə verə bilib, həm də yazı dilini formalaşdırıb.

Bu uğurlu addımdan sonra ilahiyyatçı şair 1898-ci ildə "Şikayət", 1903-cü ildə isə üçüncü poemasını tamamlayıb. Həmin il 44 yaşlı Kazım Meçiyev Həcc ziyarətinə gedib. Fiziki cəhətdən zəif olan ilahiyyatçı şair iradəcə güclü olub. O, 1910-cu ildə ikinci dəfə Həcc ziyarətinə getməklə yanaşı İstanbula, Şama, Bağdada və b. şəhərlərə səyahət də edib. Misirə səyahəti zamanı Qahirədəki Əl-Əzxər Unversitetinə daxil olaraq ilahiyyata dair biliklərini artırıb. Doğunun bir çox şəhərlərini gəzib, ünlü şəxsiyyətlərlə görüşməsi, biliyini artırması onun dünyagörüşünün genişlənməsinə olduqca böyük təsir edib.

İlahiyyatçı şairin ilk kitabı 1906-cı ildə Teymirxanşurada, indiki Dağıstan Cümhuriyyətinin Buynaksk şəhərində çap olunub. Kitaba daxil edilmiş "İman-İslam" didaktik poeması əsəri malkar türkcəsində ilk mətbu əsər sayılıb.

İti hafizəsi sayəsində xalq arasında geniş yayılan mahnıları, cırları və dastanları yaddaşında saxlayıb və onların təsiri ilə ilk şeirlərini yazmağa başlayan Kazım Bekkin oğlu az zamanda şifahi xalq ədəbiyyatını, aşıq-ozan ənənəsini yazılı ədəbiyyata gətirən bir ustad kimi

tanınıb. “Peyğənbər” poemasını, “İsmayıl kıssası” və b. əsərlərini yardıb. “İsmayıl kıssası” əsərində Qurani-Kerimdə özünə yer tapan, İslam dinində olduqca önəm verilən, Allaha insanın qurban kəsilməsinə son verən, insan qurbanının qoçla əvəz olunması hadisəsi təsvir edilib.

Hacı Kazımın şeirləri bölgədə dillər əzbəri olub. Onun şeirlərini toylarda, məclislərdə xalq mahnıları kimi oxuyublar. Xalqının çoxsaylı təbəqəsinin təhsil almağa imkanı olmadığını görən Kazım dini mövzuları xalq şeiri ruhunda, sadə və anlaşıqlı dildə nəzmə çəkib. Onun yazdığı zikrlər xalq arasında geniş yayılıb. Bu da insanların İslam dini ilə yaxından tanışlığına, onun qaydalarından xəbərdar olmalarına şərait yaradıb.

1914-cü ildə Temirxan-şurada “İman-İslam” əsəri yenidən çap edilib. Şairin 1918-ci ildə yenə Temirxan-şurada çap etdirdiyi “Soltan-Hamit al Çegemi” şeiri də xalq arasında yayılıb. Balkarların yaşadığı Çegem dərəsində üsyan qaldırmış insanların rəhbəri Soltan Hamit Kalabeyə həsr etdiyi bu şeirin həcmi böyük olsa da, xalq onu əzbərləməkdən zövq alıb.

Yaradıcılığı çoxcəhətli olan Kazım Meçiyev şeirlərində ən çox insanı tərənnüm edib. “Adımız

insandır” şeirində şair ədəbiyyatda humanizm məsələsi ətrafında gedən mübahisələrə münasibətini bildirib və insanın ən yüksək qiymətə layiq olduğunu göstərib. “Ovçuların mahnısı”, “Buz jigit” şeirlərini və “Tahir və Zöhrə” poemasını bu sənətkarın şəxsiyyət konsepsiyası saymaq olar.

Birinci Dünya Savaşını şeirlərində və moizələrində kəskin tənqid edən Kazım Meçiyev vətəninin Rusiya işğalından azad edilməsinə can atanlardan olub. 1917-ci ildə II Nikolayın taxtdan uzaqlaşdırılması, bolşeviklərlə ağqvardiyaçılar arasında gedən qanlı savaşlar, Quzey Qafqaz xalqlarının birləşərək Rusiya işğalından azad dövlət qurmaları ilahiyyatçı şairin içində tərəddüdlər yaradıb.

O, bütün varlığıyla savaşların durdurulmasını, insan qanının axıdılmasına son qoyulmasını istəyib. Bolşeviklərin sosial ədalət, savaşları durdurmaq, xalqlara azadlıq vermək haqqındakı şüarları Kazım Meçiyevi də inandırıb.

1920-ci ildən sonra yazdığı şeirlərində kommunist partiyasını, Oktyabr inqilabını, kommunist öndərlərini, bir sözlə, sosializm quruculuğunu, Sovetlər Birliyini tərifləyən,

kasıbların inqilabi sevinclə qarşıladığını tərənnüm edən coşqun misralara da tez-tez rast gəlirik. Az vaxt sonra şair xalqının aldadıldığını başa düşüb. Lakin yaşı çox olduğundan və eləcə də fiziki şikəstliyindən, düşündüklərini açıq söyləyə bilməyib. Quruluşa qarşı narazılıqlarını misralarında eyhamlar şəkilində söyləyib.

Xalq poeziyası üslubunda yazan şair sosializm quruculuğunu tərənnüm etsə də, ədəbiyyata yeni gələn Rus sovet şairlərinin təsiri ilə yaradıcılığa başlayan gənclərin basqısına uğrayıb. Ədəbi mübahisələrdə tez-tez təzyiqlə üzləşib. Sosializmi yetəri qədər tərənnüm etməsinə baxmayaraq, 85 yaşlı şairi də 1944-cü il martın 8-də yaşadığı Kisibalık kəndindən xalqı ilə birlikdə sürgün edildiyi Qazaxıstan Cümhuriyyətində 1945-ci il martın 15-də ömrünü başa vurub. Şairin nəşi (sümükləri) 1999-cu ildə Taldı Kurqan vilayətinin Telman kəndindən Nalçikə gətirilib və şərəfinə ucaldılmış abidənin yanında dəfn edilib.

1990-cı illərədək şairin yalnız Sovet rejiminə uyğun şeirləri çap edilmiş, son illərdə Alim Teppeyevin hazırladığı "Kazım: nazmula, zikirle, poemala"» və Abdullah Bekiyevin tərtib etdiyi "Kazım: şiirler, zikirler, poemalar"

kitablarına dini məzmunlu əsərləri də daxil edilib.

Quzey Qafqaz xalqları arasında İslam dininin yayılmasında əməyi olan, fərqli-fərqli dillərdə danışan xalqları İslam dini vasitəsilə birləşdirməyə çalışan Kazım Meçiyevin ideyaları şairin ölümündən 55 il sonra, Sovetlər Birliyi çokdükdə yenidən çiçəklənməyə başayıb.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2011-ci il fevralın 2-də, saat 12.14-də efirə getmişdir.

KERİM OTAROV



(*əski əlifba ilə* **كريم اوتاروو,** *rus. Отаров Керим Сарамурзаевич; 3.05.1912 - 13.10.1974, Nalçik)*

Kerim Saramurza oğlu Otarov 1912-ci il mayın 3-də Rusiyanın işğal etdiyi Terek quberniyasının Görxojan (Gürxojan) aulunda doğulub. İndi bu aulun yerində Tırnauz adlı mədənçilər şəhərciyi var. Tırnauz şəhəri də yeni inzibati ərazi vahidində Rusiya Federasiyasının Kabarda Malkar Respublikasına daxildir.

Kasıb bir dağlı ailəsində dünyaya gələn Kerim ilk təhsilini kəndlərindəki mollaxana adlandırılan ibtidai məktəbdə alıb. Onun uşaqlığı bölgənin qarışıq dövrünə təsadüf edib. Belə ki, Birinci Dünya Savaşında məğlub olan Rusiyanı bir qarışıqlıq bürüyüb. 1917-ci ilin fevralında 300 illik Romanovlar sülaləsinin hakimiyyətinə son qoyulub. Dünyanın inkişaf etmiş ölkələrinin yararlandığı respublika idarəçilik forması

Rusiyaya da yol tapıb. Bu çox demokratik və mütərəqqi bir idarəçilik forması olsa da, hamı tərəfindən eyni qarşılanmayıb.

Yaranmış qarışıqlıqdan istifadə edən milli təfəkkürlü ziyalılar Rusiya işğalından azad və müstəqil dövlətlərini qurmaq istəyiblər. Az bir qism insan monarxiyanın bərpasına tərafdar çıxıb. Kiçik bir qrup isə bolşeviklərin "dünyanı zülm və əsarətdən xilas edərək kommunizm quracaqları" xulyasına inanaraq onlara qoşulub. Beləcə Quzey Qafqaz yalnız ideoloji mübarizə meydanına deyil, həm də əli silahlıların, ordu birləşmələrinin döyüş meydanına çevrilib.

Kerim Otarov 7-9 yaşında ikən həm milli hökuməti, həm bölşeviklərin elan etdiyi Sovetləri, həm beçeraxovçuların qiyamını, həm ağqvardiyaçıların milli hökuməti necə dağıtdıqlarını, həm də bolşeviklərin bölgəni yenidən necə işğal etdiklərini görüb.

Bolşeviklər 1920-ci il martın 24-də bölgəni işğal etdikdən sonra özlərinə kadr hazırlamaq üçün təhsilə xüsusi diqqət yetiriblər. Bir tərəfdən kasıb və imkansız ailələrin uşaqlarının təhsilə cəlbinə xüsusi diqqət yetiriblərsə, o biri tərəfdən də yaşlılar arasında savadsızlığı ləğv etmək üçün xüsusi kurslar təşkil edirblər.

Qısamüddətli kurslarla da olsa, savadsızlığı aradan qaldıra biləcək kadrlar hazırlanıb.

Kerim Otarov 1934-cü ildə Nalçikdəki pedaqoji məktəbi bitirən kimi onu müəllim işləməyə göndəriblər. O, sadə bir müəllim kimi işə başlayıb. Şeir və məqalələri mətbuatda çap olunub, komsomol fəalı kimi ictimai-siyasi işlərdə fərqləndiyindən 22 yaşlı müəllimi malkarların çoxu tanıyıb. Vəzifə borcunu yerinə yetirməklə yanaşı, Sovetlərin ən fəal təbliğatçısı olan Kerim Otarovu 1936-cı ildə SSRİ Yazıçılar İttifaqına üzv qəbul ediblər.

Bəxt günəşi elə bil onun üzünə gülüb. 26 yaşında onu Kabarda Malkar Yazıçılar İttifaqına sədr seçiblər. Elə həmin il də Nalçik şəhər mətbəəsində ana dilində "Nazmula bla cırla" kitabı, yəni "Şeirlər və nəğmələr" adlı kitabı çap olunub.

Kerim Otarov sanki xalqın başına açılan zülmü görməyib, anaların fəryadını eşitməyib, sürgünə göndərilənlərin, həbsxanalarda çürüdülənlərin, güllələnənlərin naləsindən xəbərsiz olub. Sovetlərin insanlara bəxş etdiyi nailiyyətlərdən, xoşbəxt günlərin gələcəyindən, dünyanın zülm və zalımdan qurtaracağından yazıb. 1940-cı ildə Sov.İKP sıralarına daxil olub.

1941-ci ildə Nalçik şəhərində "Şkolnu tuvğanı", yəni "Məktəbin yaranması" adlı hekayələr kitabını çap etdirib.

İkinci Dünya Savaşında alman ordularının sürətlə SSRİ ərazilərini işğal etməsi Kerim Otarovun da həyatını tamam dəyişib. Yazıçılar İttifaqının sədri kimi hərbi xidmətdən qalma hüququ olmasına baxmayaraq, qardaşları ilə bilikdə 1941-ci ildə könüllü şəkildə cəbhəyə yollanıb.

Kerim Otarov cəbhədə olarkən onun vətənini Sovet ordusu qoruya bilməyib. 1942-ci ilin sentyabrında alman orduları Kabarda Malkar Muxtar respublikasını tutsa da, orada çox qala bilməyib, dörd aydan sonra yəni 1943-cü ilin yanvarında bölgəni tərk etməli olub. Alman işğalçılarına qarşı yerli əhalinin müqaviməti də güclü olub. Umumiyyətlə Kabarda Malkardan savaşa qatılanlardan 15 min nəfərinə müxtəlif orden və medallar, 25 nəfərinə isə ən yüksək mükafat Sovet İttifaqı Qəhrəmanı adı verilib. Orden və medallara laiq görülənlər arasında Kerim Otarov da olub.

Savaşda iki qardaşını və bir ayağını itirən gənc şair 1943-cü ildə sinəsində "Qırmızı ulduz" ordeni və bir neçə medalla vətənə dönəndə

xalqının Türküstana sürgün edildiyini görüb. Çətin şərtlər altında sürgünə aparılan qocaların, uşaqların, qadınların, savaşdan yaralı dönənlərin bir qismi yollarda ölüblər. Kerim Otarovun bəxti yenə də üzünə gülüb. Yaralı olmasına baxmayaraq, sağ qalıb və sürgünün çətin şərtlərinə dözüb.

İçində kommunist partiyasına və xüsusən də partiyanın rəhbəri İosif Stalinə böyük inam olduğundan Kerim Otarova elə gəlib ki, xalqına tutulan divandan "Böyük rəhbərin", "Millət atasının" xəbəri olmayıb, Stalinin adına məktublar yazaraq xalqının başına açılan zülümdən söz açıb. O bilmir ki, yazdığı məktublar Sovet siyasətinə qarşı durmaq kimi dəyərləndirilib.

Stalinin ölümündən sonra bir yumşalma dövrü başlayıb. Qırğızıstanın başkəndi Frunze, bugünkü Bişkek şəhərində 1956-cı ildə Kerim Otarovun ana dilində "Yollarda" adlı kitabçası çap olunub.

1957-ci il yanvarın 9-da isə SSRİ Ali Soveti Rəyasətinin fərmanı ilə malkarların 1944-cü ildə ləğv edilmiş muxtariyyatları bərpa olunub və onlara vətənə dönmək hüququ verilib. Kerim

Otarov da minlərlə həmyerlisi kimi fərmandan yararlanaraq vətənə dönüb.

Vətənə döndükdən sonra şair gənclik illərindəki çılğınlıq və ilhamla yaradıclıqla məşgul ola bilməyib. Sürgün illərində yazdığı şeirlərinin bir çoxunu da çap etdirə bilməyib. Zəmanədən narazılıq edən şeirlərini redaksiyalar və nəşriyyatlar yaxın buraxmayıblar. Belə olduqda şair gücünü ana dilini cilalamağa, bədii ifadə vasitələrilə zənginləşdirməyə çalışıb.

Kabarda Malkar Dövlət Universitetinin Filologiya fakültəsinin qiyabi şöbəsinə daxil olub. 1963-cü ildə universiteti uğurla başa vuran Kerim Otarov daha çox rus klassiklərinin əsərlərini ana dilinə çevirməklə və ümumtəhsil məktəbləri üçün ana dilində dərsliklər hazırlamaqla məşğul olub.

Onun 1945-ci ildə yazdığı "Qaraçay qəbirləri", 1947-ci ildə "Soluq bənizli qızcığaz", 1944-cü ildə "Zülm və diləyim", 1948-ci ildə yazdığı "Göy ağlayırdı" və başqa şeirləri xalqının ağrılı-acılı günlərini özündə əks etdirdiyindən daha çox diqqət çəkib.

Kerim Otarov vətənə döndükdən sonra, yəni 1958-ci ildə çap etdirdiyi ilk şeir kitabı "Düşüncələr" adlanıb. Bir il sonra isə şairin

Moskvada rus dilində “Doroqi”(Yollar) şeir kitabı çap olunub.

Kerim Otarov gənc ədəbi nəsilin yetişməsi üçün də əlindən gələni əsirgəməyib. İçində Sovet rejiminə qarşı bir qırıqlıq olsa da, onu gənclərin yanında sərt və acı şəkildə büruzə verməyib. Gəncliyi sabaha ümidli yanaşmağa ruhlandırıb. Bunu 1960-cı ildə Nalçikdə çap etdirdiyi “Doğulduğum yer”, 1964-cü ildə “İllər”, 1967-ci ildə “Dünyanın sabahı”, 1969-cu ildə “Sabah ulduzu”, 1972-ci ildə və sağlığında çıxardığı son kitab olan, “Məzarlar” kitablarına daxil etdiyi şeirlərində də aydın görmək olur.

Kerim Otarovun yaradıcılığının ən mühüm özəlliyi onda idi ki, ədəbiyyata yeni bir üslub gətiməyi bacarmıb. Beləki, Sovet qurucluğu, Sovet gələcəyi, Sovet insanı və s. kimi ideyalardan mümkün qədər qaçaraq öz yaradıcılığında vətən, millət və təbiət sevgisi kimi mövzulara qabarıq şəkildə yer vermib.

Malkar xalqının şair oğlu Kerim Otarov 1973-cü il oktyabrın 13-də dünyasını dəyişib. Uzun illər onun yoxluğu sükutla qarşılanıb. Əsərləri çap olunmayıb. Sovetlər Birliyinin çoküşü başlayanda Kerim Otarovun (Kerim Otaranlı) əsərlərinə də maraq artdb. Şeirlərinin

yenidən nəşrinə, haqqında araşdırmaların aparılmasına başlanıb.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il noyabrın 24-də, saat 12.14-də efirə getmişdir.

UMAR ALIYLANİ



(карач.-балк.Умáр Джашýевич Алúев, əski əlifba ilə عومر علی یئو, rus. Алийланы Джашууну джашы Умар; 1895-1937)

Umar Caşuv ulu Əliyev – Aliylani 1895-ci il avqustun 25-də Rusiya İmperiyası Kuban quberniyasının Kart Curt kəndidində doğulub. Onun adı, ata adı və familyası ərəb əlifbası ilə yazıldıqda ortaya elə bir problem çıxmır. Lakin bu insanın adını və soyadını oxuyub kiril, latın əlifbaları ilə, yaxud rus dilində yazdıqda fərqliliklər meydana çıxır. Buna görə də onun adının Umar, Omar, Ömər kimi, soyadının Əliyev, Aliyev, Aliylani, ata adının isə Caşuv ulu, Çaşuv oğlu, Çaşuvoviç kimi yazılmış şəkillərinə tez-tez rast gəlmək olur. Biz isə onu Azərbaycanda yazıldığı və oxunduğu kimi verəcəyik.

Rusiya işğal etdiyi Qafqazda 30 ilə yaxın müridizm hərəkatına qarşı mübarizə apadıqdan sonra bu yerlərdə öz idarəçiliyini qursa da köhnə qaydaları tam aradan qaldıra bilməyib. Hökumətin açdığı Avropa tipli məktəblərlə yanaşı, keçmiş mollaxanalar, mədrəsələr,

hökumət məhkəmələri ilə yanaşı, şəriət məhkəmələri və s. davam edirib.

Umar Caşuv oğlu ilk təhsilini 1902-1904-cü illərdə Kart Curt kəndidindəki mollaxanada alır. Sonra təhsilini davam etdirmək üçün Malkardakı Köndələn kəndinə gedərək oradakı mədrəsə tipli məktəbdə 1907-1912-ci illərdə oxuyub. Burada Quran oxumaq, İslam elmlərini öyrənməklə yanaşı, ərəb və fars dillərini də öyrənib. İslam dinini daha dərindən öyrənmək arzusuyla yaşayan gənc Umar Dağıstanın Temirhanşura (bugünkü Buynakski) şəhərinə gələrək 1912-1914-cu illərdə burada oxuyub.

Təhsilini Qahirədə davam etdirməyi planlayan Umarin Misirə geməyə, orada təhsilini davam etdirməyə maddi imkanı olmayıb. Bölgədə ona yardım edəcək elə bir imkanlı adam tapılmır.

Gənc Umar istəklərini reallaşdırmaq üçün dövrün gündən-günə inkişaf edən, neft sənayesi mərkəzi kimi tanınan, minlərlə Quzey Qafqazlıya da iş yeri olan, ailəsinə yaşamaq imkanı qazandıran Bakı şəhərinə gəlib. Burada işləyib pul qazandıqdan sonra Qahirəyə getməyi planlayıb.

Umar Əliyev Bakı dəmiryolunda və neft mədənlərində fəhlə işləyib. Dünyagörüşündə dəyişiklik də Bakıda baş verib. Həmin illərdə Bakıda sosialistlərin müxtəlif dərnəkləri fəaliyyət göstərdiyindən, qəzet və jurnalları nəşr olunduğundan azsavadlı, haqsızlıqdan, zülmdən, qanunsuzluqdan cana doymuş gənclər böyük həvəslə sosialistlərə qoşulurdular. Sosialistlərin

monarxiyanı devirmək, insanların dinindən, dilindən, zümrəsindən asılı olmayaraq aralarında bərabərlik yaradacaqları, sosial ədalətə nail olacaqları haqqında söylədikləri fikirlər gənc Umara da çox inandırıcı gəlib. Onlarla bir sırada dünyanı zülmdən, ədalətsizlikdən qurtarmaq istəyiylə mübarizəyə atılıb.

Odur ki, Qahirəyə getmək fikrindən daşınıb. Sosialistlərlə sıx əməkdaşlıq etməklə yanaşı, öz üzərində çalışıb. Dağıstanın inzibati və mədəni mərkəzi olan Teymurxan-şurada imtahana girərək rəsmi dövlət məktəblərində müəllim işləmək hüququ verən diplom alıb. 1915-ci ildə qumuqların yaşadığı Qumtorqala kəndində müəllim işləməyə başlayıb. O, burada uşaqlara dərs deməklə kifayətlənməyib, kəndlilər arasında təbliğat aparıb, onları sosialistlərin mövqeini müdafiə etməyə həvəsləndirib. 1915-1916-cı illərdə Dağıstanda və Azərbaycanda ərəb dili və ədəbiyyatı müəllimi işləyən Umar Əliyev 1916-ci ildə Tiflisə işləməyə gedib. Orada Azərbaycan türkcəsində cap olunan qəzet və jurnallara dağlı xalqların həyatından bəhs edən məqalələr yazıb.

Tiflisdən də Ufa şəhərinə gedən Umar Əliyev oradakı Osmaniyə mədrəsəsində ərəb və türk dillərindən dərs deməklə yanaşı, gizli siyasi fəaliyyət də göstərib. Ufadakı müsəlman müəllimləri birliyinin, sonra Rusiya Müsəlman Müəllimləri Birliyinin sədri, Kazanda tatar türkcəsində çap olunan "Ukutuvcu" (Oxuducu-müəllim) jurnalının baş redaktoru vəzifələrinə yüksəlib.

1917-ci ilin dekabrında rəsmi olaraq Rusiya Kommunist (bolşeviklər) Partiyasına üzv qəbul edilən Umar Aliylani ağqvardiyaçılara qarşı savaşa göndərilib. O, istər bir döyüşçü – komandir kimi, istərsə də əsgəri birliklərdəki türkdilli xalqlar arasında apardığı təbliğatçılığa görə kommunist rəhbərlərinin diqqətini özünə çəkə bilib. Məhz buna görə də dünyada daha çox Stalin kimi tanınan İosif Cuğaşvili onu 1918-ci ildə öz yanına, Rusiya Millətlər Komissarlığında işə gətirib.

Lakin onu mərkəzi aparatda çox saxlamayıb, gah Krıma, gah da Quzey Qafqaza ağqvardiyaçılara qarşı döyüşə göndərib. Umar Aliylani bölşeviklərə o qədər inanıb ki, onların tapşırığı ilə 1918-ci ildə Quzey Qafqazda yaradılmış milli dövlətin devrilməsi üçün də əlindən gələni əsirgəməyib.

1919-cu ilin avqustunda Sovetlərin xüsusi xidmət orqanlarının tapşırığı ilə gizli şəkildə Gürcüstana və Azərbaycana gedib. Orada şəxsi tanışları olmasından istifadə edərək tapşırıqları yerinə yetirib. Rusiyanın güney bölgələrini, Quzey Qafqazı işğal edən Sovet orduları bölgədə hakimiyyətlərini möhkəmlətmək üçün Umar Aliylani kimilərindən məharətlə istifadə edib. Onu yeni yaradılmış Qaraçay İnqilab Komitəsinə sədr təyin ediblər.

1921-1923-cü illərdə inqilab komitəsinin sədri işləyən Umar Əliyevin ictimai-siyasi işlərə başı qarışdığından bədii yaradıcılığa vaxt ayıra

bilməsə də, bu sahədə çalışanları istiqamətləndirib, milli kadrlar hazırlanmasına böyük qayğı göstərib. Rəhbər vəzifədə işləsə də, istədiklərini həyata keçirə bilməyib. Yuxarıların verdiyi əmrlərin çox vaxt xalqının zərərinə olduğunu görüb onları yerinə yetirmir. Buna görə də vəzifəsindən uzaqlaşdırsalar da, başqa vəzifələr veriblər.

Müxtəlif rəhbər vəzifələrdə işləyən Umar Aliylani həmyerliləri Kerim Mametbekov, Nana Tokov, Abdulkerim Xubuyevlə birlikdə 1926-cı ildə Bakıda keçirilən I Türkoloji qurultayda iştirak edib. Bu qurultay sanki onlara fəaliyyət proqramı vermiş, o, harada yaşamasından və hansı vəzifədə işləməsindən asılı olmayaraq həmişə xalqının sabahını düşünüb.

SSRİ-də yaşayan türk xalqları üçün latın qrafikalı vahid əlifbanın yaradılmasında xidmətləri böyük olub. "Birlikdə-tirilik" dərslik-müntəxəbatını, "Qaraçay-balkar dilinin qrammatikası", "Rusca-qaraçay-balkarca sözlük", "Qaraçay-balkarca-rusca sözlük", "Rusca-qaraçay-balkarca terminoloji sözlük" kitablarını nəşr etdirib, dövri mətbuatda da onlarla elmi-publisistik məqaləni çap etdirib.

Azərbaycanla və Azərbaycan aydınları ilə sıx əlaqədə olan qaraçay-malkar ədəbiyyatının inkişafına, dilinin zənginləşməsinə güclü təsiri olan şəxsiyyətlərdən olan Umar Aliylanini tərəfdarlarından ayırmaq üçün Moskvaya rəhbər işə aparıblar. O, istər Qaraçayda, istərsə də Moskvada işləyərkən aldadıldığını başa düşüb. SSRİ-də yaşayan türk-müsəlman xalqlarının

ziyalıları və rəhbər vəzifələrdə işləyənlərlə danışaraq gizli təşkilat qurublar. Onlar SSRİ-dən ayrılmaqla Vahid Türk Tatar Dövləti qurmaq istəyiblər. Bu təşkilatın fəal üzvlərindən biri də Umar Aliylani olub. Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin arxivindəki istintaq materiallarında onun da adı tez-tez çəkilir.

Bəkir Çobanzadənin həbsindən sonra SSRİ-dən ayrılaraq Vahid Türk Tatar dövləti qurmaq istəyən gizli təşkilatın üzvlərinin kütləvi həbsinə başlanıb. 1937-ci ilin iyunun 24-də Umar Əliyev də Moskvada vəzifə başında həbs ediblər. Uzun sürən istintaqdan sonra kommunizm qurmaq adı altında xalqlarını yenidən Rusiya müstəmləkəsinə salmış yüzlərlə insan kimi Umar Əliyev də güllələyiblər.

Uzun illər onun adının çəkilməsi və əsərlərinin oxunması qadağan edilib. Sovetlər Birliyi çökdükdən sonra yenidən Umar Əliyevin (Aliylani) həyat və yaradıcılığının öyrənilməsinə maraq artıb. Adının əbədiləşdirilməsi üçün xeyli iş görülüb.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il iyunun 1-də, saat 12.14-də efirə getmişdir.

ƏLİ ŞAMİL

QARAÇAY-MALKARLAR:

yol qeydləri, məqalələr

Direktor: **Səbuhi Aslan**
Dizayner: **Nigar Sadıqova**
Texniki redaktor: **Hüseyn Məmmədov**

Çapa imzalanmışdır: 17.09.2026
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru